# TİKİNTİNİN İQTİSADİYYATI VƏ MENECMENT
## ELMİ-PRAKTİKİ JURNAL

**№ 4 - 2020**

# ЭКОНОМИКА СТРОИТЕЛЬСТВА И МЕНЕДЖМЕНТ
## НАУЧНО-ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ

**№ 4 - 2020**

# CONSTRUCTION ECONOMYCS AND MENECMENT
## SCIENTIFIC AND PRACTICAL JOURNAL

**№ 4 - 2020**

**B A K I – 2020**

**Baş redaktor:** **Məmmədov Məhəbbət Aşır oğlu** – i.e.d., professor

**Baş redaktorun müavini:** **Əliyev Ələsgər Mehdi oğlu** – i.e.n., dosent

**Məsul katib:** **Ələkbərova Lalə Əziz qızı** – baş müəllim

## REDAKSİYA HEYƏTİ
## /РЕДАКЦИОННЫЙ СОВЕТ/ EDITORIAL BOARD

**Səmədzadə Z.Ə.** – i.e.d., professor, akademik, Azərbaycan Respublikası Milli Məclisinin deputatı
**Əliyev T.A.** – t.e.d., professor, akademik, AMEA-nın müşaviri
**Əliyev F.A.**– f.r.e.d, professor, akademik
**Musayev A.F.** – AMEA-nın müxbir üzvü, AMEA-nın İqtisadiyyat İnstitutunun İqtisadi tədqiqatların riyazi təminatı şöbəsinin müdiri
**Kazımlı X.H.** – i.e.d., Azərbaycan Dövlət İqtisad Universitetinin professoru
**Ahmet Kemal Çələbi** (Türkiyə) – dr., professor, Manisa Cəlal Bayar Universitetinin rektoru
**Novruzov V.T.** – i.e.d., professor, Azərbaycan Resapublikası Auditorlar Palatasının sədri
**Vəliyev V.M.** – i.e.d., professor, Azərbaycan Texniki Universitetinin rektoru
**Musayev M.Q.** – i.e.d., professor, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının Prezidenti
**Əkpərov İ.Q.** (Rusiya) – i.e.d., professor, Rusiya Federasiyası Cənub Universitetinin rektoru
**Hüseynov T.H.** – i.e.d., professor, AMEA-nın İqtisadiyyat İnstitutunun şöbə müdiri
**Xəlilov H.A.** –i.e.d., AzMİU-nin "Biznesin iqtisadiyyatı və menecment" kafedrasının professoru
**İsgəndərov R.K.** – i.e.d., professor,AzTU-nin "Sənayenin iqtisadiyyatı və menecment" kafedrasının müdiri
**Əliyev Ə.B.** – t.e.d., i.e.d., nəqliyyat doktoru, AzMİU-nin "Sənayenin təşkili və idarəedilməsi" kafedrasının professoru
**Mustafa Miynat** (Türkiyə) - dr., professor, Manisa Cəlal Bayar Universitetinin "İşlətmə və iqtisadiyyat" fakültəsinin dekanı
**Əliyev Ş.T.** - i.e.d., prof., Sumqayıt Dövlət Universiteti ''Dünya iqtisadiyyatı və marketinq'' kafedrası
**Səfərov Q.Ə.** – i.e.d., professor, ADNSU-nin "Neft-kimya sənayesinin iqtisadiyyatı və menecment" kafedrasının müdiri
**Əliyev E.Ə.** - i.ü.f.d., əməkdar mühəndis, ADNSU
**Qəribov R.T**. – t.e.n., dosent, AzMİU-nin "Tikinti-iqtisad" fakültəsinin dekanı
**Ağayev A.M.** – i.e.n., dosent, AzMİU-nin "İqtisadi nəzəriyyə və marketinq" kafedrasının müdiri
**Əliyeva R.T. -** i.ü.f.d., dosent, "Sənayenin təşkili və idarə edilməsi" kafedrasının müdiri
**Hacıyev Ə.V.** – i.e.n., dosent, ADİU-nin "Müəssisənin iqtisadiyyatı" kafedrasının müdiri
**Məmmədova G.V.** – AMEA-nın İqtisadiyyat İnstitutu, böyük elmi işçisi
**Pərham H.Ə.** (İran İslam Respublikası) – doktor

**Təsisçi:** **AZƏRBAYCAN MEMARIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınıb. Reyestr №4024**

**İSSN (İnternational Standard Serial Number) – dövri nəşrlər üçün nəzərdə tutulan beynəlxalq standart nömrə - İSSN 2519-2507**

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"nın iqtisad elmləri bölməsinə daxil edilib (04.07.2018-ci il, protokol №11-R)**

***Jurnal Beynalxalq elmi məlumat bazalarına daxildi: Academic Resource Index,*** *InfoBase Index* ***, ResearchBib; Google Scholar, Научная электронная библиотека e-library***

**Redaksiyanın ünvanı:**

Azərbaycan, Bakı şəh., AZ 1073, Ayna Sultanova küçəsi 11,
Azərbaycan Memarlıq və İnşaat Universiteti, tel.: (+99412)538 92 83
daxili – 589, 497-05-13
E-mail:cej@azmiu.edu.az

*Ölkə iqtisadiyyatının sahələri üzrə aparılan tədqiqat işlərinin və alınmış nəticələrin geniş oxucu kütləsinə çatdırılması məqsədilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Elmi Şurasının qərarı ilə "Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnal təsis edilmişdir. Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Mətbuat nəşrlərin reyestrinə 02.12.2015-ci il tarixində 4024 nömrəsilə və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"nın iqtisad elmləri bölməsinə (04.07.2018-ci il, protokol №11-R) daxil edilmişdir."Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnalı ildə 4 dəfə nəşr edilir. Jurnalda azərbaycan, rus və ingilis dillərində məqalələr dərc olunur.*

*Jurnal Universitetin "Biznesin iqtisadiyyatı və menecment" kafedrası tərəfindən hazırlanır və çapa təqdim edilir.*



**“İQTİSADİYYATI GÜCLÜ OLAN DÖVLƏT HƏR ŞEYƏ QADİRDİR”**

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV**



**“Gələcəkdə iqtisadiyyatın daha da şaxələndirilməsi,
iqtisadi islahatların davam etdirilməsi ölkəmizin davamlı inkişafı üçün
əlavə imkanlar yaradacaq və əminəm ki, Azərbaycan qarşıda
gələn illərdə daha da güclü olacaq”**

***İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti***

# AZƏRBAYCAN BEYNƏLXALQ HESABATLARDA:

# NALİYYƏTLƏR VƏ UĞURLAR

Dünya İqtisadi Forumunun açıqladığı "**Qlobal Rəqabət Qabiliyyəti 2017-2018**" hesabatında Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətinə görə 2 pillə irəliləyərək 137 ölkə arasında 35-ci, MDB məkanında isə 2009-cu ildən etibarən birinci yerdədir. Son illərədə Azərbaycanın Dünya İqtisadi Forumunun hazırladığı hesabatlarda nəticələri daimi yaxşılaşır. Belə ki, ölkəmiz "Qlobal rəqabət qabiliyyəti" hesabatları üzrə 34 pillə - 2005-ci ildə 117 iqtisadiyyat arasında 69-cu yerdən 2017-ci ildə 137 iqtisadiyyat arasında 35-ci yerədək irəliləyib. Bu göstəricilər nəticəsində Azərbaycan "G-20"yə üzv olan bir sıra ölkələri geridə qoyub. Belə ki, "Qlobal Rəqabət Qabiliyyəti 2017-2018" hesabatında "G-20"ə üzv olan İndoneziya 36-cı, Rusiya Federasiyası 38-ci, Hindistan 40-cı, İtaliya 43-cü, Meksika 51-ci, Türkiyə 53-cü, Cənubi Afrika Respublikası 61-ci, Braziliya 80-ci, Argentina isə 92-ci yerdədirlər. Qlobal rəqabət indeksinə görə Azərbaycan regionun ən rəqabətqabiliyyətli iqtisadiyyatına malik olan ölkə kimi qonşu ölkələrlə müqayisədə daha yuxarı sıradadır, ancaq hesabatda region ölkələri olan Gürcüstan 67-ci, Ermənistan isə 73-cü yerdə qərarlaşıblar.




**"Qlobal Rəqabətlilik Hesabatı-2018/2019"** hesabatında isə Azərbaycan dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi göstərilib. Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə isə maksimal 100 faiz bal alaraq dünyada ilk pilləyə yüksəlib. Qeyd olunan hesabata əsasən, Azərbaycan dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi reytinqinə görə isə 31-ci yerdə qərarlaşıb.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dövlət proqramları, inkişaf konsepsiyaları,strateji inkişaf planları çərcivəsində həyata keçirilən islahatlar **"Doing Business 2019"** hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekord göstəricilərə nail olmasına, əksər indikatorlar üzrə isə mövqeyinin daha yuxarı səviyyəyə qalxmasını təmin etmişdir.Yəni, ölkəmiz Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının dərc etdiyi **"Doing Business 2019"** hesabatında dünyanın **10 ən islahatçı** dövləti siyahısına daxil edilərək dünyanın **ən çox islahat aparan ölkəsi** elan edilib.

**“Doing Business 2020”** hesabatında isə ölkəmizdə qeyd olunan istiqamətlərdə islahatların davamlı aparılması 78,5 balla qiymətləndirilərək, 191 ölkə arasında Azərbaycan 34-cü pillədən 28-ci pilləyə yüksəlmişdir. Bu mövqedə nail olunmuş irəliləmə nəticəsində ölkəmiz Dünya Bankı tərəfindən yenidən **“dünyanın ən islahatçı 10 ölkəsindən biri”** kimi qiymətləndirilmişdir.







**Baş redaktor** **prof. M.A.Məmmədov**

**UOT 39.71.17.**

**M.A.Məmmədov**
***i.e.d., professor, Azərbaucan Memarlıq və İnşaat Universiteti***
**m.m.asirli@mail.ru**
**X.İ.Qəniyev**
***doktorant, Azərbaucan Memarlıq və İnşaat Universiteti***
**khanlar.ganiyev@azmiu.edu.az**

# MİLLİ İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ ŞƏRAİTİNDƏ İNFRASTRUKTUR TƏMİNATININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Xülasə**

*Məqalədə milli iqtisadiyyatın şaxələndirilməsi şəraitində infrastruktur təminatının praktiki məsələləritədqiq edilmişdir.Burada müəllif dünyada infrastruktur təminatına orta illik investisiya qoyuluşlarını, infrastruktur sahələrinin qarşılıqlı əlaqəsini, ölkədə kommunal obyektlərin istifadəyə verilməsini vəziyyətini və s.məsələləri tədqiq edir. Məqalədə istehsal və kommunal infrastrukturunun fəaliyyətinin tənzimlənməsi, milli iqtisadiyyatın şaxələndirilməsi şəraitində kommunal infrasturkturun müasir inkişaf istiqamətlərinin tədqiqinə kimi xüsusi diqqət yetirmişdir. Məqalənin sonunda tədqiq olunan məsələlər üzrə nəticələr verilmişdir.*

***Açar sözlər**: infrastruktur maliyyələşdirilməsi, investisiyalar, istehsal infrastrukturu, kommunal infrastruktur, şaxələndirmə*

## GİRİŞ

İnfrastrukturun vəziyyəti və inkişaf dinamikası sahələrin cari inkişaf səviyyəsinə, ərazilərin kompleksli inkişaf səviyyəsinə uyğun olmalı və əksər hallarda isə həmin səviyyələri qabaqlamalıdır. Məhz belə bir vəziyyət iqtisadiyyatın rəqabətqabiliyyətli olmasına imkan yaradır.

Belə bir kontekstidə xüsusi olaraq qeyd etmək lazımdır ki, bir sıra ölkələrdə bazar infrastrukturunun inkişaf səviyyəsinin aşağı olması həmin ölkələrin iqtisadiyyatlarının rəqabət qabiliyyətinin yüksəlməsinə manelər yaradır. Nəzərə almaq lazımdır ki, infrastruktur öz mahiyyəti etibarı ilə təkcə istehsalın intensivləşdirilməsi tempinin vacib dəstəklənməsi şərtlərindən biri kimi çıxış etmir, burada olduqca geniş əhatə dairəsində sosial vəzifə və məsələlərin həlli mümkündür. Bütün bunlar isə, öz növbəsində, əhalinin müxtəlif təbəqələrinin çox saylı sosial tələbatlarının daha səmərəli təmin olunmasına imkan yaradır.

İnfrastrukturun kifayət qədər inkişaf etməməsi təsərrüfat subyektlərinin birbaşa və dolayısı yollarla müəyyən itkilərə məruz qalmasına, son nəticədə isə iqtisadiyyatın investisiya cəlbedciliyinin və onun rəqabətqabiliyyəti səviyyəsinin azalmasına səbəb olur.

Hesab edirik ki, milli iqtisadiyyatın uzunmüddətli dayanaqlı inkişafı və iqtisadi artımın təmin olunması üçün infrastrukturun müxtəlif sahələrinə investisiya qoyuluşlarının optimal nisbətləri muəyyənləşdirilməlidir. Burada digər növ və sahələrlə yanaşı istehsal və kommunal infrastrukturlarıda nəzərdə tutulur. Qeyd olunanlar ilə yanaşı nəzərə almaq lazımdır ki, müxtəlif vaxtlarda və inkişaf mərhələlərində bu və ya digər infrastrukturun iqtisadiyyata təsir səviyyəsi dəyişilə bilər. Bu baxımdan dünya təcrübəsinə nəzərdən keçirmək məqsədəmuvafiqdir.

### Dünyada və Azərbaycanda infrastruktur təminatının müqayisəli təhlili.

Fikrimizcə, bütünlükdə infrastrukturun iqtisadiyyata təsiri ilə yanaşı, eyni zamanda nəzərə alınmalıdır ki, infrastrukturun ayrı-ayrı sahələri infrastrukturun qarışıq sahələrinin inkişafına da təsir

göstərə bilər. Məsələn, yoll tikintisi və çəkilişləri ilə bağlı işlər eyni zamanda elektrik ötürücüləri və rabitənin də inkişafı ilə bağlıdır. Bütün bunların bir qədər daha aşkar görünməsi üçün, yəni infrastrukturun ayrı-ayrı sahələrinin bir-birinə qaşılıqlı təsirini daha aşkar müşahidə edilməsi üçün xüsusi cədvəl tərtib edilmişdir. İnfrastruktur ölkənin rəqabətqabiliyyətinə təsir göstərən mühüm amillərdəndir və bu gerçəkliyi dərk edərək dünyanın aparıcı dövlətləri öz milli infrastrukturlarının daha da inkişaf etməsi üçün çox böyük məbləğlərdə investisiya yatırımları həyata keçirirlər və qeyd edilən istiqamətdə müvafiq maliyyə yatırımlarının davam etdirilməsini planlaşdırırlar. İqtisadi Kooperasiya və İnkişaf Təşkilatının məlumatlarına görə (*Organisation for Economic Cooperationand Development* (OECD) 2010-cu ildən 2030-cu ilə qədər olan bir dövrdə bütün dünyada infrastruktur obyektlərinin yaradılması üçün ümumi məsrəflərin həcmi 3.696 milyard dollar, yaxud dünyanın ümumi məhsulunun 2,14%-i həcmində olmalıdır (bax cədvəl 1).

**Cədvəl 1**

**Dünyada infrastruktura gözlənilən orta illik investisiya qoyuluşları**

| İnfrastruktur sahəsi | 2010-2020-ci illərdə investisiyalar, milyard dollarla | Dünyanın ümumi məhsulunda çəkisi % | 2020-2030-cu illərdə investisiyalar, milyard dollarla | Dünyanın ümumi məhsulunda çəkisi % |
|---|---|---|---|---|
| **Avtomobil yolları** | 245 | 0.32 | 292 | 0.29 |
| **Dəmir yolları** | 54 | 0.07 | 58 | 0.06 |
| **Telekommunikasiya** | 646 | 0.85 | 171 | 0.17 |
| **Elektrik enejisi (ötürülməsi və paylanması)** | 180 | 0.24 | 241 | 0.24 |
| **Su təchizatı** | 772 | 1.01 | 1.037 | 1.03 |
| **Cəmi** | 1.897 | 2,49 | 1.799 | 1,79 |

***Mənbə: [1]***

Eyni zamanda, əgər hesablamalara elektrik enerjisinin istehsalı və Yanacaq Energetika Kompleksinin (neft, qaz, kömür) infrastruktur obyektlərinin məsrəfləri də daxil edilsə, həmin göstəricinin çəkisi 3,5%-ə qədər yüksələcəkdir [2].

**Cədvəl 2**

| 1. | | 2. | 3. | 4. |
|---|---|---|---|---|
| 1 | | Elektrik enerjisinin daha səmərəli istifadə edilməsi ilə nail olunur (şəbəkənin məsafəli idarə edilməsi sistemindən istifadə edilməsi ilə) | Nəqliyyatın istifadə edilməsi tezliyi azalır (uzaq məsafədən ünsiyyət hesabına). Nəqliyyat vasitələri parkı daha səmərəli idarə edilir, onların | daha keyfiyyətli suyun tərkibinə nəzarət vasitəsilə (şəbəkənin məsafəli idarəedilməsi sistemi vasitəsi ilə). |

| | | | | |
|---|---|---|---|---|
| | | | təhlükəsiz istismarı səviyyəsi yüksəlir (intellektual idarəetmə sistemindən istifadə olunur) | |
| 2 | Şəbəkənin enerjisi informasiyanın ötürülməsi üçün istifadə edilə bilər (telekommunikasiya şəbəkəsinin əvəz edilməsi). Telekommunikasiya avadanlığının keyfiyyəti sabit və daima mövcud olan elektrik enerjisindən asılıdır. | | Elektirik enerjisi qatarların hərəkəti üçün istifadə edilə bilər (məsafəli idarəetmə vasitəsi ilə nail olunur). İntellektual idarəetmə sistemi vasitəsi ilə nəqliyyat parkının daha səmərəli idarəedilməsinə nail olunur. | Su və kanalizasiya sistemi elektirk enjisi olmadan fəaliyyət göstərə bilməz. HES tikintisi |
| 3 | Naviqasiya sisteminə, mobil rabitəyə. videorabitəyə tələb artır. | Energetika üçün xam malın daşınmasında qatarların istifadəsi (kömür, neft). Dəmir yolları daşınmaları elektirk enerjisinə tələbiartırır | | Yeni yaşayış məskənlərinin salınması suya olan tələbatı artırır. |
| 4 | Su infrastrukturunun inkişafından asılı olaraq rabitə xidmətlərinə tələb artır. | Su infrastrukturunun inkişaf etməsi səviyyəsindən asılı olaraq elektrik enerjisinə tələb artır. Su HES-də istifadə edilir. | Körpü və tunellərin tikintisi ilə bağlı xərclər artır. Su təsərrüfatı infrastrukturunun zəif inkişafı, daşqınlara, nəqliyyat infrastrukturunun ciddi zərər görməsinə səbəb olur. | |

**İnfrastruktur sahələrinin qarşılıqlı əlaqəsi**

1 – тelekommunikasiya; 2 – elektrik enejisinin bölgüsü; 3 –nəqliyyat; 4 – su infrastrukturu

***Mənbə: Cədvəl müəllifflər tərəfindən hazırlanmışdır***

Qeyd etmək lazımdır ki, Azərbaycanda kommunal, energetika, su təsərrüfatı infrastrukturuna ÜDM-in təqribən 0,5%-nə qədər vəsait sərf edilir. Bu göstərici isə, öz növbəsində, inkişaf etməkdə olan ölkələrin səviyyəsinə uyğundur [4, 5].

Belə bir konteksdə qeyd etmək lazımdır ki, 2000-ci ildən başlayaraq Çin hər il ÜDM-in 8-10%-ni, Hindistan 4-6%-ni infrastrukturun inkişafına sərf edir. Eyni zamanda, Azərbaycanda digər ölkələrlə müqayisədə infrastrukturun yaradılması və inkişaf etdirilməsi işlərinin maya dəyəri xeyli yüksəkdir. Hesab edirik ki, infrastruktur sahələrinin genişlənməsi xərcləri hesablanarkən digər sahələrlə qarşılıqlı əlaqələr də nəzərə alınmalıdır. Bütün bunları nəzərə alaraq aşağıdakı cədvəl 2-ni təklif edirik.

Bizim tərəfimizdən təqdim edilən cədvəldən də göründüyü kimi, su və elektrik təchizatı infrastrukturları arasında daha sıx əlaqə görünür. Həmin infrastruktur sahələrinin bərabər inkişaf etdirilməsi üçün adı çəkilən sahələrin ehtiyat imkanlardan daha səmərəli istifadə edilməlidir.

Bu baxımdan istehsal və komunal infrastrukturn tənzimlənməsi prosesi daima səmərəli təşkil olunmalıdır.

**İstehsal və kommunal infrastrukturunun fəaliyyətinin tənzimlənməsi**

Xarici ölkələrin iqtisadçı alimlərin əksəriyyəti infrastrukturla bağlı əsas diqqət yetirdikləri məsələlərdən biri istehsal infrastrukturunun fəaliyyətinin təşkili və tənzimlənməsində dövlətin rolunun gücləndirilməsi ilə bağlıdır. Qərb ölkələrinin mütəxəssisləri dövlətin iqtisadiyyata müdaxiləsinin vacibliyini xüsusi ilə də infrastrukturun inkişaf etdirilməsi zərurəti ilə əlaqələndirirlər, lakin eyni zamanda burada ən səmərəli sektor özəl sektor hesab edilməklə, dövlətin iqtisadiyyata müdaxiləsini, tənzimləyici fəaliyyətinin mütləq dərəcədə konkretləşdirilməsinin vacibliyinə diqqət yönəldirlər. Burada dövlət öhdəliyinə düşən sahələr qismində qanunlara əməl olunması, qayda-qanunların qorunması, bazarın inkişaf etməsinin dəstəklənməsi, rəqabətin inkişafı, davamlı iqtisadi inkişafa təsir edən iqtisadi inkişafın kompleks modelinin formalaşması, qeyri səmərəli məsrəflərin aradan qaldırılması, gəlirlərin bölüşdürülməsi, infrastruktur sahəsində dövlət sahibkarlığının inkişaf etdirilməsi və s. kimi məsələlər xüsusi qeyd edilə bilər. Qərb ölkələrində aparılan araşdırmalarda daha çox diqqət özəl və dövlət xərcləri arasında, həmçinin xüsusi və dövlət kapitalı arasındakı daha optimal nisbətlərə nail olunmasına yetirilir, burada ən önəmlisi isə infrastrukturun dövlət tənzimlənməsinin öhdəsinə düşməsi ən mühüm sahə hesab edilməsidir [6]. İqtisadi ədəbiyyatlarda birmənalı olaraq qeyd edilir ki, cəmiyyətin infrastruktur təminatının yaxşılaşdırılması və inkişaf etməsi ilə bağlı tələbləri durmadan artır, həmin tələblərin mühüm hissəsi ümumi təsərrüfat əhəmiyyətli və sosial-mədəni təyinatlı infrastruktur obyektlərinin yaradılması ilə bağlıdır. Həmin obyektlər bir tərəfdən cəmiyyətin normal yaşaması və fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir, digər tərəfdən isə özəl kapitalın yatırılması üçün də müəyyən maraq yaradır .

İsveç iqtisadçısı Q.Myurdal öz əsərlərində ayrı-ayrı infrastruktur obyektlərinin yaradılmasında, həmçinin istehsal və kommunal infrastruktur kompleksinin yaradılmasında dövlətin fəallığına xüsusi əhəmiyyət verir və qeyd edir ki, dövlət kapitalı nəqliyyat, elektroenergetika və bir sıra digər sahələrdə, əsasən kapitalın çatışmadığı sahələrə yatırılması olduqca vacib məsələdir.

Eyni zamanda Q.Myurdal hesab edirdi ki, dövlət milli təsərrüfatın inkişafında proporsionallığı təmin etməlidir. Çünki bəzi məqsədlərə təkcə bazar qüvvələri vasitəsi ilə nail olmaq qeyri mümkündür; bu məqsədlərə dövlətin səmərəsiz xərclərdən azad olması, həmin kapitalın yatırılması imkanın reallaşdırılması ilə, digər tərəfdən isə xüsusi kapitalın stimullar və digər tədbirlər vasitəsi ilə müəyyən fəaliyyət sferalarına marağının artmasına nail olmaqla mümkündür [8, s.186].

P.Samuelson, A.Pesenti, A.Xrişman, Q.Myurdal və bir sıra digər iqtisadçılar bir məsələdə həmfikirdirlər ki, dövlət xüsusi kapitalın mənfəətli yatırılmasına şərait yaratmalıdır və əlverişli şəraitin yaradılmasına xidmət edən şərtlərdən biri də infrastruktur sahələrinin təkmilləşdirilməsi və inkişaf etdirilməsidir. Müvafiq olaraq dövlətin istehsal infrastrukturunda iştirakının tarixi dinamikasına da diqqət yetirilməsi zərurəti yaranır.

XIX əsrin sonu və XX əsrin əvvəllərində, azad bazar iqtisadiyyatı şəraitində nəqliyyat xidmətləri, qaz və elektrik enerjisi təchizatı və tədarükü ilə özəl şirkətlər məşğul olurdular. Lakin müəyyən vaxt keçdikdən sonra ayrı-ayrı sahələrin inkişafı, müvafiq olaraq xüsusi infrastruktur obyektlərinin tikilməsi zərurəti artdıqca dövlətin həmin sahələrə marağı və rolu artdı. Eyni zamanda ayrı-ayrı fəaliyyət növləri xüsusi fəaliyyət növləri kimi inkişaf etməyə başladı.

Göründüyü kimi butun dövrlərdə bazar iqtisadiyyatı şəraitində infrastruktur təminatı dövlət tənzimlənməsinin mühüm sahələrindən biridir.

Qərbi Avropa ölkələrində istehsal infrastrukturu obyektləri-elektrik stansiyaları, qaz kəmərləri, su təchizatı və kanalizasiya sistemləri, dəmir yolları və avtomobil magistralları, kommunal xidmətlər sahəsinin müəssisələri əhəmiyyətli dərəcədə dövlət mülkiyyətinə daxildir. Bütün bunlar isə müharibədən sonra həyata keçirilən milliləşdirmə tədbirləri ilə bağlı idi.

Daha bir vacib məsələ kimi xüsusi olaraq qeyd etmək lazımdır ki, istehsal və kommunal infrastrukturunun inkişafı və məhsuldar fəaliyyəti onun təkcə təbii, tarixi, sosial və digər resurs və şəraitə adekvat olması ilə bağlı deyildir. İstehsal infrastrukturunun fəaliyyəti onun idarə edilməsi modelinin təhlili ilə bilavasitə bağlıdır. Təhlillərdə əsas məqsəd - istehsal infrastrukturu obyektlərinin fəaliyyətinin tənzimlənməsinin səmərəlilik göstəricilərinin müəyyənləşdirilməsidir. Nəzərə almaq lazımdır ki, istehsal və kommunal infrastrukturunun idarəedilməsi şirkətdaxili idarəetmə prosesində ixtisaslaşdırılmış müstəqil infrastruktur təşkilatı tərəfindən həyata keçirilir. Burada eyni zamanda dövlət tənzimlənməsi də həyata keçirilir, dövlət tənzimlənməsi özünü istehsal və kommunal infrastrukturunun yaradılması və inkişafı məsələlərinin həlli ilə bağlı dövlətin və müəssisələrin qarşılıqlı əlaqəsi kimi özünü büruzə verir. Hesab edirik ki, bu sahədə dövlət tənzimlənməsinin əsas məqsədləri aşağıdakılar olmalıdır:

- istehsal və kommunal infrastrukturunun inkişaf etməsində özəl sektorun iştirak etməsi üçün uğun zəminin yaradılması;
- təsərrüfat subyektlərinin maraqlarının uzlaşdırılması və tənzimlənməsi.

İnfrastrukturun inkişaf etməsindən özəl sektorun qazancı pulsuz və ucuz infrastruktur xidmətlərindən istifadə etmək imkanının əldə etməsidir. Bütün bunlar isə, öz növbəsində, ölkədə biznesin mənfəətli olmasını yüskəldəcək, ölkədə infrastruktur kapitalının yığımına imkan yaradcaqdır. Müvafiq olaraq qeyd etmək lazımdır ki, istehsal və kommunal infrastrukturunda dövlət və özəl sektorları nisbətlərinin yaranması bir tərəfdən dövlət siyasəti, digər tərəfdən isə sahibkarlıq fəallığından asılıdır [8]. Bu kontekstdə istehsal infrastrukturun səmərəli təşkil olunması milli iqtisadiyyatın şaxələndirilmiş inkişafına əlavə təkan verə biləcək.

**Milli iqtisadiyyatın şaxələndirilməsində istehsal infrastrukturunun yeri və rolu**

Milli iqtisadiyyatın formalaşması və inkişafında istehsal infrastrukturunun rolu olduqca böyükdür. Müəssisələrin fəaliyyətlərinin səmərəli nəticələri onların fasiləsiz materiallarla, məhsul tədarükü alətlərlə, enerji, yanacaq, avadanlıqla təchiz olunması və bir sıra yardımçı və xidmət təsərrüfatlarının fəaliyyətindən asılıdır. Bütün yuxarıda qeyd edilənlərin hamısı məcmu halında istehsal infrastrukturunu və eyni zamanda milli istehsala texniki xidmət sahələrini formalaşdırır [9, c. 173].

İstehsalda texniki xidmətin tərkibinə - istehsalın texniki vasitələrlə təmin olunması funksiyası və əmək aləti və vasitələrinin məhsulların istehsalı prosesində hərəkəti daxildir. Həmin funksiyaları yerinə yertirərək, istehsal infrastrukturunun əsas məqsədinə nail olunmasını həyata keçirir, mənfəətin mütləqləşdirilməsi və əsas istehsalın ritminin saxlanılmasını təmin edir.

Milli istehsal infrastrukturuna aşağıdakı sahələr daxildir: tikinti, təmir-quraşdırma, energetika, nəqliyyat, təchizat, satış və anbar təsərrüfatları. Müəssisələrin bu bölmələrinin tərkibi və miqyası əsas istehsalın xüsusiyyəti, tipi, həcmi ilə, daxili və xarici mühitlə onun istehsal əlaqələri ilə müəyyənləşdirilir.

İqtisadiyyatın sahələrində təmir-quraşdırma xidmətlərini həyata keçirən qurumlar əsas istehsalı alət və digər vasitələrlə minimal məsrəflərlə təmin etməli, tələb olunan sazlama və quraşdırma işləri vaxtında aparmalıdır. Bu zaman keyfiyyət göstəricilərinin yüksək səviyyədə təmin olması da əsas vəzifələrdən biridir.

Qeyd olunan strukturların fəaliyyət istiqamətlərinə səmərəli innovasiya texnologiyanın tətbiqi, əmək tutumlu sahələrin, həmçinin istehsal olunan məhsulun keyfiyyətinin yüksəlməsi və onların maya dəyərinin aşağı düşməsi və rəqabət qabiliyyətinin yüksəldilməsinin təmin edilməsi və s. asılıdır.

İqtisadiyyatın istehsal sahələrinin nəqliyyat, təchizat, anbar və s. xidmətləri vaxtında maddi resusrların tədarükünü, saxlanılması və istehsal prosesisndə hərəkətini təşkil etməlidir. Bu xidmət strukturlarının fəaliyyətinin düzgün təşkili, istehsal prosesinin qrafika uyğun aparılması maddi resursların qənaətini və keyfiyyətlə istifadə edilməsini təmin edir.

İqtisadiyyatın istehsal sahələrinin fəaliyyətinin səmərəli təşkil edilməsi təmir-quraşdırma xidmətlərinin texnoloji avadanlıqlarının daimi işlək vəziyyətdə saxlanması ilə sıx bağlıdır. Bu isə öz növbəsində, məhsul istehsalının ahəngdarlığının təmin edilməsində xüsusi əhəmiyyətə malikdir. Həmin xidmət sahələrində avadanlıqların mütəmadi olaraq təmiri və modernləşdirilməsi məqsədli şəkildə həyata keçirilməlidir.

Bunlar ilə yanaşı qeyd etmək lazımdır ki, enerji istehsalına xidmət edən müvafiq qurumlar və xidmətlər istehsal sahələrini yeni enerji növləri ilə təchiz etməli, enerjinin səmərəli istifadəsini təşkil etməlidirlər. Qeyd olunan bu qurumların fəaliyyətindən əmək fəaliyyətinin enerji tutumluluğu, enerjinin istifadə edildiyi mütərəqqi texnoloji proseslərin inkişafı ilə bilavasitə asılıdır. Qeyd etmək lazımdır ki, istehsal infrastrukturu özünün funksional vəzifələrini avadanlıqların istehsalı ilə deyil, onlara xidmətlər göstərməklə yerinə yetirir və bu xidmətlər müəssisələrin əsas istehsal fəaliyyətlərinin təmin edilməsinə yönəldilir.

Bu xidmətlər ilə yanaşı - nəqliyyat, informasiya, kommunal (qaz, elektrik, su təchizatı) və digər infrastruktur xidmətlərini göstərmək olar. Bu xidmətlərin səmərəli göstərilməsi müxtəlif müəssisələrin istehsal-təsərrüfat fəaliyyəti istiqamətində nəzərdə tutulan nəticələrin əldə edilməsinə imkan yaradır. Bu növ xidmətlərin xüsusiyyətləri istehsal və istehlakın yeri və zamanı ilə üst-üstə düşür.

İqtisadi kateqoriya kimi *istehsal infrastrukturunun* mahiyyəti özünü təsərrüfat subyektləri arasında spesifik infrastruktur xidmətlərinin istehsalı və istehlakında büruzə verir, burada məqsəd resursların rasional istifadəsi, maddi istehsalın təmin olunması, milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə nail olunmasıdır.

İstehsal və qeyri-istehsal sahəsində xidmətlər infrastrukturun fəaliyyətinin nəticəsi və proses kimi diqqəti cəlb edir, eyni zamanda həyata keçirilən xidmətlər təkrar istehsal üçün "ümumi şəraiti" yaradır. İnfrastruktur xidmətləri məhsulun spesifik növü kimi də təqdim edilə bilər (onların qeyri əşyavi xarakter alması, toplanmasının qeyri mümkünlüyü, istehlakın fasiləsizliyi və s.).

Ümumiyyətlə xidmətlər müasir dövrdə bazar təsərrüfatçılığı şəraitində maddi istehsal sferasında istehlak olunur. İnfrastruktur xidmətlərinin istehlakı faziləsiz xarakter daşıyır və bu isə onunla əlaqədardır ki, xidmətlər maddi nemətlərin yer dəyişməsini, əmtəə, pul, informasiya və digər resursların axınının bir-birindən bağlılığını təmin edir, bu isə istehsal üçün ümumi şərait yaradır.

Məhz, bu baxımdan qeyd etmək lazımdır ki, istehsal infrastrukturu iqtisadi sistemdə milli təkrar istehsalın bütün fazalarının vəhdətini, onun fasiləsiz fəaliyyət göstərməsini təmin edərək, iqtisadi sistemin mövcud olmasının mühüm və zəruri şərtlərindən biridir. Bütün bunlar isə öz növbəsində ictimai istehsal prosesinin vəhdət halında fəaliyyət göstərməsinə müvafiq şərait yaradır. İctimai istehsalın və onun infrastrukturunun bütün fazalarının sıx qarşılıqlı əlaqələri aşağıdakı sxemdə göstərilmişdir.




**Şəkil 1. Bütün fazalarının vəhdətini təmin edən təkrar istehsal və infrastrukturun qarşılıqlı əlaqəsi**

***Mənbə: müəlliflər tərəfindən tərtib edilib***

Xüsusi olaraq qeyd etmək lazımdır ki, iqtisadi sistemdə istehsal infrastrukturunun rolu və yeri qiymətləndirilərkən onun obyektiv əsasları, amilləri, maddi istehsal sahələrinə və təkrar istehsalın fasiləsizliyinə təsiri xüsusiyyətləri dəyərləndirilməlidir. Kifayət qədər inkişaf etmiş infrastruktur iqtisadi tarazlıq və inkişaf səviyyəsini özündə əks etdirir.

Qeyd etmək lazımdır ki, istehsal və dövriyyə, sənaye, kənd-təsərrüfatı sahələri arasında sıx əlaqə olmalı, ölkənin regionları arasında bir-biri ilə sıx bağlılıq münasibətləri qurulmalıdır.

Aparılan araşdırmalar göstərdi ki, şaxələndirilmiş iqtisadiyyatda infrastrukturun və xüsusən də istehsal infrastrukturunun inkişafının endogen əsaslarının təhlili aşağıdakı qiymətləndirmə parametrlərinə əsaslanır:

- öz vəsaitlərində investisiya qoyuluşlarının həcmi və bu vəsaitlərindən yatırılan investisiyaların kənardan cəlb edilmiş investisiyalara olan nisbətləri;
- bank kreditlərinin müəssisələrin mənfəətlərindən yatırılmış investisiyalara nisbəti;
- müəssisələrin öz vəsaitləri hesabına investisiya qoyuluşlarının regional büdcədən investisiya qoyuluşlarına olan nisbəti və s.

İstehsal infrastrukturunun inkişaf perspektivi üçün ekzogen mənbələrin təhlilinin aparılması üçün investisiya prosesinin uğurla həyata keçirilməsinə faydalı olan xarici investisiya mənbələrinin tədqiqini tələb edir. Bu məqsədlə apardığımız elmi araşdırmalarda xarici ölkələrin milli iqtisadiyyatın istehsal infrastrukturunun inkişafına xidmət edən təşkilati-iqtisadi tədbirlərin həyata keçirilməsi sahəsində təcrübələr nəzərdən keçirilərək tədqiq edilmişdir [10,11].

Qeyd etmək lazımdır ki, araşdırmaların əsasını retrospektiv təhlil təşkil edir, bu zaman müasir institusional dəyişikliklərə səbəb olan təmayüllər tədqiq olmuşdur. Onun reallaşdırılması nəticəsinə görə istehsal infrastrukturunun inkişaf etdirilməsinə xidmət edən bir sıra təşkilati-iqtisadi tədbirlər forması nəzərdən keçirilmişdir. Azərbaycan iqtisadiyyatı üçün məqbul sayılan təşkilati iqtisadi formalar qismində aşağıdakıları xüsusi ilə qeyd etmək olar:

- biznes inkubatorlar;
- investisiya mərkəzləri;
- mikromaliyyələşdirmə mərkəzləri;
- elmi-təhsil fondları;
- regional fondları;

- texnoparklar;
- elmi-innovasiya mərkəzləri;
- layihə - konstruktor büroları və s.

Beləliklə, Azərbaycanda milli iqtisadiyyatın daha da səmərəli və şaxələndirilmiş inkişafı əhəmiyyətli dərəcədə istehsal infrastrukturunun inkişaf etməsinə xidmət edən müxtəlif layihələrin reallaşdırılmasından asılıdır. Həmin layihələrin maliyyələşdirilməsi hə daxili, həm də xarici (beynəllxalq) maliyyə və investisiya mərkəzlərinin vəsaitləri hesabına həyata keçirilə bilər.

Kommunal infrasturkturun müasir inkişaf yolları

Kommunal xidmətlər sektorunun tənzimlənməsində dayanıqlılığın və səmərəliliyin təmin edilməsi "Azərbaycan Respublikasında kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsinin" birinci strateji hədəfidir və 2019-cu ildə müvafiq dövr ərzində bu hədəf çərçivəsində nəzərdə tutulan tədbirlərin 91 faizi icra edilib. Bu strateji hədəf üzrə Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi yaradılıb. Nazirlər Kabinetinin qərarı ilə "Elektroenergetika və qaz təchizatı sahəsində fəaliyyət göstərən paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər arasında qarşılıqlı ödəniş məsələlərinin tənzimlənməsi və daxil olan vəsaitlərdən istifadə qaydası" təsdiq edilib. Buna müvafiq olaraq, elektroenergetika və qaz təchizatı sahəsində fəaliyyət göstərən paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər arasında qarşılıqlı ödənişlərin yeni sxem üzrə avtomatik rejimdə aparılmasına başlanılıb.

Dövlətin kommunal məsələlərə xüsusi diqqəti milli iqtisadiyyatda bu məsələlərin mühüm yer tutmasını göstərir.

İlk növbədə, qeyd etmək lazımdır ki, kommunal infrastrukturun iki əsas əlaməti diqqəti cəlb edir. Birinci əlamət funksional əlamətdir. Bu əlamət mülkiyyətin, infrastruktur obyektinin təyinatı ilə, hansı məqsədlər üçün istifadə edilməsi ilə bağlıdır. İkinci əlamət infrastruktur obyektinin yerləşməsi ilə bağlıdır.

Məlumdur ki, kommunal infrastruktur obyektlərinin fəaliyyəti ölkə əhalisinin həyatında, insanların rahat yaşamasında mühüm rol oynayır. Bu səbəbdən də Azərbaycanda islahatların dərinləşdirilməsi və ölkə iqtisadiyyatının müasirləşdirilməsi şəraitində ölkədə kommunal infrastruktur sahəsinin inkişaf etdirilməsinin metodoloji əsaslarının işlənilib hazırlanması, ölkədə, onun ayrı-ayrı regionlarında və bələdiyyələr səviyyəsində kompleks inkişaf proqramlarının işlənilməsi və reallaşdırılması tələb olunur. Həmin vəzifələrin yerinə yetirilməsi kommunal infrastukturun müasirləşdirilməsi üçün investisiya qoyuluşlarının həyata keçirilməsinə təməl institusional baza yaradır.

Postkeçid dövrü olmasına, çoxsaylı kommunal infrastruktur obyektlərinin ölkədə istisafədəyə verilməsinə baxmayaraq bu sahədə hələ də ciddi tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. Hər şeydən öncə qeyd etmək lazımdır ki, kommunal təsərrüfatda mutamədi olaraq mutərəqqi islahatların aparılması davam etdirilməlidir.

Kommunal infrastrukturda həyata keçirilən islahatların nəticəsi islahatların məqsədlərindən asıldır. Burada bazar yönümlü və qeyri bazar yönümlü və xarakterli islahatlar, islahat təyinatlı tədbirlər həyata keçirilə bilər. Birinci variant bazar münasibətləri şəraitində sosial yönümlü istiqamət hesasb olunur. Bu islahatlar nəticəsində kommunal təsərrüfatın bazar sektoru qeyri bazar sektoruna çevrilir, ödəniş qabiliyyəti olmayan əhalinin kommunal xidmətlərə olan təminat problemi sahənin öz daxilində, daxili imkanlar hesabına təmin olunur. Nəzərə almaq lazımdır ki, bazar münasibətləri şəraitində müəssisənin, kommunal infrastruktur obyektinin kommersiya məqsədləri də var, həmin məqsədlərə də nail olmaq lazımdır. Bu isə innovasiyalı müasirləşdirmə, səmərəlilik və əmək məhsuldarlığı göstəricilərinin yüksəldilməsi ilə mümkündür.

## NƏTİCƏ

Yuxarıda apardığımız təhlil əsasında belə qənaətə gəlmək olar ki, istehsal və kommunal infrastruktur insanların həyat fəaliyyətinin təmin olunması ilə bağlı istehlak xidmətlərinin məcmusu kimi də diqqəti cəlb edir. Kommunal infrastrukturun iki əsas əlaməti diqqəti cəlb edir. Birinci əlaqmət funksional əlamətdir. Bu əlamət mülkiyyətin, infrastruktur obyektinin təyinatı ilə, hansı məqsədlər üçün istifadə edilməsi ilə bağlıdır. İkinci əlamət infrastruktur obyektinin yerləşməsi ilə bağlıdır. Kommunal infrastrukturda həyata keçirilən islahatların iki ssenariləri, optimist və pessimist senariləri diqqəti cəlb edir. Kommunal infrastrukturun idarəetməsində üç əsas səbəblər qrupu diqqəti cəlb edir bazar tənzimlənməsi prinsipi; sosial-tənzimlənmə prinsipi; strateji inkişaf prinsipi. Azərbaycanda son 15-16 il ərzində infrastrukturun müasirləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Eyni zamanda Strateji Yol Xəritəsində kommunal infrastrukturun fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqdar institusional islahatların həyata keçirilməsi ilə bağlı strateji hədəflərin reallaşdırılması mexanizmlərinin təkmilləşdirilməsinə daimi diqqət yetirilməlidir.

Beləliklə, kommunal infrastrukturun aşağı səviyyədə fəaliyyəti və kommunal infrastrukturun keyfiyyətinin yüksəldilməsi problemlərinin həll edilməsi üçün bir sıra tədbirlərin kompleks şəkildə həyata keçirilməsi tələb olunur. Burada mühüm məsələlərdən biri də bu tədbirlərin reallaşdırılmasını növbəli və ardıcıl olaraq həyata keçirilməsidir. Digər dəstək verici tədbirlərin sırasında isə maliyyə yetərəsizliyinin aradan qaldırılması, dövlət dəstəyinin artırılması, bələdiyyə, regional, mərkəzi idarəetmə orqanlarının qarşılıqlı əlaqələrinin səmərəliliyinin yüksəldilməsi, dövlət-özəl tərəfdaşlığının daha da inkişaf etdirilməsi və s. tədbirlər hesab oluna bilər.

### *İstifadə edilmiş ədəbiyyat:*

**1.** Põlajeva T., Kornilov S. Infrastructure development:economic growth effects // Business and Management 2012:the abstracts of 7th International Scientific Conference (May 10-11, 2012). Vilnius, Lithuania, 2010. P. 156

**2.** Infrastructure to 2030. Telecom, land transport, water and electricləri də ity. Organisation for Economic Co-operation and Development, 29.06.2006. P. 48–49., c. 48.

**3.** Məmmədov M.A.Keçid iqtisadiyyatında proqram məqsədli idarəetmə. Bakı, 2008-280 s.

**4.** Azərbaycan respublikası prezidentinin rəsmi saytı https://static.president.az/ media/ W1siZiIsIjIwMTgvMTIvMjIvOHd1NmkxaTUzaV9RQU5VTl9CVURDRV8ucGRmIl1d?sha=ab18e8fc118dff25

**5.** “TREND” İnformasiya və analitika aqentliyi https://www.trend.az/ business/ economy/ 3008719.html

**6.** Высоцкая Т.А., Лубнев Ю.П. Роль и место производственной инфраструктуры в региональном развитии. // Технологии управления. Науч.-практ. журнал. 2010. № 1. с. 160-172.

**7.** Рыбцев В. В. Развитие инфраструктуры как объект государственного регулирования // Молодой ученый. - 2011. - №3. Т.1. - с. 198-201. - URL https://moluch.ru/ archive/ 26/2796/ (дата обращения: 08.02.2019)

**8.** Myrdal G. The political element in the development of economic theory. New Jersey: Transaction Publishers,2012.p.p.358

**9.** Виноградова М.В. Организация и планирование деятельности предприятия сферы сервиса: учеб. пособие/ М.В. Виноградова. - 4-е изд., перераб. и доп.- М.: Дашков и К, 2018.- 464 с.

**10.** Шнипер Р.И. Регион: экономические методы управления. Новосибирск: Наука. Сибирское отделение, 2011. -С. 43

**11.** Vəliyev T.S. İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti, Bakı, Elm, 2000

**М.А.Мамедов**
*д.э.н., профессор, Азербайджанский Архитектурно-строительный Университет*
**Х.И.Ганиев**
*докторант, Азербайджанский Архитектурно-строительный Университет*

**Направления развития инфраструктурного обеспечения национальной экономики в условиях ее диверсификации**

**Резюме**

*Статья посвящена практическим вопросам инфраструктурного обеспечения в условиях диверсификации национальной экономики. Здесь исследуются такие вопросы как финансирование инфраструктуры в мировой практике, процесс сдачи в эксплуатацию коммунальных объектов в нашей стране, взаимосвязь отраслей инфраструктуры и т.д. В статье особое внимание уделяется таким аспектам, как регулирование производственной и коммунальной инфраструктуры, а также определение современных путей развития коммунальной инфраструктуры в условиях диверсификации национальной экономики. В конце статьи приведены результаты исследованной темы.*

***Ключевые слова:*** *финансирование инфраструктуры, инвестиции, производственная инфраструктура, коммунальная инфраструктура, диверсификация*

**M.A.Mammadov**
*doctor of Economics, Professor, Azerbaijan University of Architecture and Construction*
**Kh.I.Ganiyev**
*doctoral candidate, Azerbaijan University of Architecture and Construction*

**Directions of development of infrastructural support of the national economy in the context of its diversification**

**Absrtact**

*The article is devoted to the practical issues of infrastructure support in the context of the diversification of the national economy. It examines such issues as infrastructure financing in world practice, the process of commissioning communal facilities in our country, the relationship of infrastructure industries, etc. The article pays special attention to such aspects as the regulation of industrial and communal infrastructure, as well as the definition of modern ways of developing communal infrastructure in the context of the diversification of the national economy. At the end of the article, the results of the studied topic are presented.*

***Keywords****: infrastructure financing, investments, industrial infrastructure, communal infrastructure, diversification*

**E.Ə.Əliyev**
***i.e.n., əməkdar muhəndis, Azərbaycan Dölət Neft və Sənaye Unversiteti***
**elmancam@gmail.com**
**V.H.Bəkirova**
***i.ü.f.d., "Kapital Bank"***

# RESPUBLİKANIN RƏQABƏTQABİLİYYƏTLİ BAZARLARINDA QİYMƏT STRATEGİYASININ FORMALAŞDIRILMASI METODİKASI

**Xülasə**

*90-cı illərin ortalarında başlayan Azərbaycan iqtisadiyyatında islahatlar prosesi bu gün də davam edir - müəyyən nəticələr əldə edilir, xalq təsərrüfatının yeni təməl və prinsipləri qurulur. İslahatın əsas məqsədi Azərbaycanda tam rəqabətqabiliyyətli bazarını yaradılmasıdır. Başverən və hələ də həyata keçirilməli olan dəyişikliklər, qiymətlər sistemindəki dəyişiklik də daxil olmaqla xalq təsərrüfatının idarə edilməsində əsaslı bir dəyişiklik baş verməmişdir: xərçlərə əsaslanan yanaşmadan bazara əsaslanan qiymətlərə kecid isiqamətində . Odur ki, yeni bazar şəraitində, qiymətlərlə bağlı qərar qəbul etmək üçün metodoloji əsasların öyrənilməsi və Azərbaycan üçün qiymətqoyma strategiyasının formalaşdırılması istər istifadə olunan metodların təhlili baxımından, istərsə də müasir şərtlərə cavab verən yenilərinin hazırlanmasında xüsusi aktuallıq qazanır.*

***Acar sözlər***: *qiymət, qiymətqoyma, dövlət tərəfindən tənzimləmə, infilyasiya, bazar iqtisadiyyatı, rəqabət*

Xarici elmi ədəbiyyatda formalaşdırılmış qiymətqoyma strategiyasının modelləri və metodları Azərbaycan iqtisadiyyatına və milli iqtisadiyyatın idarəetmə sisteminə birin birə tətbiqi mümkun düyil. İnkişaf etmiş ölkələrin təcrübəsini oyrənərək, onun əsasında milli mexanizmi ve metodları yaratmaq lazımdır. Bu mexanizmdə respublikada bazar iqtisadiyyatı şəraitində azad sahibkarlıq və azad tiçarət prinsipi hököm sürməlidi. Yəni, prinsipçə hər bir şəxs (fiziki və hüquqi) qanunla qadagan edilməmiş istehsal və ya kommersiya fəaliyyətinin istənilən növü ilə məşgul ola bilər. Bu prinsipdən ölkənin iqtisadi həyatının daha vaçib bir prinsipi-əmtəə və xidmətlərin qiymətlərinin formalaşmasında azadlıq prinsipini dogur. Qiymətqoymanın əsasını dəyər qanunun təşkil etməsinə baxmayaraq, onlara müxtəlif xarakterli ölkədaxili və xariçi amillər təsir göstərir. Bazar iqtisadiyyatında qiymətlərin azad təyin edilməsi prinsipinin fəaliyyət gostərməsinə baxmayaraq ona təsir edən amillərdən qorumaq ücün dövlət iqtisadi həyatın vaçib sahələrinə tənzimləyiçi müdaxilə etməlidir (inkişaf etmiş kapitalist dövlətlərində də bu prinsip fəaliyyət göstərir). Bu məqsədlə dövlət özünün inzibati-hüquqi mexanizmini yaratmalı və bu mexanizmin köməyi ilə müəyyən şəraitdə və müəyyən formada ölkə daxilində qiymətqoyma prosesinə oz təsirini göstərməlidir.

Birincisi, qiymət dövlətimizin mövcud iqtisadiyyatında xüsusi əhəmiyyət qazanan əhalinin sosial-iqtisadi problemlərinin həllinə və ölkənin maliyyə sisteminin gücləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərən ən vacib iqtisadi kateqoriyadır.

İkincisi, qiymətlər şirkətin fəaliyyətinin digər aspektlərindən yaxından asılıdır; əldə olunan kommersiya nəticələri əsasən qiymət səviyyəsindən asılıdır, yəni səhv və ya düzgün qiymət siyasəti şirkətin bütün fəaliyyətinə çox şaxəli təsir göstərir.

Üçüncüsü, müasir iqtisadi elmdə iqtisadi nəzəriyyə, marketinq və digər iqtisadi biliklər çərçivəsində qiymətlər,qiymətqoymada müxtəlif cəhətlərdə nəzərdən keçirilir.

Ancaq eyni zamanda qiymətlər qiymətqoymada, hərəkət qaydaları və istifadəsini öyrənən müstəqil bir elmdir. Əgər bu mexanizmlə dövlət orqanları azad rəqabəti məhdudlaşdırarsa, onda hökumət bütün istehsalcılar ücün eyni şərait yaratmalıdır. Dövlət tərəfindən xalq təsərrüfatının bütün sahələrində qiymətlərin sabitləşdirməsinə təsir göstərmək üçün əsasən kənd təsərrüfatı məhsullarının qiymətlərini birbaşa tənzimləməli və ya ona nəzarət müəyyən mexanizmlə həyata kecirməlidir.

Azərbaycanda bir çox sənaye müəssisəsinin təcrübəsi göstərir ki, qiymətqoma strategiyası və onun siyasəti kifayət qədər təsirli deyil, sonuncu öz xərclərini ödəmək və müəyyən bir planlı mənfəət əldə etmək üçün calışır. Belə siyasət, xüsusən də geniş miqyaslı özəl istehsal şəraitində həm müəssisələrin uzunmüddətli maraqlarına, həm də bütövlükdə milli iqtisadiyyatın maraqlarına cavab vermir. Bu qiymət yanaşması bəzi bazarlarda bahalaşmaya, bəzilərində isə aşağı qiymətə səbəb olur.

Qiymətin tənzimlənməsi- inflyasiyanın aradan qaldırılması üçün ən vacib şərtlərdən biridir. Müəyyən tədbirlər kompleksinin köməyi ilə struktur dəyişikliklərinin sürətlənməsi iqtisadiyyatda artıq tələb ocaqlarının aradan qaldırılmasına kömək edir və eyni zamanda inflyasiya gözləntilərini azaldır.

Hazırda bütün inkişaf etmiş kapitalist ölkələrində kənd təsərrüfatı məhsullarının qiymətləri dövlət tərəfindən tənzimlənir və buna uygun olaraq, dolayı yolla, ərzaq məhsullarının pərakəndə satış qiymətləri də tənzimlənir.

Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı xalq təsərrüfatının ən böyuk əmək tutumlu və vaçib sahələrindən biridir. Bu sahədə qiymətlərin tənzimlənməsi kənd təsərrüfatında gəlir səviyyəsinin tənzimlənməsi ilə sıx surətdə baglı olmasının məqsədi fermer təsərrüfatının gəliri ilə burada calışan əməkçilərin gəlirləri arasında təxmini uygunlugu yaratmaqdı.

Kənd təsərrüfatı məhsullarının qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi aşagıdakı əsas formalarla həyata kecirməlidir:

**1.** İstehsal olunmuş məhsulun dövlətə satılan hissəsinə satınalma qiymətləri təyin olunmalıdır.

**2.** İstehsal vasitələri və kənd təsərrüfatı məhsullarının bazar qiymətləri dinamikası və bu qiymətlər arasındakı nisbətə nəzarət.

**3.** Kənd təsərrüfatında istehsal məsrəflərinin dinamikasına nəzarət.

**4.** Dövlət satınalma təşkilatları kənd təsərrüfatı məhsullarını hüquqi və fiziki şəxslərdən təyın edilmiş satınalma qiymətləri ilə almalıdırlar.

**5.** Kənd təsərrufatında gəlir və yıgımın formalaşması qiymətlər sistemi vasitəsilə idarə edilir.

**6.** Bazar qiymətlərinin səviyyəsinə bir sıra köməkci amillərlə təsir edilməlidir.

**7.** İxraç (idxal) qiymətlərinə əlavələr.

Kənd təsərrufatında tətbiq olunan qiymətlərin səviyyəsi təsərrüfatlara geniş təkrar istehsala nail olmaga və eləçə də müəyyən gəlir və yıgım əldə etməyə imkan verməlidir ki, onlar istehsal vasitələri istehsalçısından asılı vəziyyətə düşməsin.

Təsərrüfatların gəlirini müəyyən səviyyədə saxlamaq üçün məqsədli sərbəst qiymətlərdən də istifadə etmək lazımdır.

Satinalma qiymətlərindən bazar qiymətlərini tənzimləmək üçün bir alət kimi, məqsədli sərbəst qiymətlərdən isə təsərrüfatların gəlirlərini tənzimləmək üçün başlıça vasitə kimi istifadə etmək lazımdır. Məqsədlı sərbəst qiymətin əsas funksiyası təsərrüfatların gəlirinin səviyyəsini müəyyən həddə saxlamaq və onun aşagı səviyyəsini müəyyən etməkdən ibarətdir. Bu qiymətlə satınalma qiymətinin fərqi isə dövlət tərəfindən dövlətə verilmiş məhsula görə kompensasiya həllini müəyyən etməyə imkan verəçəkdir.

Kənd təsərrüfatina verilən kompensasiya məqsədli xarakter daşımalıdır. Kompensasiya dedikdə bank tərəfindən təsərrüfatlara verilən kreditin faizini nəzərdə tutmaq lazımdır. Yəni təsərrufatlar dövlətə

verdiyi məhsulun müqabilində bank krediti faizindən azad edilir. Həmin məbləg isə dediyimiz kimi sərbəst qiymətlə satınalma qiyməti arasındakı fərq kimi başa düşülməlidir.

Bizdə belə bir sual yaranır,nəyə görə hökumət tərəfindən bir necə dəfə qəbul edilmiş qərarlara baxmayaraq ərzaq problemi həll edilmir, əksinə daha da kəskinləşir.

Bu suala çavab vermək ücün əsas ərzaq məhsulları olan bugda, ət və südün əvvəlki satınalma qiymətlərinə baxaq. Təhlil göstərir ki, taxıl və xüsusilə bugda həmişə yüksək qiymətləndirilib (çədvəl 1)

**Çədvəl 1**

**Əsas növ kənd təsərrüfatı məhsullarının qiymət nisbəti**

| | 1913 | 1926/27 | 2019 |
|---|---|---|---|
| Bugda | 1,0 | 1.0 | 1,0 |
| Sud | 0,78 | 0,69 | 2,4 |
| İri buynuzlu malqaranın diri cıkisi,ət | 3,5 | 3,9 | 15,0 |
| Donuz əti | 4,4 | 6,6 | 16,5 |

Çar Rusiyasi dövründə və SSRİ-nin ilk illərində,yəni 1913 və 1926-çı illərdə 1 kq bugdanın qiyməti 1 kq südün qiymətinədən yuxarı idi. Buna görə də kəndlının taxıl əkməyə maragı var idi ki, bu da heyvandarlıgın yem bazasını inkişaf etdirməyə əsas verirdi.

Bu dövrlərdə Car Russiyasi və SSRİ özünü taxılla təmin edirdi və bu məhsulların ixraçı uzrə dünya bazarında mühüm yer tuturdu. Sonralar isə taxılın qiymətinin aşagı düşməsi vəziyyətin dəyişməsinə səbəb oldu. Məsələn, 1913-çü ildə iri buynuzlu mal qaranın diri cəkidə qiyməti taxıla görə 3,5, 1926-çı ildə-3,9 kq nəzərdə tutulurdusa, 2019-cu ildə isə Azərbaycan 15,04 kq-a bərabərləşdi.

Bu şəraitdə kənd təsərrüfatında taxıl istehsalı azaldı və nətiçədə bu məhsul üzrə qıtlıgın meydana gəlməsinə səbəb oldu. Dövlət bu məhsulun idxal olunması məçburiyyətində qaldı. Nəzərə almaq lazımdır ki, bu müddətdə taxıl problemini idarəcilik metodu ilə həll etməyə bir necə dəfə çəhdlər göstərildi, ançaq nətiçədə hec nə dəyişmədi.

Nəticədə, taxıl heyvandarlıq üçün yem bazası oldugu üçün ətin və süd məhsullarının azalmasına və heyvandarlıgın inkişafına öz təsirini göstərır.

Bu gun 1 kq südün qiyməti 2-3 kq bugdaya və 1 kq iri buynuzlu mal qaranın əti isə 15 kq bugdaya bərabərdir. Nətiçədə cörək məhsullarının catışmamazlıgına səbəb olur ki, bu da xaricdən taxıl məhsullarının alınmasını məçburi edir. Beləçə də taxılın aşagı qiyməti cörəyin pərakəndə satış qiymətinin aşagı olmasına səbəb olur ki, bu da istehsalı artan təsərrufatlar çörəyi heyvanların yedizdirilməsi üçün yem bazasına cevirirlər. Bu gün cörəyin təqribən hər 8-9 kq heyvanlara yem kimi istifadə olunur ki, bu da onsuzda catışmayan qıtlıga səbəb olur.

Bu şəraitdə bir cox kənd təsərrufatı məhsullarının qiymət nisbətinə və bununla bərabər ərzaq və yem bazası kimi taxıla da bizim münasibətimiz dəyişməlidir. Yem bazası kimi istifadə olunan cörəyin əvəzinə taxılın istehsalının inkişafı üçün mühüm iqtisadi əsas yaratmalıyıq.

Nəzərə almaq lazımdır ki, kəndli cörəyı milli sərvət və ən əsas ərzaq məhsulu saymışdır. Bunu öz problərini həll etmiş inkişaf etmiş Avropa ölkələrinin təçrübəsindən görmək olar (çədvəl 3).

**Cədvəl 2**

**Yumşaq bugda və heyvandarlıq məhsullarının faktiki satış qiymətləri arasındakı nisbət.**
(bugda = 1)

| | Sud | İri buynuzlu malqaranın əti (diri cəkidə) | Donuz əti (diricəkidə) |
|---|---|---|---|
| Almaniya | 1,4 | 6.5 | 7,4 |
| Hollandiya | 1,4 | 6,5 | 7,9 |
| Böyük Britaniya | 1,3 | 7,0 | 8,3 |
| Belcika | 1,2 | 7,4 | 9,6 |
| İtalya | 1,5 | 6,5 | 8,8 |
| Azərbaycan | 2,1 | 15,0 | 16,1 |

Görundüyü kimi bu ölkələrdə bugdanı (ümumiyyətlə taxıli) ətə və südə nisbətən bizdəkindən 2,0-2,5 dəfə cox qiymətləndirirlər. Ona görə də bu dövlətlərdə kəndlinin taxıl əkməyə maragı artır. Taxıl istehsalında kəndlinin iqtisadi maragının artırılması əhalini cörək və cörək məmulatları ilə təmin etməyə, heyvan və quşlar üçün isə yem bazasını yaratmaga imkan verir.Ona görə də bizə xariçi dövlətlərin və eləçə də kecmiş illərin təçrübədən istifadə etmək məqsədə müvafiqdir.

Satınalma qiymətləri arasında proporsiyaların pozulması kənd təsərrüfatının bir cox məhsullarının istehsal strukturunun pozulmasına səbəb olmuşdur ki, bu da nətiçədə kənd təsərrüfatı məhsullarının qiyməti ilə sənaye sahələrinin digər məhsullarının qiymətləri arasında nisbətin pozulmasına gətirib cıxarır.

**Cədvəl 3**

**Dəyərin ekvivalentliyi. 2019 il**

| | Taxıl Kq | Süd litr | İri buynuzlu mal qaranin əti (diri Cəkidə), kq | Donuz əti (diri cəkidə), kq |
|---|---|---|---|---|
| Qadın cəkməsi, 1 çüt | 231 | 113 | 15,9 | 14,4 |
| Kişi paltosu | 495 | 242 | 34,2 | 30,9 |
| Kişi kostyumu | 429 | 209,7 | 29,6 | 26,7 |
| Kişi ayaqqabısı | 165 | 80,6 | 11,4 | 10,3 |

2019-çu ildə kəndli bir çüt qadın cəkməsi almaq üçün dövlətə orta hesabla 231 kq taxıl və ya 113 kq süd və ya 15,9 kq ət satmalı idi. Kişi paltosu almaq üçün isə kəndli bu məhsullardan təqribən 2 dəfə cox satmalıdır ki,alsın. Nəzərə almaq lazımdır ki, hazirki dövrdə isə bu məhsullar dövlət tiçarətində yox dərəçəsində olmasını nəzərə alsaq, onda nə qədər lazımdır?

Əgər kənd əhalisinin həmin mallara cıxış imkanı əmsalını şəhər əhalisi ilə müqayisədə 0,8-0,85 bərabər olmasını nəzərə alsaq, həmin qadın cəkməsi üçün kəndli 1,3 t taxıl əvəzinə 1,5-1,6 t taxıl satmalıdır.

Gətirilmiş göstəriçilər göstərir ki, kəndlinin əməyinin aşagı qiymətləndirilməsini və ərzaq məhsullarının qiymət proporsiyasının düzgün olmayaraq təyin olunması kənd təsərrüfatının və yeyinti sənayesinin inkişafına imkan yaratmır.

**Cədvəl 4**

**Almaniya dövlətinin timsalında dünya təçrübəsi**

| | 2015-çi il | | | |
|---|---|---|---|---|
| | Bugda, 1 kq | Süd, 1lt | Mal əti, 1kq | Donuz əti, 1 kq |
| Qadin ayaqqabısı | 110 | 113 | 7,9 | 15,1 |
| Kişi paltosu | 189 | 193.5 | 13,5 | 25,9 |
| Kişi kostyumu | 272 | 278,3 | 19,5 | 37,2 |
| Kişi ayaqqabısı | 120 | 123 | 8,6 | 16,4 |

Çədvəl 3-ü çədvəl 4 ilə müqayisə etdikdə nətiçəsini aydın təsəvvüp etmək olur. Yəni, 2019-çu ildə bir çüt qadın ayaqqabısı almaq üçün bizdə 231 kq taxıl və ya 113 kq süd və ya 15,9 kq mal əti və ya 14,4 kq donuz əti satmalıdır. Almaniyada isə həmin dövrdə bir qadın ayaqqabısı almaq üçün kəndliyə müvafiq olaraq 110;113;7,9;15,1 kq satmalıdır.

Kənd təsərrüfatı məhsullarını təhlil edərkən gormək olur ki,respublikaya 2017-ci ildə 1,2 mln. ton və 227 mln. ABŞ dol. həçmində taxil idxal olunmuşdur. Respublikanın istehsal xüsusiyyətlərini nəzərə almaqla qiymətlər arasında nisbəti düzgün müəyyənləşdirmək lazımdır. Qiymət nisbətinin düzgün təyin edilməsi kənd təsərrüfatı məhsullarının tələb və təklifdən aslı olaraq inkişaf istiqamətlərini müəyyənləşdirir. Dünya və kecmiş ittifaqın təçrübəsini nəzərə alaraq təklif edirik ki, kənd təsərrüfatında təstiq olunan qiymətlər təyin olunarkən bugdanın qiymət əmsalı vahidə bərabər qəbul edilməli və buna uygun olaraq süd 1,4; iri buynuzlu heyvanın əti (diri cəkidə) 6,5; pambiq 5,3; kartof 1,04; üzüm 3,7; cay 10,9; və s. əmsallarla qiymətləndirilməlidir. Məsələn,1 tn bugdaya 500 manat qiymət təyin olunarsa, onda südün 1tn üçün 700 manat (500x 1,4), ət – 3250 manat, pambıq- 2350, kartof- 520 manat, üzüm 1850 manat, cay isə 5450 manat təyin olunmalıdır.

Qiymət və gəlirlərin tənzimlənməsi sistemində vaçib yerlərdən birini təsərrüfatların istehsal məsrəflərinin dinamikasına nəzarət olmalıdır. Bu məqsədlə istehsal məsrəflərinin sahə hesabat sistemi işlənib hazırlanmalıdır. Hər il Kənd Təsərrüfatı nazirliyi hər bir məhsulun, sahənin ( məsələn, südcülük təsərrüfatı, qoyunculuq,pambıqcılıq və s.) və ya bir istehsal sisteminin (məsələn, iribuynuzlu mal-qaranın yetişdirilməsi, onun kökəldilməsi, dənli bitkilərin yetişdirilməsi və emalı və s.) istehsal məsrəfləri üzrə ətraflı analitik hesabatlar tərtib etməklə bu hesabatlar əsasında qiymətlərin və məhsuldarlıgın dəyişilməsini nəzərə almaqla hər il sahə balansı tərtib edilməlidir. Sahələr və məhsullar üzrə tərtib edilmiş balanslarda aşagıdakı göstəriçilər öz əksini tapmalıdır: əsas və köməkci məhsulların satışından alınan gəlirlər, pul məsrəfləri və iqtisadi məsrəflər ( bura bütün istehsal məsrəfləri, vergilər, sıgorta ödəmələri, öz inkişafına yönəldilmiş məbləglər aid olmalıdır). Hesabatın məqsədi qiymətlərin nə dərəçədə məsrəfləri, ödəniş və ayrımaları ödəmələrini müəyyən etməkdən ibarətdir. Başqa sözlə desək, məqsəd bazar qiymətlərinin, birbaşa hökumət ayırmaları ilə birlikdə, kənd təsərrüfatı məhsulları istehsalı üçün təsərrüfatların cəkdiyi bütün xərçləri ödəyib- ödəmədiyini aydınlaşdırmaq olsun.

İstehsal məsrəfləri qiymətin struktur quruluşunun əsasını təşkil etdiyi üçün onun ucotunun aparılmasını dəqiqləşdirilmiş metod ilə aparılmalidir. Bu metod elə qurulmalıdır ki, o beynalxalq ucot sisteminə uygun olsun və onun tərtib edilməsi sadələşdirilsin. Ona görə də istehsal məsrəflərini iki qrupa ayırmaq lazımdır: birbaşa və dolayı xərçlər.

Kənd Təsərrüfatı Nazirliyində qiymətlərə nəzarət və onların dinamikasinin təhlilində məhsul satışında istifadə olunan qiymətlərlə kənd təsərrufatı üçün alınmış istehsal vasitələrinin qiymət nisbətinin aylıq və illik ucotu aparılmalıdır. Təhlil üçün toplanmış materiallar əsasında aşagıdakılar təqdim olunur:

**1.** satış qiymətləri;

**2.** təsərrüfatların satışı ucun paritet qiymətlər(indeksi);

**3.** əmək haqqı,içarə haqqı da daxil olmaqla istehsal vasitələrinin və xidmətlərin qiymətləri;

**4.** istehsal pridmetlərinin, istehsal vasitələrinin və xidmətlərin paritet nisbəti;

**5.** paritet nisbəti.

Təsərrüfatların məçmu məsrəflərinin dinamikasını aşkar ermək üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən paritet indeks hesablanır. O, kənd təsərrüfatının məçmu məsrəflərində uygun məsrəf payları olan dörd indeks əsasında əmələ gəlməlidir:

- təsərrüfatlar tərəfindən alınan bütün məhsulların qiymət indeksi;
- təsərrüfatların məhsul vahidinə və ya 1ha hesabı ilə verdiyi kredit faizinin indeksi;
- təsərrüfatların verdiyi vergi indeksi;
- kənd təsərrüfatı işcilərinin əmək haqqı indeksi.

Paritet indeksdən paritet satış qiymətlərinin və paritet nisbətlərin hesablanmasında istifadə edilməlidir.ABŞ-da paritet qiymətlər ölkə üzrə 160 adda kənd təsərrüfatı məhsulları üzrə təyin edilir və onun səviyyəsi 1910-1914-çü illər dövründəki alıçılıq qabiliyyətinə olan nisbətə gorə hesablanır.Kənd təsərrüfatinda formalaşmış qiymətləri sabitləşdirmək üçün xalq təsərrüfatının digər sahələrindən qorumaq lazımdır. Ona görə də xalq təsərrüfatının digər sahələrində qiymətləri formalaşdırarkən kənd təssərufatına təsirini nəzərə almaq lazımdır.

Xalq təsərrüfatının digər ən vaçib sahələrindən biri olan hasilat sənaye sahəsidir. Hasilat sənaye sahələrində qiymətlər dövlət tərəfindən neft məhsullarına təyin olunur. Həmin sahə daxili məhsulların qiyməti isə son məhsulların qiymətinə müvafiq olaraq təstiq olunmuş indekslərə əsasən neft şirkəti tərəfindən müstəqil olaraq müəyyən edilməlidir.

Nəzərə almaq lazımdır ki, hasilat sənaye sahəsi əmək və fondtutumlu sahələrdən biridir. Respublikanın hasilat sənaye sahəsində əsasən neft və qaz istehsal olunur. Həmin məhsulların qiyməti kənd təsərrüfatı məhsullarının qiymətinə olan nisbətlə müəyyən olunmaqla bərabər, istehsal xərçlərini ödəməklə geniş təkrar istehsala şərait yaratmalıdır.

Hasilat sənaye sahılırində qiymətlər dövlət tərəfindən aşagıdakı əsas formada həyata kecirilməlidir:

**1.** Daxili bazatda satılan neft məhsullarının qiyməti dövlət tərəfindən tənzimlənməlidir;

**2.** İstehsal vasitələri neft(qaz) məhsullarının bazar qiymətləri dinamikası və bu qiymətlər arasındakı nisbətə nəzarət edilməlidir;

**3.** Neft şirkətinin istehsal məsrəflərinin dinamikasına nəzarət edilməlidir;

**4.** Neft şirkətində gəlir və yıgımın formalaşması prosesi qiymət vasitəsi ilə idarə edilməlidir;

**5.** Neft məhsullarının qiyməti ixraç malları hesabına alınmış gəlirlə tənzimlənməlidir;

**6.** İxraş (idxal) qiymətlərinə əlavələr.

Neft məhsullarından biri olan avtomobil benzininə ən geniş tələbat olan məhsuldur. Bizim hesablamalarımıza görə orta hesabla həmin benzinə təyin olunan qiymətin bugdaya nisbəti 1,58 nisbət təşkil etməlidir. Həmin qiymət kənd təsərrüfatında qiymətlər formalaşan zaman nəzərə alınmalıdır. Avtomobil benzinnin qiyməti nisbətində isə digər neft məhsullarının qiyməti formalaşmalıdır.

Neft sənaye sahəsində qiymətlərin və gəlirlərin tənzimlənməsində istehsal məsrəflərinin dinamikası mühüm yer tutur. Bu məqsədlə neft şirkəti üzrə sahə hesabat sistemi işlənib hazirlanmalıdır. Hər il şirkət onun nəzdində olan birliklər və idarələr neft məhsullarının istehsal prosesinə uygun olaraq ətraflı analitik hesabatlar tərtib edərək qiymətlərin nə dərəçədə məsrəfləri, ödəmələri və ayırmaları ödəməsini araşdırmalıdır. Eyni zamanda şirkətdə istifadə olunan qiymətlərlə alınan istehsal vasitələrinin qiymət nisbətinin aylıq və illik ucotu aparılmalıdır. Toplanmış materiallar əsasında (kənd təsərrüfatında oldugu kimi) paritet indekslər hesablanır.

Xalq təsərrüfatının əsas sahələrindən biri olan maşınqayırmada isə tələb və təklif arasındakı nisbəti nəzərə almaqla ümumi indeksə uygun olaraq qiymətin minimum və maksimum həddi hazırlanmalıdır. Minimum qiymətlər bazis qiymət adlandirmaqla məhsulun standart kəmiyyət və keyfiyyət göstəricilərinə əsasən müəyyən edilməlidir.Minumum qiymətin səviyyəsini təyin edən zaman ,həmin sahənin xalq təsərrüfatının digər sahələrindəki qiymətlərə olan təsiri və rolu nəzərə alınmalıdır.Digər tərəfdən həmin qiymətlər bu sahənin istehsal məsrəflərini və geniş təkrar istehsala nail olmasına şərait yaratmalıdır. Tətbiq edilmiş qiymətlərdə nəzərdə tutulmuş məsrəf və mənfəətin səviyyəsinin və onların qiymətindəki xüsusi çəkisini eyni səviyyədə saxlamaq üçün maşınqayırma komrleksində istehsal məsrəfinin dinamikasına nəzarət edilməlidir. Bu məqsədlə istehsal məsrəflərinin sahə hesabat sistemi hazırlanmalıdır. Hazırda fəaliyyət gostərən maşınqayırma müəssisələri tərəfindən hər il hərbir məhsulun və ya istehsal sahəsinin istehsal məsrəfləri üzrə ətraflı analıtik hesabatlar hazırlanmalıdır. Bu hesabatlar əsasında sahə balansı tərtib etməklə özündə aşagidakıları əks etdirməlidir:

- əsas və köməkci məhsulların satışından alınan gəlirlər;
- pul məsrəfləri;
- iqtisadi məsrəflər.

Maşınqayırma kompleksində alınmış xammal və materialların və yarımfabrikatların dəyərinin hazır məhsulun qiymətindəki rolunu nəzərə alaraq toplanmış balanslar əsasında istehsal olunmuş məhsulun qiyməti ilə alınmış materialların qiyməti arasındakı nisbəti araşdırmaq üçün aylıq və illik ucot aparılmalıdır. Ucot özündə əsasən aşağıdakıları əks etdirməlidir:

**1.** məhsulun topdansatış qiyməti;

**2.** topdansatış qiymətlərin paritet qiymətləri;

**3.** material məsrəflərinin (xammal və material,yarımfabrikatlar,yanaçaq və enerji xərçləri) paritet qiymətləri;

**4.** paritet nisbəti.

Xalq təsərrüfatında istehsalın intensivləşdirilməsi və səmərəliliyin yüksəldilməsi, milli resurslara qənaət edilməsi, təbii sərvətlərin səmərəli istifadə olunması məsələsini ilk növbədə maşınqayırmada və metallurgiyada həll etmək lazimdir. Ona görə ki, yüksək keyfiyyətli hazırlanmış maşın və avadanlıqlar və yeni texnologiyaların tətbiqi yüksək keyfiyyətli məhsulun hazırlanmasına əsas verir. Bunun ucun əvvəlki texnikadan (minimum və maksimum qiymət həddi təyin olunan məhsullar) fərqli olaraq hazırlanmış yüksək istehlak xassələrinə malik olan maşın və avadanlıqlara 2 il müddətinə sərbəst qiymətlər təyin etmək lazımdır. Həmin məhsulların qiymətinin hasablanmasında (istehsalcıların maddi maragini artırmaq üçün) dünya praktikasında istifadə olunan metodikalardan istifadə edərək baza qiyməti əsasında onun iqtisadi səmərəliliyini nəzərə almaqla təyin etmək olar.

Energetika,nəqliyyat, rabitə, təhsil və tibbi xidmətlərdə inhisarcılıgın və rəqabətin olmadıgını nəzərə alaraq dövlət həmin sahələrdə qiyməti öz əlində saxlamalıdır. Böhranın dərinləşdiyi hallarda isə istənilən məhsulun qiymətini dövlət özü müəyyən müddətə təyin edə bilər. Bu işlər əsasən İqtisadiyyat Nazirliyi tərəfindən təyin olunan qiymətlər, ayrılıqda götürülmüş müəssisənin məhsulunun maya dəyəri

nöqteyi nəzərindən yox, bütövlükdə ölkə iqtisadiyyatının inkişafı və istehsalcıların mənafeyinin nəzərə alınması nöqteyi-nəzərindən iqtisadi çəhətdə özünü dogrultmalıdır. Daxili bazarın xariçi bazardan qorunması və daxili bazarda qiymətləri sabitləşdirmək ucun idxal və ixraç vegilərindən istifadə etmək olar.

Respublikanın daxilində qiymətin tənzimlənməsi ücün "Qiymətə, mənfəətə və rəqabətin məhdudlaşdırılmasna nəzarət haqqinda" qanun qəbul olunmasını təklif edirik.Bu dediklərimizdən hamısı dünya ölkələrinin təçrübəsinə əsasən hazirlanmışdır. Belə ki, AİB kənd təsərrüfatı məhsullarından əlavə kömur və poladın da qiymətini tənzimləyir.

Yaponiyada istehsal olunmuş məhsulun 19%-nin qiymətini dövlət təyin edir. Norvecdə qiymət dövlət tərəfindən qəbul olunmuş qanunla tənzimlənir və istehsal olunmuş məhsulun 50%-i dövlətdə qeyd olunur. İsvecrədə kənd təsərrufatı məhsulları ilə birgə bir sıra xalq istehlakı və sənaye mallarının qiyməti dövlət tərəfindən təyin olunur.

Ona görə də təklif edirik ki, respublika daxilində qiymətlərin səviyyəsini tənzimləmək üćün qanun hazırlansın və bu qanun əsasında müvafiq əsasnamələr işlənib təstiq edilsin.

**NƏTİÇƏ**

Bazar iqtisadiyyatında dövlət tənzimlənməsinə ehtiyac bazar mexanizmini daxili çatışmazlıqlarının olması ilə əlaqədar yaranır. İqtisadiyyatın dövlət tənzimlənməsi mövcud sosial-iqtisadi sistemin sabitləşməsi və dəyişən şəraitə uyğunlaşdırılması məqsədilə səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilən qanunvericilik, icra və nəzarət tədbirləri sistemidir. Dövlət tənzimləmə obyektləri iqtisadiyyatın prosesləri, münasibətləri, şərtləri və elementləridir. Sənaye müəssisələrində qiymətlərin tənzimlənməsi dövlət üçün obyektin yerləşməsinin xüsusiyyətləri ilə əlaqəli əhəmiyyət kəsb edir və konkret vəziyyətdən asılı olaraq öz xüsusiyyətlərinə malikdir.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Ирвинг Фишер. Покупательная сила денег. Москва, Издательство «ДЕЛО» 2001 г. с. 319

**2.** Майкл Трейси. Сельское хозяйство и продовольствие в экономике развитых стран. Введение в теорию, практику и политику. Санкт-Петербург «Экономическая школа» 1995 г. с.481

**3.** Клемято Д.П. Государственное регулирование формирования финансово-промышленных обьединений: Автореферат дис. канд. экон. наук / Санкт-Петербург. ун-т экономики и финансов. СПб., 1996. - 17 с.

**4.** Кобяков А.Б. Государственный протекционизм в рыночной экономике: Автореферат дис. канд. экон. наук / МГУ им. М.В. Ломоносова.М., 1996. - 24 с.

**5.** E.Əliyev elmi rəhbərliyi ilə hazırlanmış: "Dünya və xarici ölkələrdə bazar qiymətləri." I kitab, Azərbaycan Dövlət !qtisad İnstitutu.1991.c

**6.** E.Əliyevin elmi rəhbərliyi ilə hazırlanmış: "Dünya və xarici ölkələrdə bazar qiymətləri." II kitab, Azərbaycan Dövlət !qtisad İnstitutu. 1991

**7.** E.Əliyevin elmi rəhbərliyi ilə hazırlanmış: "Dünya və xarici ölkələrdə bazar qiymətləri." III kitab, Azərbaycan Dövlət !qtisad İnstitutu. 1991

**8.** Перканский А.Б., Чепраков С. В., Дубинин С.Л. и др. "США: Государство и Рынок". Москва «Наука» 1991. с. 197

**Э.А.Алиев**
*к.э.н., Азербайджанский Государственный Университет Нефти и промышленности*
**В.Х.Бекирова**
*д.ф.по э., «Капитал Банк»*

## Методология формирования ценовой стратегии на конкурентных рынках республики

**Резюме**

*Процесс реформ в экономике Азербайджана, начатый в середине 1990-х годов, продолжается и сегодня - достигнуты определенные результаты, закладываются новые основы и принципы национальной экономики. Основная цель реформы - создать в Азербайджане полностью конкурентный рынок. Изменения, которые произошли и еще не произошли, в том числе изменения в системе цен, не привели к фундаментальному изменению в управлении национальной экономикой: переходу от затратного подхода к рыночным ценам. Поэтому в новых рыночных условиях изучение методологической основы принятия решений по ценам и формирования ценовой стратегии для Азербайджана особенно актуально как с точки зрения анализа существующих методик, так и разработки новых, отвечающих современным условиям.*

***Ключевые слова**: цена, ценообразование, государственное регулирование, инфляция, рыночная экономика, конкуренция*

**E.A.Aliyev**
*candidate of Economic Scences, Azerbaijan State Oil and Industry University*
**V.H.Bakirova**
*PhD in Economics, "Kapital Bank"*

## Methodology for the formation of a pricing strategy in the competitive markets of the republic

**Abstract**

*The process of reforms in the economy of Azerbaijan, which began in the mid-1990s, continues today - certain results have been achieved, new foundations and principles of the national economy are being laid. The main goal of the reform is to create a fully competitive market in Azerbaijan. The changes that have taken place and have not yet occurred, including changes in the price system, did not lead to a fundamental change in the management of the national economy: the transition from a cost approach to market prices. Therefore, in the new market conditions, the study of the methodological basis for making decisions on prices and the formation of a pricing strategy for Azerbaijan is especially relevant both from the point of view of analyzing existing methods and developing new ones that meet modern conditions.*

***Keywords**: price, pricing, government regulation, inflation, market economy, competition*

**UOT: 339**

**Y.S.Əlixanlı**
***Azərbaycan Kooperasiya Universiteti***

# AZƏRBAYCANDA XARİCİ TİCARƏT VƏ ONUN İQTİSADİ TƏSİRLƏRİ

**Xülasə**

*Açıqlığın əsas amili kimi beynəlxalq ticarət iqtisadi artıma getdikcə daha çox təsir edir. Bizim tədqiqatda beynəlxalq ticarətin Azərbaycanın iqtisadi artımındakı rolundan bəhs edir. Makroiqtisadi göstəricilərin icmalından başlayır, sonra ölkənin beynəlxalq ticarət fəaliyyətini diqqətlə təhlil edir. Bu iş daha sonra beynəlxalq ticarətin iqtisadi böyüməyə təsirini qiymətləndirir. Tədqiqat göstərir ki, dünya ticarətində artan iştirak Azərbaycanın milli iqtisadiyyatının sürətli böyüməsini stimullaşdıraraq statik və dinamik fayda əldə etməsinə kömək edir.*

***Açar sözlər:*** *beynəlxalq ticarət, iqtisadi artım, idxal, ixrac*

## GİRİŞ

Azərbaycanın xarici ticarət fəaliyyətinin makroiqtisadi göstəricilərə, o cümlədən, iqtisadi artıma, ev təsərrüfatlarında gəlirlərə, məşğulluğa, yoxsulluq səviyyəsinə təsirlərini öyrənmək üçün xətti reqresiya metodundan istifadə edəcəyik. Bu zaman xarici ticarət fəaliyyətini xarakterizə edən müstəqil göstəricilər olaraq idxal, ixrac, ticarət balansı, ticarət dövriyyəsi, ticarət azadlığı və ticarətin açıqlılığı göstəricilərindən istifadə ediləcək. Asılı dəyişənlər olaraq, adambaşına ÜDM həcmi, ev təsrrüfatlarının adambaşına gəlirləri, məşğulluq və milli yoxsulluq həddinə uyğun yoxsulluq səviyyəsi götürüləcək.

**Xarici ticarətin ölcülmə determinatları.**

Bu göstəricilər arasındakı multireqresiya əlaqəsi aşağıdakı tənliklərlə qiymətləndiriləcək:

$$GDP_t = a_0 + a_1 * İMP_t + a_2 * EXP_t + a_3 * TB_t + a_4 * TT_t + a_5 * TF_t + a_6 * TO_t + \beta_t \quad (1)$$
$$HHRPC_t = b_0 + b_1 * İMP_t + b_2 * EXP_t + b_3 * TB_t + b_4 * TT_t + b_5 * TF_t + b_6 * TO_t + \gamma_t \quad (2)$$
$$POV_t = c_0 + c_1 * İMP_t + c_2 * EXP_t + c_3 * TB_t + c_4 * TT_t + c_5 * TF_t + c_6 * TO_t + \delta_t \quad (3)$$
$$EMP_t = d_0 + d_1 * İMP_t + d_2 * EXP_t + d_3 * TB_t + d_4 * TT_t + d_5 * TF_t + d_6 * TO_t + \varepsilon_t \quad (4)$$

**Cədvəl 1**

**Azərbaycanda xarici ticarətin və bəzi makroiqtisadi göstəricilərin dinamikası**

| | $GDP_t$ | $HHRPC_t$ | $POV_t$ | $EMP_t$ | $İMP_t$ | $EXP_t$ | $TB_t$ | $TT_t$ | $TF_t$ | $TO_t$ |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1992 | 4991.35 | - | - | 60.371 | 2725.10 | 4302.72 | 1577.62 | 7027.82 | - | 1.851 |
| 1993 | 3970.95 | - | - | 59.649 | 3019.04 | 2281.81 | -737.23 | 5300.85 | - | 1.020 |
| 1994 | 3313.94 | - | - | 59.319 | 1015.00 | 819.24 | -195.76 | 1834.24 | - | 0.878 |
| 1995 | 3052.47 | - | - | 59.227 | 1630.23 | 991.64 | -638.59 | 2621.87 | - | 0.540 |
| 1996 | 3176.70 | - | - | 58.671 | 1776.45 | 791.91 | -984.54 | 2568.36 | 30 | 0.500 |
| 1997 | 3962.74 | - | - | 57.905 | 2102.01 | 1150.56 | -951.45 | 3252.57 | 34 | 0.398 |
| 1998 | 4446.37 | - | - | 57.085 | 2424.53 | 1009.31 | -1415.22 | 3433.84 | 43.1 | 0.378 |
| 1999 | 4581.25 | - | - | 56.341 | 1917.52 | 1281.38 | -636.14 | 3198.90 | 47.4 | 0.429 |
| 2000 | 5272.62 | - | - | 55.682 | 2023.51 | 2118.05 | 94.54 | 4141.56 | 49.8 | 0.553 |
| 2001 | 5707.72 | 367.4 | 49.0 | 56.127 | 2129.93 | 2368.62 | 238.69 | 4498.55 | 50.3 | 0.656 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2002 | 6235.86 | 310.9 | 44.0 | 56.592 | 3120.96 | 2666.94 | -454.02 | 5787.90 | 53.3 | 0.615 |
| 2003 | 7276.01 | 503.5 | 39.2 | 56.991 | 4769.09 | 3056.40 | -1712.69 | 7825.49 | 54.1 | 0.717 |
| 2004 | 8680.37 | 788.6 | 34.2 | 57.752 | 6312.20 | 4235.07 | -2077.13 | 10547.27 | 53.4 | 0.822 |
| 2005 | 13245.72 | 962.9 | 29.3 | 58.226 | 7007.09 | 8337.00 | 1329.91 | 15344.09 | 54.4 | 0.646 |
| 2006 | 20982.99 | 1240.9 | 24.3 | 58.722 | 8132.64 | 13954.56 | 5821.92 | 22087.20 | 53.2 | 0.555 |
| 2007 | 33050.34 | 1515.8 | 18.8 | 58.905 | 9423.61 | 22516.84 | 13093.23 | 31940.45 | 54.6 | 0.356 |
| 2008 | 48852.48 | 1633.5 | 13.2 | 59.404 | 11464.09 | 32133.28 | 20669.19 | 43597.37 | 55.3 | 1.124 |
| 2009 | 44291.49 | 1875.1 | 10.9 | 59.835 | 10235.01 | 22870.24 | 12635.23 | 33105.25 | 58 | 0.470 |
| 2010 | 52902.70 | 2162.8 | 9.1 | 60.168 | 10940.95 | 28728.67 | 17787.72 | 39669.62 | 58.8 | 0.627 |
| 2011 | 65951.63 | 2521 | 7.6 | 60.524 | 15881.85 | 37214.51 | 21332.66 | 53096.36 | 59.7 | 0.670 |
| 2012 | 69683.94 | 2936.5 | 6.0 | 60.938 | 17621.95 | 36914.84 | 19292.89 | 54536.79 | 58.9 | 0.629 |
| 2013 | 74164.44 | 3302.7 | 5.3 | 61.339 | 19475.59 | 35907.33 | 16431.74 | 55382.92 | 59.7 | 0.587 |
| 2014 | 75244.29 | 3538.3 | 5.0 | 61.858 | 19721.28 | 32560.88 | 12839.60 | 52282.16 | 61.3 | 0.524 |
| 2015 | 53074.47 | 2748.3 | 4.9 | 62.265 | 18473.45 | 20059.34 | 1585.89 | 38532.79 | 61 | 0.487 |
| 2016 | 37867.52 | 1983.4 | 5.9 | 62.935 | 16529.05 | 17581.00 | 1051.95 | 34110.05 | 60.2 | 0.572 |
| 2017 | 40865.56 | 1894.4 | 5.4 | 63.237 | 17104.06 | 19839.36 | 2735.30 | 36943.42 | 63.6 | 0.594 |
| 2018 | 46939.53 | 1948.4 | 5.1 | 62.872 | 17705.18 | 25484.47 | 7779.29 | 43189.65 | 64.3 | 0.674 |

***Mənbə: ARDSK***

Müstəqil dəyişənlər olan idxal və ixrac həcmi, həmçinin ticarət balansı və ticarət dövriyyəsinin zaman sıraları I(1) dərəcədən stosionardır. Xarici ticarət azadlığı və xarici ticarətin açıqlılığı göstəriciləri isə I(0) dərəcədən stasionardır. Asılı dəyişənlər kimi qəbul edilən ÜDM həcmi I(1) dərəcədən stasionardır. Tədqiqata cəlb edilən digər asılı dəyişənlər, yəni ev təsərrüfatlarının adambaşına gəlirləri, milli yoxsulluq həddinə uyğun olan yoxsulluq səviyyəsi və məşğulluq səviyyəsi zaman sıraları I(0) və I(1) dərəcədə stasionar deyil. Bu göstəricilərin stasionarlığı ilə bağlı məlumatlar 2-ci cədvəldə verilmişdir.

**Cədvəl 2**

**Xarici ticarətə və sosial-iqtisadi inkişafa aid bəzi göstəricilərin zaman sırasının stasionarlığı**

| | $\tau -$ statistika | I(0) | I(1) |
|---|---|---|---|
| $GDP_t$-ÜDM həcmi | (-1.226) | $H_0$ | $H_1$ |
| $\Delta GDP_t$-ÜDM həcminin dəyişməsi | (-3.116) | $H_1$ | - |
| $\dot{I}MP_t$-idxal həcmi | (-0.348) | $H_0$ | $H_1$ |
| $\Delta \dot{I}MP_t$-idxal həcminin dəyişməsi | (-3.43) | $H_1$ | - |
| $EXP_t$-ixrac həcmi | (-1.156) | $H_0$ | $H_1$ |
| $\Delta EXP_t$-ixrac həcminin dəyişməsi | (-3.232) | $H_1$ | - |
| $TB_t$-ticarət balansı | (-1.697) | $H_0$ | $H_1$ |
| $\Delta TB_t$-ticarət balansının dəyişməsi | (-2.867) | $H_1$ | - |
| $TT_t$-ticarət dövriyyəsi | (-0.889) | $H_0$ | $H_1$ |
| $\Delta TT_t$-ticarət dövriyyəsinin dəyişməsi | (-3.447) | $H_1$ | - |
| $FTF_t$-xarici ticarət azadlığı | (-3.771) | $H_1$ | - |
| $FTO_t$- xarici ticarətin açıqlılığı | (-6.061) | $H_1$ | - |
| $HHRPC_t$- ev təsərrüfatlarında a.b. gəlirlər | (-2.217) | $H_0$ | $H_0$ |
| $\Delta HHRPC_t$- ev təsərrüfatlarında a.b. gəlirlərin dəyişməsi | (-2.501) | $H_0$ | $H_0$ |
| $POV_t$-milli yoxsulluq həddinə uyğun yoxsulluq səviyyəsi | (-2.509) | $H_0$ | $H_0$ |
| $\Delta POV_t$-milli yoxsulluq həddinə uyğun yoxsulluq səviyyəsi | (-0.807) | $H_0$ | $H_0$ |
| $EMP_t$-məşğulluq səviyyəsi | (-1.567) | $H_0$ | $H_0$ |
| $\Delta EMP_t$-məşğulluq səviyyəsi | (-1.868) | $H_0$ | $H_0$ |

***Qeyd: müəllif tərəfindən hesablanıb***

Xarici ticarəti xarakterizə edən ticarət balansı və ticarət dövriyyəsi ilə ixrac və idxal həcmi göstəriciləri arasında ciddi korrelyasiya olduğundan onların 1-4-cü reqresiya tənliklərinə eyni zamanda daxil edilməsinə ehtiyac yoxdur.

Ona görə də biz 1-4 reqresiya tənliklərini

$$GDP_t = a_0 + a_1 * İMP_t + a_2 * EXP_t + a_5 * TF_t + a_6 * TO_t \quad (1')$$

$$HHRPC_t = b_0 + b_1 * İMP_t + b_2 * EXP_t + b_5 * TF_t + b_6 * TO_t \quad (2')$$

$$POV_t = c_0 + c_1 * İMP_t + c_2 * EXP_t + +c_5 * TF_t + c_6 * TO_t \quad (3')$$

$$EMP_t = d_0 + d_1 * İMP_t + d_2 * EXP_t + d_5 * TF_t + d_6 * TO_t \quad (4')$$

Kimi qruplaşdıra bilərik.

- ***Azərbaycanda xarici ticarət fəaliyyətinin iqtisadi artıma təsirləri (Granger səbəbiyyət testinin yoxlanılması)***

İqtisadi artıma xarici ticarət fəaliyyətinin nə dərəcədə təsir etməsini sadəcə multireqresiya əlaqəsi ilə müəyyən etmək düzgün deyil. Çünki iki göstərici arasında sadə xətti reqresiya əlaqəsi bu göstəricilər arasında səbəb-nəticə əlaqəsinin olmasından xəbər vermir. Başqa sözlə desək, əlaqə “saxta” da ola bilər. Ona görə də xüsusi ekonometrik testlərlə əlaqənin saxta olmamasını və göstəricilər arasındakı əlaqənin “səbəb-nəticə” əlaqəsinin olmasını müəyyən etmək məqsədilə Granger səbəbiyyət testindən istifadə edilir. Granger səbəbiyyət testi bir zaman sırasının vasitəsilə digər zaman sırasının proqnozlaşdırılmasına imkan verir. Nəzərə almaq lazımdır ki, belə proqnozlaşdırma səbəb-nəticə əlaqəsinin zəruriliyi üçün zəruri olsa da, kafi deyil. Granger iki, məsələn, $\{X\}$ və $\{Y\}$ zaman sıraları arasındakı səbəbiyyət əlaqəsini

$$Y_t = \sum_{j=1}^{m} a_j * X_{t-j} + \sum_{j=1}^{m} b_j * Y_{t-j} + \theta_t \quad (5)$$

$$X_t = \sum_{j=1}^{m} c_j * X_{t-j} + \sum_{j=1}^{m} d_j * Y_{t-j} + \varepsilon_t \quad (6)$$

Burada $\varepsilon_t$ və $\theta_t$ bir-biri ilə korrelyasiya olunmayan küy zaman sırasıdır. (5)-ci əlaqənin mənası odur ki, əgər $a_j$ sıfıra bərabər deyilsə, $X_{t-j}$-ni bilməklə $Y_t$-zaman sırasına aid cari və gələcək məlumatları əldə etmək olar. Bu o deməkdir ki, $X_{t-j}$ göstəricisi $Y_t$ göstəricisi üçün səbəb rolunu oynayır. Həmçinin (6)-cı bərabərlikdə $d_j$ səfərə bərabər deyilsə, $X_t$-yə aid cari və gələcək məlumatları $Y_{t-j}$-göstəricisi vasitəsilə əldə etmək olar. Bu da, analoji olaraq, $Y_{t-j}$-nin $X_t$ üçün səbəb olması deməkdir. Granger səbəbiyyət testində də ən kiçik kvadratlar üsulundan istifadə edilir. Bu halda da $H_0 -$ hipotez ondan ibarətdir ki, X göstəricisi Y üçün, yəni Y(X) və Y göstəricisi X üşün, yəni X(Y) səbəb rolunu oynamır.

Tədqiqatımızın predmetinə uyğun olaraq, (5) və (6)-cı bərabərlikləri ÜDM həcminin dəyişməsinə ($\Delta GDP_t$), xarici ticarət fəaliyyətini xarakterizə edən 1) idxalın ($\Delta İMP_t$), 2)ixracın ($\Delta EXP_t$), 3)xarici ticarət balansının ($\Delta TB_t$), 4)xarici ticarət dövriyyəsinin ($\Delta TT_t$), 5)xarici ticarət azadlığının ($TF_t$) və 6) xarici ticarət açıqlılığının ($TO_t$) səbəbiyyət təsirlərinini öyrənmək üçün aşağıdakı kimi yaza bilərik:

$$\begin{cases} \Delta GDP_t = \sum_{j=1}^{m} a_j * \Delta İMP_{t_j} + \sum_{j=1}^{m} b_j * \Delta GDP_{t-j} + \theta_t \\ \Delta İMP_t = \sum_{j=1}^{m} c_j * \Delta İMP_{t-j} + \sum_{j=1}^{m} d_j * \Delta GDP_{t-j} + \varepsilon_t \end{cases} \quad (7)$$

$$\begin{cases} \Delta GDP_t = \sum_{j=1}^{m} a_j * \Delta EXP_{t_j} + \sum_{j=1}^{m} b_j * \Delta GDP_{t-j} + \theta_t \\ \Delta EXP_t = \sum_{j=1}^{m} c_j * \Delta EXP_{t-j} + \sum_{j=1}^{m} d_j * \Delta GDP_{t-j} + \varepsilon_t \end{cases} \quad (8)$$

$$\begin{cases} \Delta GDP_t = \sum_{j=1}^{m} a_j * \Delta TB_{t-j} + \sum_{j=1}^{m} b_j * \Delta GDP_{t-j} + \theta_t \\ \Delta TB_t = \sum_{j=1}^{m} c_j * \Delta TB_{t-j} + \sum_{j=1}^{m} d_j * \Delta GDP_{t-j} + \varepsilon_t \end{cases} \quad (9)$$

$$\begin{cases} \Delta GDP_t = \sum_{j=1}^{m} a_j * \Delta TT_{t-j} + \sum_{j=1}^{m} b_j * \Delta GDP_{t-j} + \theta_t \\ \Delta TT_t = \sum_{j=1}^{m} c_j * \Delta TT_{t-j} + \sum_{j=1}^{m} d_j * \Delta GDP_{t-j} + \varepsilon_t \end{cases} \quad (10)$$

$$\begin{cases} \Delta GDP_t = \sum_{j=1}^{m} a_j * TF_{t-j} + \sum_{j=1}^{m} b_j * \Delta GDP_{t-j} + \theta_t \\ TF_t = \sum_{j=1}^{m} c_j * TF_{t-j} + \sum_{j=1}^{m} d_j * \Delta GDP_{t-j} + \varepsilon_t \end{cases} \quad (11)$$

$$\begin{cases} \Delta GDP_t = \sum_{j=1}^{m} a_j * TO_{t-j} + \sum_{j=1}^{m} b_j * \Delta GDP_{t-j} + \theta_t \\ TO_t = \sum_{j=1}^{m} c_j * TO_{t-j} + \sum_{j=1}^{m} d_j * \Delta GDP_{t-j} + \varepsilon_t \end{cases} \quad (12)$$

Hesablamalar göstərir ki, $\Delta GDP_t$ və $\Delta İMP_t$ göstəriciləri arasında orta səviyyəli korrelyasiya əlaqəsi var. Lakin belə əlaqənin olması hələ bu göstəricilər arasında səbəbiyyət əlaqəsinin olmasını təsdiq etməyə əsas verimir. Ona görə də biz (7)-ci sistemə uyğun olaraq Granger səbəbiyyət testini yerinə yetirməliyik. 1, 2 və 3 illik laq-lar əsasında idxal və ÜDM həcmlərinin dəyişməsi arasındakı Granger testi göstərir ki, hər iki istiqamətdə səbəbiyyət əlaqəsi yoxdur və Azərbaycan üçün bu iki göstərici bir-birini şərtləndirmir. Qeyd edək ki, ilk baxışda ÜDM həcminin artması ilə idxal həcminin son 20 ildə davamlı olaraq artması belə bir yanlış nəticənin çıxarılmasına imkan verirdi ki, Azərbaycanda idxalın artmasının əsas səbəbi ÜDM həcminin artmasıdır. Lakin *Granger testi sübut edir ki, bu iki göstərici arasında səbəbiyyət əlaqəsi yoxdur və laq= 1 və 2 olduğu hallarda hər iki istiqamətdə $H_0$ hipotezi özünün doğruldur. Laq=3 olduqda isə $H_0$ hipotezi biristiqamətli, daha doğrusu $\Delta GDP_t \longrightarrow \Delta İMP_t$ istiqamətində özünü doğrultmur. Bu halda deyə bilərik ki, Azərbaycanda iqtisadi artım idxal həcminin dəyişməsinə 3 il gecikmə ilə təsir edir. Əks istiqamətdə isə səbəbiyyət əlaqəsi yoxdur.*

**Cədvəl 3**

**Laq=1; 2; 3 olduğu hallarda Azərbaycanda idxal həcminin dəyişməsinin ÜDM həcmin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | Hipotez |
| $\Delta İMP_t \longrightarrow \Delta GDP$ | 0.91569 | 0.3513 | $H_0$ | 0.29121 | 0.7515 | $H_0$ | 0.30421 | 0.8219 | $H_0$ |
| $\Delta GDP_t \longrightarrow \Delta İMP_t$ | 1.76402 | 0.2007 | $H_0$ | 1.17761 | 0.3349 | $H_0$ | 3.39735 | 0.0536 | $H_1$ |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır***

Granger testini $İMP_t$ və $GDP_t$ üçün yerinə yetirmək olar. Lakin nəzərə almaq lazımdır ki, bu göstəricilərin zaman sırasının heç biri I(0) dərəcədə stasionar deyil. Buna baxmayaraq, bu iki göstərici arasındakı sadə xətti reqresiya asılılığı kifayət qədər güclüdür ($R^2 = 0.86$). F-əhəmiyyətlilik dərəcəsi $2*10^{-10}$-dur. Lakin bu hələ səbəb-nəticə əlaqəsinin olması demək deyil. Hesablamalar göstərir ki, $İMP_t$ və $GDP_t$ üçün laq=1, 2 və 3 olan hallarda Granger testi bu iki göstərici arasında səbəbiyyət əlaqəsinin olmadığını göstərir (cədvəl 4).

**Cədvəl 4**

**Laq=1; 2; 3 olduğu hallarda Azərbaycanda idxal həcminin ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | Hipotez |
| $İMP_t \longrightarrow GDP_t$ | 0.33306 | 0.5706 | $H_0$ | 0.44084 | 0.6511 | $H_0$ | 0.11140 | 0.9519 | $H_0$ |
| $GDP_t \longrightarrow İMP_t$ | 1.66980 | 0.2118 | $H_0$ | 0.64103 | 0.5398 | $H_0$ | 1.80567 | 0.1958 | $H_0$ |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır***

(8)-cı bərabərliyə əsasən ÜDM həcmindəki dəyişikliklərlə ixrac həcmindəki dəyişikliklər arasındakı əlaqədə səbəbiyyətin olduğunu müəyyən etməyə çalışaq. İxrac və ÜDM həcmlərinin son 23 ildəki göstəriciləri arasındakı xətti reqresiya əlaqəsi kifayət qədər güclüdür ($R^2 = 0.95$). F-əhəmiyyətlilik dərəcəsi 7.35*$10^{-15}$-dir. Lakin belə güclü reqresiya əlaqəsinin həqiqətən səbəb-nəticə əlaqəsi olmasını sübut etmək üçün biz bu zaman sıraları arasında Granger səbəbiyyətinin olmasını yoxlamalıyıq. Hesablamalar göstərir ki, $EXP_t$ və $GDP_t$ üçün laq=1, 2 və 3 olan hallarda Granger testi bu iki göstərici arasında səbəbiyyət əlaqəsinin olduğunu göstərir (cədvəl 5). Lakin belə səbəbiyyət əlaqəsi birtərəflidir, daha dəqiq desək, ixrac həcmi ÜDM həcminin səbəbi kimi çıxış edir.

**Cədvəl 5**

**Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ixrac həcminin ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez |
| $EXP_t \longrightarrow GDP_t$ | 15.8632 | 0.0008 | $H_1$ | 4.06821 | 0.0373 | $H_1$ | 4.97950 | 0.0162 | $H_1$ |
| $GDP_t \longrightarrow EXP_t$ | 3.92486 | 0.0622 | $H_0$ | 1.87128 | 0.1861 | $H_0$ | 2.25703 | 0.1301 | $H_0$ |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır***

Hesablamalar göstərir ki, $\Delta GDP_t$ və $\Delta EXP_t$ göstəriciləri arasında yüksək dərəcəli korrelyasiya əlaqəsi var ($R^2$ =0.778252; F-əhəmiyyətlilik dərəcəsi=5.67*$10^{-8}$). Lakin bu göstəricilər arasında belə əlaqənin ciddi olması onun səbəbiyyət əlaqəsi olmasını təsdiq etməyə əsas verimir. Ona görə də biz (8)-ci sistemə uyğun olaraq, Granger səbəbiyyət testini yerinə yetirməliyik. Hesablamalar göstərir ki, 1, 2 və 3 illik laq-lar əsasında ixrac və ÜDM həcmlərinin dəyişməsi arasındakı Granger testinə əsasən, hər iki istiqamətdə səbəbiyyət əlaqəsi yoxdur və Azərbaycan üçün bu iki göstərici bir-birini şərtləndirmir (cədvəl 6). Qeyd edək ki, ilk baxışda ÜDM həcminin artması ilə ixrac həcminin son 20 ildə davamlı olaraq artması belə bir yanlış nəticənin çıxarılmasına imkan verirdi ki, Azərbaycanda ixracın artmasının əsas səbəbi ÜDM həcminin artmasıdır. Yaxud əksinə, ixracın artması ÜDM həcminin artması ilə şərtlənir. Lakin Granger testi sübut edir ki, bu iki göstərici arasında səbəbiyyət əlaqəsi yoxdur və laq=

1; 2; 3 olduğu hallarda hər iki istiqamətdə $H_0$ hipotezi özünün doğruldur. *İxrac həcmi ilə ÜDM həcmi arasındakı birtərəfli səbəbiyyət əlaqəsindən fərqli olaraq, bu göstəricilərin dəyişməsi arasındakı əalqədə səbəbiyyət yoxdur. Başqa sözlə desək, Azərbaycanın ixrac həcmindəki dəyişmələr ÜDM artımına səbəb olmur. Həmçinin ÜDM artımı ixracda dəyişmələrə səbəb olmur.*

**Cədvəl 6**

**Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ixrac həcminin dəyişməsinin ÜDM həcminin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez |
| $\Delta EXP_t \longrightarrow \Delta GDP_t$ | 1.80244 | 0.1961 | $H_0$ | 0.63672 | 0.5427 | $H_0$ | 1.98433 | 0.1702 | $H_0$ |
| $\Delta GDP_t \longrightarrow \Delta EXP_t$ | 1.09800 | 0.3086 | $H_0$ | 0.52091 | 0.6043 | $H_0$ | 1.09447 | 0.3890 | $H_0$ |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır***

Ticarət balansının və ÜDM həcmlərinin son 23 ildəki göstəriciləri arasındakı xətti reqresiya əlaqəsi kifayət qədər güclüdür ($R^2$ =0.69). F-əhəmiyyətlilik dərəcəsi 7.64*$10^{-7}$-dir. Lakin belə güclü reqresiya əlaqəsinin həqiqətən səbəb-nəticə əlaqəsi olmasını sübut etmək üçün biz bu zaman sıraları arasında Granger səbəbiyyətinin olmasını yoxlamalıyıq. Hesablamalar göstərir ki, $TB_t$ *və* $GDP_t$ *üçün laq=2 və 3 olan hallarda Granger testi bu iki göstərici arasında səbəbiyyət əlaqəsinin olmadığını göstərir (cədvəl 7). Granger testi laq=1 halında isə birtərəfli, yəni ticarət balansından ÜDM həcminə yönələn səbəbiyyət əlaqəsinin olduğunu göstərir. Lakin nəzərə alsaq ki,* $TB_t$ *və* $GDP_t$ *stasionar zaman sıraları deyil, onda belə əlaqənin həqiqi olması sübhə doğurur.*

**Cədvəl 7**

**Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ticarət balansının ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez |
| $TB_t \longrightarrow GDP_t$ | 7.26578 | 0.0143 | $H_1$ | 1.65012 | 0.2231 | $H_0$ | 1.61385 | 0.2343 | $H_0$ |
| $GDP_t \longrightarrow TB_t$ | 1.48928 | 0.2373 | $H_0$ | 0.61026 | 0.5554 | $H_0$ | 0.64370 | 0.6005 | $H_0$ |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır***

Hesablamalar göstərir ki, $\Delta GDP_t$ və $\Delta TB_t$ göstəriciləri arasında da yüksək dərəcəli korrelyasiya əlaqəsi var ($R^2$ =0.646407; F-əhəmiyyətlilik dərəcəsi=6.54*$10^{-6}$). Lakin bu göstəricilər arasında belə əlaqənin ciddi olması onun səbəbiyyət əlaqəsi olmasını təsdiq etməyə əsas verimir. Ona görə də biz (9)-ci sistemə uyğun olaraq, Granger səbəbiyyət testini yerinə yetirməliyik. Hesablamalar göstərir ki, 1, 2 və 3 illik laq-lar əsasında ticarət balansı və ÜDM həcmlərinin dəyişməsi arasındakı Granger testinə əsasən, hər iki istiqamətdə səbəbiyyət əlaqəsi yoxdur və Azərbaycan üçün bu iki göstərici bir-birini

şərtləndirmir. Qeyd edək ki, *ÜDM həcminin xərclər əsasında hesablanması zamanı əsas komponentlərdən birinin "xalis xarici ticarət", başqa sözlə desək "ticarət balansı" olmasına baxmayaraq, Granger testi sübut edir ki, bu iki göstərici arasında səbəbiyyət əlaqəsi yoxdur və laq= 1; 2; 3 olduğu hallarda hər iki istiqamətdə $H_0$ hipotezi özünün doğruldur.*

**Cədvəl 8**

**Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ticarət balansının dəyişməsinin ÜDM həcminin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez |
| $\Delta TB_t \longrightarrow \Delta GDP_t$ | 2.70262 | 0.1175 | $H_0$ | 0.93169 | 0.4155 | $H_0$ | 1.96283 | 0.1735 | $H_0$ |
| $\Delta GDP_t \longrightarrow \Delta TB_t$ | 2.20808 | 0.1546 | $H_0$ | 1.84837 | 0.1916 | $H_0$ | 1.49627 | 0.2655 | $H_0$ |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır***

Ticarət dövriyyəsi və ÜDM həcmlərinin son 23 ildəki göstəriciləri arasındakı xətti reqresiya əlaqəsi kifayət qədər güclüdür ($R^2 = 0.97$). F-əhəmiyyətlilik dərəcəsi 9*$10^{-18}$-dir. Lakin belə güclü reqresiya əlaqəsinin həqiqətən səbəb-nəticə əlaqəsi olmasını sübut etmək üçün biz bu zaman sıraları arasında Granger səbəbiyyətinin olmasını yoxlamalıyıq. Hesablamalar göstərir ki, $TT_t$ və $GDP_t$ üçün laq=1 olan hal Granger testi bu iki göstərici arasında iki istiqamətli səbəbiyyət əlaqəsinin olduğunu göstərir (cədvəl 12). Lakin laq=2 və 3 olan hallarda Granger testi bu iki göstərici arasında heç bir istiqamətdə səbəbiyyət əlaqəsinin olmadığını göstərir.

**Cədvəl 9**

**Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ticarət dövriyyəsinin ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez |
| $TT_t \longrightarrow GDP_t$ | 9.93196 | 0.0053 | $H_1$ | 2.98759 | 0.0790 | $H_0$ | 1.99630 | 0.1644 | $H_0$ |
| $GDP_t \longrightarrow TT_t$ | 5.07445 | 0.0363 | $H_1$ | 1.46365 | 0.2608 | $H_0$ | 1.63969 | 0.2286 | $H_0$ |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır***

Hesablamalar göstərir ki, $\Delta GDP_t$ və $\Delta TT_t$ göstəriciləri arasında da yüksək dərəcəli korrelyasiya əlaqəsi var ($R^2$ =0.82; F-əhəmiyyətlilik dərəcəsi=5.27*$10^{-9}$). Lakin bu göstəricilər arasında belə əlaqənin ciddi olması onun səbəbiyyət əlaqəsi olmasını təsdiq etməyə əsas verimir. Ona görə də biz (8)-ci sistemə uyğun olaraq, Granger səbəbiyyət testini yerinə yetirməliyik. Hesablamalar göstərir ki, 1, 2 və 3 illik laq-lar əsasında ticarət dövriyyəsi və ÜDM həcmlərinin dəyişməsi arasındakı Granger testinə əsasən, heç bir istiqamətdə səbəbiyyət əlaqəsi yoxdur və Azərbaycan üçün bu iki göstərici bir-birini şərtləndirmir və hər iki istiqamətdə $H_0$ hipotezi özünü doğruldur (cədvəl 10).

**Cədvəl 10**

**Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ticarət dövriyyəsinin dəyişməsinin ÜDM həcminin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez |
| $\Delta TT_t \longrightarrow \Delta GDP_t$ | 0.79257 | 0.3851 | $H_0$ | 0.32858 | 0.7250 | $H_0$ | 0.99805 | 0.4270 | $H_0$ |
| $\Delta GDP_t \longrightarrow \Delta TT_t$ | 0.30966 | 0.5847 | $H_0$ | 0.12278 | 0.8853 | $H_0$ | 0.32955 | 0.8041 | $H_0$ |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır***

Hesablamalar göstərir ki, Azərbaycanda $\Delta GDP_t$ və ticarət azadlığı ($TF_t$) göstəriciləri arasında korrelyasiya əlaqəsi çox zəifdir ($R^2$ =0.001879; F-əhəmiyyətlilik dərəcəsi=0.848085). Lakin hər iki göstəricinin zaman sırası stasionardır. Bunu nəzərə alaraq, bu göstəricilər arasında 1, 2 və 3 illik laq-lar əsasında Granger testini yerinə yetirsək, görərik ki, heç bir istiqamətdə səbəbiyyət əlaqəsi yoxdur və Azərbaycan üçün bu iki göstərici bir-birini şərtləndirmir (Cədvəl 11).

**Cədvəl 11**

**Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ticarət azadlığı səviyyəsinin ÜDM həcminin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | hipotez | F-statistika | p-probability | Hipotez |
| $TF_t \longrightarrow \Delta GDP_t$ | 0.04264 | 0.8387 | $H_0$ | 0.43637 | 0.6543 | $H_0$ | 0.68866 | 0.5762 | $H_0$ |
| $\Delta GDP_t \longrightarrow TF_t$ | 0.38454 | 0.5430 | $H_0$ | 0.90791 | 0.4244 | $H_0$ | 0.98306 | 0.4333 | $H_0$ |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır***

Hesablamalar göstərir ki, $\Delta GDP_t$ və xarici ticarətin aşıqlılığı ($TO_t$) göstəriciləri arasında da korrelyasiya əlaqəsi çox zəifdir. ($R^2 = 0.135$; F-əhəmiyyətlilik dərəcəsi=0.093). Hər iki göstəricinin zaman sırasının stasionarlığını nəzərə alaraq, 1, 2 və 3 illik laq-lar əsasında Granger testini yerinə yetirsək görərik ki, bu iki göstərici arasında səbəbiyyət əlaqəsi laq= 1 və 3 olduğu yoxdur və bu hallarda hər iki istiqamətdə $H_0$ hipotezi özünün doğruldur (Cədvəl 12). *Lakin laq=2 olan halda biristiqamətli, yəni xarici ticarətin açıqlılığından ÜDM həcminin dəyişməsinə yönələn ($TO_t \longrightarrow \Delta GDP_t$) səbəbiyyət əlaqəsi mövcuddur.*

**Cədvəl 12**

**Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ticarət açıqlılığı səviyyəsinin ÜDM həcminin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statisti-ka | p-probability | Hip o-tez | F-statisti-ka | p-probability | Hipotez | F-statisti-ka | p-probability | hipotez |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| $TO_t \longrightarrow \Delta GDP_t$ | 1.39074 | 0.2536 | $H_0$ | 3.58889 | 0.0532 | $H_1$ | 2.24868 | 0.1351 | $H_0$ |
| $\Delta GDP_t \longrightarrow TO_t$ | 0.51213 | 0.4834 | $H_0$ | 0.53658 | 0.5956 | $H_0$ | 0.38348 | 0.7668 | $H_0$ |

***Qeyd: müəllif tərəfindən hesablanıb***

## NƏTİCƏ

Beləliklə, ÜDM həcmi və onun dəyişməsinin xarici ticarət fəaliyyətini xarakterizə edən göstəricilərdən, o cümlədən, idxal, ixrac, ticarət balansı, ticarət dövriyyəsi, ticarət azadlığı və ticarətin açıqlılığı göstəricilərindən səbəb və nəticə asılılığının olmasını Granger testi ilə yoxlayanda məlum olur ki, Azərbaycanda bu göstəricilər arasında səbəb-nəticə əlaqələri çox zəifdir. Bunun əsas səbəbi, böyük ehtimalla, ölkədə ÜDM həcmində əsas hissənin neft və qaz hasilatı ilə bağlı olmasıdır.

***İstifadə edilmiş ədəbiyyat:***


1. https://www.stat.gov.az/source/trade/
2. https://www.trademap.org/



**Е.С.Алиханлы**

*Азербайджанский Университет Кооперации*


### Внешняя торговля и ее экономическое воздействие в Азербайджане


**Резюме**

*Международная торговля как главный фактор открытости вносит все более значительный вклад в экономический рост. В этом исследовании обсуждается роль международной торговли в экономическом росте Азербайджана. Он начинается с обзора макроэкономических показателей. Затем тщательно анализируются показатели международной торговли страны. Далее в этом исследовании оценивается влияние международной торговли на экономический рост. Исследование показывает, что расширение участия в мировой торговле помогает Азербайджану получать статические и динамические выгоды, стимулируя быстрый рост национальной экономики.*



***Ключевые слова:*** *международная торговля, экономический рост, импорт, экспорт*



**Y.S.Alihanli**

*Azerbaijan University of Cooperation*


### Foreign trade and its economic investigation in Azerbaijan


**Abstract**

*International trade as the main factor of openness is making an increasingly significant contribution to economic growth. This study discusses the role of international trade in Azerbaijan's economic growth. It starts with an overview of macroeconomic indicators, followed by a thorough analysis of the country's international trade performance. This study further assesses the impact of international trade on economic growth. The study shows that increased participation in world trade helps Azerbaijan to obtain static and dynamic benefits, stimulating rapid growth of the national economy.*



***Keywords:*** *international trade, economic growth, import, export*

**UOT: 338**

**E.R.Mustafayev**
***PhD, doktorant, Azərbaycan Texniki Universitet***

# AZƏRBAYCANDA KÜLƏK ENERJİSİNDƏN İSTİFADƏNİN MÜASİR VƏZİYYƏTİ

**Xülasə**

*Son on ildə dünyada külək elektrik stansiyalarının quraşdırılması sürətlə genişləndi və külək enerjisi davamlı inkişafı təşviq edən mühüm amil oldu. Bu tədqiqatın məqsədi külək enerjisinin qlobal genişlənməsinin və Azərbaycanda külək enerjisinin inkişafının mövcud vəziyyətini göstərməkdir.*

***Açar sözlər:*** *Azərbaycan, bərpa olunan enerji mənbələri, külək enerjisi*

## GİRİŞ

Azərbaycan neftlə zəngin ölkədir. BP-nin 2018-ci il üzrə məlumatlarına əsasən [1], Azərbaycanın kəşf edilən neft ehtiyatları 7 milyard bareldən çoxdur. Bu, dünya üzrə kəşf edilən neft ehtiyatlarının 0.4%-ni təşkil edir. Azərbaycanda əhalinin sayının dünya əhalisinin cəmi 0.13% təşkil etdiyini nəzərə alsaq, ölkəmizdə adambaşına neft ehtiyatlarının orta dünya göstəricisindən xeyli çox olduğuna əmin ola bilərik. Azərbaycanda 2017-ci ildə hər gün orta hesabla 795 min barel neft istehsal olunub. Bu həcmin az hissəsi, təqribən 92 min barel ölkə daxilində istehlak edilib. Hasil edilən neftin əsas hissəsi isə ixrac olunub. Belə bir mənzərə 2018-ci və 2019-cu il üçün də xarakterikdir.

Azərbaycan həm də qazla zəngin ölkədir. BP-nin 2018-ci il üzrə məlumatlarına əsasən, Azərbaycanın kəşf edilən qaz ehtiyatları 1.3 trilyon kub metrdir. Bu, dünya üzrə kəşf edilən qaz ehtiyatlarının 0.7% qədərdir. Adambaşına qaz ehtiyatlarının həcminə görə də ölkəmizin göstəriciləri orta dünya göstəricilərini üstələyir. 2017-ci ildə ölkəmizdə 17.7 milyard kub metr qaz hasil edilib. Bu həcmin mühüm hissəsi – 10.6 milyard kub metr ölkə daxilində istehlak olunub. Hasil edilən qazın qalan hissəsi isə ixrac olunub.

Azərbaycanda istehlak edilən neft və qaz məhsullarının, həmçinin elektrik enerjisinin mühüm hissəsi yerli hasilatla bağlıdır. Belə bir vəziyyət yaxın onilliklərdə də davam edəcəkdir. Azərbaycanda daxili istehlakın, xüsusilə, elektrik enerjisi istehlakının uzunmüddətli dövr üçün ölkədə hasil edilən neft və qazla təmin edilə bilməsi o demək deyil ki, Azərbaycanda bərpa olunabilən enerji mənbələrinin (BOEM) inkişafına zərurət yoxdur. Əksinə, BOEM-nin texnoloji cəhətdən durmadan inkişaf etdirilməsi və bu sahəyə investisiyaların yatırılması zəruridir. Belə ki, 1) neft və qaz tükənən enerji mənbələridir; 2) dünyada enerjiyə olan tələbatın artması neft və qazla zəngin ölkələrin öz ehtiyatlarını digərləri ilə paylaşmaq zərurəti yaratdığından Azərbaycanın neft və qaz ehtiyatları da qısa müddətdə, məsələn, 50-60 ilə tükənə bilər; 3) karbohidrogen ehtiyatlarının böyük həcmdə istehsalı və istifadəsi ətraf mühitə ciddi zərər vurur və dünya ölkələri belə zərərin azaldılması üzərində düşünməli olurlar; 4) alternativ və bərpa olunan enerjinin əldə edilməsi üzrə yeni texnologiyaların üzərində tədqiqatların aparılması və zəruri infrastrukturun yaradılması hər bir ölkənin yaxın gələcəkdə enerji üzrə təhlükəsizliyini və rəqabətliliyini təmin edə bilər; 5) BOEM-nin genişlənməsi nəinki ölkənin enerji təminatında diversifikasiya imkanı və ətraf mühitin təmizliyini qorumaq imkanı yaradır, həmçinin yeni və "yaşıl" iş yerlərinin yaradılmasını təmin edir. Digər tərəfdən, mərkəzləşmiş elektrik enerjisi sistemindən istifadənin çətin olduğu və ya baha başa gəldiyi ərazilərdə BOEM-dən istifadə müəyyən hallarda daha ucuz və əlverişli ola bilər.

Bunları nəzərə alaraq, hər bir ölkədə, o cümlədən, Azərbaycanda alternativ və BOEM-nin inkişaf etdirilməsi istiqamətində elmi tədqiqatlar, texnoloji araşdırmalar və dövlət siyasəti həyata keçirilir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzinin açılış mərasimində bu sahəyə olan diqqət və qayğısını belə ifadə etmişdir: "Biz enerji təhlükəsizliyimizi tam şəkildə təmin etməklə yanaşı, qonşu ölkələri də həm elektrik enerjisi, həm qaz, həm də neftlə təmin edirik. Ancaq ölkəmizin əlverişli coğrafi mövqeyi və iqlim şəraitini nəzərə alaraq, təbii ehtiyatlarımızdan daha az, bərpa olunan alternativ enerji mənbələrindən isə tam şəkildə istifadə etməliyik. Belə ki, malik olduğumuz alternativ və bərpa olunan enerji mənbələrinin hərəkətə gətirilməsi, ölkəmizin gələcək enerji təhlükəsizliyinin etibarlı təminatında mühüm rol oynamaqla bərabər, ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunmasına da əvəzsiz töhfələr verəcəkdir" [2].

**Azərbaycanın dünya enerji xəritəsində yeri**

Azərbaycanda adambaşına cəmi enerji və elektrik enerjisi istehlakı orta dünya göstəricisindən xeyli azdır. Bu təklifin deyil, daha çox tələbin azlığı ilə bağlıdır. Enerjiyə yüksək tələbi yaradan emal sənayesi sahələrinin zəif inkişafı və iqlimin sərt olmaması həm cəmi enerjiyə, həm də elektrik enerjisinə olan tələbi və istehlak həcmini azaldıb (şək.1 və şək.2) . Orta dünya göstəriciləri ilə müqayisə etsək, 1990-1996-cı illər arası dövrdə cəmi enerjidən, 1990-1993-cü illərə arası dövrdə isə elektrik enerjisindən adambaşına istifadə həminə görə Azərbaycan orta dünya göstəricisini üstələyirdi. Sonrakı illərdə isə Azərbaycanda adambaşına elektrik enerjisi istehlakı həcmi kəskin azalıb. Azərbaycanda istehlak olunan elektrik enerjisinin cəmi enerji istehlakında da payı orta dünya göstəricisindən əsasən azdır (şək. 3). Bunun da səbəbini ölkədə qazdan istifadə dərəcəsinin yüksək olması ilə izah etmək olar. Elektrik enerjisindən istifadə həcminin iqtisadi inkişafla və həyat keyfiyyəti ilə əlaqəsini danmaq olmaz. Belə ki, inkişaf etmiş ölkələrdə adambaşına elektrik enerjisindən istifadə həcmi inkişaf etməkdə olan ölkələrdən daha yüksəkdir. Lakin elektrik enerjisindən istifadə həcmi təkcə iqtisadi inkişaf səviyyəsindən asılı deyil, həm də ölkənin iqlim şəraitindən, ölkədə elektrik enerjisinə böyük tələb yaradan sənaye sahələrinin inkişaf səviyyəsindən və digər enerji mənbələri ilə zənginlikdən də asılıdır.Məsələn, İslandiyada adambaşına ÜDM həcmi 2014-cü ildə 54242 ABŞ dolları olub. Bu rəqəm Lüksemburq, Norveç, İsveçrə, Qətər, Danimarka, Avstraliya, İsveç və digər ölkələrdən az olduğu halda adambaşına elektrik enerjisindən istifadə həcmi yüksəkdir. İslandiyada adambaşına elektrik enerjisindən istifadə həcmi 50 min kVt.saatdan çox olaraq, dünyada ən yüksəkdir. Bu, adambaşına orta hesabla hər ay təqribən 4170 kVt.saat, gündə 137 kVt saat və ya hər 1 saatda 5.7 kVt.saat elektrik enerjisi deməkdir. Müqayisə üçün qeyd edək ki, 2014-cü ildə Azərbaycanda bu rəqəm, ildə təqribən 2202.4 kVt.saat, ayda 183.5 kVt.saat, gündə 6.03 kVt.saat, hər 1 saatda isə orta hesabla təqribən 0.25 kVt.saat edir. Azərbaycanda adambaşına elektrik enerjisi istehlakı İslandiyadakına nisbətən təqribən 24.4 dəfə azdır. Lakin nəzərə alsaq ki, enerjiyə olan tələbin mühüm hissəsini Azərbaycan qazın hesabına ödəyir, onda bu fərq xeyli azalar. Ona görə də adambaşına elektrik enerjisindən istifadə həcminə görə ölkələrin müqayisə edilməsində digər enerji mənbələrinin payının da qiymətləndirilməsinə ehtiyac var.




**Şək. 1. Adambaşına enerji istehlakı (kq neft ekvivalenti [3] ilə)**




**Şək.2. Adambaşına elektrik enerjisi istehlakı (kVt.s)**

Araşdırmalar göstərir ki, neft, qaz və ya kömür ehtiyatları az olan ölkələrdə və ya ətraf mühitin təmizliyini, texnoloji yenilikləri dəstəkləyən inkişaf etmiş ölkələrdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə həcmi yüksəkdir. Məsələn, Əfqanıstanda və ya Burundidə BOEM-in cəmi enerji istehlakında payı Birləşmiş Ərəb Əmirliyində və Azərbaycanda olduğundan yüksəkdir. Hətta əksər inkişaf etməkdə olan, lakin neft, qaz və kömür ehtiyatları az olan ölkələrdə BOEM-in ümumi enerji istehlakındakı payı inkişaf etmiş ölkələrdən də yüksəkdir. Bunun əsas səbəbi həm də inkişaf etməkdə olan ölkələrdə enerjidən ümumi istifadə səviyyəsinin aşağı olması ilə bağlıdır (şək.4.5). Məsələn, Anqolada 2015-ci ildə cəmi enerji istehlakında BOEM-in payı 50%-ə yaxın olub. Həmin ildə Azərbaycanda bu göstərici 2.3%, Almaniyada 14% olub. Bu üç ölkədə enerji istehlak həcmi bir-birindən ciddi fərqlənir. Anqolada adambaşına enerji istehlakı 544 kq neft ekvivalenti (kq.n.ek.) , Azərbaycanda 1502 kq.n.ek, Almaniyada isə 3800 kq.n.ek. olub. Beləliklə, əslində bu ölkələr arasında adambaşına BOEM-dən istifadə həcmi, uyğun olaraq, 272 kq.n.ek., 30 kq.n.ek. və 532 kq.n.ek. olub. Belə müqayisə göstərir ki, inkişaf etmiş ölkələrdə və karbohidrogen enerji ehtiyatları az olan ölkələrdə BOEM-dən istifadə həcmi daha yüksəkdir.

Karbohidrogen ehtiyatları, xüsusilə, neft və qaz ehtiyatları zəngin olan ölkələrdə BOEM-dən istifadə həcminin genişləndirilməsi üçün investisiyaların genişləndirilməsinin zəruriliyi belə bir sual doğurur: kiçik ölkələrdə zəngin neft və qaz ehtiyatlarından elektrik enerjisi əldə etmək əvəzinə BOEM-nin inkişaf etdirilməsi nə qədər məqsədəuyğundur? Çünki BOEM-ndən elektrik enerjisi əldə etmək üçün zəruri infrastrukturlar müəyyən yaşama dövrünə malikdir. Məsələn, müasir KES-nın yaşama dövrü təqribən 20 ildir. Hər bir kVt güc üçün tələb olunan investisiya isə 1000 ABŞ dollarından çoxdur.




**Şək. 3. Elektrik enerjisi istehlakının ümumi enerji istehlakında payı**




**Şək.4. BOEM üzrə enerji istehlakının cəmi enerjisi istehlakında payı**

Araşdırmalar sübut edir ki, hətta inkişaf etmiş ölkələr karbohidrogen enerjisindən istifadəyə daha çox üstünlük verərək BOEM-dən istifadənin genişlənməsinə tələsmirlər. Adambaşına ÜDM həcmi 50 min ABŞ dollarından yüksək olan çoxlu sayda ölkələr var ki, bu ölkələrdə BOEM-ın ümumi enerji istehlakındakı payı 20%-dən azdır (Şək.4). Dünya üzrə cəmi enerjisi istehlakında BOEM payı 20% hələ çatmır. Azərbaycanda isə bu rəqəm hələ 5%-ə çatmır. Qeyd etdiyimiz kimi bu göstəricilərin ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə elə də ciddi əlaqəsi yoxdur. Karbohidrogen ehtiyatlarından elektrik enerjisinin əldə edilməsi ətraf mühitə ciddi ziyan vursa da hətta inkişaf etmiş ölkələr karbohidrogen enerjisindən tam uzaqlaşmaq və onu BOEM ilə əvəz etmək istəmirlər. BOEM üzrə texnologiyaların hələ kifayət qədər təkmil olmaması səbəbindən əldə edilən enerjinin başa gəlməsidirsə, digər mühüm səbəbi karbohidrogen enerjisinin asan və ucuz əldə edilməsidir. Lakin buna baxmayaraq, ölkələrin iqtisadi inkişafı BOEM-dən istifadə həcmini getdikcə artırmağa sövq edir (şək.6). Adambaşına enerjidən istifadə həcminin adambaşına ÜDM həcmindən asılılığı göstərir ki, bu göstəricilər arasında müəyyən pozitiv əlaqə var.




**Şək. 5. BOEM-in ümumi enerji istehlakında payının (%)(Y-oxu) a.b. ÜDM həcmindən (X-oxu) asılılığı**




**Şək. 6. Adambaşına enerjidən istifadə həcminin-kq neft ekvivalenti ilə (Y-oxu) adambaşına ÜDM həcmindən (X-oxu) asılılığı**

Azərbaycanda da son 20 ildə baş verən iqtisadi inkişaf BOEM-in müxtəlif formalarının, xüsusilə, KES, GES və SES-nın inkişafına maliyyə imkanları yaratdı. 2009-cu ildən başlayaraq, Azərbaycanda KES-nın genişləndirilməsi üçün zəruri addımlar atılıb.




**Şək. 7. BOEM üzrə istehsal həcminin ümumi elektrik enerji istehsalı həcmində payı**




**Şək. 8. KES üzrə istehsal həcminin ümumi elektrik enerji istehsalında payı**

### *Azərbaycanda Külək Elektrik Stansiyalarından (RES) istifadə tarixi*

Hələ qədimdən Azərbaycanda külək enerjisindən müxtəlif məqsədlər üçün istifadə edilib. Onlardan ən geniş yayılanı yel dəyirmanları olub. Keçən əsrin əvvəllərində Azərbaycan ərazisində

çoxlu sayda sadə şəkildə hazırlanmış külək elektrik mühərriklərindən fərdi təsərrüfatlarda suvarma məqsədilə istifadə olunmuşdur. Kiçik güclü, sadə konstruksiyalı, külək enerjisindən istifadə əmsalı kiçik olan belə qurğular əhali arasında çox geniş yayılmışdır. Sonrakı illərdə, Sovet İttifaqının tərkibində olarkən respublikamızda XX əsrin 40-50- ci illərində TB-5, TB-8 tipli alçaq sürətli və D-12, BЭ-2 tipli iti sürətli külək elektrik mühərrikləri istismar olunmuşdur. Amma, konstruksiyasının mükəmməl olmaması və texniki çatışmazlıqlar səbəbindən belə külək elektrik mühərrikləri geniş yayılmamışdır.

Keçən əsrin 60-80-cı illərdə Maştağa qəsəbəsində "Vetroen" Elm İstehsalat Birliyinin istehsal etdiyi külək elektrik mühərriklərinin yoxlanılması və sınağı üçün xüsusi stansiyası yaradılmışdır. Bir neçə il sonra gücü 4 kVt, pərlərinin diametri 6 m olan АВЭУ-6 tipli külək elektrik qurğusunun (KEQ) ilk partiyası buraxılmışdır. Göstərilən külək elektrik mühərrikləri, Maştağa qəsəbəsində olan poliqonda sınaqdan keçirilmiş və sifarişlərə müvafiq olaraq, bəzi Sovet İttifaqının bəzi regionlarına, xüsusilə, Cənubi Qafqaz və Orta Asiya respublikalarına göndərilmişdir. Hələ Sovet İttifaqı dövründə Azərbaycanda külək elektrik mühərriklərinin istehsalı üzrə tədqiqatların və istehsalın diqqət mərkəzində saxlanması müsbət hal idi. Lakin sonralar sənaye sahəsinin belə mütərəqqi və bilik tutumlu sahəsi inkişaf etdirilməyib.

Azərbaycanın Xəzərətrafı zonası güclü külək energetik xarakteristikasına malikdir. Ona görədə ölkəmizdə külək elektrik qurğularından istifadə ilə bağlı vaxtaşırı təkliflər olurdu. Keçmiş Sovet İttifaqda işlənib hazırlanmış külək elektrik qurğuları (KEQ) da əksər hallarda burada sınaqdan keçirilirdi. Lakin təəssüf ki, Sovet İttifaqında istehsal olunan KEQ texniki cəhətdən mükəmməl olmadıqlarına görə onların uzunmüddətli istismarı həyata keçirilmirdi. Alternativ enerji mənbələrindən istifadə baxımından külək enerjisindən istifadə olduqca əlverişlidir. Külək qurgularından alınan elektrik enerjisi öz istifadəsi səmərəsi baxımından kiçik güclü su elektrik stansiyaları ilə rəqabət aparmaq qabiliyyətinə malikdir. Dünyanın bir çox inkişaf etmiş ölkələrində Külək Enerji Qurğuları istehsalı ilə məşğul olan sənaye sahələri yaranmış və müvəffəqiyyətlə fəaliyyət göstərir. Külək enerji potensialına malik olan ölkələrdə artıq enerjinin bu növündən artan dinamika ilə istifadə olunmağa başlamışdır. Azərbaycan ərazisində külək enerjisindən istifadə sahəsində primitiv şəkildə olsa da, müəyyən təcrübə mövcud olmuşdur.

Azərbaycanda Su Elektrik Stansiyaları (SES) və Günəş Elektrik Stansiyaları ilə müqayisədə KES-dan istifadə tarixi daha yenidir. 2004-cü ilin 21 oktyabr tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramının" təsdiq edilməsi ölkədə KES-nın inkişafına təkan verdi. Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin icrası istiqamətində həyata keçirilən tədbirlərdən biri də 2008-ci ilin 15 sentyabrından ölkəyə gətirilən külək enerjili elektrik qurğularının əlavə dəyər vergisindən azad olunması idi. Daha sonra tarif şurasının qərarı ilə KES-nın fəaliyyətinin stimullaşdırılması məqsədilə KES-lərdə istehsal olunan elektrik enerjisinin hər 1 kVt.s üçün satış qiyməti 4.5 qəpik (5.6 sent) müəyyən edildi. Qeyd edək ki, həmin dövrdə istilik elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin satış qiyməti xeyli aşağı idi.

2008-ci ildə "Kaspian Texnoloji Şirkəti" MMC gücü 1.7MVt olan Yeni Yaşma Külək parkını yaratdı. Bu KES-da hər birinin gücü 850 kVt olan 2 ədəd Vestas V52 tipli külək trubinləri quraşdırıldı. "Kaspian Texnoloji Şirkəti" MMC tərəfindən külək və günəş elektrik enerjisi potensialının öyrənilməsi məqsədilə hündürlüyü 63 m olan 2 ölçü-müşahidə stansiyalarının yaradılması gələcəkdə külək enerjisindən istifadənin genişlənməsi üçün yaxşı imkanlar yaratdı.

AR Prezidentinin 16 iyul 2009-cu il tarixli Fərmanı ilə Sənaye və Energetika Nazirliyinin Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılması da bu sahədə Azərbaycan dövlətinin ardıcıl siyasətinin davamı idi. 2009-cu ildə "Kaspian Texnoloji Şirkəti" MMC

tərəfindən Bakı-Quba yolunun 50-ci km-də gücü 500 kVt olan 1 ədəd Vestas V39 tipli külək elektrik qurğusu əsasında Təlim Mərkəzinin yaradılması bu sahədə yüksək ixtisaslı kadrların hazırlanmasını nəzərdə tuturdu. 2009-cu ildə Xızı rayonu Şurabad qəsəbəsi yaxınlığında hər birinin gücü 3MVt olan 16 ədəd Vestas V90 tipli qurğulardan ibarət 48 MVt-lıq KES quraşdırıldı. Elə həmin ildə "Kaspian management Systems və Aztorq" MMC tərəfindən Yeni Yaşma ərazisində hər birinin gücü 2.5MVt olan 20 ədəd Fuhrlander FL2500 tipli qurğulardan ibarət 50 MVt-lıq KES quraşdırıldı. 2011-ci ildə "Trans TC" MMC tərəfindən hər birinin gücü 900 kVt olmaqla 4 ədəd Powerwind PW56 tipli qurğulardan ibarət 3.6 MVt-lıq Sitalçay KES yaradıldı. 2011-ci ildə isə Alten Qrup Şirkəti tərəfindən Bakı şəhərinin 25 km-liyində yerləşən Hökməli qəsəbəsində 8 MVt gücü olan KES yaradıldı. Bu stansiyada hər birinin gücü 2 MVt olmaqla 4 ədəd Gamesa G78 tipli külək elektrik qurğuları quraşdırıldı. Həmin ildə ABEMDA tərəfindən Qobustan ərazisində Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzində ümumi qoyuluş gücü 5.6 MVt olan hibrid tipli elektrik stansiyası yaradıldı. Bu stansiyada 2.7 MVt külək, 1.8MVt günəş və 1.1MVt biokütlə əsaslı generatorlar quraşdırılmışdır [4].

**Cədvəl 1**

**Azərbaycanda elektrik stansiyalarının gücü, MWt**

| İllər | İlin axırına elektrik stansiyalarının gücü | o cümlədən: | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yanacaqla işləyən ES və İES - cəmi | SES | Külək ES | Günəş ES | Bərk məişət tullantıları zavodu | Bioqaz ES |
| 2009 | 6,390 | 5,401 | 987 | 1.7 | - | - | - |
| 2010 | 6,398 | 5,401 | 995 | 1.7 | - | - | - |
| 2011 | 6,350 | 5,352 | 998 | - | - | - | - |
| 2012 | 6,420 | 5,397 | 1,023 | - | - | - | - |
| 2013 | 7,353.3 | 6,230.1 | 1,082.5 | 2.7 | 1.0 | 37.0 | - |
| 2014 | 7,353.4 | 6,233.4 | 1,077.9 | 2.7 | 2.4 | 37.0 | - |
| 2015 | 7,806.7 | 6,652.8 | 1,103.4 | 7.7 | 4.8 | 37.0 | 1.0 |
| 2016 | 7,910.4 | 6,726.8 | 1,105.0 | 15.7 | 24.9 | 37.0 | 1.0 |
| 2017 | 7,941.5 | 6,748.0 | 1,106.4 | 15.7 | 28.4 | 42.0 | 1.0 |

***Mənbə: ARDSK [5]***

2011-ci ildə "AzET və LAEİ" MMC [6] tərəfindən Azərbaycanda külək enerjisinin potensialını dəqiqləşdirmək və külək parametrlərinin sxematik təsvirlərinin yaradılması məqsədilə "Azərbaycan küləklərinin İzodinamik Xəritəsi" hazırlanmışdır. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin 2015-2020-ci illər üzrə nəzərdə tutduğu layihələrin yerinə yetirilməsi nəticəsində Xəzər dənizinin sahilyanı ərazilərinin külək potensialından istifadə etmək və Xəzər dənizində KES qurulması nəzərdə tutulub. İNOGATE proqramı əsasında aparılan tədqiqatlar göstərir ki, Abşeron yarımadasında külək enerji potensialı 1914 MVt-dan az deyil [7]. Əslində bu həcmin özü Azərbaycanda istehlak olunan elektrik enerjisinin KES hesabına tam ödənilməsinin mümkünsüzlüyünü göstərir. Belə ki, KES-nın ümumi gücünün elektrik enerjisinə çevrilmə əmsalının təqribən 25% hesab etsək onda bu güc istehlak üçün zəruri olan istehsal gücünün maksimum 6-7% təşkil edər. Müqayisə üçün qeyd edək ki, hazırda bu pay 0.2%-dir. Cədvəl 1-də Azərbaycanda müxtəlif mənbələrdən elektrik enerjisi istehsalı gücünün müqayisəli dinamikası verilib. Cədvəldən göründüyü kimi, Azərbaycanda elektrik enerjisi istehsalının əsas mənbəyi istilik elektrik stansiyalarıdır. Ümumi gücün təqribən 85%-i İES-nın payına düşür. Qalan 15% isə BOEM-nin payına düşür. BOEM mənbələri arasında isə SES-nın payı mühüm

çəkiyə malikdir (92.7%). ARDSK-nin 2017-ci il üzrə göstəricilərinə əsasən, digər mənbələrin, o cümlədən, KES-nın, GES-nın və bioqaz ES-nın ümumi elektrik gücünə töhvəsi olduqca azdır.Hətta bu üç mənbənin cəmi elektrik gücü Bərk Məişət Tullantıları Zavodunun gücü qədərdir. Lakin yuxarıda qeyd etdiyimiz kimi, KES-nın gücünün 30-40 dəfə artırılması mümkündür. Buna Azərbaycanda həm təbii şərait, həm də müasir texnologiya imkan verir.

BOEM üzrə işləyən elektrik stansiyalarının, xüsusilə KES-nın ənənəvi elektrik stansiyalarından mühüm fərqi həm də ondadır ki, KES-da yaranan elektrik enerjisikəsilmələrə malikdir və onların akkumlyasiyasına ehtiyac var. Küləyin sürətindən asılı olaraq, elektrik enerjisi istehsalı mümkün və ya qeyri-mümkün ola bilir. Ona görə də istehsal olunan elektrik enerjisinin mühüm hissəsinin BOEM ilə əvəz edilməsi hələ ki, çətin texnoloji proses olaraq qalır. Azərbaycanda fəaliyyət göstərən KES-nın gücündən orta hesabla 25%-lik əmsalla elektrik enerjisi almaq mümkün olur. Ölkə üzrə elektrik enerjisinin ümumi gücünün təqribən 35%-dən istifadə edilərək 24.32 mln MVt saat enerji istehsal edilir. Bunun az bir hissəsi (cəmi 22.1 min MVt.saat) KES-nın payına düşür. Bu ümumi elektrik enerjisi istehsalının cəmi 0.091% təşkil edir. Bu, KES-nın ümumi gücünün 16.1% -ndən istifadə deməkdir. KES-dan alınan enerjinin miqdarı SES-dan, tullantıların yanmasından alınan elektrik enerjisinin və GES-nın istehsal etdiyi elektrik enerjisinin həcmindən xeyli azdır.

**Cədvəl 2**

**Azərbaycanda müxtəlif mənbələrdən elektrik enerjisi istehsalı (mln.KWt.saat)**

| İllər | Elektrik enerjisinin istehsalı | o cümlədən: | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | yanacaqla işləyən ES və İES-lərin istehsalı | SES-lərin istehsalı | KES istehsalı | GES istehsalı | tullantıların yandırılmasından alınan elektrik enerjisi | Cəmi BOEM |
| 2009 | 18,869 | 16558.2 | 2,308 | 2.1 | - | - | 2,310 |
| 2010 | 18,710 | 15262.7 | 3,446 | 0.5 | - | - | 3,447 |
| 2011 | 20,294 | 17618 | 2,676 | - | - | - | 2,676 |
| 2012 | 22,988 | 21167 | 1,821 | - | - | - | 1,821 |
| 2013 | 23,354.40 | 21729.6 | 1,489.10 | 0.8 | 0.8 | 134.1 | 1,625 |
| 2014 | 24,727.70 | 23249.3 | 1,299.70 | 2.3 | 2.9 | 173.5 | 1,478 |
| 2015 | 24,688.40 | 22859.9 | 1,637.50 | 4.6 | 4.6 | 181.8 | 1,829 |
| 2016 | 24,952.90 | 22761 | 1,959.30 | 22.8 | 35.3 | 174.5 | 2,192 |
| 2017 | 24,320.90 | 22344.9 | 1,746.40 | 22.1 | 37.2 | 170.3 | 1,976 |

***Mənbə: ARDSK [5]***

Azərbaycanda BOEM üzrə yaradılan elektrik enerjisi gücünün ənənəvi elektrik enerjisi istehsalı gücündən xeyli az olması bəzi səbəblərlə bağlıdır: 1) Azərbaycanda neft və qaz ehtiyatları zəngindir və daha asan əlçatandır; 2) neft məhsulları və ya qazla işləyən istilik elektrik stansiyalarında daha asanlıqla və davamlı olaraq enerji istehsalını reallaşdırmaq mümkündür; 3) ənənəvi elektrik stansiyalarının istehsal etdikləri elektrik enerjisi ucuz başa gəlir; 4) istehsal edilən elektrik enerjisinin həcminin müəyyən intervallarla idarə edilməsinin mümkündür; 5) Azərbaycan ərazisində elə ucqar regionlar yoxdur ki, ora elektrik şəbəkəsindən elektrik enerjisinin verilməsi ciddi çətinlik yaratsın və ya baha başa gəlsin və sair. Məhz neft və qazla işləyən İES vasitəsilə Azərbaycanın regionları elektrik enerjisi ilə təmin etməyə tam imkan verir. Bir neçə SES-nın istehsal etdiyi elektrik enerjisi İES-nın yükünü bir

qədər azaldır. Azərbaycanda BOEM üzrə elektrik enerjisi istehsal edən stansiyaların cəmi gücü son illər müəyyən qədər artsa da ümumi elektrik enerjisi istehsalı gücündə azalma hiss edilir. Bütün hallarda, bu pay 20%-i ötmür və 2017-ci ildə 18% olub (şək. 4.9). 2009-cu ildən isə KES-nın genişləndirilməsi nəticəsində belə mənbədən alınan elektrik enerjisinin həcmində xeyli artım olub. Lakin Azərbaycanın cəmi elektrik enerjisi istehsalı gücündə KES-nın payı hətta 2017-ci ildə 0,2%-i ötməyib (şək.10). İstehsal olunan elektrik enerjisinin həcmində isə KES-nın payı hətta 0.1%-ə çatmır.




**Şək. 9. Azərbaycanda BOEM üzrə istehsal gücünün ümumi elektrik istehsalı gücündə payı**




**Şək. 10. Azərbaycanda KES üzrə istehsal gücünün ümumi elektrik istehsalı gücündə payı**

Müayisə üçün qeyd edək ki, qünya üzrə KES-nın cəmi enerji gücü 2017-ci ildə 546388 MWt-ı ötdü. Bu 2001-ci illə müqayisədə 23 dəfə çoxdur [7]. Dünya üzrə BOEM-nin cəmi gücü isə 2017-ci ildə 2179099 MWt-dan çox olmuşdur [8]. Yəni KES-lərin gücü ümumi BOEM-in gücünün 25% təşkil edir. Təəssüf ki, Azərbaycanda nə BOEM-in ümumi enerji istehsalındakı gücünü, nə də KES-nın gücünün BOEM-dəki payını orta dünya səviyyəsinə yüksəlmək mümkün olmayıb. Belə ki, Azərbaycanda BOEM-in əsas növü SES-dır və 2017-ci ildə KES-in istehsal gücü BOEM-in ümumi gücünün 1.3%-ni təşkil edib(şək 11). BOEM üzrə elektrik enerjisi istehsalı həcmində də KES-in payı 1,1% olub (şək.12) [9]




**Şək.11. Azərbaycanda KES-nın BOEM üzrə ümumi enerji istehsalı gücündə payı**




**Şək.12. Azərbaycanda KES-nın BOEM üzrə ümumi enerji istehsalında payı**

## NƏTİCƏ

Azərbaycanda elektrik enerjisi sisteminin bütün həlqələri, o cümlədən istehsal, ötürülmə, paylanma və satış tam şəkildə dövlətin təbii monopoliyasındadır. BOEM-nin ənənəvi elektrik

stansiyalarından digər mühüm fərqi də ondan ibarətdir ki, onların mərkəzləşdirilmiş şəbəkəyə qoşulmadan fəaliyyət göstərmək imkanı vardır. Elektrik enerjisi sənayesində əks mərkəzləşmənin mümkünlüyü bu sektorda rəqabətli bazarın formalaşmasını da mükün edir. Azərbaycanda KES-ı tam şəkildə "Azərenerji" nəzarətində olan şəbəkəyə qoşulublar. Lakin onların bir hissəsi özəl mülkiyyətdə olmaqla fəaliyyət göstərirlər. Özəl KES-nın gücü dövlət mülkiyyətində olan KES-nın gücü ilə müqayisə ediləcək dərəcədədir (21 MVt). Azərbaycanda KES-nın tikintisi də özəl şirkətlər tərəfindən dövlətin sifarişi əsasında reallaşıb. Özəl şirkətlərin BOEM-in inkişaf etdirilməsi layihəsinə, o cümlədən KES-nın quraşdırılmasına və istifadəsinə cəlb edilməsi dövlət-özəl əməkdaşlığını inkişaf etdirməklə yanaşı, həm də gələcəkdə elektrik enerjisi sisteminin hər hansı bir mərhələsinin rəqabətli bazarda inkişaf etdirilməsinə şərait yaradar.

### *İstifadə edilmiş ədəbiyyat:*

**1.** https://www.bp.com/content/dam/bp/business-sites/en/global/corporate/pdfs/energy-economics/statistical-review/bp-stats-review-2018-full-report.pdf
**2.** Azərbaycan Respublikası Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi. Strateji Plan (2015-2018). Səh.3. http://area.gov.az/public/uploads/ AgentliyinEmr/ strateji% 20plan_%C6%8Fmr-21.pdf
**3.** 1 ton neft ekvivalenti=11630 kWt.h
**4.** Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi. http:// area. gov. az/page/41https://www.stat.gov.az/source/balance_fuel/
**5.** https://www.stat.gov.az/source/balance_fuel/
**6.** Azərbaycan Elmi Tədqiqat Layihə Axtarış Energetika İnstitutu
**7.** https://www.stat.gov.az/source/balance_fuel/
**8.** https://library.wwindea.org/worldwide-wind-statistics-by-country/
**9.** The International Renewable Energy Agency (IRENA) https:/ /irena.org/ publications /2018/Mar/Renewable-Capacity-Statistics-2018

**Э.Р.Мустафаев**
*PhD, Азербайджанский Технический Университет*

### Современное состояние использования ветровой энергии в Азербайджане

**Резюме**

*В последнее десятилетие установка ветряных электростанций по всему миру быстро распространяется и энергия ветра стала важным фактором содействия устойчивому развитию. Задача настоящего исследования - показать текущее состояние глобального расширения ветроэнергетики и развитие ветроэнергетики в Азербайджане.*

***Ключевые слова:*** *Азербайджан, ВИЭ, ветрянная энергетика*

**E.R.Mustafayev**
*PhD, Azerbaijan Technical University*

### The current state of the use of wind energy in Azerbaijan

**Abstract**

*In the past decade, the installation of wind farms around the world has expanded rapidly, and wind power has become an important factor in promoting sustainable development. The objective of this study is to show the current state of the global expansion of wind energy and the development of wind energy in Azerbaijan.*

***Keywords:*** *Azerbaijan, renewable energy sources, wind energy*

**UOT: 330.341.4: 330.342; 338.33**

**N.M.İslamova**
***dissertant, Bakı Dövlət Universiteti***

# AZƏRBAYCANDA BİZNES MÜHİTİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

*Məqalədə beynəlxalq ticarət göstəricilərinə əsaslanaraq Azərbaycandakı ticarət mühitinin qısa təhlilinə diqqət yetirilir. Ticarət mühitinin keyfiyyət qiymətləndirməsi iş mühitinin ayrı-ayrı komponentlərinin səviyyəsinin qiymətləndirilməsidir. Uzunmüddətli iqtisadi böyümə üçün şərait yaradan yüksək keyfiyyətli iş mühiti, biznesin inkişafı və ölkənin rəqabət qabiliyyətinin artırılması üçün əsas şərtdir. Ölkədəki ticarət mühitinin elementləri ticarət və hüquq-mühafizə, inzibati və maliyyə yükləri (vergi və rüsumlar), iş azadlığı və ticarət infrastrukturuna müdaxilə (istehsal və ticarət xidmətlərinin əsas amillərinin şərtləri, keyfiyyəti və mövcudluğu) üçün hüquqi baza təşkil edir. Buradan aydın olur ki, iş mühiti bir çox sahəni əhatə edən kompleks bir dəyişəndir.*

***Açar sözlər:*** *iş mühiti, rəqabətqabiliyyətlilik, biznes mühiti, vergi yükü*

## GİRİŞ

Biz Azərbaycanda biznes mühitinin əlverişliliyini Doing Busines tədqiqat qrupunun hesabatları əsasında qiymətləndirəcəyik. Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi, Doing Busines Tədqiqat Qrupu müəyyən fərzlərə və metodologiyaya əsasında qiymətləndirmələr əsasında bisnes mühitinə aid 11 göstəricini hesablayır. Bu göstəricilər əslində dövlətin biznes mühitinə müdaxiləsini xarakterizə edir. Göstəricilərin yüksək olması dövlətin biznesə müdaxiləsinin daha çox olduğunu bildirir. Bu göstəricilər

**1)** biznesə başlamanın asanlığı (Starting a Business);
**2)** tikintiyə icazənin alınması (Dealing with Construction Permits);
**3)** elektrik enerjisinə qoşulma (Getting Electricity);
**4)** mülkiyyətin qeydiyyata alınması (Registering Property);
**5)** kreditin əlçatanlığı (Getting Credit);
**6)** kiçik investorların hüquqlarının qorunması (Protecting Minority Investors);
**7)** vergiödəmə (Paying Taxes);
**8)** xarici ticarətin asanlığı (Trading across Borders);
**9)** müqavilə öhdəliklərinin məcburi yerinə yetirilməsi (Enforcing Contracts);
**10)** ödəmə qabiliyyətinin olmamasının həll edilməsi (Resolving Insolvency);
**11)** işə qəbul (Employing Workers) [1].

Hər bir göstəricinin hesablanması müvafiq metodologiyaya əsaslanır.

Qeyd edək ki, Doing Busines Tədqiqat Qrupunun kəmiyyətcə qiymətləndirdiyi bu göstəricilərin bəziləri mahiyyətcə iki qütblü hesab edilə bilər. Bir qütbdə biznes fəaliyyətinin asanlaşdırılması və bu sahəyə dövlət müdaxiləsinin azaldılması durursa, digər qütbdə belə biznesin birbaşa və ya dolayısı ilə təsir göstərdiyi əhali qrupunun sosial vəziyyətinə təsirlər durur. Bəzi hallarda biznes fəaliyyətinin asanlaşdırılması əhalinin sosial vəziyyətinə mənfi təsir edə bildiyindən belə asanlaşdırma prosesi ciddi hesablamalar əsasında aparılmalıdır. Məsələn, vergiödəmə göstəricisi üzrə biznes mühitinin yaxşılaşdırılması elə ölçüdə olmalıdır ki, həm bundan biznes qrumları faydalana bilsin, həm də zərur həcmdə büdcə yığımları təmin edilsin. Yuxarıda qeyd etdiyimiz sub-indekslərdən bəziləri iki qütblü

deyil və belə sub-indekslər üzrə biznes mühütinin yaxşılaşdırılması istiqamətində atılan hər bir addım pozitiv nəticə verə bilər. Məsələn, biznesin başlanması üçün şirkətin qeydiyyata alınması proseduru nə qədər asan olarsa, bir o qədər iqtisadi fəaliyyət genişlənə bilər. İqtisadi aktivliyin artırılmasının həm də yeni iş yerlərinin yaradılmasına faydası vardır və bu sahədə təkqütblük təmin edilir. İkiqütblü mahiyyət daşıyan müdaxilə formaları üzrə optimal müdaxilə dərəcəsinin tapılması biznes mühitinin əlverişliliyinin optimal həddi ola bilər. Biz sonrakı paraqraflarda belə mahiyyətli müdaxilə formaları üzrə optimal həddin tapılması üçün panel analizdən istifadə edəcəyik.

**Biznesə başlamanın asanlığı (Starting a Business) sub-indeksi üzrə Azərbaycanın reytinqinin qiymətləndirilməsi**

Doing Business tərəfindən bu sub-indeks hazırlanarkən fərz edilir ki, tələb olunan hər hansı bir məlumat asan əldə edilir, şirkətlərin yaranması prosesinə cəlb olunan hökumət və qeyri-hökumət orqanları isə səmərəli və korrusiya olmadan fəaliyyət göstərir. Müxtəlif növ və ölçülü şirkətlərin yaranmasını tənzimləyən qaydalar ayrı-ayrı ölkələrdə əhəmiyyətli dərəcədə fərqlənirlər. Məlumatların ölkələrarası müqayisəsi üçün qeydiyyat prosedurları və yaradılan müəssisələr haqda bir-neçə fərziyyə irəli sürülmüşdür.

Belə ki, fərz edilir ki, ***şirkət*** məhdud məsuliyyətkidir və ölkənin ən çox əhali məskunlaşan şəhərində yerləşir. Həmçinin fərz edilir ki, şirkət tamamilə yerli sahibkarlara məxsusdur və 5 sahibi var, onların heç biri hüquqi şəxs deyildir. Şirkət istehsal və ya kommersiya fəaliyyəti ilə məşğuldur və fəaliyyət göstərmək üçüb bütün sənaye, ticarət və ofis binalarını icarəyə götürür. Ölkələrarası müqayisənin aparılmasının asanlığı üçün həm də fərz edilir ki, fəaliyyətə başladıqdan bir ay sonra 50-yə yaxın işçisi var və onların hamısı bu ölkənin vətəndaşlarıdır. Şirkətin dövriyyəsi adambaşına orta gəlirdən ən azı 100 dəfə artıq dövriyyəyə malikdir. Doing Busines qiymətləndirmə zamanı prosedurlar üçün də müəyyən fərzləri qəbul edir.

Bu sub-indeks üç alt-indeksin - a) şirkətin qeydiyyata alınması üçün prosedurların sayı; b)şirkətin yaradılması üçün tələb olunan zaman; c) şirkətin yaradılması üçün tələb olunan xərc alt-indeksin əsasında hesablanır. Doing Business-in 2019-cu il üzrə hazırladığı hesabatda bu sub-indeks üzrə ölkələrin sıralanmasında Yeni Zelandiya 1-ci, Venesuela isə 190-cı (ən sonuncu) yerdə qərarlaşıb. Azərbaycan bu göstərici üzrə 190 ölkə arasında 9-cu yerdə olub. Bu əslində kifayət qədər yüksək göstəricidir. Hazırda Azərbaycanda biznesə başlamaq üçün şirkət qeydiyyatı olduqca sadələşdirilmişdir. Müəssisənin qeydiyyata alınması üçün cəmi 3 prosedur mövcuddur. Bu prosedurları keçmək üçün isə 3.5 təqvim günü kifayət edir. Prosedurların keçilməsi üçün tələb olunan xərc də əhalinin adambaşına gəlirləri ilə müqayisədə xeyli aşağıdır. Bu zaman adambaşına gəlirlərin yalnız 1.2% qədər xərc tələb olunur. 2018-ci ilin göstəricilərinə görə bu məbləğ təqribən 55 ABŞ dolları və ya 93 manat edirdi. Şirkətin fəaliyyətə başlaması üçün isə minimum depozit məbləği (paid-in min.capital) tələb olunmur. Bu göstərici üzrə Azərbaycan region dövlətlərindən yalnız Gürcüstandan geridə qalır. Gürcüstanın bu göstərici üzrə yalnız Yeni Zelandiyadan geri qalaraq, 2-ci yerdə qərarlaşıb.




**Qrafik 1. Azərbaycanın "biznesə başlamanın asanlığı" sub-indeksinin alt-göstəriciləri üzrə dinamikası**




**Qrafik 2. Azərbaycanın 2019 ildə "biznesə başlamanın asanlığı" sub-indeksinin müqayisəli dinamikası**

Biznez mühitinin əlverişliliyini xarakterizə edən göstəricilərdən biri də bəzi iqtisadi fəaliyyətlə məşğul olmaq üçün xüsusi lisenziyaların tətbiq olunmasıdır. Bu sub-indeks iki qütblü mahiyyət daşıyır. Belə ki, bütün iqtisadi fəaliyyət növləri ilə məşğul olmağın sərbəstliyi bəzi hallarda yerinə yetirilən fəaliyyətin keyfiyyətinə mənfi təsir etməklə yanaşı həm də əhalinin təhlükəsizliyinə təhdid yarada bilər. Məsələn, tibbi dərmanlar istehsalı bu sahədə bilik və bacarıq tələb olunan biznes sahəsidir. Ona görə də belə iqtisadi fəaliyyət növünə xüsusi icazələrin-lisenziyaların verilməsi məqsədəuyğundur. Lakin bu sahələrin elmi cəhətdən seçilməsinə ehtiyac var. Əks halda həddən artıq fəaliyyət sahələrində lisenziyalaşdırma tələb olunarsa, onda biznes fəaliyyəti zəifləmiş olar. Narkotik maddələrin, silahın, o cümlədən, dərman vasitələrinin istehsali və satışı, tibbi yardımın göstərilməsi və s. bu kimi xüsusi bilik və bacarıq tələb edən fəaliyyətin lisenziyalaşdırılmasından imtina etmək olmaz.

DB tərəfindən hazırlanan metodologiya lisenziyalaşma sahəsində ölkədəki vəziyyəti qiymətləndirmək üçün "tikintiyə icazənin alınması"-nın nə dərəcədə asan və ya çətin olmasını modelləşdirir. Başqa sözlə desək, DB hər hansı iqtisadi fəaliyyət sahəsində (konkret olaraq, tikintiyə icazə alınması) lisenziyalaşma prosedurunu qiymətləndirir. Burada da qiymətləndirmə bəzi fərzlər əsasında aparılır. Məsələn, fərz edilir ki, tikinti şirkəti məhdud məsuliyyət daşıyan müəssisəsidir, ölkənin ən çox əhali məskunlaşmış şəhərində fəaliyyət göstərir, tamamilə yerli sahibkarın mülkiyyətidir və 5 sahibi var, onlardan heç biri hüquqi şəxs deyil, anbarların və buna bənzər digər oxşar obyektlərin tikintisi üzrə ixtisaslaşır, tikinti sahəsi üzrə 20 mütəxəssisi və digər əməkdaşları var, onlar ölkənin vətəndaşları olub, kifayət qədər, anbar tikintisində memarlıq layihələrinin və texniki planların işlənib hazırlanması üçün zəruri olan texniki biliklərə və profesional təcrübəyə malikdirlər və sair.

"Tikintiyə icazənin alınması" sub-indeksi üzrə qiymətləndirmələr dörd alt-indeks əsasında hesablanır. Bunlar:

**a)** prosedurların sayı;
**b)** icazənin alınmasına sərf olunan vaxt;
**c)** xərclər;
**d)** tikintinin keyfiyyətinə nəzarət indeksi.

2019-cu ilin qiymətləndirmələrinə görə bu göstərici üzrə 93.5 balla Honq Konq ən yüksək pillədədir. Azərbaycan 73.4 balla 59-cu yerdə qərarlaşıb. 190 ölkə arasında bu göstərici üzrə ən aşağı bal (28.9) Liberiyaya məxsusdur.




**Qrafik 3. Azərbaycanın "Tikintiyə icazənin alınması" sub-indeksinin alt-göstəriciləri üzrə dinamikası**




**Qrafik 4. Azərbaycanın "Tikintiyə icazənin alınması" sub-indeksinin müqayisəli dinamikası**

DB tərəfindən biznes mühitinin əlverişliliyi ilə bağlı hazırlanan metodologiyada birqütblü mahiyyətə malik olan göstəricilərdən biri də "Elektrik enerjisinə qoşulmanın asanlığı" sub-indeksidir. Bu sub-indeks üzrə də biznes mühitinin yaxşılaşması əhalinin sosial vəziyyətinə əks deyil, əksinə ölkədə elektrik enerjisi ilə təminatın və ondan istifadənin asanlığını bildirir. Elektrik enerjisinə qoşulma nə qədər asan olarsa, ondan istifadə imkanları da artar. Bu isə ölkədə daha çox elektrik enerjisinin istehsal edildiyini bildirir.

"Elektrik enerjisinə qoşulma" sub-indeksi də 4 alt-indeksdən ibarətdir:

**a)** qoşulmanın prosedurlarının sayı;
**b)** qoşulmanın vaxtı (gün);
**c)** qoşulma ilə bağlı xərclər (adambaşına gəlirdə %-lə);
**d)** elektrik enerjisinin təchizatında etibarlılıq və tariflərin şəffaflığı.

2019-cu il üzrə bu göstəricilərin əsasında hesablanan "elektrik enerjisinə qoşulma" sub-indeksinin ölkələrarası müqayisəsində ən yüksək balı (100) Birləşmiş Ərəb Əmirlikləri əldə edib. Ən kişik bal (24.1) isə Madaqaskara aiddir. Azərbaycan bu sub-indeks üzrə 77.3 balla 80-ci yerdə qərarlaşıb. Qeyd edək ki,  Azərbaycanın 190 ölkə arasında 80-ci yerdə qərarlaşmasında əsas rolu prosedurların sayının çox olması oynayıb. Belə ki, Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olan şirkətin elektrik enerjisinə qoşulması və fasiləsiz elektrik enerjisindən istifadə imkanı əldə etmək üçün 41 gün ərzində 7 proseduru keçməlidir. Digər tərəfdən, elektrik enerjisi şəbəkəsinə qoşulmaq üçün adambaşına gəlirin 125.7% qədər xərclər tələb olunur. Bu 9741.75 manat və ya 5730.4 ABŞ dolları edir. Bu məbləğ Azərbaycanda biznes fəaliyyətinin genişlənməsi üçün kifayət qədər böyük məbləğdir və onun azaldılmasına, beləliklə, biznes mühitinin yaxşılaşdırılmasına ehtiyac vardır. Müqayisə üçün qeyd edək ki, Gürcüstan "elektrik enerjisinə qoşulma" sub-indeksi üzrə 190 ölkə arasında 84.4 balla 42-ci yerdə qərarlaşıb. Bu ölkədə prosedurların sayı 3, qoşulma üşün tələb olunan zaman isə 71 gündür. Gürcüstanda elektrik enerjisinə qoşulma xərcləri də Azərbaycana nisbətən bir qədər çoxdur (adambaşına gəlirlərin 145%).




**Qrafik 5. Azərbaycanın “elektrik enerjisinə qoşulma” sub-indeksinin alt-göstəriciləri üzrə dinamikası**




**Qrafik.6. Azərbaycanın “elektrik enerjisinə qoşulma” sub-indeksinin müqayisəli dinamikası**

DB tərəfindən kəmiyyətcə qiymətləndirilən və ölkədə biznes mühitinin inkişafına ciddi təsir göstərən sub-indekslərdən biri də “mülkiyyətin qeydiyyata alınması” sub-indeksidir. Mülkiyyıt hüququnun təmin edilməsi əsas insan hüquqlarındandır. Azərbaycan konstitusiyasında dövlətin mülkiyyətə başlıca münasibətini açıqlayan iki maddə vardır. Onun 13-cü maddəsində göstərilir ki, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur., 29-cu maddəsində isə deyilir ki, hər bir vətəndaşın mülkiyyət hüququ vardır, bütün mülkiyyət formaları bərabərdir və heç bir vətəndaş məhkəmə qərarı olmadan öz mülkiyyətindən məhrum edilə bilməz. Konstitusiya məcburi əmlak müsadirəsinin bütün növlərini inkar edir.

DB tərəfindən kəmiyyətcə qiymətləndirilən “mülkiyyətin qeydiyyata alınması” sub-indeksi də dörd alt-indeksən ibarətdir:

**a)** qeydiyyata alınma zamanı prosedurların sayı;
**b)** qeydiyyata alınmanın tələb etdiyi vaxt (gün);
**c)** qeydiyyat üçün xərclər (mülkün hansı %);
**d)** torpağın idarəedilməsinin keyfiyyəti indeksi (0-30).

Bu göstəricilər əsasında 2019-cu il üzrə hazırlanan hesabatda 75.4 balla 44 yerdə qərarlaşıb. Azərbaycanda mülkiyyətin qeydiyyata alınması üçün prosedurların sayı 4, qeydiyyat üçün tələb olunan zaman izə 5 gündür. Qeydiyyat zamanı qeydiyyata alınan mülkün 12% məbləğində xərc tələb olunur. Torpağın idarəedilməsinin keyfiyyəti indeksi isə 23 ball kimi qiymətləndirilib. Müqayisə üçün qeyd edək ki, 190 ölkə arasında Gürcüstanın bu sub-indeks üzrə 92.9 balla 5-ci yerdə qərarlaşıb. Bu ölkədə mülkiyyətin qeydiyyatı üçün cəmi 1 prosedur var və qeydiyyat 1 günə yekunlaşır. Mülkiyyətin qeydiyyata alınması üçün isə xərc tələb olunmur. 2019-cu il üzrə DB hesabatına əsasən “mülkiyyətin qeydə alınması” sub-indeksi üzrə ən yüksək bal (96.2) Qatar dövlətinə məxsus olub. Bu göstərici üzrə ən az bal (27.5) Afqanıstanın hesabındadır.




**Qrafik 7. Azərbaycanın “mülkiyyətin qeydiyyata alınması” sub-indeksinin alt-göstəriciləri üzrə dinamikası**




**Qrafik 8. Azərbaycanın “mülkiyyətin qeydiyyata alınması” sub-indeksinin müqayisəli dinamikası**

İstənilən ölkədə biznesinin və bütünlüklə iqtisadiyyatının səmərəli inkişafı üçün vacib şərtlərdən biri, nisbətən əlçatan kredit resurslarının mövcudluğudur. Maliyyə resursları da digər resurslar kimi məhduddur. Bir-sıra dövlətlərdə kredit resurslarının çatışmazlığı bir növ təbii xarakter daşıyır, yəni hər bir an üçün iqtisadiyyatın imkanları ilə şərtlənir. Belə vəziyyətdə əsassız kredit emissiyası, labüddən pul sisteminin böhranına gətirib çıxarır. Amma Azərbaycanın da aid olduğu, çox kapitalı olan ölkələr belə, iqtisadiyyatın inkişafına ayrılan kreditlərin ümumi həcmini tənzimləmək məcburiyyətindədirlər, çünki bazarın maliyyə resursları ilə doldurulması makro-iqtisadi sabitliyinin pozulması təhlükəsi yaradır. Lakin bütün hallarda biznesin inkişafı üçün əlverişli faiz dərəcəsi ilə kreditin əlçatanlığı mühüm əhəmiyyət daşıyır. DB tərəfindən təklif edilən “biznes mühitinin əlverişliliyi” indeksinin komponentlərindən biri də “*kredit əldə etməyin mümkünlüyü haqqında informasiya”* nın əlçatanlığıdır. Bu sub-indeks 3 alt-indeksdən ibarətdir: a*)kredit informasiyası indeksi; b) qanuni hüquqların möhkəmliyi indeksi; c) alınan kreditlərin cəmi.*

Kredit informasiyası indeksi *kreditlərlə bağlı məlumatların dolğunluğunu ifadə edərək kreditlər haqda həm dövlət, həm də özəl* agentliklərdən alınan məlumatların həcminə, əlçatanlığına və keyfiyyətinə təsir edən qayda və normaları qiymətləndirir. DB Tədqiqat Qrupunun metodologiyasına əsasən ölkədə kreditlər barədə həm müsbət, həm də mənfi məlumatların yayılmasına, məlumatların həm şirkətləri, həm də fiziki şəxsləri əhatə etməsinə; yayılmış məlumatlara pərakəndə tacirlərdən, ticarət və kommunal xidmət kreditorlarından, həmçinin, maliyyə təşkilalarından alınan məlumatların daxil olması; məlumatların ən azı son 2 ili əhatə etməsi; adambaşına gəlirin 1%-dən artıq dəyərində olan bütün kreditlər haqda məlumatların yayılması və borc alanların özləri haqda məlumat almağa qanuni hüquqlarının olmasına ballar əsasında qiymət verilir.

***Qanuni hüquqların möhkəmlik indeksi*** – kreditorlar və borc alanların qanunvericilikdə göstərilmiş hüquqlarını əks etdirərək, girov və iflas üzrə hüquq normalarının kreditləşməyə nə dərəcədə təsir etdiyini ölçür. Girov və iflas üzrə qanuvericilikdən əlavə, təminatlı ipoteka problemləri haqda sorğular da məlumat mənbəyi rolu oynayırlar. 10 komponentdən üçü iflasla bağlı, yeddisi isə girovla bağlı hüquqlara aiddir. İndeks 0-10 xal arası dəyişir; o, nə qədər yüksəkdirsə, deməli, ölkənin girov və iflas sahəsində qanunvericiliyi o qədər yaxşıdır (onun kreditlərlərlə bağlı məlumatlara çıxışın genişlənməsinə təsiri baxımından).

DB-in 2019-cu il üzrə hesabatına əsasən “Kredit əldə etməyin mümkünlüyü haqqında informasiya” sub-indeksi üzrə 190 ölkə arasında 100 balla ən yüksək reytinqə Yeni Zelandiya, Azərbaycan və Bruney layiq olublar. Hər üç ölkənin bu sub-indeks üzrə alt-göstəriciləri də eynidir

(8;12;20). Bu sub-indeks üzrə ən aşağı göstəriciyə (“0” bal) Yəmən və daha dörd ölkə-İraq, Somali, Eritreya və Liviya ölkələri malik olub.

| | |
|---|---|
|   |   |
| **Qrafik 9. Azərbaycanın “kreditlər haqqında informasiyanın əlçatanlığı” sub-indeksinin alt-göstəriciləri üzrə dinamikası** | **Qrafik 10. Azərbaycanın kreditlər haqqında informasiyanın əlçatanlığı” sub-indeksinin müqayisəli dinamikası** |

Yeni müstəqillik əldə etmiş ölkələrin əksəriyyəti üçün biznüsin inkişafı sahəsində xarakterik olan problemlərdən biri əhalinin geniş təbəqəsinin biznes fəaliyyətindən kənarda qalmasıdır. Bu ölkələrdə iqtisadiyyata investisiya yatırmaq istəyi inkişaf etmiş ölkələrlə müqayisədə xeyli azdır. Bu bir neçə səbəblə bağlı ola bilər. Birincisi, bu ölkələrdə əhalinin böyük əksəriyyəti iqtisadiyyata böyük həcmdə investisiya yatırmaq gücündə deyil. Onlar yalnız bu və ya digər şirkətin az sayda səhmini alamaq gücündədir. İkinci səbəb alınan aksiyaların müqabilində gəlir əldə etmək imkanının çox aşağı olmasıdır. Belə ki, əksər şirkətin fəaliyyəti şəffaf olmadığından illik gəlirlərin məbləği güzlədilir və səhmdarların, xüsusilə kişik səhmdarların divident əldə etmək imkanları məhdudlaşır. Belə səhmdarların hüquqlarının qorunması biznes mühitinin inkişafı üçün vacıbdir. İqtisadi inkişaf tempi və keyfiyyəti əsasən əhalinin əmanətlərinin kapitallaşma ölçüsündən asılıdır – buna kapitalın səhmləşməsi yolu ilə nail olunur. Bu təkcə iqtisadiyyatda investisiyaların ümumi həcminin artmasına kömək etmir, həmçinin, cəmiyyətdə (pay sahibləri) şirkətin səmərəli inkişafına birbaşa maraq yaradır. İri korporasiyalar öz işçilərinin zəhmətini qismən öz səhmləri ilə ödəyərək məhz buna çalışırlar.

Xırda səhmlərin yerləşdirilməsi vasitəsilə iqtisadi dövriyyəyə əhalinin geniş təbəqəsinin əmanətlərini cəlb edilir və kapitalın demokratikləşməsi prosesi baş verir – bunun sayəsində cəmiyyətin sosial-siyasi strukturunda elə dərin dəyişikliklər meydana gətirir ki, keçən əsrin ortalarında klassik kapitalizmin xalq kapitalizminə çevrilişindən danışmaq mümkün olmuşdu.

Parlament demokratiyasını müxalifət azlığının hüquqlarının zəmanətləriylə ölçmək gərəkdiyi kimi, korporativ idarəetmənin demokratikliyini qərarların qəbulunda bilavasitə iştirak etmək üçün kifayət qədər səhm sayına malik olmayan kiçik səhmdarların hüquqlarının nə dərəcədə qorunması ilə ölçmək lazım gəlir. Korporasiyaları faktiki idarə edən iri səhm paketlərinin sahiblərinin, adətən, kiçik səhmdarların maraqlarının ziyanına olaraq, şirkətin aktivlərini öz şəxsi maraqları üçün istifadə etmək imkanları var. Buna klassik nümunə kimi, xərclərin qəsdən artırılmasını göstərmək olar ki, bu da öz növbəsində səhmlər üzrə dividentlərin azalmasına səbəb olur.

Hər hansı bir ölkənin qanunvericiliyi belə sui-istifadələrə qarşı yetərincə effektiv qoruyucu mexanizmlər yaratmadığı, və səhmdar şirkətlərin real rejimdə iri səhm paketlərinə malik bir-neçə (və ya, hətta bir) sahibkara məxsus özəl müəssisələr kimi fəaliyyət göstərdiyi halda, əhali öz əmanətlərini

kapitala qoymaqdan imtina edir. Xüsusilə, Azərbaycanda əhalinin özəlləşdirmə çeklərindən (vauçerlər) gözlənildiyindən daha zəif şəkildə istifadəsini bu problemin ayrıca bir növü hesab etmək olar.

DB Tədqiqat Qrupu biznes mühitinin əlverişliliyinin kəmiyyətcə qiymətləndirilməsində kiçik səhmdarların hüquqlarının qorunması ilə bağlı komponenti də nəzərə alıb. Bu sub-indeks 7 al-indeksdən ibarətdir:

a) *Transaksiyaların şəffaflığı indeksi (0-10) (disclosure index);*
*b) direktorun məsuliyyət dərəcəsi indeksi (0-10) (director liability index);*
*c) səhmdarlar tərəfindən iddia qaldırılmasının sadəliyi (0-10) (shareholder suits index);*
*d)səhmdarların hüquqlarının müdafiəsi indeksi (0-6)(shareholder rights index);*
*e) sahibkarlıq və nəzarət indeksi (0-7)(ownership and control index);*
*f) corporativ şəffaflıq indeksi (0-7) (corporative transparency index);*
*g) kiçik investorların müdafiəsinin gücləndirilməsi indeksi (0-50) (strength of minority protection index).*

Hər alt-göstəriciyə aid olan sullara cavablar əsasında ballar hesablanaraq DB-in metodologiyasına əsasən bu sub-indeks hesablanır.

2019-cu il üzrə DB – in hesabatlarına əsasən "kiçik investorların müdafiəsi" sub-indeksi üzrə ən yüksək reytinq Kenya dövlətinə verilib. Maraqlıdır ki, inkişaf etmiş ölkələr bu göstərici üzrə o qədər də yüksək reytinqə malik deyillər. Məsələn, Norvec 21-ci yerdə, İsveç 28-ci yerdə, ABŞ 36-cı yerdə, Fransa 45-ci yerdə, Niderland 79-cu yerdə qərarlaşıb. Bu göstərici üzrə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin qarışıq paylanmasınən əsas səbəbi bu göstəricinin iki qütblü mahiyyəti ilə bağlıdır. Belə ki, kiçik investorların daha yaxşı qorunması müəyyən hallarda dövlətin biznes mühitinə müdaxiləsinin artmasını tələb edir. Belə müdaxilə isə qısamüddətli dövrdə biznes mühitinin zəifləməsinə səbəb olur. Bu halda dövlətin biznes mühitinə müdaxiləsinin optimal həddinin tapılmasına ehtiyac olur. Əks halda, biznes mühitinə müdaxilə iqtisadi inkişafa mənfi təsir edə bilər. Optimal həddə yaxınlaşma halında isə iqtisadi inkişafa müsbət təsir müşahidə olunmalıdır. Belə təsirlər eyni anda olmaya da bilər. Yəni iqtisadi inkişafın iqtisadi siyasətə "cavab reaksiyası" adətən müəyyən laq-larla baş verir. DB-in 2019-cu il Hesabatına əsasən "Kiçik investorların müdafiəsi" sub-indeksi üzrə Azərbaycan 50 balla 105-ci yerdə qərarlaşıb. Bu yerin nə dərəcədə aşağı və ya yuxarı olması haqqında fikir söyləmək çətindir. Çünki bu göstərici üzrə "optimal yerin" müəyyənləşdirilməsi ciddi hesablamaların aparılmasını tələb edir. Üç alt-indekslər üzrə, yəni *d)səhmdarların hüquqlarının müdafiəsi indeksi; e) sahibkarlıq və nəzarət indeksi; f) corporativ şəffaflıq indeksi üzrə* Azərbaycanın göstəriciləri "0" balla qiymətləndirilib. Şübhəsiz ki, bu alt-göstəricilər üzrə Azərbaycan "optimal həddən" xeyli kənardadır.




**Qrafik 11. Azərbaycanın 2019 ildə"kiçik investorların müdafiəsi" sub-indeksinin alt-göstəriciləri üzrə dinamikası**

DB-in “biznes mühitinin əlverişliliyi” indeksinə daxil olan digər mühüm komponent “vergiqoyma” sub-indeksidir. Şübhısiz ki, vergi hər bir ölkənin büdcə gəlirlərinin təmin edilməsində əsas rol oynayır. Hamı qəbul edir ki, verginin ödənilməsi vacibdir. Digər tərəfdən əksər hallarda vergilərin yüksək olmasından narazılıq ifadə edilir. Verginin sayı, növü və həcmi ilə bağlı mübahisələr həm cəmiyyətdə, həm də elmi ədəbiyyatda uzun illərdir ki, diskussiya predmetidir. Vergi yükü nə qədər olmalıdır ki, həm dövlət büdcəsinin gəlirləri təmin edilsin, həm də biznesin fəaliyyəti üçün normal şərait yaradılmış olsun. Vergilərin artırılması büdcə gəlirlərin müəyyən qədər artıra bilər. lakin onun yenidən artırılması büdcə gəlirlərini azalda bilər, ona görə ki, verginin artması səbəbindən biznes strukturları öz fəaliyyətini dayandıra bilər. Ona görə də hər bir ölkə üçün optimal vergilərin təyin edilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Bu mənada DB-in “vergoqoyma” sub-indeksi iki qütblü mahiyyət daşıyır. Ona görə də bu göstərici üzrə yüksək və ya aşağı reytinqli olma ölkə haqqında hər hansı fikir yürütməyə imkan vermir. Bu halda ölkədə vergiqoymanın “optimal” və ya “qeyri-optimal” həddə olması haqqında fikir yürütmək üçün vergi yükünün makroiqtisadi və sosial-iqtisadi təsirlərinin dəqiq qiymətləndirilməsinə ehtiyac var.

DB Tədqiqat Qrupunun metodologiyasına əsasən “vergiqoyma” sub-indeksi hazırda 8 alt-indeksdən ibarətdir:

a) ödəmələrin sayı (payments-number);

b) ödəmələr üçün tələb olunan vaxt (saat);

c) ümumi mənfəətdə cəmi verginin payı (%) (total tax and contribution rate -% of profit);

d) ƏDV-nin geri qaytarılması üçün vaxt (saat)- time to comply with VAT refund);

e) ƏDV-nin geri alınması üçün vaxt (həftə)- time to obtain with VAT refund;

f) korporativ gəlir vergisi auditinin aparılması üçün vaxt (saat)-(time to comply with corparate income tax audit);

g) korporativ gəlir vergisi auditinin yekunlaşdırılması üçün vaxt (həftə)-(time to complate with corparate income tax audit).

Səkkizinçi alt-göstərici, yəni “postfilling index” əvvəlki dörd alt-göstəricinin əsasında hesablanır. Bu alt-göstəricilərdən yalnız üçüncüsü, yəni “ümumi mənfəətdə cəmi verginin payı (%)” ikiqütblüdür və hər bir dövlətdə onun iqtisadi modelinin formalaşmasında mühüm rol oynayır. Digər göstəricilər isə, nə qədər liberal olarsa, biznes mühiti üçün və hətta bütünlükdə ictimai rifah üçün bir o qədər yaxşı olar. Ona görə də bu sub-indeks üzrə optimal hədd qiymətləndiriləndə modelyaradıcı göstəricilərlə, qeyri-modelyaradıcı göstəricilərin bir-birindən ayrılması vacibdir.

DB Tədqiqat Qrupunun 2019-cu il Hesabatında “vergiqoyma” sub-indeksi üzrə müqayisəli reytinqlərdə Bəhreyn 100 balla ən yüksək yer tutub. Honq Konq, Qatar, İrilandiya isə, uyğun olaraq, 99.7, 99.4 və 94. 6 balla sonrakı mövqeləri bölüşdürürlər. Bu sub-indeks üzrə ən aşağı mövqedə 11.4 balla Venesuela yerləşir. Lakin vergilərin həcminə görə ölkələrin sıralanması kəskin dəyişir. Məsələn, Venesuelada vergilərin həcmi mənfəətin 73% təşkil edir. Şübhəsiz ki, çox yüksək, həmçinin çox aşağı dərəcəli vergilərin olduğu ölkələrin müqayisəsi deməyə əsas verir ki, bu göstəricinin az və ya çox olması hələ ölkənin inkişaf etməsi demək deyil. Məsələn, inkişaf etmiş ölkələrin heç biri nə “yüksək vergili”, nə də “aşağı vergili” ölkələr qrupuna daxil deyil. Qeyd etdiyimiz kimi, əsas problem “optimal vergi” dərəcəsinin müəyyən edilməsidir. Məhz “optimal” səviyyədə vergiqoyma ölkədə biznes mühitinin inkişafını stimullaşdıra bilər.

DB Tədqiqat Qrupunun 2019-cu il Hesabatında “vergiqoyma” sub-indeksi üzrə Azərbaycan 84 balla 40-cı yerdədi. “Cəmi vegilərin mənfəətdəki payı” alt-göstəricisinə görə isə yəni 190 ölkə arasında 41 balla 120-ci yerdədir. Qonşu Gürcüstan bu göstəriciyə görə 89.2 balla 14-cü yerdədir. “Cəmi vegilərin mənfəətdəki payı” alt-göstəricisinə görə isə yəni 190 ölkə arasında 10 balla 3-cü yerdədir.

Hansı ölkədəki vergi siyasəti daha optimaldır: 41 balla 120-ci yerdə Azərbaycanın, yoxsa 10 balla 3-cü yerdə qərarlaşan Gürcüstanın? Bu problem müxtəlif tədqiqatşılar tərəfindən müxtəlif aspektlərdə tədqiq edilib (məsələn, Гюльалиев М.Г. [2]). Bu tədqiqatda da iddia edilir ki, Azərbaycanda mövcud olan vergi dərəcəsi özünün optimal səviyyəsindən xeyli kənardadır və onun azaldılmasına ehtiyac vardır. Lakin bu tədqiqatda vergi yükü ilə yalnız iqtisadi artım arasındakı korrelyasiya əlaqəsi öyrənilib. Yaxşı olardı ki, belə əlaqə digər makroiqtisadi göstəricilərlə də aparılsın və vergi yükünün hər hansı istiqamətdə, yəni azalan və ya artan istiqamətdə dəyişmələrinə bu makroiqtisadi göstəricilərin cavab reaksiyası öyrənilsin. Biz növbəti paraqraflarda məhz belə araşdırma vasitəsilə Azərbaycanda optimal vergi dərəcəsinin həddini müəyyən etməyə çalışacağıq.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Doing Business, 2020. Doing Business measuring business regulations. https://www.doingbusiness.org/en/doingbusiness

**2.** Гюльалиев М.Г. Оценка зависимости экономического роста от государственных финансов (сравнительный анализ Азербайджана и Грузии). Журнал «Інноваційна економіка» 1-2, 2017 (Украина)

**Н.М.Исламова**
*диссертант, Бакинский Государственный Университет*

**Анализ и оценка текущего состояния бизнес-среды в Азербайджане**

**Резюме**

*Поскольку качество деловой среды имеет решающее значение для притока инвестиций в страну, данная статья сосредоточена на кратком анализе деловой среды Азербайджана на основе международных показателей. Оценка качества деловой среды - это оценка уровня отдельных компонентов деловой среды. Качественная бизнес-среда, создающая условия для долгосрочного экономического роста, является основной предпосылкой для развития бизнеса и повышения конкурентоспособности страны. Элементы деловой среды в стране составляют законодательную базу для ведения бизнеса и правоохранительных органов, административные и финансовые (налоговые и сборы) бремя, вмешательство в свободу бизнеса и бизнес-инфраструктуру (условия, качество и наличие ключевых факторов производства и бизнес-услуг). Из этого ясно, что бизнес-среда - это сложная переменная, включающая множество областей.*

***Ключевые слова:*** *бизнес среда, глобальная конкурентоспособность, ведение бизнеса*

**N.M.Islamova**
*Candidate for PhD degree, Baku State University*

**Analysis and assessment of the current state of the business environment in Azerbaijan**

**Abstract**

*Since the quality of the business environment is critical to the flow of investment into a country, this article focuses on a brief analysis of the business environment in Azerbaijan based on international indicators. Business environment quality assessment is an assessment of the level of individual components of the business environment. A high-quality business environment that creates conditions for long-term economic growth is the main prerequisite for business development and increasing the country's competitiveness. Elements of the business environment in the country constitute the legal framework for doing business and law enforcement, administrative and financial (tax and fees) burdens, interference with business freedom and business infrastructure (conditions, quality and availability of key factors of production and business services). It is clear from this that the business environment is a complex variable that includes many areas.*

***Keywords:*** *business environment, global competitiveness report, doing business*

*Tikintinin iqtisadiyyatı və menecment*
*2020-ci il. № 4(13) -səh.57-68*
*F.M.Həsənzadə*

*Construction economycs and menecment*
*2020, № 4 (13), pp. 57-68*
*F.M.Hasanzade*

**UOT: 338.43**

**F.M.Həsənzadə**
***doktorant, Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu***

# AZƏRBAYCANDA AQRAR SAHƏNİN DÖVLƏT TƏNZİMLƏMƏSİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

*Məqalədə aqrar sahəyə dövlət müdaxiləsi səviyyəsinin ərzaq təhlükəsizliyinə təsirləri müqayisəli analiz edilib. Müəlliflər belə nəticəyə gəlirlər ki, keçmiş Sovet İttifaqına daxil olan əksər respublikalarda kənd təsərrüfatına dövlət müdaxiləsi azaldığından bu ölkələrdə 1992-ci ildən sonra kənd təsərrüfatı məhsullarının ümumi həcmi kəskin aşağı düşüb. Digər tərəfdən, dünya ölkələrinin əksəriyyətində adambaşına ÜDM artdıqca kənd təsərrüfatının ölkə iqtisadiyyatında rolu da azalır. Əksinə, adambaşına ÜDM həcmi nisbətən az olan ölkələrdə kənd təsərrüfatı sektorunun ÜDM-da payı yüksəkdir. Müəlliflər belə qənaətə gəlirlər ki, kənd təsərrüfatı sektorunun ölkə iqtisadiyyatında "optimal yerinin" seçilməsi məsələsi mühüm aktuallıq kəsb edir. Aqrar sahədə dövlət müdaxiləsinin ölçülməsi üçün metod təklif edilir. Bu metod əsasında bəzi ölkələrdə aqrar sahəyə dövlət müdaxiləsi dərəcəsi müqayisəli qiymətləndirilib. Qiymətləndirmələr göstərir ki, iqtisadiyyatın ən liberal sektorlarından olan aqrar sektora dövlət müdaxiləsi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə çox genişdir. Ərzaq təhlükəsizliyi indeksi ilə xarici ticarətin liberallaşması, adambaşına düşən ÜDM və kənd təsərrüfatının inkişaf səviyyəsi və aqrar sektora dövlət müdaxiləsi səviyyəsi arasında əlaqə xətti regresiya metodu ilə qiymətləndirilib. Müəlliflər bu nəticəyə gəlmişdilər ki, xarici ticarətin liberallaşma səviyyəsi və iqtisadi artım ərzaq təhlükəsizliyinin təmini üçün xüsusi rol oynayır. Əgər ölkə aqrar sahədə rəqabət üstünlüyünə malik deyilsə, bu sahəyə strateji birincilliyin verilməsi və dövlət müdaxiləsinin artırılmasına zəruriyyət yoxdur və ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün xarici ticarətin liberallaşması daha məqsədəuyğundur.*

***Açar sözlər:*** *dövlət müdaxiləsi, aqrar sahə, ÜDM, ərzaq təhlükəsizliyi, ərzaq təhlükəsizliyi indeksi, xarici ticarətin sub-indeksi, ərzağın əlçatanlığı, ərzağın mövcudluğu, ərzağın keyfiyyəti*

## GİRİŞ

Dövlətin bu və ya digər formada ən çox müdaxilə etdiyi iqtisadi sektor aqrar sahədir. Lakin ilk baxışda elə görsənir ki, aqrar sektor və bu sektorda fəaliyyət göstərən subyektlər dövlət müdaxilsəinə daha az məruz qalırlar. İlk baxışda elə təsəvvür yaranır ki, bu subyektlər iqtisadiyyatın digər sektorlarında, məsələn, sənaye və xidmət sektorunda fəaliyyət göstərən subyektlərindən daha müstəqildirlər və onların fəaliyyəti üçün ən liberal ətraf mühit və bazar münasibətləri formalaşıb. Onlar istehsal üçün zəruri olan amillərə tam müstəqil sahibdirlər. Lakin reallıqda demək olar ki, bütün ölkələrdə aqrar sektor dövlətin bu və ya digər dərəcədə müdaxiləsinə məruz qalır. Bütün ölkələrdə aqrar sektora həm məhdudlaşdırıcı, həm tənzimləyici, həm də yardımedici müdaxilələr edilir. Lakin dövlətin aqrar sahəyə tətbiq etdiyi müdaxilə formalarından ən çox yayılanı yardımedici müdaxilə (subsidiyalar) formasıdır. Hər bir ölkədə dövlət kənd təsərrüfatının inkişafı üçün zəruri olan məhdudlaşdırıcı müdaxilə formalarından da istifadə edilir. Strateji əhəmiyyət daşıyan məhsulların ixracına məhdudiyyətlərin qoyulması və ya hər hansı kənd təsərrüfatı məhsullarının idxalına məhdudiyyətlərin qoyulması da məhdudlaşdırıcı xarakterli müdaxiləyə aid edilə bilər. Mahiyyətindən və istiqamətindən asılı olmadan "kəhrəba səbət", "yaşıl səbət" və "mavi səbət" yardımları dövlətin aqrar sektora müdaxiləsidir.

Kənd təsərrüfatı sektoruna dövlət tərəfindən subsidiyaların ayrılması iqtisadiyyatın bu sahəsindəki rentabelliklə xüsusilə bağlıdır. Çünki daha çox vaxtın və daha çox fiziki əməyin, digər tərəfdən daha az bilik və bacarığın tətbiq edildiyi bu sektorda əldə edilən orta mənfəət norması sənaye və xidmət sahələrindən xeyli aşağıdır. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi zərurəti bir tərəfdən, regionların bütünlükdə inkişafı isə digər tərəfdən dövləti aqrar sektora subsidiyalar ayırmağa məcbur edir. Lakin bütün ölkələr eyni dərəcədə aqrar sahəyə subsidiya ayırmaq gücündə deyil. Bəzi ölkələr aqrar sektora iqtisadiyyatın strateji prioritet sahəsi kimi yanaşır.

Hazırda dünyada ən çox kənd təsərrüfatı məhsulları istehsal edən ölkələr Avropa İttifaqı (dünyada istehsal edilən kənd təsərrüfatı məhsullarının 11%-i) və ABŞ-dır (dünyada istehsal edilən kənd təsərrüfatı məhsullarının 10%-i). Məhz elə bu ölkələr və digər inkişaf etmiş ölkələr aqrar sektora ən çox yardım edən ölkələrdir. Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olan ölkələrin aqrar sahəyə ayırdıqları ümumi subsidiya həcminin 39%-i Avropa İttifaqının, 35%-i ABŞ-ın, 15%-i isə Yaponiyanın payına düşür. Bu ölkələrdə kənd təsərrüfatı sektoruna verilən subsidiyaların ümumi kənd təsərrüfatı məhsul istehsalındakı payı isə uyğun olaraq 36%, 39% və 37%-dir. Başqa sözlə desək, bu dövlətlər öz ölkələrindəki aqrar sektora müdaxilə etməklə əslində dünyadakı aqrar sektora müdaxilə etmiş olurlar və kənd təsərrüfatı məhsullarının qiymətlərinə ciddi təsir göstərirlər. Bu dövlətlərin aqrar sektora subsidiyalar ayırması yolu ilə qiymətlərə təsir göstərməsi digər dövlətlərin Ümumi Milli Gəlirlərinə (ÜMG), xüsusilə inkişaf etməkdə olan ölkələrin ÜMG ciddi şəkildə təsir göstərmiş olur. Dövlət tərəfindən böyük miqdarda subsidiya alan kənd təsərrüfatı subyektləri dünya bazarında daha da rəqabətə dözümlü olurlar və müqayisəli üstünlüklər əldə edirlər. ABŞ, Avropa İttifaqı və Yaponiya kimi inkişaf etmiş ölkələr tərəfindən kənd təsərrüfatına böyük miqdarda subsidiyaların ayrılması buğda, şəkər, süd və süd məhsulları kimi strateji əhəmiyyətli ərzaq məhsullarının dünya bazarında qiymətlərinə ciddi təsir göstərir.

Müxtəlif ölkələrdə aqrar sektora müxtəlif mahiyyətli müdaxilələrin olmasına baxmayaraq, onları iki qrupa ayırmaq mümkündür: 1) müxtəlif məqsədlərlə aqrar sektora dövlət xərcləri; 2) iqtisadiyyata modelyaradıcı müdaxilələrin [6] aqrar sektora təsirləri. Bunlardan birincisi aqrar sektora məqsədli dövlət xərclərini nəzərdə tutduğu halda, ikincisi, bütünlükdə iqtisadiyya dövlət müdaxiləsi ilə bağlıdır. Məsələn, dövlət tərəfindən qiymətlərin, minimum əmək haqqının, lisenziyalaşmanın, xarici ticarət rejiminin və sair tənzimlənməsi dolayısı ilə aqrar sektorun inkişafına təsir göstərir.

Heç şübhəsiz ki, kənd təsərrüfatında bütünlükdə inkişafa, xüsusilə də kənd təsrrüfatında istehsal həcminə, bazar qiymətlərinə, fermerlərin gəlirlərinə, həmçinin investisiyaların həcminə müsbət təsir göstərmək üçün dövlətin aqrar sahəyə müdaxiləsi kənd təsərrüfatı sektorunda liberal fəaliyyətlə optimallaşmalıdır. Çünki dövlətin müdaxiləsinin optimal həcmdən az olması ölkədə aqrar sahənin zəifləməsinə və ölkənin ərzaq təhlükəsizliyinin təhdid altında düşməsinə səbəb ola bilər. Digər tərəfdən isə, həddən artıq, daha doğrusu, optimal müdaxilədən daha artıq müdaxilə aqrar sahənin müstəqilliyinə, bəzi hallarda isə təşəbbüskarlığın azalmasına səbəb ola bilər. Aqrar sahəyə dövlət müdaxiləsinin optimal həcminin müəyyən edilməsi kənd təsərrüfatı məhsullarının ölkədə qiymətlərinin daha düzgün müəyyən edilməsinə və aqrar sahə ilə sənaye və xidmət sahələri arasında paritetin yaranmasına səbəb ola bilər.

**Ədəbiyyata baxış**

Araşdırılması tələb olunan ikinci və üçüncü suallar "ərzaq təhlükəsizliyi" anlayışına da yanaşmanın dəqiqləşdirilməsini tələb edir. "Ərzaq təhlükəsizliyi" anlayışı iqtisadi ədəbiyyatda ən ziddiyətli anlayışlardan biridir. Yəqin məhz buna görədir ki, son onillikdə ona 200-dən artıq tərif vermişlər [1]. Lakin "ərzaq təhlükəsizliyi" anlayışına verilən təriflərin əksəriyyətində, əsas məsələ kimi ön planda dövlət təhlükəsizliyi deyil, fərdi təhlükəsizlik göstərilir. Ərzaq təhlükəsizliyi dövlət daxilində ərzaqla bağlı elə sabitləşmiş vəziyyətdir ki, əhali öz sağlamlığı və həyat fəaliyyəti üçün fiziki, sosial

və iqtisadi baxımdan qida məhsullarıyla təmin edilə bilsin [2]. Ərzaq təhlükəsizliyinin bu tərifi 1996-cı ildə Beynəlxalq Ərzaq Sammitində qəbul edilmişdir. Qlobal Ərzaq Təhlükəsizliyi İndeksinin hesablanma göstəricilərindən üçünün (mövcudluğu, əlçatanlığı, keyfiyyəti) əsasında da bu tərif durur.

QƏT indeksi kəmiyyət və keyfiyyət modeli olaraq 28 göstəricinin tədqiqini tələb edir. Bu göstəricini araşdıraraq, ərzaq təhlükəsizliyi nöqteyi-nəzərindən dövlətin həssaslığını qiymətləndirmək olar. Müxtəlif təşkilatlar ərzaq təhlükəsizliyi problemini müxtəlif bucaqlardan tədqiq edirlər. QƏT indeksi metodologiyası digər təşkilatların metodologiyasından fərqlənir. Başlıca fərq bundan ibarətdir ki, QƏT indeksi yuxarıda qeyd edilən üç əsas göstəricinin kəmiyyət və keyfiyyət dəyişikliklərini nəzərə alır. Digər tərəfdən, bu indeks qida məhsullarının dəyərinin dəyişikliklərini və ərzaqla bağlı ölkədəki təhlükə risklərini hesaba alır.

Beləliklə, aqrar sahəyə dövlət yardımı ilk baxışda hər bir ölkə üçün zəruri və faydalı olsa da qlobal miqyasda ciddi problemlər yaradan amildir. Elə bunun nəticəsidir ki, aqrar sektora dövlət dəstəyi (müdaxiləsi) məsələsində bir-birinə zidd iki elmi baxış formalaşıb. Birincisi, aqrar sektora daha çox dövlət dəstəyinin olmasını, ikinci isə, əksinə, aqrar sektorun azad rəqabət mühitində inkişafını nəzərdə tutur (liberal və neoliberal baxış). Liberal və neoliberal baxışa görə inkişaf etmiş ölkələr tərəfindən aqrar sektora subsidiyaların verilməsi belə subsidiyalar verməyən ölkələrdə aqrar sektorun müqayisəli üstünlüyünü aradan qaldırır. Eyni ilə belə hallar subsidiya alan fermerlərlə almayan fermerlərin dünya bazarında mövqeyinə təsir edir. Neoliberal baxışa görə hər hansı ölkədə yüksək məhsuldarlığa malik olan aqrar təsərrüfat dünya bazarında müqayisəli üstünlüyünü saxlayaraq həm ölkəsi üçün, həm də özü üçün mənfəət əldə etmiş olur. Bütün dünyada tətbiq edilən belə azad rəqabət sonda həm qiymətlərin bazar vasitəsilə azalmasına, həm də qlobal miqyasda gəlirlərin bölüşdürülməsinə səbəb ola bilər.

Digər baxış isə neoliberalizmi tənqid edərək aqrar sektorun ərzaq təhlükəsizliyi nöqteyi-nəzərindən zəruriliyini, bu sektorda çalışanların sosial rifahını, regionların inkişafını və sair problemləri əsas gətirərək aqrar sektora dövlət dəstəyinin vacibliyini önə çəkir. Heç şübhəsiz ki, aqrar sektora dövlət dəstəyini tamamilə dayandırmaq mümkün deyil. Çünki aqrar sektorda inkişafa təsir göstərən elə məsələlər var ki, ayrıca götürülən fermer və ya onların birlikləri bu problemin öhdəsindən gələ bilməzlər. Belə problemlərin həllində dövlət müdaxiləsi vacib olur. Digər tərəfdən, aqrar sektora dövlət dəstəyinin "həddən artıq" edilməsi də fermerlərin təşəbbüskarlığına mənfi təsir göstərə bilər və qiymətlərin "həddən artıq" enməsinə səbəb ola bilər. Belə halda aqrar sektorda çalışanların mənfəəti ciddi şəkildə azala bilər. Bu isə digər problemlərin, məsələn, əkin sahələrinin kəskin azalmasına və ya maldarlıqda heyvanların sayının kəskin azalmasına, həmçinin əhalinin regionları tərk etməsinə və sair səbəb ola bilər.

Beləliklə, aqrar sektora dövlət dəstəyi bir neçə parametrin nəzərə alınması şərti ilə elə optimal dərəcədə olmalıdır ki, 1)kənd təsərrüfatında artım olsun; 2) ölkənin strateji əhəmiyyətli məhsullarla təminat, heç olmazsa, minimum səviyyədə ödənilsin; 3) aqrar sektorda əhalinin rifah halı ölkədə orta rifah halından az olmasın; 4) aqrar məhsulların orta qiyməti ölkədə istehlak səbətinə uyğun olsun; 5) aqrar sektorda məhsuldarlıq dünya üzrə orta məhsuldarlıqdan az olmasın. Digər tərəfdən, aqrar sektora dövlət dəstəyi istehsal-texnoloji (maddi resurslardan istifadə), istehsal-iqtisadi (məhsul istehsalı), sosial-iqtisadi və ekoloji-iqtisadi sahələrdə səmərəliliyi artırmalıdır. Hər hansı bir ölkədə aqrar sektora dövlət dəstəyinin iqtisadi səmərəliliyinin müəyyən edilməsi və dövlət dəstəyinin "optimal həddinin" müəyyən edilməsi digər ölkələrlə müqayisəli analiz metodundan istifadə etməklə reallaşmalıdır. Müqayisəli analiz həm də imkan verir ki, hər hansı ölkənin digər ölkələrə nisbətən müqayisəli üstünlük sahələri müəyyən edilsin.

**Metodologiya**

Aqrar sahəyə dövlət müdaxiləsinin optimal dərəcəsinin müəyyən edilməsi üçün biz ən sadə halı – aqrar sahədə dövlət müdaxiləsi səviyyəsi ilə ərzaq təhlükəsizlik səviyyəsi arasındakı əlaqəni götürəcəyik. Qiymətləndirmə "cross-section series" və "time series" əsasında aparılacaq. "Time series" qiymətləndirməni Azərbaycan case üçün aparacağıq. Qeyd edək ki, aqrar sahəyə dövlət müdaxiləsinin optimal dərəcəsinin müəyyən edilməsi üçün təkcə bir meyarın -yalnız ərzaq təhlükəsizliyinin götürülməsi yalnız birinci yaxınlaşma üçün doğrudur. Çünki ərzaq təhlükəsizliyinin təmin edilməsi aqrar sektora dövlət müdaxiləsinin əsas hədəflərindən yalnız biridir. Digər hədəflərdən biri də regionların davamlı inkişafı və ya kənd regionlarında əhalinin məşğulluğunun təmin edilməsi və sair ola bilər.

Dövlətin aqrar sahəyə müdaxiləsi səviyyəsini müəyyən etmək üçün biz iki göstəricidən müqayisəli istifadə edəcəyik. Birinci göstərici dövlətin aqrar sahəyə yönəltdiyi xərclərinin ümumi xərclərdəki payının aqrar sahədə yaranan əlavə dəyərin ÜDM həcmindəki payına nisbətidir. Bu göstərici kənd təsərrüfatı oriyentasiya indeksi kimi məlumdur (Agriculture Orientation Index (AOI)) [3]. Kənd təsərrüfatı oriyentasiya indeksi Dayanıqlı İnkişaf Məqsədlərinin (Sustainable Development Goals) 2.a. hədəflərinin ölçülməsi üçün istifadə edilir. Agriculture Orientation Index-in 1-dən böyük olması o deməkdir ki, dövlət aqrar sektora daha çox üstünlük verir. Aqrar sahəyə yönələn investisiya bu sahənin ÜDM həcminə verdiyi paydan daha çoxdur. Agriculture Orientation Index-in 1-dən kişik olması isə o deməkdir ki, dövlətin aqrar sahəyə verdiyi investisiya bu sahənin ÜDM həcminə verdiyi töhvədən daha azdır. AOI =1 olması isə aqrar sektora yönələn investisiyanın bu sektorun ÜDM həcminə verdiyi töhvəyə bərabər olması deməkdir, yəni dövlətin aqrar sektora yönəlik xərcləri neytral səviyyədədir.

İkinci göstərici kimi dövlətin aqrar sahəyə yönəltdiyi xərclərin ümumi dövlət xərclərində payından (agriculture index-Aİ) istifadə edəcəyik. Bu göstəricinin Agriculture Orientation Index-dən əsas fərqi ondan ibarətdir ki, bu göstərici [0; 1] intervalında dəyişərək dövlətin aqrar sahəyə müdaxiləsi səviyyəsini müqayisəli öyrənməyə imkan verir. Beləliklə, aqrar sahəyə xərclərinin həcmindən asılı olaraq, ölkələr bir şkala üzrə "sol"-dan "sağ"-a (daha çox müdaxilə səviyyəsindən daha az müdaxilə səviyyəsinə və ya əksinə düzülmüş olur. Tamamilə aydındır ki, heç bir ölkədə Aİ nə "1", nə də "0" nöqtəsində yerləşə bilməz. Bütün ölkələr [0; 1] intervalında yerləşmiş olurlar.

AOI –dan Aİ-in mühüm bir fərqi də ondan ibarətdir ki, Aİ dövlətin iqtisadi, o cümlədən, aqrar siyasəti ilə bağlıdır. Onun müxtəlif iqtisadi göstəricilərlə, xüsusilə, aqrar sahədə yaradılan əlavə dəyərin həcmi ilə, kənd regionlarında yoxsulluq və işsizlik səviyyəsi ilə, həmçinin global ərzaq təhlükəsizliyi indeksi ilə əlaqəsinin analizinə əsaslanaraq, qərar qəbuledicilər tərəfindən idarə edilməsi mümkündür. Aqrar İndeksin siyasi mübarizə predmeti olması imkanları da var. Çünki onun dəyişməsi dinamikasına və aqrar sektorun inkişaf səviyyəsinə təsirlərinə əsaslanaraq, "sol" təmayüllü siyasi qurumlar dövlətin aqrar sektora müdaxiləsinin artmasını, "sağ" təmaüllü siyasi qurumlar isə belə müdaxilənin azaldılmasını tələb edə bilərlər.

Qeyd edək ki, Aİ dövlətin aqrar sektora müdaxiləsini xarakterizə edən çox sadə indeksdir və bütün müdaxilələri əhatə etmir və geniş mənada dövlətin aqrar sahəyə müdaxiləsi səviyyəsi üçün formula ola bilməz. Çünki dövlət xərcləri ilə agrar sektorun inkişafı arasında müəyyən əlaqənin olduğunu fərz etsək, bu əlaqənin istiqamətindən asılı olaraq, müdaxilənin səmərəliliyini qiymətləndirmək çətin olar. Buna baxmayaraq, ilkin yaxınlaşmada həm Agriculture Orientation Index, həm də Aqrar İndex ilə Global Food Security İndex [5] arasındakı əlaqə vasitəsilə biz müxtəlif ölkələrdə dövlətin aqrar sahəyə müdaxiləsinin ərzaq təhlükəsizliyinə təsirini müqayisəli qiymətləndirə bilərik. Qeyd etmək lazımdır ki, "aqrar sahəyə dövlət xərci" kimi daxil edilən rəqəmlər, həm də balıqçılıq və meşəçilik sahələrinə ayrılan birbaşa və dolayı xərclərin cəmidir. Bu xərclər bəzi ölkələrdə həm dövlət

büdcəsindən, həm də digər hökumət mənbələrindən daxil olur. Odur ki, hesablamaların təqribi olması şübhəsizdir.

Ərzaq təhlükəsizliyinin aqrar istehsal həcmindən, xarici ticarətin liberallaşması səviyyəsindən və ölkədə ÜDM həcmindən asılılığının analizi deməyə əsas verir ki, bir ölkə miqyasında ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün xarici ticarətin liberallaşması və bütünlükdə iqtisadi inkişafın təmin edilməsi kifayət edir. Belə iqtisadi inkişafın əsasında aqrar sahənin dayanmasına ehtiyac yoxdur. Bu hətta maddi nemətlər istehsalı olmayan xidmət sahəsi də ola bilər. Müqayisə üçün deyək ki, hazırda inkişaf etmiş ölkələrdə xidmət sektorunda yaradılan əlavə dəyərin ümumi dəyərdə payı durmadan artır. Təəssüf ki, qloballaşmanın genişləndiyi XXI əsrdə də bir çox iqtisadçılar və siyasətçilər israr edirlər ki, ərzaq təhlükəsizliyinin təmini üçün, strateji üstünlük kimi kənd təsərrüfatının inkişafını seçmək lazımdır. Hətta, bəzi ölkələrdə daha da irəli gedərək, kənd təsərrüfatı məhsullarına üçün sərt gömrük rejimi tətbiq etməyə çalışırlar. Bəzi ölkələr isə, əksinə, strateji prioritet kimi xidmət sahəsini seçir və kənd təsərrüfatı məhsullarının idxalının artmasından narahat deyillər.

Bəzi ölkələr ərzaq təhlükəsizliyi üçün bütünlükdə ÜDM-un və milli gəlirin artırılmasının vacibliyi daha üstün konsepsiyadır. Məhz bu göstərici, bu və ya digər formada, əhalinin ərzaq əldə edə bilmək imkanını göstərir. Təbii ki, adambaşına ÜDM artması ilə ərzaq əldə edə bilmək imkanı artır. Həmçinin iqtisadiyyatın strateji prioriteti kimi xidmət sahəsinin seçilməsi və kənd təsərrüfatı məhsullarının, əsasən, idxal edilməsi tendensiyası getdikcə genişlənir. Belə ölkələrdə ərzaq təhlükəsizliyinin təmini üçün lazımlı məhsulları idxal etmək böyük həcmdə kənd təsərrüfatını investisiya etməkdən daha ucuz başa gəlir. Bu səbəbdən, ərzaq təhlükəsizliyiylə xarici ticarətin liberallaşması arasındakı əlaqəni tapmaq zəruriyyəti vardır. Xarici ticarətin liberallaşması səviyyəsini ölçmək üçün biz, xarici ticarətin sub-indeksindən [4] istifadə edirik.

**Əsas nəticələr**

Aqrar sektora dövlət xərclərinin ümumi dövlət xərclərindəki payını (Aİ) dövlətin aqrar sektora əsas müdaxiləsi hesab edərək 65 ölkəni bu göstəricinin artan sırası ilə düzsək 1-ci cədvəldəki sıranı almış olarıq. Cədvəldən göründüyü kimi, inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr bu sıralamada bir-birindən ayrılaraq qrup yaratmırlar. Ona görə də bu ölkələrdə dövlətin aqrar sektora müdaxiləsini inkişaf səviyyəsindən asılı olmadan müayisəli təhlil etmək olar. Bu sıralamanı daha yüksək müdaxilədən daha az müdaxiləyə doğru üfiqi xətt üzərində yerinə yetirsək, onda ölkələr “soldan” “sağa” düzülmüş olur. Belə sıralama imkan verir deyək ki, müdaxilənin yüksək olduğu ölkələr aqrar sektora münasibətdə daha dirijist, müdaxilənin daha az olduğu ölkələr isə aqrar sektora münasibətdə daha liberal ölkələrdir.

**Cədvəl 1**

**Bəzi ölkələr üzrə aqrar indeks (Aİ) adambaşına -2015**

| | Ölkələr | AİPE | Aİ | | Ölkələr | AİPE | Aİ | | Ölkələr | AİPE | Aİ |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Belgium | 0.257 | 0.0015 | 23 | Ireland | 0.352 | 0.0108 | 45 | Timor-Leste | 0.174 | 0.0257 |
| 2 | El Salvador | 0.016 | 0.0017 | 24 | Bahamas | 0.425 | 0.0111 | 46 | Iceland | 0.866 | 0.0271 |
| 3 | Singapore | 0.430 | 0.0027 | 25 | Russia | 0.301 | 0.0121 | 47 | Armenia | 0.161 | 0.0278 |
| 4 | United Kingdom | 0.474 | 0.0032 | 26 | Hungary | 0.515 | 0.0129 | 48 | Lithuania | 0.604 | 0.0295 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 5 | Netherlands | 0.248 | 0.0034 | 27 | Estonia | 0.580 | 0.0132 | 49 | Czech | 1.827 | 0.0303 |
| 6 | Denmark | 0.252 | 0.0037 | 28 | South Africa | 0.593 | 0.0136 | 50 | Turkey | 0.353 | 0.0330 |
| 7 | Sweden | 0.344 | 0.0042 | 29 | Slovenia | 0.371 | 0.0137 | 51 | Vanuatu | 0.080 | 0.0339 |
| 8 | Israel | 0.710 | 0.0045 | 30 | Malta | 1.699 | 0.0141 | 52 | Azerbaijan | 0.185 | 0.0418 |
| 9 | Greece | 0.089 | 0.0046 | 31 | Costa Rica | 0.208 | 0.0145 | 53 | Switzerland | 1.896 | 0.0423 |
| 10 | France | 0.364 | 0.0050 | 32 | Brazil | 0.247 | 0.0148 | 54 | Botswana | 0.307 | 0.0490 |
| 11 | Italy | 0.364 | 0.0058 | 33 | Norway | 1.248 | 0.0156 | 55 | Bulgaria | 1.511 | 0.0510 |
| 12 | Germany | 0.822 | 0.0066 | 34 | Mongolia | 0.096 | 0.0157 | 56 | Japan | 2.437 | 0.0514 |
| 13 | Austria | 0.303 | 0.0078 | 35 | Egypt. | 0.153 | 0.0165 | 57 | Moldova | 0.373 | 0.0542 |
| 14 | Portugal | 0.206 | 0.0080 | 36 | Cyprus | 0.800 | 0.0170 | 58 | Kazakhstan | 0.454 | 0.0551 |
| 15 | Ukraine | 0.108 | 0.0082 | 37 | Chile | 0.323 | 0.0176 | 59 | Myanmar | 0.170 | 0.0572 |
| 16 | Latvia | 0.190 | 0.0082 | 38 | Spain | 0.985 | 0.0185 | 60 | Sri Lanka | 0.511 | 0.0737 |
| 17 | U.Arab Emirates | 5.235 | 0.0083 | 39 | Kyrgyz | 0.112 | 0.0189 | 61 | Uzbekistan | 0.577 | 0.0793 |
| 18 | Australia | 0.519 | 0.0084 | 40 | Finland | 0.838 | 0.0189 | 62 | Belarus | 1.323 | 0.0804 |
| 19 | Luxembourg | 1.563 | 0.0090 | 41 | Romania | 0.166 | 0.0215 | 63 | Togo | 0.388 | 0.1169 |
| 20 | Slovak Republic | 0.552 | 0.0093 | 42 | Albania | 0.122 | 0.0237 | 64 | China | 1.181 | 0.1536 |
| 21 | Angola | 0.030 | 0.0106 | 43 | Paraguay | 0.191 | 0.0249 | 65 | Bhutan | 0.441 | 0.1662 |
| 22 | Poland | 0.177 | 0.0107 | 44 | Mauritius | 0.615 | 0.0255 | | | | |

***Note: calculated by authors***

1-ci cədvələ əsasən deyə bilərik ki, aqrar sektora dövlətin müdaxiləsinə görə Bhutan, China, Togo və Belarus ən dirijist ölkələrdir. Həmçinin Belgium, El Salvador, Singapore, United Kingdom ən liberal ölkələrdir. Qeyd edək ki, təhlilə cəlb edilən 65 ölkədən əksəriyyətində aqrar indeks (Aİ) 0,02-dən kiçikdir və ölkələr şkalanın həndəsi ortasından sağda daha çox qərar tutublar. Bu o deməkdir ki, aqrar sektor bütünlükdə dövlətin daha az müdaxilə etdiyi sahələrdəndir. 1991-ci ilə qədər keçmiş sovet ittifaqına daxil olan ölkələrdə kənd təsərrüfatı demək olar ki, bütünlükdə dövlətin nəzarətində fəaliyyət göstərirdi. Sovet İttifaqı dağılandan sonra müstəqillik əldə edən ölkələrdə, digər sahələrdə olduğu kimi, aqrar sahədə də liberallaşma genişləndi. Liberallaşma dövlət mülkiyyətində olan torpağın və aqrar müəssisələrin özəlləşdirilməsindən tutmuş dövlətin aqrar sahəyə xərclərinin azalmasına qədər müxtəlif məsələləri əhatə edirdi. Elə bunun nəticəsidir ki, sovet dövründə dövlət müdaxiləsinin eyni səviyyədə olduğu Rusiya, Belarus, Qazaxıstan, Azərbaycan, Ermənistan, Özbəkistan, Litva, Latviya, Qırğızıstan,

Ukrayna və digər ölkələrdə aqrar indeks ciddi fərqlənməyə başladı. 1-ci cədvəldən görünür ki, bu ölkələr arasında Ukrayna, Latviya və Rusiya aqrar sektora daha az müdaxilə edirlər.




**Şəkil. 1. 65 ölkənin aqrar indeks üzrə soldan sağa sıralanması. Orta göstərici Aİ (avarage)**=0.027379.




**Şəkil. 2. Aqrar sahədə bir məşğula görə dövlət xərcləri üzrə (AİEP) 65 ölkənin soldan sağa sıralanması. Orta göstərici AİEP (avarage) = 0.615543**

Aqrar sahəyə dövlət müdaxiləsinin qeyr etdiyimiz Aqrar İndeksi ilə yanaşı, digər oxşar göstərici ilə də xarakterizə edə bilərik. Bu göstəricini aqrar sahədə hər məşğula görə dövlət xərcinin adambaşına dövlət xərcinə olan nisbəti kimi (AİPE) xarakterizə edə bilərik. Bu göstəricinin Aİ-dən fərqi budur ki, Aİ-də aqrar sektorun həcmi əks olunduğundan ölkələrarası müqayisədə mənzərəni bir qədər təhrif etmiş olur. Hər məşğula görə xərclərin hesablanması zamanı aqrar sektorun ölçüsünün təsirini aradan qaldırmış oluruq. Doğrudan da bu iki göstərici üzrə ölkələrin sıralanması nəinki üst-üstə düşmür, hətta bəzi hallarda əks qütblərdə dayanıqlar. Məsələn, Aİ üzrə "sağ" qütbdə dayanan və liberal hesab edilən Belgium, United Kingdom, Nitherland, "sola", yaxud "sol" qütbdə dayanaraq dirijist hesab edilən Bhutan, Togo "sağa" doğru yerlərini dəyişiblər. Lakin AİPE göstəricisi də inkişaf etmiş ölkələri inkişaf etməkdə olan ölkələrdən ciddi şəkildə ayırmır. Bəzi inkişaf etmiş ölkələr bu göstəriciyə görə daha "sağda", bəziləri isə daha "solda" yerləşmiş olurlar.




**Şəkil 3. 65 ölkə üçün aqrar sahəyə dövlət xərclərinin payı (Aİ) ilə kənd regionlarında yaşayan əhalinin hər nəfərinə düşən aqrar əlavə dəyər arasında əlaqə**




**Şəkil 4. 65 ölkə üçün aqrar sektorda hər məşğula düşən əlavə dəyər ilə aqrar sektora yönələn dövlət xərcləri (AİPE) arasında əlaqə**

Həm Aİ, həm də AİPE göstıricilərinin aqrar sektorda yaradılan əlavə dəyərin həcmi ilə əlaqəsinin analizi deməyə əsas verir ki, aqrar sektora dövlət xərclərinin həm nisbi həcminin (Aİ), həm də hər məşğul üzrə həcmin (AİPE) aqrar sektorda yaradılan əlavə dəyərə həmişə pozitiv təsir etməsini iddia

etmək olmaz. (şəkil 2 və şəkil 3). Başqa sözlə desək, aqrar sektora dövlət xərclərinin artırılması heç də məhsul həcminin artacağına tam zəmanət vermir. Elə ölkələr var ki, məsələn, Belçika, dövlət xərclərində aqrar sektorun payı 0.15% təşkil etdiyi halda, aqrar sektorda bir məşğula düşən aqrar əlavə dəyər 48 min ABŞ dollarını ötür. Lakin təqribən eyni "sağ" cinahda dayanan El Salvadorda bir məşğula düşən aqrar əlavə dəyər cəmi 2 min ABŞ dollarıdır. Həmçinin aqrar sektora yönələn dövlət xərclərin yüksək olduğu əksər ölkələrdə hər məşğula düşən əlavə aqrar dəyər orta dünya göstəricisindən aşağıdır. Məsələn, Yaponiya, Bolqariya və Moldovada dövlət xərclərinin təqribən 5%-i aqrar sektora yönəlib. Lakin bu ölkələrdə hər kənd təsərrüfatı işçisinə düşən aqrar əlavə dəyər bir-birindən kəskin fərqlənir. Yaponiyada bu göstərici 18 min ABŞ dollarından, Bolqariyada isə 8 min ABŞ dollarından çox olduğu halda, Moldovada isə cəmi 1,5 min ABŞ dollarıdır.

Azərbaycan üçün aqrar sahəyə dövlət xərclərinin payı (Aİ) ilə aqrar sahədə yaradılan aqrar əlavə dəyər arasındakı əlaqə və ya aqrar sektorda hər məşğula düşən əlavə dəyər ilə (AVA) aqrar sektorda bir məşğula yönələn dövlət xərclərinin adambaşına dövlət xərclərində payı (AİPE) arasında əlaqənin hesablanması da təqribən oxşar nəticələri verir (şəkil 5 və şəkil 6). Belə ki, bu əlaqələrin hər ikisi sübut edir ki, Azərbaycanda aqrar sektora yönələn dövlət xərcləri aqrar sektorda əhəmiyyətli inkişafa səbəb olmayıb. Belə ki, müdaxilənin artması istehsal edilən əlavə dəyərin həcmini azaldıb. Hər dəfə müdaxilə həcminin artması əlavə dəyəri azaldırsa, bu halda belə müdaxilənin artması əvəzinə azaldılması daha səmərəli olardı. Bu nəticə bir daha sübut edir ki, Azərbaycanda aqrar sektorda dövlət müdaxiləsi onun optimal səviyyəsindən kənardadır.




**Şəkil 5. Azərbaycan üçün aqrar sahəyə dövlət xərclərinin payı (Aİ) ilə aqrar sahədə yaradılan aqrar əlavə dəyər (mlr.USD) arasında əlaqə**




**Şəkil 6. Azərbaycan üçün aqrar sektorda hər məşğula düşən əlavə dəyər ilə (AVA) aqrar sektorda bir məşğula yönələn dövlət xərclərinin adambaşına dövlət xərclərində payı (AİPE) arasında əlaqə**

Şübhəsiz ki, kənd regionlarına və ya birbaşa aqrar sahəyə dövlət xərclərinin yönəldilməsi bu regionlarda yaşayan insanların həyatına və fəaliyyətinə müsbət təsir edərək istehsal həcmini stimullaşdıra bilər. Lakin hesablamalar göstərir ki, aqrar sektorun inkişafında dövlət xərclərinin müəyyən rolu olsa da həlledici deyil. Lakin bu o demək deyil ki, dövlətin aqrar sektora müdaxiləsi qətiyyən lazım deyil. Əsas problem dövlətin iqtisadiyyata, o cümlədən, aqrar sektora müdaxiləsinin olub-olmaması ilə bağlı deyil. Əsas problem belə müdaxilələrin optimal həddə nə dərəcədə yaxın olması ilə bağlıdır. Əgər müdaxilənin həcmi optimal həddə yaxındırsa, onda onun səmərəliliyinə əmin olmaq olar. Əks halda belə müdaxilələr əks təsir göstərəcək. Ona görə də dövlətin iqtisadiyyata, o cümlədən, aqrar sektora müdaxiləsinin optimal həddinin tapılması zəruridir. Optimal hədd isə ölkədən ölkəyə, iqtisadi konyukturadan və zamandan asılı olaraq dəyişir.

Dövlətin aqrar sektora müdaxiləsinin optimal həddinin müəyyən edilməsində bir neçə meyarın əsas götürülməsi vacibdir. Onlardan birincisi aqrar sektorda yaradılan əlavə dəyərin həcmidir. Digər mühüm meyar isə aqrar sektorda məşğul əhalinin əmək haqqlarının ölkə üzrə orta əmək haqqları səviyyəsinə yüksəldilməsi və şəhər əhalisi ilə kənd əhalisinin gəlir bərabərsiliyinin aradan qaldırılması ola bilər. Ərzaq təhlükəsizliyinin təmin edilməsi də optimal həddin müəyyən edilməsi üçün mühüm göstəricilərdən biri ola bilər.

Aqrar sektora dövlət müdaxiləsi səviyyəsinin ərzaq təhlükəsizliyinə təsirləri də aqrar sektorun ayrıca götürülən ölkə miqyasında ərzaq təhlükəsizliyi üçün strateji əhəmiyyətinə yenidən baxmağı tələb edir. Belə ki, qlobal miqyasda aqrar sektor ərzaq təhlükəziliyinin təmin edilməsi  üçün yeganə vasitədir. Çünki bəzəriyyətin digər planetlərdən ərzaq mübadiləsi etmək imkanı yoxdur. Lakin ölkə miqyasında aqrar sektorun strateji prioritet sahə hesab edilməsi, qloballaşmanın getdikcə dərinləşməsi kontekstində, özünün doğrultmur. Belə ki, hər bir ölkə aqrar sektorun daha səmərəli inkişafı üçün müqayisəli üstünlüyə malik ola bilməz. Digər tərəfdən, inkişaf etmiş ölkələrdə aqrar sektorda yaradılan əlavə dəyərin payının ümumi əlavə dəyər həcmində getdikcə azalması deməyə əsas verir ki, ərzaq təhlükəziliyinin təmin edilməsində aqrar sektorla yanaşı digər amillərin də, xüsusilə iqtisadiyyatın liberallaşmasının əhəmiyyəti getdikcə artır.




**Şəkil 6.Azərbaycanın QƏTİ-nin dünya ilə müqayisəsi**




**Şəkil 7. Bəzi region ölkələri üzrə QƏTİ**

2012-ci illə müqayisədə 2018-ci ildə Azərbaycanın  QƏT indeksi xeyli yüksəlib. Lakin bəzi region ölkələrlə. xüsusilə. Türkiyə. Rusiya və Ukrayna ilə müqayisədə Azərbaycanın ərzaq təhlükəsizliyinin aşağı səviyyədə olması bu ölkələrə miqrasiyanın səbəblərindən biridir. Xüsusilə narahatedici fakt ondan ibarətdir ki. Azərbaycanın ərzaq təhlükəsizliyi səviyyəsi 113 ölkə üzrə orta göstəricidən aşağıdır. Ərzaq təhlükəsizliyinin üçüncü alt-göstəricisi üzrə-  ***"ərzağın keyfiyyəti və təhlükəsizliyi"*** alt-göstəricisi üzrə Azərbaycanın aşağı səviyyədə olması digər narahatedici faktdır. Əhalinin alıcılıq qabiliyyətinin aşağı olması ölkədə idxal olunan ərzaq mallarının keyfiyyətinə ciddi təsir göstərir. Bu göstərici üzrə Azərbaycan orta dünya səviyyəsindən xeyli geridə qalır.

**Cədvəl 2**

**GFS İndex ilə bəzi göstəricilərin regresiya statistikası**

| | coefficient | Standart errors | t-statistcs | P-value |
|---|---|---|---|---|
| GFS İndex | 76.72203 | 5.000976 | 15.34141 | 3.15102E-14 |
| Aİ | -0.81964 | 0.973006 | -0.84238 | 0.407563771 |

| | | | | |
|---|---|---|---|---|
| AİPE | -34.0253 | 35.63909 | -0.95472 | 0.348860747 |
| Freedom of Foreign trade | -40.5954 | 16.52237 | -2.457 | 0.02129641 |
| GDP p.c | 0.000314 | 4.84E-05 | 6.478648 | 8.73916E-07 |
| Agreculture value added p.c. | 1.61E-07 | 2.94E-07 | 0.549857 | 0.587296937 |
| P-value= 4.52E-08 | | | | |
| Multiple R=0.895643 | | | | |
| R-quadrat=0.802177 | | | | |

***Mənbə: calculated by authors***

İqtisadi inkişaf səviyyəsinə görə müxtəlif olan 42 ölkə üzrə Qlobal Ərzaq Təhlükəziliyi İndeksinin (QƏT indeksi), aqrar indeksdən (Aİ), aqrar sektorda bir məşğula yönələn dövlət xərclərinin adambaşına dövlət xərclərindəki payından (AİPE), xarici ticarətin liberallığı səviyyəsindən, adambaşına ÜDM həcmindən və adambaşına kənd təsərrüfatında yaradılan əlavə dəyər həcmindən asılılığı (cədvəl 2) deməyə əsas verir ki, QƏT indeksi bu amillərdən yalnız ikisindən- adambaşına ÜDM həcmindən və xarici ticarətin liberallığından asılıdır və bu əlaqəninin reqresiya statistikası 2-ci cədvəldəki kimidir. Bu göstəricilərdən üçündən, yəni aqrar indeksdən (Aİ), aqrar sektorda bir məşğula yönələn dövlət xərclərinin adambaşına dövlət xərclərindəki payından (AİPE) və adambaşına aqrar əlavə dəyər həcmindən olan asılılıq üçün P-value lazım olan intervalı aşmır. Başqa sözlə desək, ayrıca götürülən ölkə üçün ərzaq təhlükəziliyi daha çox adambaşına ÜDM həcmindən və xarici ticarətin azadlığından asılıdır.

**NƏTİCƏ**

Aqrar sektorun bütünlükdə ərzaq təhlükəsizliyi üçün müstəsna rolunu nəzərə alaraq, hər bir ölkə onun maliyyələşməsinə xüsusi diqqət verir. Bu sektora ayrılan dövlət xərcləri əksər ölkələrdə gözlənilən nəticəni vermir. Lakin bu o demək deyil ki, aqrar sektora dövlət müdaxiləsi zəruri deyil. Hesablamalar göstərir ki, aqrar sektorda yaradılan əlavə dəyərin həcmi dövlətin bu sektora müdaxilə səviyyəsi ilə həmişə pozitiv əlaqədə olmaya bilər. Belə nəticə ərzaq təhlükəsizliyi ilə dövlətin aqrar sektora müdaxiləsi arasındakı əlaqəyə aiddir. Bəzi ölkələrdə aqrar sektora dövlət müdaxiləsinin pozitiv, bəzi ölkələrdə neqativ təsir göstərməsi müdaxilə səviyyəsinin optimal intervala nə qədər yaxın olması ilə bağlıdır. Ayrıca götürülən ölkədə ərzaq təhlükəsizli ilə dövlətin aqrar sektora müdaxiləsi səviyyəsi, həmçinin aqrar sektorda yaradılan əlavə dəyər həcmi arasında korrelyativ əlaqənin olmaması da sübut edir ki, aqrar sektor hər bir ölkə üçün strateji prioritet sahə ola bilməz. Qloballaşmanın genişlənməsi, xarici ticarətin liberallaşması ölkələrarası əlaqələri asanlaşdırdığından hər bir ölkə öz müqayisəli üstünlüyünə əsaslanaraq strateji prioritet fəaliyyət sahəsini seçməlidir.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Mayis Gulaliyev, Samira Abasova, Irada Mehdiyeva, Suriya Abasova, Naila Sultanova. Model shaping Forms Of State Intervention in The Economy And Economic Model Of The Country// International Journal Management and Business Research, 8 (1), 80-92, June 2018

**2.** Maxwell, S. & Smith, M. (1992). Household food security; a conceptual review. In S. Maxwell & T.R. Frankenberger, eds. Household Food Security: Concepts, Indicators, Measurements: A Technical Review. New York and Rome: UNICEF and IFAD

**3.** FAO. 2002. The State of Food Insecurity in the World 2001. Rome. [Электронный ресурс]. http://www.fao.org/docrep/003/y1500e/y1500e00.htm

**4.** Food and Agriculture Organization, 2019. http://www.fao.org/economic/ ess/ investment/expenditure/en/

**5.** The Economist İntelligence Unit. https://foodsecurityindex.eiu.com/

**6.** Mayis Gulaliyev, Suriya Abasova, Shahla Huseynova, Reyhan Azizova, Tabriz Yadigarov. Assessment of impacts of the state intervention in foreign trade on economic growth// Revista ESPACIOS. Vol. 38 (Nº 47) Year 2017

**Ф.М.Гасанзаде**
*докторант, Азербайджанский Научно-Исследовательский Институт Экономики и Организации Сельского Хозяйства*

## Оценка эффективности государственного регулирования аграрного сектора Азербайджана

### Резюме

*В статье проводится сравнительный анализ влияния уровня государственного вмешательства в аграрный сектор на продовольственную безопасность. Авторы приходят к выводу, что общий объем сельскохозяйственного производства в этих странах резко упал с 1992 г. из-за сокращения государственного вмешательства в сельское хозяйство в большинстве бывших советских республик. С другой стороны, по мере увеличения ВВП на душу населения в большинстве стран мира роль сельского хозяйства в экономике страны снижается. Напротив, в странах с относительно низким ВВП на душу населения доля сельскохозяйственного сектора в ВВП высока. Авторы делают вывод о важности вопроса выбора «оптимального места» аграрного сектора в экономике страны. Предлагается метод измерения государственного вмешательства в сельскохозяйственный сектор. На основе этого метода сравнивалась степень государственного вмешательства в аграрный сектор некоторых стран. Оценки показывают, что государственное вмешательство в сельскохозяйственный сектор, один из самых либеральных секторов экономики, широко распространен как в развитых, так и в развивающихся странах. Связь между индексом продовольственной безопасности и либерализацией внешней торговли, ВВП на душу населения и уровнем развития сельского хозяйства и уровнем государственного вмешательства в сельскохозяйственный сектор оценивалась методом регрессии. Авторы делают вывод, что уровень либерализации внешней торговли и экономический рост играют особую роль в обеспечении продовольственной безопасности. Если у страны нет конкурентных преимуществ в сельскохозяйственном секторе, нет необходимости отдавать стратегический приоритет этой области и увеличивать государственное вмешательство, и более целесообразно либерализовать внешнюю торговлю для обеспечения продовольственной безопасности.*

***Ключевые слова:*** *государственное вмешательство, аграрный сектор, ВВП, продовольственная безопасность, индекс продовольственной безопасности, субиндекс внешней торговли, доступность продуктов питания, доступность продуктов питания, качество продуктов питания*

**F.M.Hasanzade**
*candidate for degree, Azerbaijan Scientific-Research Institute for Economy and Organizing of Agriculture*

**Evaluation of the effectiveness of state regulation of the agricultural sector in Azerbaijan**

**Abstract**

*The article provides a comparative analysis of the impact of the level of state intervention in the agricultural sector on food security. The authors come to the conclusion that the total volume of agricultural production in these countries has fallen sharply since 1992. due to the reduction of state intervention in agriculture in most of the former Soviet republics. On the other hand, due to the increase in GDP per capita in the country, the role of agriculture in the economy of the country is declining. Conversely, in countries with relatively low GDP per capita, the share of the agricultural sector in GDP is high. The authors draw conclusions about the importance of the issue of choosing the "optimal place" of the agricultural sector in the economy of the country. The method of measuring the state intervention in the agricultural sector is proposed. On the basis of this method, the degree of state intervention in the agricultural sector of some countries was compared. Evaluations show that the state intervention in the agricultural sector, one of the most liberal sectors of the economy, is as widespread as in developed, and in developing countries. The link between the index of food security and liberalization of foreign trade, GDP per capita and the level of development of agriculture and the level of state intervention in the agricultural sector. The authors argue that the level of liberalization of foreign trade and economic growth play a special role in ensuring food security. If the country does not have competitive advantages in the agricultural sector, there is no need to give strategic priority to this area and increase state intervention, and more purposefully liberalize the foreign policy.*

***Keywords:*** *state intervention, agricultural sector, GDP, food security, food security index, foreign trade index, availability of food products, availability of food products*

**Ş.N.Məmmədov**
***"Aqrar Tədarük vəTəchizat" ASC, İnzibati İşlər departamenti,***
***Təsərrüfat şöbəsinin mütəxəssisi***

# KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA SAEMAUL UNDONG AXINI

**Xülasə**

*Bir sıra icma inkişaf proqramlarında yerli kontekstlərin nəzərə alınmasının vacibliyi qeyd olunmuşdur. Saemaul Undong da müvəffəqiyyətini, o dövrdə Koreya Respublikasının sosial, mədəni və iqtisadi kontekstlərinin birləşdirilməsinə borcludur. Saemaul Undong tərəfindən irəli sürülən səy və əməkdaşlıq anlayışları ənənəvi Koreya dəyərlərinə əsaslanırdı. Kənd təsərrüfatında güclü və davamlı iqtisadi artımın təmin edilməsi üçün kəndlərdə infrastrukturun inkişafı mühüm rol oynayır. Nisbətən uğurlu torpaq islahatları icma əsaslı kəndlərin inkişafı üçün əlverişli bir mühit yaratdı.*

***Açar sözlər***: *kənd təsərrüfatının iqtisadiyyatı, təsərrüfat infrastrukturu, orta ayliq gəlir*

## GİRİŞ

Müasir dünyada 1,2 milyarddan çox insan yoxsulluq içində yaşayır. Bu məqsədlə yüksək irəliləyişlər əldə olunsa da, yoxsulluğun azaldılması böyük bir vəzifə olaraq qalır. Bu məqsədlə Koreya Respublikası bir sıra proqoramlar vasitəsilə sosial-iqtisadi inkişafa nail oldu və ölkədə həddindən artıq yoxsulluğu azaltdı. 1953-cü ildə, Koreya Respublikasının adambaşına düşən ümumi daxili məhsulu (ÜDM) 73 dollar idi və bu, 2007-ci ildə 21 695 dollara yüksəldi. 1965-ci ildə əhalinin yüzdə 40,9 %-i mütləq yoxsulluqdan əziyyət çəkirdi, lakin 2007-ci ilə qədər yoxsulluq səviyyəsi 10,9-a endirildi.

İqtisadi inkişaf siyasəti sənayenin inkişafına yönəlsə də, Koreya Respublikası kənd və şəhər yoxsulluğunu effektiv şəkildə azaltdı. 1970-ci ildən etibarən hökümət diqqətini şəhərlər ilə kənd icmaları arasında tarazlı böyüməyə yönəltdi və on il ərzində kənd icma şərtlərini şəhərlərin şərtləri ilə uyğunlaşdırmağı bacardı. Bunun mərkəzində Koreya Respublikasının inteqrasiya olunmuş icma inkişafı proqramı olan Saemaul Undong durur. Bu proqram vasitəsilə dövlət iqtisadiyyatda canlanma yaradılmasına nail olmuş kənd və şəhərlərdə əhalinin gəlir səviyyəsi arasındakı fərqi tarazlamağa nail olmuşdur.

***Saemaul Undong axını*** ilk dəfə olaraq Park Chung Hee tərəfindən 22 aprel 1970-ci ildə tətbiq edilmişdir və Cənubi Koreyanın kənd təsərrüfatı iqtisadiyyatını modernləşdirmək məqsədi ilə həyata keçirilmişdir. Cəmiyyət üzvlərini inkişaf prosesində iştirak etməyə təşviq edən şüarlar çalışqanlıq, öz-özünə kömək və əməkdaşlıq cəmiyyət üzvlərinin inkişaf prosesində iştirak etməyə təşviq edən əsas şüarlardan idi. İlkin olaraq bu metod kəndlərdə tətbiq olunmağa başlanmışdır. Kəndlərdə bu hərəkatın uğurla nəticələnməsi ilə əlaqədar olaraq fabriklərdə və şəhərlərdə də yayıldı və bütün ölkə ərazisində ümummilli bir modernizasiya hərəkatına çevrildi. Dövlət tərəfindən verilmiş subsidiyaların nəticəsində öz təsərrüfatlarında yüksək nəticə göstərməyən kəndləri kənarda qoyaraq yüksək nəticə göstərən kəndləri dəstəkləndi.

***Samuel Undong proqramının mərhələləri***. Saemaul Undong axını 20 – ci əsrin ikinci yarısında (1960-1970 -ci illər) dünyada, habelə Asiya ölkələrində baş vermiş iqtisadi böhran ilə əlaqədardır. Həmin dövrlərdə Cənubi Koreyanın iqtisadiyyatında əsasən sement istehsalı və ixracı əsas yer tutmuşdur. Lakin baş vermiş iqtisadi böhranın nəticəsi olaraq ixracda tələb azalmışdır. Dövlət bununla əlaqədar olaraq əsas diqqəti kənd təsərrüfatının inkişafına yönəltmişdir. 1970-ci ildə, saemaul layihəsinin siyahısına daxil olan təxminən 34.000 kəndə 300 kisə sement, bəzi polad çubuqlar və

kəndlərdə təsərrüfat infrastrukturunun yaxşılaşdırılması məqsədilə sementdən istifadə dair tövsiyələr verildi. 6 aydan sonra nəticələrə baxıldığında 34.000 kənddən 16.000-i ilkin mərhələdə yüksək inkişaf göstərmiş kəndlər kimi qiymətləndirildi. 18.000 kənd isə aşağı nəticə göstərmişdir. 2-ci mərhələdə isə yalnız yüksək nəticə göstərmiş 16.000 nəfər daha çox sementlə və digər ləvazimatlarla dəstəkləndi və hər birinə təxminən 500 kisə sement verildi. 18.000 nəticə göstərməyən kəndlərə isə dövlət dəstəyindən kənarda qaldı və kəndlərə öz xərclərinizlə müsbət nəticələr əldə etməsəniz artıq daha çox dövlət dəstəyi olmayacaq mesajı verildi. 3-cü mərhələdə isə 2-ci mərhələdə kənarda qalan 18,000-dən kəndin az və ya daha az nəticə göstərənlərdən 6 000-i, dövlət tərəfindən dəstəklənmədən öz-özünə kömək əsasında(şəxsi xərc çəkmək əsasında) 3-cü turda könüllü və fəal şəkildə iştirak etdi. Qalan 12 000 kəndin hamısı da könüllü olaraq bir-birinin ardınca növbəti mərhələlərdə özünə kömək etmə prinsipi ilə iştirak etdi. Sonda 34 000 kəndin hamısı Saemaul hərəkatı yarışmasına salındı və nəticədə 5-6 il ərzində şəhər və kənd sektorları arasındakı gəlir fərqinin aradan qaldırılmasına müvəffəq olundu. Burada iki əsas prinsip, özünə kömək və özünə güvənmək mühüm rol oynamışdır. Özünə kömək prinsipinə dövlətin verdiyi dəstəyi maksimum istifadə edib yüksək nəticə əldə etmək, özünə güvənmək prinsipində isə dövlət dəstək verdiyi zaman nəticə göstərməyib sonradan şəxsi xərcləri hesabına nəticə göstərməsi aiddir. Aşağıdakı cədvəldə Saemaul Undong hərəkatının başlamısından sonra illər ərzində kənd təsərrüfatı iqtisadiyyatında baş vermiş dəyişiliklər göstərilmişdir.

| İlin sonu | Ümumi kənd sayı (A) | Özünə güvənən kəndlər(B) | Özünə kömək edən kəndlər(C) | D=B+C | Əsas kəndlər | D/A(%) |
|---|---|---|---|---|---|---|
| **1972** | **34,665** | **2,307** | **13,943** | **16,250** | **18,415** | **0.469** |
| **1973** | **34,665** | **4,246** | **19,763** | **24,009** | **10,656** | **0.693** |
| **1974** | **34,665** | **7,000** | **21,500** | **28,500** | **6,165** | **0.822** |
| **1975** | **35,031** | **10,049** | **20,936** | **30,985** | **4,046** | **0.855** |
| **1976** | **35,031** | **15,680** | **19,049** | **34,729** | **302** | **0.991** |
| **1977** | **35,031** | **23,322** | **11,709** | **35,031** | **0** | **1.000** |
| **1978** | **34,815** | **28,701** | **6,114** | **34,815** | **0** | **1.000** |
| **1979** | **34,871** | **33,895** | **976** | **34,871** | **0** | **1.000** |

Digər cədvəldə isə özünə kömək edən və özünə güvənən kəndlər üçün nəticələr göstərilmişdir.

| | **Özünə güvənən** | **Özünə kömək edən** |
|---|---|---|
| **Təsərrüfat infrastrukturunun inkişafı** | 80% və daha çox | 70% və daha çox |
| **Əkin sahələrinin suvarılması sisteminin inkişafı** | 85% və daha çox | 70% və daha çox |
| **Kənd fondu** | 1 mil. von və daha çox | 0.5 mil. von və daha çox |
| **Ailənin gəliri** | 1.4mil. von və daha çox | 0.8 mil. von və daha çox |

Saemaul Undong axının genişlənməsindən sonra kəndlərlə yanaşı şəhər iqtisadiyyatındada öz təsirini göstərmişdir. Aşağıda kənd təsərrüfatı və şəhər sektorunun orta aylıq ailə gəlirlərinin tendensiyası göstərilmişdir.



Saemaul Undong axınının uğurlu olmasının bir sıra səbəbləri vardır. Park Chung Hee nazirlər və siyasətçilərin bərabər dövlət dəstəyi tövsiyələrini rədd edərək 2-ci mərhələdən etibarən "yüksək nəticəni mükafatsız qoymamaq və ya bir aşağı nəticə göstərənlərin isə yardım almalarına imkan verməmək" prinsipini seçdi və bu prinsip aşağı nəticə göstərənlərin daha çox çalışmalarına səbəb oldu, beləliklə sağlam rəqabət üçün davamlı inkişaf mühiti yaranmış oldu. Bu prinsipi təsərrüfat fabriklərinin ixracatçı olmasına təşviq etmək üçün qəbul etdi. Kiço (əsas) şəhərləri kənarda qoyaraq yalnız daha yaxşı fəaliyyət göstərən Jarib və Jajo şəhərlərini dəstəkləyəcəyini bildirdi. Saemaul Undong, bazarda rəqabət yaradaraq hərəkətsiz iqtisadiyyatda canlanmanın təmin edilməsi üçün bir sosial kampaniya idi.

## NƏTİCƏ

Saemaul Undong axınının tətbiqi ilkin vaxtlarda sosial inkişaf siyasəti məqsədi daşıyırdı. Metodun müvəffəqiyyəti Koreya kontekstlərinə uyğunlaşmaqla yoxsulluğun azaldılması ilə bağlı əsas strategiyaların həyata keçirilməsi və kənd əhalisi üçün imkanları artırmağa, gücləndirməyə imkan verməklə əlaqələndirilə bilər. Metodun tam tətbiqindən sonra bu siyasət iqtisadi böyümə siyasətinə çevrildi və sonda hərtərəfli və ortaq böyümə təmin edildi. Bu metod sayəsində Cənubi Koreyanın kənd təsərrüfatı iqtisadiyatında fermerlər və kəndlilər bazarda istehsal olunan məhsulun payında əsas pay sahibinə çevrilib daxili tələbatı ödəməklə yanaşı ixrac potensiallarını genişləndirmişlər.

### *İstifadə edilmiş ədədbiyyat:*

**1.** Cf. Jwa Sung-Hee (2018), "Understanding Korea's Saemaul Undong: Theory, Evidence, and Implication", Seoul Journal of Economics, səh. 31

**2.** Ban, Sung-Hwan (1981). “Development of the rural infrastructure and the Saemaul Undong”, in Mangap Lee, ed., Toward a New Community Life, Seoul National University, Institute of Saemaul Undong Studies (Seoul), səh.321

**3.** Sung, Myung-jae (2008). “Analysis on the impact of fiscal policy on income distribution structure and poverty rate”, Monthly Public Finance Forum, No. 148, Korea Institute of Public Finance, October, səh. 8-28

**Ш.Н.Мамедов**
*ОАО «Аграрное снабжение и закупки», Отдел управления делами,*
*специалист экономического отдела*

### Движение Сэмаул Ундонг в развитии сельского хозяйства

**Резюме**

*Важность учета местного контекста подчеркивалась в ряде программ развития сообществ. Сэмаул Ундонг также обязан своим успехом интеграции социальных, культурных и экономических условий в Республике Корея того времени. Концепция усилий и сотрудничества, выдвинутая Сэмаулом Ундоном, была основана на традиционных корейских ценностях. Развитие сельской инфраструктуры играет важную роль в обеспечении уверенного и устойчивого экономического роста в сельском хозяйстве. Относительно успешные земельные реформы создали благоприятную среду для развития общинных деревень.*

***Ключевые слова:*** *экономика сельского хозяйства, хозяйственная инфраструктура, среднемесячный доход*

**Sh.N.Mamedov**
*JSC "Agrarian Supply and Procurement", Department of Business Administration, specialist of the economic department*

**Saemaul Undong movement in agricultural development**

**Abstract**

*The importance of taking local contexts into account has been highlighted in a number of community development programs. Saemaul Undong also owes his success to the integration of the social, cultural and economic contexts of the Republic of Korea at that time. The concept of effort and cooperation put forward by Saemaul Undong was based on traditional Korean values. Rural infrastructure development plays an important role in ensuring strong and sustainable economic growth in agriculture. Relatively successful land reforms have created a favorable environment for the development of community-based villages.*

***Keywords:*** *Agricultural economy, economic infrastructure, average monthly income*

Construction economycs and menecment
2020, № 4 (13), pp. 73-78
A.R.Tagiyev

**A.R.Tağıyev**
***doktorant, Azərbaycan Dövlət İqtisad Universteti***
**mba_az@mail.ru**

# AQROBİZNES FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLAN MÜƏSSİSƏLƏRDƏ MALİYYƏ AXINLARININ İDARƏ EDİLMƏSİ METODLARI

**Xülasə**

*Aqrobiznes fəaliyyəti ilə məşğul olan müəssisələrdə maliyyə vəsaitlərinin hərəkəti barəsində hesabat xüsusi məlumat bazası rolunu oynayır. Bu məlumatdan maliyyə menecerləri və investorlar kifayət qədər yararlanırlar, sahibkarlar isə əlavə aktivlərin inkişaf etdirilməsi, borcların ödənilməsi və müasir investisiya qoyuluşu ilə əlaqədar məsələlərin həll edilməsində tətbiq edirlər. Müəssisələrdə maliyyə axınlarının idarə olunması elə maliyyə alətidir ki, onun köməyilə müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin yekun müsbət nəticələrinə nail olmaq, yəni daha çox mənfəət qazanmaq olar. Bunların hamısı müəssisə səviyyəsində maliyyə axınlarının idarə olunması mexanizminin təkmilləşdirilməsini zəruri edir.*

***Açar sözlər:*** *aqrobiznes, maliyyə, metod, iqtisadi*

## GİRİŞ

Müəssisələrdə maliyyəsinin idarə edilməsinin təşkili prosesində aşağıdakı idarəetmə üsullarından istifadə edilir: təhlil, planlaşdırma və nəzarət. Bu metodların tətbiqi, qarşılıqlı əlaqəli və qarşılıqlı fəaliyyət göstərən struktur bölmələrinin birləşməsindən ibarət olan şirkətin təşkilati strukturu tərəfindən həyata keçirilir. Böyük şirkətlər, şirkətin maliyyə üzrə vitse-prezidenti və ya maliyyə direktorunun rəhbərlik etdiyi müstəqil bir maliyyə şöbəsinin ayrılması ilə xarakterizə olunur. Maliyyə şöbəsinə, bir qayda olaraq, mühasibat və maliyyə xidmətləri daxildir

## TƏHLİL

Müəssisənin maliyyə menecmenti sistemində daxil olan və xaric olan müəssisədaxili və müəssisəxarici maliyyə axınları maliyyə idarəolunmasının yeganə obyekti olaraq təmsil olunurlar. Müəssisəyə daxil olan maliyyə axınlarının kəmiyyəti aşağıdakı parametrlə verilir:

$$MA=A_1+A_2+A_3$$

Burada, MA- holdinqə daxil olan maliyyə axınlarıdır.

$A_1$- müəssisə iştirakçılarının xarici kontraagentlərə satışdan əldə etdikləri pul gəlirləridir.

$A_2$- mövcud olan maliyyə alətlərindən pul gəlirləridir.

$A_3$-digər pul gəlirləridir.

Tətqiqatın bu hissəsində nəzəri baxımdan Baumol-Tobin, Miller-Orr, Beranek, Mao, Stone modellərinin timsalında maliyyə axınlarının idarə edilməsi metodlarını tətqiq edəcəyik.

***Baumol-Tobin Modeli:***

Baumol-Tobin modeli korporativ maliyyədə nağd idarəetmə üsulu kimi istifadə olunur və əməliyyat dəyəri və imkan dəyəri (bazar qiymətli kağızlarında faizdən kənarda qalan faiz) minimum nağd pul qalıqlarını təyin etməyə kömək edir.

Baumol-Tobin modeli tətbiq olunarsa, aşağıdakı təxminlər yerinə yetirilməlidir: Nağd pul xərcləmə dərəcəsi sabitdir və ümumi nağd tələbat əvvəlcədən məlumdur. Vəsaitlər ya pul, ya da qısamüddətli investisiyalarda saxlanıla bilər (məs., qiymətli kağızlar). Minimum pul qalığı sıfırdır. Nağd pul saxlamaq üçün fürsət dəyəri daimidir. Artıq nağd pul market qiymətli kağızlarına qoyulur.

Əməliyyat dəyəri, hər zaman satıla bilən qiymətli kağızlar nağd pula çevrildikdə eyni olur. Kredit xətti və ya overdraft (tələb olunduğundan çox nəğd vəsait çıxarıldığından hesabda defisit) mövcud deyil.

Optimal pul balansı (OCB) Baumol-Tobin modelinin ümumi dəyər tənliyindən alınır,

$$\mathbf{TC = \frac{C \times K}{2} + \frac{T \times F}{C}}$$

burada C - pul qalığı, K - fürsət maya dəyəri (məsələn, satıla bilən qiymətli kağızlar üzrə faiz dərəcəsi), T - illik ümumi pul ehtiyacı, F - əməliyyat dəyəri (məs., broker haqqı) deməkdir.

Minimum ümumi dəyəri olan maliyyə balansını tapmaq üçün dəyişən "C" ilə əlaqəli ümumi maya dəyəri funksiyasının törəməsini hesablamalı və digər dəyişənlərin sabit olduğunu nəzərə alaraq sıfıra bərabər qoymalıyıq.

$$\mathbf{0 = \frac{K}{2} - \frac{T \times F}{C^2}}$$

$$\mathbf{C^2 = \frac{2 \times T \times F}{K}}$$

Dəyişən "C" ilə bağlı tənliyin həlli optimal pul qalığı verəcəkdir.

$$OCB = \sqrt{\frac{2 \times T \times F}{K}}$$

Optimal pul balansının hesablanması nümunəsi

XYZ Şirkətinin illik ümumi maliyyə ehtiyacı 3.000.000 dollardır. Şirkət illik 3,75% faiz dərəcəsi ilə əmanət sertifikatı almaq imkanındadır. Brokerlik dəyəri bir əməliyyat üçün 750 dollardır.

Yuxarıdakı düstura bütün məlumatları qoyaq.

$$OCB = \sqrt{\frac{2 \times \$3{,}000{,}000 \times \$750}{0.0375}} = \$346{,}410.16$$

Beləliklə, 346,410.16 ABŞ dolları dəyərində optimal pul qalığı imkan və əməliyyat dəyərinin minimum məbləğinə cavab verir. Bunu sübut etmək üçün yuxarıdakı ümumi dəyər bərabərliyini istifadə edərək OCB üçün ümumi dəyəri və 250.000 $ və 450.000 $ pul qalığını hesablayırıq.

$$\mathbf{TC = \frac{\$346{,}410.16 \times 0.0375}{2} + \frac{\$3{,}000{,}000 \times \$750}{\$346{,}410.16} = \$12{,}990.38}$$

$$\mathbf{TC = \frac{\$250{,}000 \times 0.0375}{2} + \frac{\$3{,}000{,}000 \times \$750}{\$250{,}000} = \$13{,}687.50}$$

$$\mathbf{TC = \frac{\$450{,}000 \times 0.0375}{2} + \frac{\$3{,}000{,}000 \times \$750}{\$450{,}000} = \$13{,}437.50}$$

Gördüyümüz kimi, Baumol-Tobin modeli həmişə ən yaxşı həll yoludur.

***Miller-Orr Modeli:***

Nağd idarəetmənin Miller-Orr modeli, qeyri-müəyyən pul axını girişi və çıxışı olan müəssisələr üçün hazırlanmışdır. Bu yanaşma maliyyə balansının aşağı və yuxarı hədlərini təyin etməyə və gəliş

nöqtəsini (hədəf pul qalığı) müəyyən etməyə imkan verir. Bu, nağd xərcləmə nisbətinin sabit olduğu fərziyyəsinə əsaslanan Baumol-Tobin modelindən fərqlidir.( Kolpina L.G., Kondratieva T.N., (2018)

Maliyyə axınlarının idarəetmənin Miller-Orr modelindən aşağıdakı fərziyyələr yerinə yetirildikdə istifadə edilə bilər: Maliyyə daxilolmaları və maliyyə axını stoxastikdir. Başqa sözlə, hər gün şirkətdə həm fərqli nağd ödənişlər, həm də fərqli pul daxilolmaları ola bilər. Gündəlik pul qalığı normal olaraq paylanır, yəni təsadüfi olur. Münasib qiymətə bazar qiymətli kağızlarına sərmayə qoymaq imkanı var. Bazar qiymətli kağızlar alındıqda və ya satıldıqda əməliyyat haqqı ödənilir. Şirkət, aşağı hədd adlanan minimum qəbul edilə bilən pul qalığını saxlayır.Miller-Orr modeli üzrə pul qalığının qaytarılma nöqtəsi aşağıdakı kimi hesablana bilər:

**Dönüş Nöqtəsi = Aşağı Limit + 3/1 x Paylanma**

Aşağı həddi rəhbərlik təyin edir. Bu maliyyə axını boşluğunun məqbul riskindən, şirkətin kredit qabiliyyətindən və maliyyəyə olan tələbatdan asılıdır. Bununla birlikdə, şirkət bazar qiymətli kağızlarına kifayət qədər investitisiya qoymağa və ya mükəmməl kredit qabiliyyətinə sahibdirsə və istənilən vaxt əlavə qısamüddətli borc gətirə bilərsə, aşağı hədd sıfır kimi təyin edilə bilər.

Paylamanı (spread) hesablamaq üçün tənlik aşağıdakı kimidir:

$$\text{Spread} = 3 \times \sqrt[3]{\frac{3 \times F \times \sigma^2}{4 \times K}}$$

burada F - əməliyyat dəyəri, K - nağd pulun tutulması imkanı, σ2 isə gündəlik pul qalığının bir fərqidir.

Pul balansının yuxarı həddini tapmaq üçün aşağıdakı düsturdan istifadə olunmalıdır:

**Yuxarı Limit = Aşağı Limit + Paylama**

Məhdudiyyətlər

Müəssisənin maliyyə axınlarının idarəetmənin Miller-Orr modeli tətbiq edildikdə aşağıdakı məhdudiyyətləri nəzərə almalıyıq:

Əməliyyat dəyərinin artması paylamanın artmasına və daha yüksək dönüş nöqtəsinə səbəb olur. Gündəlik pul balansının standart sapması (σ) nə qədər yüksəkdirsə, paylama və dönüş nöqtəsi o qədər genişdir. Gündəlik pul balansının daha yüksək bir dəyişkənliyi də, aşağı və ya yuxarı həddə çatma ehtimalının yüksək olması deməkdir. Bunun əksinə olaraq, bazar qiymətli kağızlarına qoyulan investisiyaların gəlirliliyinin artması daha dar paylama və daha aşağı gəlir nöqtəsinə səbəb olacaq, çünki nağd pula sahib olmaq imkanı da artır, buna görə bir müəssisə öz pul depozitlərini azaltmağa çalışacaqdır.

**Nümunə**

Stilmill Inc rəhbərliyi, 50.000 dollarlıq bir təhlükəsizlik pul qalığı təyin etdi. Son bir il ərzində gündəlik pul balansının standart sapması (σ) 37 500 ABŞ dolları, əməliyyat dəyəri 75 dollar təşkil etmişdir. Şirkət ayrıca illik 8% faiz dərəcəsi ilə boş qiymətli kağızları bazar qiymətli kağızlarına sərmayə qoymaq imkanına malikdir.

$$\text{Gündəlik faiz dərəcəsi} = \frac{8\%}{365} = 0.022\%$$

$$\text{Spread} = 3 \times \sqrt[3]{\frac{3 \times \$75 \times \$37{,}500^2}{4 \times 0.00022}} = \$213{,}325$$

$$\text{Dönüş nöqtəsi} = \$50{,}000 + \frac{1}{3} \times \$213{,}325 = \$121{,}108$$

Yuxarida dusturda ortada xett nedir)
Yuxarı Limit = $50,000 + $213,325 = $263,325

***Beranek Modeli:***

Uilliam Beranek, "Maliyyə Qərarlarının Təhlili" adlı mətnində nağd balans və bazar qiymətli kağızları arasında mövcud vəsaitin optimal bölgüsünün müəyyənləşdirilməsi problemlərini müzakirə etmişdir. Beranek, firmanın maliyyə çatışmazlığı olduqda nağd endirimlərin itirilməsi və kredit reytinqinin pisləşməsi üçün gözlənilən pul axını və xərc funksiyası üçün ehtimal bölgüsünü istifadə etdi. Bu modeldə Beranek, dövrün əvvəlində pul və investisiyalar arasında vəsait ayrılmasına diqqət yetirir. Ayrıca, hər planlaşdırma dövrünün sonunda investisiyalardan çəkilmələrin mümkün olduğunu düşünür. Beranekə görə, maliyyə axınlarının problemində daha faydalıdır, çünki nağd pul verilməsi birbaşa rəhbərlik tərəfindən idarə edilə bilər. Maaş və əmək haqqı həftəlik və ya aylıq ödənilir. Kreditorlara ödəmə ayın onuncu və ya son günlərində edilir, lakin vergi və dividend kimi digər əhəmiyyətli ödənişlər müntəzəm olaraq ödənilir.

Beranek modelinə görə maliyyə menecerindən planlaşdırma dövrünün əvvəlində ümumi ehtiyatların M olacağı gözlənilir. Ayrıca xalis nağd ödənişlərin, yəni ödəmələri çıxılmadan çıxan məbləğin, dövrün sonunda f (P) ehtimal paylanmasına malik P (müsbət və ya mənfi ola bilər) olacağını gözləyirdi. Burada maliyyə menecerinin məqsədi, xərclər üçün lazım olduqda nağd pul çatışmazlığı ilə əlaqəli əməliyyat xərcləri və xərclər nəzərə alınmaqla qiymətli kağızlara qoyulan investisiyalardan gəliri maksimuma çatdırmaqdır. Beranek, 'xərclər çatışmazlığını', vaxtında ödəyə bilmədikdə nağd endirimlərin dəyəri və firmanın kredit reytinqinin pisləşməsi kimi müəyyənləşdirdi.

Xalis nağd axınlarda nəqd çatışmazlığı xərcləri və nağd qalıqların saxlanma ehtimalı dəyəri ehtimal paylanmasına malikdir. Bu ehtimal bölgüsü ilə Beranek, xərc dövrü inkişaf etdirir və dövrün əvvəlində əlində olan ən optimal ilkin pul balansını əldə etmək üçün fərqləndirərək inkişaf etdirir. Nağd pul balansını elə bir səviyyəyə təyin etdi ki, əgər belə kritik səviyyə qoyulubsa, nağd pul çatışmazlığının məcmu ehtimalı d / a nisbətinə bərabərdir, burada d = investisiya portfelinin xalis gəliri və = qısa müddətli Re.1 olmağın artan dəyəridir. Başqa sözlə, maliyyə meneceri kritik minimum səviyyəyə çatana qədər və davamlı olaraq yuxarıda göstərilən nisbətə, yəni d / a nisbətinə qədər investisiya edir.

***Mao Modeli:***

Mao Modeli, James C.T Mao tərəfindən hazırlanmışdır. Bu model, Boumol modelindən daha mürəkkəb, lakin inandırıcı bir yanaşmadır. Mao bu modeli Əməliyyat Tədqiqatları üsullarından birinin köməyi ilə inkişaf etdirdi. Bu cür üsul məşhur olaraq "Dinamik Proqramlaşdırma" kimi tanınır. Dinamik Proqramlaşdırma, bir şirkətin ümumi gəlirliliyini artıran qərarların ardıcıllığını seçmək üçün belə bir üsul və ya rekursiv proses və ya prosedurdur. Bu modeldə vaxtın dövrlərə bölündüyü, bütün vəsait toplama fəaliyyətlərinin hər dövrün əvvəlində baş verməsi qəbul edilir. Bu məhdudiyyət o deməkdir ki, əgər şirkət müəyyən müddət ərzində xalis nağd pul axını gözləyirsə və nağd pul tükənmək istəmirsə, dövrü xalis nağd pul axınına bərabər olan pul qalığı ilə başlamaq lazımdır. Sadəcə, pul idarəetmə problemi iki addım sistematik axtarış prosedurundan istifadə etməklə silinə bilər. Bunlar (a) nağd puldan dövlət qiymətli kağızlarına bütün köçürmələr planlaşdırma dövrünün əvvəlində edilməlidir; (b) dövlət qiymətli kağızlarından nağd pula olan bütün köçürmələr firmaların pul balansı sıfıra endirildikdən sonra edilməlidir.

***Stone Modeli:***

Stone Modeli, nəzarət məhdudiyyətlərindən istifadə etdiyi üçün bir qədər Miller-Orr Modelinə bənzəyir. Bununla birlikdə, yuxarı və ya aşağı hədd vurulduqda nağd pul artımının və ya kəsirin təbii olaraq özünü düzəldə biləcəyi ehtimalı nəzərə alınmaqla pul vəsaitlərinin hərəkəti barədə əvvəlcədən proqnoz daxil edilmişdir. Yuxarı nəzarət limiti əldə edilərsə, lakin nağd pul balansını məqbul səviyyəyə

endirəcək nağd pul çıxışı günləri izlənilməlidirsə, heç bir şey edilmir. Bunun əvəzində artıq nağd pul bu şəkildə qalarsa, o zaman nağd pul qalıqlarını əvvəlcədən təyin edilmiş dönüş nöqtəsinə almaq üçün geri çəkilir. Əlbəttə ki, nağd pul çatışmazlığı və aşağı nəzarət həddi olsaydı, əksinə tətbiq ediləcəkdir. Bu şəkildə Stone Modeli pul vəsaitlərinin hərəkəti proqnozunu nəzərə alır.

**NƏTİCƏ**

Aqrobiznes fəaliyyəti ilə məşğul olan müəssisələrdə bu modellərin tədbiqinin məqsədləri, ödəmələr üçün mövcud nağd pulun adekvat miqdarını təmin etmək, çatışmazlıqlar olduqda nağd pul alarkən əməliyyat xərclərini minimuma endirmək və profisit yarananda nağd puldan istifadə etməkdir. Bu modellər pul vəsaitlərinin toplanması, konsentrasiyası və digər metodlara görə müəyyən bir pul axını nümunəsini nəzərdə tutur.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Балащенко В.Ф., Бондарь Т.Е., (2015), Финансы предприятий: изд. 2-е испр., перераб. и доп. М.:. – 254 стр
**2.** Дробозина Л.А., Окунева Л.П., (2017), Финансы. Денежное обращение. Кредит: Учебник для вузов / и др.; М.: Финансы, ЮНИТИ.- 479 стр.
**3.** Ковалев В.В., (2018), «Финансовый анализ: Управление капиталом. М.: Финансы, ЮНИТИ, -452 стр
**4.** Колпина Л. Г., Кондратьева Т. Н., (2018), Финансы предприятий: Учебник /– Мн.: Выш. шк.,– 336 стр.
**5.** Овсийчук М.Ф. (2016). Управление активами и методика финансирования. “Аудитор”, № 5, стр. 44-48
**6.** Соколов Я.В.(2016), Основы управления финансами /- М.: Финансы и статистика,- 464 стр.

**А.Р.Тагиев**
*докторант, Азербайджанский Государственный Экономический Университет*

**Методы управления финансовыми потоками предприятий, занимающихся агробизнесом**

**Резюме**

*Отчет о движении финансовых ресурсов на предприятиях АПК выступает в качестве специальной базы данных. Эта информация широко используется финансовыми менеджерами и инвесторами, а предприниматели используют ее для создания дополнительных активов, погашения долгов и решения проблем, связанных с современными инвестициями. Управление финансовыми потоками на предприятиях - это финансовый инструмент, который можно использовать для достижения конечных положительных результатов финансово-хозяйственной деятельности предприятия, т.е. для получения большей прибыли. Все это вызывает необходимость совершенствования механизма управления финансовыми потоками на уровне предприятия.*

***Ключевые слова:*** *агробизнес, финансы, метод, экономика*

**A.R.Tagiyev**
*doctoral student, Azerbaijan State University of Economics*

**Methods of financial flow management in enterprises doing agrobusiness**

**Abstract**

*The report on the movement of financial resources in agribusiness enterprises acts as a special database. This information is widely used by financial managers and investors, and entrepreneurs use it to develop additional assets, repay debts and solve problems related to modern investment. Management of financial flows in enterprises is a financial tool that can be used to achieve the final positive results of the financial and economic activities of the enterprise, ie to make more profit. All this makes it necessary to improve the mechanism of financial flow management at the enterprise level.*

***Keywords:*** *agribusiness, finance, method, economics*

**S.E.Novruzov**
***magistrant, Bakı Avrasiya Universiteti***
**Novruzovsanan@gmail.com**

# AZƏRBAYCANDA RƏQƏMSAL BANK TEXNOLOGİYALARI

**Xülasə**

*Məqalədə Azərbaycanda mövcud olan bank sektorunu innovativ dəyişiklərlə rəqəmsal əsaslı inkişaf xüsusiyyətləri, həm müştərilərin həm də bank sektoru üçün necə faydalı ola biləcəyi göstərilir. Həmçinin Azərbaycanda iqtisadiyyatın rəqəmsallaşması prosesinin bank sektoruna təsiri araşdırılmışdır.*

***Açar sözlər:*** *bank, rəqəmsal bankçılıq, rəqəmsal transformasiya, innovasiya*

## GİRİŞ

Rəqəmsal transformasiya – 21-ci əsr dünya biznesində yeni şərtlərlə uyğunlaşmaq üçün gedən qarşısıalınmaz və qaçınılmaz prosesdir. Bu yeni rəqəmsal iqtisadiyyatda biznesin köhnə model, ənənəvi proseslər və əvvəlki effektivlik ilə işləyəcəyini güman etmək təəccüblü olardı. Biznesin rəqəmsal transformasiyası istənilən şirkətə yeni bazar reallıqlarının artmaqda olan və daha praqmatik “rəqəmsal” rəqiblərin təzyiqlərinə davam gətirmək imkanı verəcək.

Müasir rəqəmsal texnologiyalar banklar üçün böyük imkanlar təklif edir. Süni intellekt, maşın təlimi, böyük həcmli məlumatlar, sonsuz sayda ödənişlər, virtual kartlar – yeni nəsil rəqəmsal məhsulların zamanı gəlmişdir. Rəqəmsal texnologiyalar inanılmaz surət ilə yayılır və ölkənin hər regionunda əlçatan olur: periferiyada olan adam paytaxtda yaşayan adamla eyni, yüksək səviyyəli xidmətdən yararlana bilər. Müasir dünyanın reallıqlarında və həyatın surətli axınında xidmət və servisin əksər hallarda müştərinin fiziki mövcudluğundan asılı olmaması əhəmiyyətli faktora çevrilmişdir – məhz bu rəqəmsal bankçılığın əsasını təşkil edir.

### Rəqəmsal tranformasiyanın maliyyə təşkilarlarına təsiri

Maliyyə təşkilatları rəqəmsal transformasiya istiqamətində çalışdıqca məlum olur ki, bu proses üçün yeni texnologiyaların və həllərin tətdbiqindən daha çoxunu bacarmaq lazımdır. Bu sahədə uğurlu olmaq üçün müştərilərin artan və dəyişən tələblərini qarşılamağa qadir olacaq bankçılıq mədəniyyəti yaradılmalıdır.

Rəqəmsal transformasiya dedikdə söhbət kiçik dəyişikliklərdən deyil, daha iri həcmli və icrası hətta illərlə vaxt tələb edən dəyişikliklərdən gedir. Bu yeniliklər yeni texnologiyaları, yeni strategiyaları, prosesləri və təşkilatı-hüquqi məsələləri əhatə edir ki, nəticədə əsas məqsəd məhsul yönümlü strategiyaların müştəri yönümlü strategiyalarla əvəz olunmasıdır.

Təbii ki, belə böyük miqyaslı rəqəmsal transormasiya bankların arxa ofis proseslərindən də yan keçməyəcək və onilliklər ərzində formalaşmış inteqrasiya və əməliyyat axınlarının da yenilənməsini tələb edəcək. Ən azından tamamilə yeni məlumat şəbəkəsi və məlumat bazası yeni yanaşma tələb edəcək.

### Rəqəmsal transormasiyanın əsas əlamətləri

Rəqəmsal bir təşkilata çevrilmək sadəcə onlayn və mobil bankçılıq xidmətlərini təklif etməkdən daha böyük bir anlayışdır. Bu transformasiya bütün mümkün kanallarla müştərilərin iştirakını və qarşılıqlı dəstəyini tələb edir. Eyni zamanda müasir texnologiyalar vasitəsilə müştərilərlə əlaqələrin

sadələşdirilməsi anlamına gəlir. Real rəqəmsal transformasiya hər bir inkişaf mərhələsində müştəri təcrübəsinə fokuslanmalıdır.

Digər tərəfdən, rəqəmsal təşkilata çevrilmək eyni zamanda əməkdaşların davranış və hərəkətlərini də əhatə edən bir prosesdir. Bu transformasiya əməkdaşların bir-biri ilə münasibətlərini və eyni zamanda kənar şəxslərlə də münasibətlərini əhatə etməlidir. Bu səbəbdən də rəqəmsal transormasiya məsuliyyət, rollar və təşkilatı strukturun da yeni sistemə uyğunlaşmasını tələb edəcək. Beləliklə, yeni strategiyaya uyğunlaşmaq maliyyə təşkilatlarından yeni daxili mədəniyyətin formalaşdırılmasını tələb edəcək. Biz bunu rəqəmsal mədəniyyət də adlandıra bilərik və yeni texnologiyalardan istifadə yeni daxili davranış və düşüncə tərzi yaradılmasını tələb edəcək.

**Mədəniyyət dəyişikliyi niyə vacibdir?**

Bir çox banklar və maliyyə təşkilatların rəqəmsal transformasiya dedikdə daha çox texnoloji aspektlərə fokuslanmalarına baxmayaraq, rəqəmsal mədəniyyət bu prosesin uğurlu olması üçün ən vacib elementdir. Mədəniyyət – qərarların qəbul olunmasını və strategiyaların necə tətbiq edilməsini müəyyənləşdirən ümumi davranışlar və dəyərlər kompleksidir. Bu səbəbdən istənilən təşkilatda bu dəyərlər, ilk növbədə, ən yüksək səviyyədə rəhbərlər tərəfindən dəstəklənməlidir. Çünki, hər hansı bir transformasiya barədə qərar verən şəxslər bu qərarın uğurlu olacağına özləri inandıqları qədər də ətrafdakıları inandırmalıdırlar. Doğurdan da, hətta ən başlanğıc səviyyədə çalışan əməkdaş belə icra etdiyi qərarların uğurlu olacağı inancına sahib deyilsə, bu zaman ən yaxşı halda həmin əməkdaş bütün potensialını səfərbər edərək çalışmayacaq.

Güclü mədəniyyət bütün işçilərin təşkilatın strategiyasını, məqsədlərini dəstəkləyən qaydalara, obrazlı şəkildə desək, brendin DNT-sini dəstəkləyən qaydalara uyğun çalışmalarını təmin edəcək bir gücdür. Məhz bu baxımdan rəqəmsal transformasiya prosesində mədəniyyət kimi vacib bir elementin nəzərə alınmaması bütün prosesin nəticəsini riskə atmaqla bərabər, bankın maliyyə göstəricilərinə də mənfi təsir edəcək.

Banklar və kredit təşkilatları rəqəmsal mədəniyyətə keçid etməklə qazanılmış çeviklik sayəsində qərarların qəbulu, çatdırılması və icrasında daha effektiv olacaqlar. Təsəvvür edin, siz ən azından sadə qərarların qəbulu prosesini texnologiyalara həvalə etməklə daha çətin və vacib qərarların qəbulu üçün müqayisə olunmaz zaman, çeviklik və rahatlıq üstünlüyü qazanmış olacaqsınız.

Rəqəmsal mədəniyyət daha çox müştəriyönümlü olmaqla bərabər, işçilərə müştərinin əvəzinə qərar vermək imkanı yaradır, daha innovativ və yaradıcıdır.

**Rəqəmsal mədəniyyətin komponentləri**

Məqalənin hazırlanması zamanı rəqəmsal mədəniyyətin elementləri barədə bir çox araşdırmalar üzərində təhlillərimiz göstərdi ki, əslində bu mövzuda vahid yanaşmanı müəyyənləşdirəcək standartlar yoxdur. Lakin, bir çox mütəxəssislərin fikirlərinə və təcrübəyə əsaslansaq, aşağıdakı elementlər haqqında danışmaq olar.

**İnnovativlik.** İstənilən halda rəqəmsallaşma yeni ideyalar, yeni trendlər və innovasiyalar deməkdir. Rəqəmsal mədəniyyət "öyrəşdiyimiz qaydada işləmək" anlayışından azad olaraq qeyri-standart düşüncə tərzi yaratmaqdır. Hər bir əməkdaş riskləri dərk edərək, onları qəbul etməli, öyrənməli, yenilənmə mentaliteti ilə bu prosesin bir hissəsi olmalıdır.

**Məlumatlara əsaslanan.** Rəqəmsal mədəniyyətə sahib olan bank məlumatları sadəcə təhlil və analitika üçün istifadə etməli deyil. Yəni məlumatlardan post-faktum deyil, onlayn rejimdə istifadə edilməli, istənilən zaman individual və ani qərarlar qəbulunu təmin edəcək bir sistem yaradılmalıdır.

**Müştəriyə fokuslanmış.** Rəqəmsal mədəniyyət müştəri yolçuluğuna və müştəri təcrübəsinə əsaslanmalıdır. Çünki yalnız bu halda ideyalar banka kənardan daxil ola bilər və qərarvermə prosesində istifadə olunaraq müştərilər üçün daha uyğun şərtlər yaradıla bilər.

**Kollektiv və birlikdə iş.** Adətən fiziki və virtual iş mühiti məhsul və xidmətlərin ətrafında strukturlaşdırılmamış halda olur və bu strukturlaşdırma departament, funksiyalar və məhsullar arasında qarışdırılmış olur. Əslində iş birliyi və düzgün kordinasıyanı nəzərdə tutan açıq strukturlaşma daha effektiv nəticələrə əsas ola bilər.

**Həssaslıq və cəld reaksiya vermə.** Rəqəmsallaşma böyük ölçüdə surət deməkdir. Bazar trendlərinə və müştəri ehtiyaclarına vaxtında reaksiya verə biləcək çevik sistem qurulmazsa, texnoloji yeniliklər effektiv olmayacaq.

**Şəffaflıq.** Güzlü rəqəmsal mədəniyyətin əsas komponentlərindən biri də şəffaflıqdır. İşçilər ideyalarının bölüşməsi və kommunikasiyalar məsələsində tam təhlükəsizlik hiss etməlidirlər. Bəlkə də bu həmin işçilərin əvvəllər öyrəşmədiyi bir mühit olduğuna görə şəffaflığı təmin etmək ilk baxışda çətin görünəcək. Eyni zamanda işçi başa düşməlidir ki, məqsədlər, hədəflər və strategiyalar nədən ibarətdir və bu prosesdə onun rolu nədən ibarətdir.

Göründüyü kimi, rəqəmsal təşkilat daim yeniliklər gözləntisinə hazır olacaq vəziyyətdə qurulmalıdır. Bu rəqəmsallaşma hədəfi olan istənilən maliyyə təşkilatı üçün ən effektiv yoldur. Çünki yalnız bu halda proseslərin, məhsulların və yanaşmaların daim yenilənməsi tələb olunur. Rəqəmsal müştəri ehtiyaclarını ödəmək üçün isə başqa çıxış yolu yoxdur. İstənilən əməkdaş hər an dəyişikliyi qəbul etməyə hazır olmalı və bu dəyişikliyin onun işini necə dəyişəcəyi haqda bilikli olmalıdır. Bu, rəqəmsal strukturun ən vacib tələbidir.

Bir halı düşünün ki, ən yaxşı hazırlanmış strategiya və ən müasir texnologiyalar belə ətrafda baş verən hadisələrə çevik reaksiya verməк istəməyən daxili mədəniyyətlə bacara bilməyəcək. Bir sözlə, rəqəmsallaşma ilk növbədə rəqəmsal mədəniyyət tələb edir. Yəni hər sahədə olduğu kimi burada da hər şey düşüncə tərzindən və mədəniyyətdən başlayır.

## NƏTİCƏ

Rəqəmsal bank modellərindən hər hansına keçid – bu şöbələrin mobil bankçılıq və ya online platformaya çevrilməsindən daha böyük bir prossesdir. Bu, müştəri ilə rəqəmsal münasibətlərin maksimum individuallaşdırılmasını və baza tranzaksiyalarına rəqəmsal uyğunluqların əlavə olunmasını tələb edir. Neobanklar maliyyə texnologiyaları, şirkətlərinə aid olduqları üçün onların gələcəyi avropada və ABŞ-da çox perspektivli görünür. Elektron bank sahəsi o dərəcədə populyardır ki London və New York kimi dünya maliyyə mərkəzləri qlobal maliyyə texnologiyaları mərkəzi adı almaq üçün yarışırlar və qeydiyyat, vergiqoyma məsələlərində əlverişli üsullar təklif edərək startapları cəlb edirlər.

### *İstifadə edilmiş ədəbiyyat:*

1. Banker.az
2. Banco.az
3. Fed.az
4. R.A.Bəşirov, ”Bank işi”, Bakı, 2007

**С.Е.Новрузов**
*магистрант, Бакинский Евразийский Университет*

**Azərbaycanda rəqəmsal bank texnologiyaları**

**Резюме**

*В статье показаны особенности цифрового развития банковского сектора в Азербайджане с инновационными изменениями и то, как это может быть выгодно как для клиентов, так и для банковского сектора. Также было изучено влияние процесса цифровизации экономики Азербайджана на банковский сектор.*

***Ключевые слова****: банковское дело, цифровой банкинг, цифровая трансформация, инновации*

**S.E.Novruzov**
*master student, Baku Eurasian University*

**Digital banking technologies in Azerbaijan**

**Abstract**

*The article shows the features of digital development of the existing banking sector in Azerbaijan with innovative changes, and how it can be useful for both customers and the banking sector. The impact of the process of digitalization of the economy in Azerbaijan on the banking sector was also studied.*

***Keywords****: banking, digital banking, digital transformation, innovation*

**S.H.Cəfərzadə**
***magistrant, Bakı Avrasiya Universiteti***
**ceferzade.sexavet@gmail.com**
**E.M.Yusifov**
***i.ü.f.d., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
**e.yusifov.77@mail.ru**

# TURİZM ŞİRKƏTLƏRİNDƏ "MÜŞTƏRİYÖNÜMLÜ" SİSTEMLƏRİN İŞLƏNİB HAZIRLANMASINDA SƏRRAST MARKETİNQİN ROLU

**Xülasə**

*Müasir dövrdə informasiya texnologiyasının inkişafı ilə yeni bazar şəraitini meydana çıxmışdır. Müştəri əsasında qurulan bazar, onların dəqiq müəyyən edilməsini və bütün ehtiyaclarının qarşılanmasını tələb edir. Texnologiyadan istifadə edən şirkətlər hər zaman bir addım daha öndə olur. Turizm sektorunda müştərilərlə münasibələrin idarə olunması sistemi, yəni CRM çox mühüm bir alət hesab olunur. Bundan əlavə Sərrast marketinq prinspilərindən istifadə etməklə müştərilərin fərdiləşdirilməsi və əməliyyatların optimallaşdırılması da yerli bazar üçün mühümdür. Mövzünün əhəmiyyəti pandemiyadan sonrakı dövrdə Turizm şirkətlərinin yaranan rəqabət qarşısında durması üçün zəruri araşdırmanın tələb olunmasından qaynaqlanır. Sərrast marketinq prinspilərinə əsaslanan müştəri münasibələrinin idarə olunması sistemi şirkətləri bir addım daha öndə saxlaya bilər.*

***Açar sözlər:*** *sərrast marketinq, marketinq-menecment, CRM, müştəriyönümlü sistem, turizm sənayesi*

## GİRİŞ

Dünya bazarında baş verən dəyişikliklər təsirini müxətlif sektorlarda göstərir, bu dəyişiklik müştərilərə yanaşma ilə əlaqəlidir. Belə ki, müştərilərə artıq dəyər prizması əsasında yanaşma aparılır. Məqalədə müştəri yönümlü yanaşma prizması əsasında geniş bir araşdırma aparılmışdır. Beləki tədqiqatın əsasını Sərrast marketinq, onun xüsusiyyətləri və onun müştərilərlə münasibətlərin idarə edilməsi sistemi ilə əlaqəsinin turizm sektorundakı təsiri təşkil edir. M.Porterin rəqabət modelinə əsasən biznesdə üç mühüm strategiyadan istifadə olunur. Bu strategiyalar haqqında məqalədə ətraflı qeyd edilmişdir. Qeyd etmək lazımdır ki, məqalənin əsası Təmərküzləşmiş Sərrast marketinq strategiyasının turizm sektorundakı təsirini müştəri idarə etmə sistemi ilə əlaqəli şəkildə göstərməkdir. Birinci bölmədə Sərrast marketinq haqqında ətraflı məlumatlar qeyd edilmişdir, daha sonra onun müştəri idarə etməsi ilə əlaqəsini, ən sonda isə onların turizm sektorundakı rolu izah edilmişdir. Bu mövzunun aktuallığına gəldikdə isə, biznesin və ya iqtisadiyyatın əsasını təşkil edən marketinq və müştəri münasibətlərinin rolu turizm sektorunda çox az diqqət olunan bir məsələdir. Buna görə də məqsəd, bu sektorda olan iş prosedurunu daha effektiv və gəlirli bir formaya gətirmək üçün yeni bir strategiya tətbiq edərək, müştəri idarə etməsinin Sərrast marketinqlə birlikdə mühüm bir rol oynadığını göstərməkdir. Bu mövzuda həmçinin müştəri idarə etmə sistemi kimi məhşur tanınan CRM sistemi haqqında da araşdırma aparılmışdır.

### 1. Sərrast marketinq və onun xüsusiyyətləri

Marketinq-menecment dedikdə müəssisənin əsasını təşkil edən mürəkkəb bir struktur nəzərdə tutulur. Bu mürəkkəb struktur müəssisələrin inkişafının təməlini təşkil edən müxtəlif strategiyalardan ibarətdir.

M.Porterin rəqabət modelinə əsasən marketinq strategiyalarına bunlar aid edilir:

**1.** Kütləvi marketinq.

**2.** Dərəcələrə ayrılmış(differensial) marketinq.

**3.** Təmərküzləşdirilmiş sərrast marketinq.

**Kütləvi marketinq -** Bu strategiya ucuz qiymət prinsipinə əsaslanır, burada sahibkar bazara kütləvi eynicins məhsul çıxartmaqla, müştərini çoxlu seçim qarşısında qoyaraq daha ucuz qiymətlə cəlb etməyi məqsədə uyğun hesab edir.

**Differensial marketinq -** burada prinsip məhsulları müxətlif qruplara və ya yarımqruplara ayırmaqla rəqabət üstünlüyü qazanmaqdır. Bu nə deməkdir, sahibkar bir məhsuldan müxəlif seqmentlərə xitab edən məhsul çıxarmaqla bazarda bütün iştehlakçıların ehtiyaclarını qarşılamış olur. Onlar məhsulları seqmentlər üzərində ixtisaslaşdırır.

**Təmərküzləşmiş Sərrast marketinq** - burada rəqabət fokuslaşdırma hesabına əldə edilir [3].

Sərrast marketinq, orta təbəqədən olan bir müştəriyə yüksək səviyyəli bir məhsulu satmaq və ya hədəfləməkdir. Adından da göründüyü kimi, sərrast bir addım ilə və ya həmlə ilə bazarda kimə hansı məhsulu təqdim etməli olduğunu bilmək zəruridir. Onu da qeyd etmək lazımdır ki, firma bazardakı mövqeyini iki yolla idarə edir; xərcləri azaltmaqla və məhsul üzrə ixtisaslaşmaqla. Bu modellərdə kompleks xidmətlərin təklifi və isteklakçılarla qarşılıqlı münasiblərlə bazara təsir etmək nəzərə alınmır. İqtisadiyyatın sektorundan asılı olmayaraq hər bir firmanın və ya müəssisənin hədəfi bazarda olan möqeyini qoruyub saxlamaqla yanaşı, həmçinin bu mövqeyi daha da gücləndirməkdir. Belə ki, bu mövqeyin formalaşmasında təsiri olan iki mühüm amil vardır:

**1.** Müştərilərlə münasibətlərin səviyyəsi.

**2.** CRM layihələri ilə inteqarsiya səviyyəsi.

Kiçik bir tədqiqatın nəticəsinə baxaq. Belə ki, Cap Gemini Ernst&Young tərəfindən 300 firmada aparılan tətqiqata əsasən biznes modellər yaradılmışdır. Tətqiqat göstərmişdir ki, xidmət iqtisadiyyatı şəraitində firmaların 66%-i müştərilərlə qarşılıqlı münasibətlərin idarə edilməsi sistemlərini tətbiq etməklə, müştərilərə meyillənir, müştəri münasibətləri sistemindən istifadə etməyən firmaların 32%-i məhsula fokuslanır. Müştərilərə fokuslanan firmaların cəmi 2%-i münasibətlərin inteqrasiya edilmiş idarəetmə sisteminə malikdir [1].

Tədqiqat əsasında meydana çıxan biznes modellər aşağıdakılardır:

**1.** Məhsula və ya xidmətə fokuslanan ənənəvi model.

**2.** Məhsula və ya xidmətə fokuslanan lakin münasibətlərin inteqrasiya edilmiş idarəetmə sisteminə malik olmayan model.

**3.** Müştəriyə fokuslanan lakin münasibətlərin inteqrasiya edilmiş idarəetmə sisteminə malik olmayan model.

**4.** Müştəriyə fokuslanan lakin bölmə səviyyəsində münasibətlərin inteqrasiya edilmiş idarəetmə sisteminə malik olmayan model

**5.** Müştərilərlə münasibətlərin idarə edilməsi və korporativ səviyyədə müştərilərlə qarşılıqlı münasibətlərin idarə edilməsi sistemi layihələri ilə tam inteqrasiya edilən model.

Beşinci modelin tətbiq olunmasında Sərrast marktinqin müstəsna rolu vardır. Ümumi marketinq-menecment stukturunda sərrast marketinqin rolunu anlamaq üçün aşağıdakı üç amilə diqqət edilməlidir:

**1.** Müştəri münasibətlərinin fərdiləşdirilməsi səviyyəsi.

**2.** Hədəflənmiş auditoriyanın əhatə etdiyi genişlik.

**3.** Qurulan münasibətlərin dərinliyi.

Sərrast marketinqi kütləvi marketinqlə müqayisə edək. Belə ki, Sərrast marketinqin iki növü vardır; məqsədyönlü və fərdiləşdirilmiş marketinq. Kütləvi marketinq geniş auditoriyaya xitab etdiyi

üçün fərdiləşdirmə səvviyəsi aşağı olur, həmçinin münasibətlər səthi bir formada qurulur. Lakin fərdiləşdirilmiş marketinqdə isə hər bir müştəriyə bir fərd olaraq baxılır, onların ayrıca analizi aparılır və bu məlumatlar əsasında addımlar atılır. Burada hədəfləmə dar olur, lakin müştəri münasibətləri dərin olur, çünki məqsəd hər bir müştəriyə fərdi yanaşma tərzi ortaya qoymaqdır. Məqsədyönümlü marketinqdə isə öncədən seçilmiş hədəf kütləyə yönələn addımlar atılır, burada əsas məqsəd müəyyən olunmuş hədəfə çatmaqdır. Sərrast marketinq fərdi və dar profilli məqsədyönlü yanaşmaları özündə ehtiva edir, bu marketinq addımlarını bazarın daha gəlirli seqmentlərinə və yarım seqmentlərinə istiqamətləndirməyə və qarşılıqlı fəaliyyət kontaktların istehlakçılarla dərin fərdi münasibətlər qurmağa imkan verir [4].

Beləliklə, sərrast marketinq dedikdə müasir idarəetmə, təhlil və satış metodları nəzərdə tutulur. Onun əsas istiqamətləri fərdiləşdirmə, kanalların inteqrasiya edilməsi və münasibətlərin optimallaşdırılması hesab olunur (Şəkil 1) [4].

Müəsisələrin sərrast marketinq strategiyalarından istifadə etməsi bir növ yuxarıda qeyd etdiklərimizin tətbiqinin nəticəsi kimi ortaya çıxır. Burada əsas məqsəd müştərilərlə münasibətləri optimallaşdırmaqla, qarşılıqlı fəaliyyəti inteqrasiya edərək, müştəri münasibətlərini fərdiləşdirməklə bazarda uğurlu olmaqdır. Bütün bunlar şirkətin bazarda rəqabəti artırması və daha yüksək bir bazar payına sahib olması üçün istifadə etdiyi müştərilərlə münasibətlərin idarə olunmasına birbaşa təsir edir.




**Şəkil 1. Sərrast marketinqin xüsusiyyəti**

Qeyd edilənlərdən belə nəticəyə gələ bilərik ki, Sərrast marketinq həm məhsul həm də xidmətin satılması üçün çox yaxşı optimalaşdırma vasitəsidir. Belə ki, turizm sahəsində fərdiləşmə çox önəmli olduğu üçün, müştərilərlə qarşılıqlı fəaliyyət kanallarının inteqrasiya edilməsi Sərrast marketinqin turizm şirkətləri üçün də nə qədər önəmli olduğunu əsaslandırır.

**2. Müştəriyönümlü idarəetmə sisteminin Sərrast marketinqlə qarşılıqlı əlaqəsi**

Müəssisənin bazardakı fəaliyətini optimallaşdırmaq məqsədi ilə lazımı zamanda, lazımı informasiyanı uyğun kanal vasitəsi ilə doğru müştərilərə çatdırmaq Sərrast marketinqin əsasını təşkil edir. Müasir dövrdə şirkətlərin qarşısında duran əsas məqsədləri vaxta və pula qənaət edərək, qısa zaman kəsiyində az xərclə məhsul istehsal edib, müştərilərə təqdim etməkdir. Lakin bununla yanaşı, satış və

marketinqlə bağlı məlumatların operativ bir şəkildə istifadə olunması üçün müştəri yönümlü idarəetmə sistemindən istifadə etmək ən aktual məsələlərdən biridir. Şirkətdə müştəri idarəetməsinin marketinqlə qarşılıqlı fəaliyyəti ondan ibarətdir ki, əldə olunan məlumatlar əsasında şirkət uyğun marketinq və ya satış strategiyası qurmağı bacarır. Buda iş prosedurunu daha səmərəli və məqsədə uyğun bir şəkildə sürətli edir. Yığılmış informasiya toplusundan istifadə etməklə, gələcək strategiyalar qurulur. Dünyada "Big Data" deyilən bir məhfum çox məşhurdur, beləki burada milyonlarla insana aid müxətlif məlumatlar toplanıb. Bu haqda informasiya 21-ci əsrin yağıdır, analitika isə yanma mühərrikidir deyə Peter Sondergaard bildirmişdir [5]. Toplanmış məlumatlara şirkətin daxili və xarici münasibətləri daxildir, burada həmçinin rəqib şirkətlərin bazarda payı və onların startegiyaları daxildir. Belə bir qayda var ki, ilk növbədə məlumatlar toplanır, daha sonra analiz edilir və müvafiq məlumatlar məhsul şəxslərə çatdırırlır. Qeyd edildiyi kimi bu məlumatlar əsasında satış strategiyası qurulur.

Müştərilərlə qarşılıqlı münasibətlər marketinqinin qurulması üçün aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

- Tədqiqatlarda yalnız alqı-satqı məsələrinə yox, bazarda olan ümumi müştəri-satıcı münasibətlərinə diqqət etmək lazımdır.
- Bu münasibətlərə marketinq kompleksinin bütövlükdə dəyişilməsi kimi yox, tərəflərin marketinq subyektlərinin qarşılıqlı fəaliyyəti kimi baxmaq lazımdır.
- Qarşılıqlı fəaliyyət həm satıcının həm də alıcının mövcud vəziyyətini təhlil etməklə diqqətdə saxlanılmalıdır.
- Alıcı və satıcının sayının qeyri-məhdud olub, əvəzlənən olduğunu düşünmək əvəzinə, sabit olduğunu fikirləşmək daha məqbuldur.

Münasibətlərin sərrast marketinqini qurarkən dərin araşdırma aparmaqla bazarda yeni olan qaydaların və mövcud vəziyyətin yarada biləcəyi neqativ hallar müəyyən edilməli və onların həlli üçün alternativ variantların düşünülməsi mühümdür. Müştəri münasibətlərinin sərrast marketinq-menecment konspesiyası haqqında aşağıda daha geniş izah verilmişdir.

Müasir dövrdə müştəri çox seçici olduğu üçün və onu da nəzərə alsaq ki, bazarda çoxlu sayda müxtəlif növ məhsul təqdim olunur. Belə olduqda gərək bazara çıxarılan məhsullar birbaşa müştərilərinin marağına və tələbinə uyğun olaraq sərrast istiqamətlənməlidir. Məhsul və ya xidmətlərin satışını müəyyən seqment üzərində etməklə, şirkətlər davamlı və gəlirli müştərilər əldə edə bilər. Onu da qeyd edək ki, fərdiləşdirmə yanaşması şirkətlər tərəfindən xüsusi diqqət olunmağa başlayıb. Hal-hazırda bazarda münasibətlərin idarə edilməsi texnikası sürətlə inkişaf edir və müştərilərə fərdi yanaşma günü-gündən daha da aktual bir məsələyə çevrilir. Buradan da başa düşmək olar ki, Sərrast marketinq-menecmentin əsas komponenti fərdiləşdirmədir. Çünki bu, müştərilərlə münasibətdə daha ətrafllı və dolğun bir məlumat əldə etmək çox önəmlidir. Beləki, fərdiləşdirmə sayəsində şirkət müştərilərlə birbaşa əlaqə saxlamaqla, gələcək üçün daha dərin münasibtlər qura bilir. Fərdi kontaklar istehsalçı və istehlakçı arasında etimad yaratmaqla, şirkətlər üçün əlavə dəyər qatır. Perspektivli istehlakçıların və hədəf kütlənin müəyyən edilməsinə səbəb olan kontakt kanallarının inteqrasiya edilməsi, Sərrast marketinqin vacib başlanğıc mərhələlərindəndir [4].

Tarixən müştəri və satıcı arasında üç kontakt kanalından istifadə olunub:

- istehsalçı və istehlakçı arasında birbaşa kontakt;
- poçt, televizya və digər mətbuat xidmətləri vasitəsi ilə;
- telefon kanalları vasitəsi ilə.

İnternet şəbəkəsinin yaranması ilə dördüncü kanal meydana çıxdı. Bu kanalın meydana çıxması ilə birlikdə müştəri idarə etmə strategiyalarında da yeniliklər ortaya çıxmağa başladı. Əvvəl adi poçtlarla göndərilən məktublar, bir neçə günə hətta aya belə çatırdısa, internetin kəşfi ilə yaranan elektron poçtlar

bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsində olan şəxslə əlaqə qurmaq imkanı yaradırdı. Bundan əlavə olaraq meydana çıxan veb saytlar, sosial şəbəkələr də müştəri-satıcı arasındakı rabitənin daha qısa və yaxın etmişdir. Belə ki, şirkətlər zamanla internetin tətbiqinin faydalarını gördükcə öz işlərini onun üzərindən satmağa başlamışdır. Bu da son dövrlərin elektron ticarət məhfumunu meydana çıxarmışdır. Sosial şəbəkələr bir növ satış kanalları rolu oynadıqda, veb saytlar sanki mağaza funksiyasını oynayır. Çünki müştərilər sayt vasitəsi ilə bütün məhsul və ya xidmətlər ilə maraqlana bilər, zövqünə uyğun seçim edə bilər və əlaqə vasitəsi ilə şirkətin mağazasına yaxınlaşa və ya birbaşa sifariş verə bilər. Saytların daha üstün bir cəhəti isə, Google'un axtarış sistemlərində çıxmaqla, müştərilər ilə tez ünsiyyət vasitəsi ola bilər. Bundan başqa elektron ticarət işlərində reklam xərclərinin ənənəvi xərclərdən daha az olduğu üçün, şirkətlər bu istiqamətdə daha çox investisiya qoymağa başlamışdır.

Müştəri və satıcı münasibətləri yuxarıda izah edildiyi kimi müxtəlif dövrlərdə, müxtəlif formalarda olmuşdur. Müasir dövrün əlaqələri isə qeyd edildiyi kimi internet üzərindən daha çox qurulur. Şirkət və müştəri arasında qarşılıqlı fəaliyyət mərhələləri:

**1. Bilik** - Müştərinin şirkəti kəşf etməsi və onunla əməkdaşlıq etmək qərarına gəlməsi.

**2. Təcrübə** - Burada artıq müştəri şirkətlə bir əməkdaşlıq edib və ondan müəyyən təcrübə əldə edib. Bunun vasitəsilə gələcəkdə müsbət və ya mənfi əlaqələr ola bilər.

**3. Qarşılıqlı fəaliyyət** - Artıq müsbət yönümlü işlər başlayıb, müştəri və şirkət hər iki tərəf qənaətbəxş razılaşmalar əldə edir.

**4. Yüksək keyfiyyətli xidmət və məhsul** - Qarşılıqlı fəaliyyətdə mühüm olan başqa bir nöqtə.

**5. Etimad, mənfəət** - Şirkət üçün mənfəət qazanmaqla yanaşı alıcıların etimadını doğrultmaqda çox önəmli bir məsələdir.

**6. CRM-Bilik bazası** - Burada müştəri idarəetməsi üçün çoxlu məlumatlar toplanmışdır.

Swift-ə görə CRM sistemləri müəssisənin marketinq kanalları vasitəsi ilə müştəriləri müəyyən etmək, onların sadiqliyini artırmaq və yeni müştərilər əldə etmək üçün tətbiq olunan sistemdir. 1990-cı illərin əvvəlində Müştəri İdarəetmə Sistemi (CRM) texnologiya və ideaların vəhdəti şəklində, müştəri yönümlü biznes praktikasının inkişafında çox əhəmiyyətli olmuşdur [6].

Bilik bazası müştərilərin haqqında toplanılan informasiyalar yığınıdır. Müştərilərlə əlaqələrin idarə olunmasını ingiliscə CRM, yəni Customer Relationship Management kimi adlandırılır. Bu sistemin daha müasir bir forması da meydana çıxmışdır, bu isə E-CRM kimi adlanır. Elektron CRM daha çox elektron ticarət işlərində istifadə olunur. CRM ilə Sərrast marketinqin xüsusi əlaqəsi vardır. Əvvəl sərrast marketinq haqqında araşdırma aparıldı və onun nə olmasını, əhəmiyyəti təqdim edildi. İndi isə müştəri idarə etmə sistemi haqqında və onun marketinq-menecment ilə əlaqəsi iz ah edildi. Onu qeyd etmək lazımdır ki, Sərrast marketinq prinsipləri CRM bazası əsasında hazırlanır. Bu baza müştərilər haqqında toplanan məlumatlardır. Bura onların maraq dairələri, əlaqə vasitələri, hansı məhsulu nə vaxt almaları və bu kimi daha ətraflı məlumatlar daxildir. Sərrast marketinq üç əsas prinsipi (kanalların inteqrasiyası, optimallaşdırma, fərdiləşdirmə) yalnız müştəri haqqında ətraflı məlumata sahib olduqdan sonra bir əhəmiyyətə malikdir. Xüsusən də fərdiləşdirmə prinsipi. Əgər müştəriləri doğru bir şəkildə müəyyən etmək olmasa, onlar necə fərdiləşdirə və onlara necə fərdi münasibət göstərə olar?

Təbii ki, bu mümkün deyildir. Kiçik bir yanaşma ilə CRM ilə Sərrast marketinqin arasında olan mühüm əlaqəni görmək mümkün oldu. Məqalədə əsas baxılan məsələ isə, bazarda mühüm olan bu iki alət vasitəsi ilə turizm sektorunda necə səmərəlilik yarada bilərik və ya onların istifadəsi nə kimi üstünlüklər qazandıra bilər. Yuxarıda qeyd etdiklərimiz hər iki vasitədən turizm sektorunda istifadə etməyin əhəmiyyətini aydın bir şəkildə göstərir.

**3. Turizm şirkətlərində "müştəriyönümlü" sistemlərin hazırlanmasında Sərrast marketinqin əhəmiyyəti**

Turizm sektoru dünya iqtisadiyyatında xüsusi pay sahibi olan sektorlardan biri hesab edilir. Son dövlərdə baş verən pandemiya ilə əlaqəli olaraq sektor tamamilə qapanmış bir vəziyyətdədir. Bəzi ölkələrdə, çox az bir sayda turist qalıb. Mövcud vəziyyətdə turizm sektorunda heç bir fəaliyyət və inkişafdan söz belə gedə bilməz. Lakin araşdırmalara əsasən 2030-cu ilə qədər, turizm sektorunun dünya iqtisadiyyatında payı artacaqdır. Azərbaycanda ən zəif inkişaf edən sahələrdən biri də xidmət sektorudur. Bura kafe, restoran və turizm fəalliyyətləridir.Turizm başdan-başa xidmətlə əlaqəlidir. Turistlərin ölkəyə gəlişindən, onların ölkədən çıxmasına qədər çoxlu mərhələr vardır ki, bu da ən diqqət edilməli məsələdir. Bundan əlavə turizm üçün mövcud ölkənin təbii və ya insanlar tərəfindən hazırlanmış rekreasiya obyektləri olması şərtdir. Birdə ölkə dünyada müəyyən qədər tanınmalı və turistlərin diqqətini çəkməlidir. Turistlər üçün ən əhəmiyyətli məsələlərdən biri də təhlükəsizlikdir. Nümunə üçün desək, dünyanın ən təhlükəli yerləri hesab olunan İraq, Əfqanıstan və Fələstin kimi terror hadisələri çox olan ölkələr turistlər üçün təhlükəli hesab olunur və onların bu ölkələrə olan marağını azaldır. Ölkəmizdə olan çoxlu turizim-rekreasiya ehtiyatları, daha çox şimal bölgəsində Quba, Qusar, Qəbələ kimi rayonlarda bundan əlavə uzun illərdi işğalda qalan və müzəffər ordumuz tərəfindən azad olunan Qubadlı, Zəngilan, Şuşa, Kəlbəcər, Ağdam kimi rayonların da Azərbaycanın turizm potensialında çox böyük əhəmiyyəti vardır. Xüsusilə də Kəlbəcərdə olan İstisu müalicə əhəmiyyətli obyektlərdən biri hesab edilir. Lakin Azərbaycanın qarşılaşdığı bu müharibə şəraiti də ölkəmiz adına bir qədər mənfi hesab edilə bilər. Çünki adətən turistlər də müharibə şəraitində olan ölkələrə səfər etməkdə tərəddüd edirlər. Yeni azad olunmuş rayonların yenidən bərpasından sonra ölkənin turizm ehtiyaları artacaq, bu da Ümumi Daxili Məhsulda turizm sektorunun payını artırmış olacaqdır.

Sərrast maketinq ilə müştəri idarə etməsinin turizm sektorunda xüsusi rolu vardır. Lakin ilk öncə ölkəmizdə turizmin əhəmiyyətinə baxaq. Çünki onun əhəmiyyətini anlamadan orada tətbiq ediləcək hər hansısa bir sistemin faydalı olacağını demək olmazdı. Beləki bu məsələni bir nümunə üzərindən izahına baxaq. Hesab edilir ki, bir şirkət turizm fəaiyyəti ilə məşğuldur və hədəfləri da daha çox müştəri qazanmaqla gəlir əldə etməkdir. Bunun üçün onların bazarı yaxşı araşdırması və müştəriləri dəqiq müəyyən edə bilməsidir. Burada iki məsələ var: şirkət çoxdan fəaliyyət göstərir və yeni açılıb. Hər iki hal üzərindən məsələyə diqqət edək:

***Birincisi,*** turizm sektorda uzun müddət faəliyyət göstərən bir şirkət nəzərdə tutulur, onların əlində artıq bir müştəri bazası vardır. Onlar bu müştəri bazası üzərindən müxtəlif işlər görə bilər. Bu müştəri bazasından necə istifadə edəcəkləri çox əhəmiyyətlidir. Sadəcə telefon vasitəsi ilə zəng vuracaqlar yoxsa mail vasitəsi ilə əlaqə saxlayacaqlar. Əvvəl müştəri bazası kağız üzərində yazılmaqla yaradılırdı, daha sonra Excel proqramı vasitəsi ilə burada baza yaradıldı. Lakin hər iki halda şirkətin səmərəliliik göstəricisi istənilən formada olmurdu. Çünki bu işlə məşğul olan şəxslər işdən çıxa bilərdi və ya bu sənədlər itə bilərdi. Bundan əlavə bu baza ilə qurulan marketinq strategiyaları da o qədər də uğurlu olmurdu. Çünki dərin məlumatlar yox idi və onların əsasında uğurlu bir yol tapa bilmirdilər. İndi gəlin bu şirkət üçün Sərrast marketinq və CRM sistemini tətbiq edək. Düşünək ki, şirkət artıq CRM bazasından istifadə edir və bu baza əsasında Sərrast marketinq strategiyaları qurur. Müasir CRM alətlərində həddindən çox məlumatlar toplana bilir və eyni zamanda analiz edilir. Analiz edilən məlumatlar bazada göstərilir, bu baza əsasında şirkət rəhbərləri uyğun bir strategiya yarada bilir. CRM sistemi əlində olan şirkət belə, Sərrast marketinq olmadan dəqiq işləyə bilmir. Adından göründüyü kimi sərrast yəni, dəqiq və düzgün marketinq, bir başa ox hədəfə dəyməlidir. Müştəri idarəetməsi vasitəsi ilə bütün məlumatları əldə edən marketoloq, bu məlumatlar əsasında Sərrast marketinq strategiyasını qurur. Uzun müddət CRM bazası qurduğunu nəzərə almaqla şirkətin bazasında çoxlu müştəri haqqında

məlumatlar toplanmışdır. Şirkət onlar ilə telefonla, elektron poçtla, sosial şəbəkələrlə və ünvanları vasitəsi ilə əlaqə saxlaya bilir. Bu bazanı analiz edən şəxs, onların hansına hansı xidmət təqdim etməli olduğunu dəqiq bilir. Burada da Sərrast marketinqin optimallaşdırma və fərdiləşdirmə xüsusiyyətləri çox əhəmiyyət daşıyır. Bu xüsusiyyətlər məhz CRM bazası vasitəsi ilə doğru bir şəkildə işləyə bilər. Belə olduqda minlələrlə müştəriyə fərdi yanaşaraq və müxtəlif xidmətləri ehtiyacı olan müştərilərə təqdim etməklə şirkət həm vaxta qənaət etmiş olacaq həm də müştəri sadiqliyini qazanmış olacaq. Uzun illər fəaliyyət göstərən lakin CRM bazası və Sərrast marketinq yanaşması olmayan bir şirkət nələri itirir:

- vaxtını;
- enerjisini;
- gəlirini;
- müştərilərini;
- bazardakı payını.

Yuxarıda qeyd edilənlər hər bir turizm şirkəti üçün çox önəmlidir. Ona görə də, şirkətlərin CRM bazasını vaxtında qurması mütləqdir. Bu baza əsasında Sərrast marketinq prinsipləri tətbiq edilməsi çox zəruridir. Bundan əlavə CRM bazası şirkətin bütün işçiləri tərəfindən yoxlana bilər və istənilən vaxtı oradan istənilən informasiyanı asanlıqla əldə etmək olur. Bu həm də işdə olan operativlik xüsusiyyətini artırır. Satışla məşğul olan işçilərin vaxtına qənaət etməklə yanaşı həm də marketinq işçilərinə doğru strategiya qurmaq üçün çox əhəmiyyətlidir. Turizmdə "gəlir bərabərdir müştəri" anlayışı çox doğrudur. Ona görə müştəriləri cəlb etməkdən əlavə onları daimi müştəriyə çevirmək də çox önəmlidir. Onu da qeyd edək ki, yeni müştəri qazanmaqdansa köhnələri əldə saxlamaq çox daha asandır. Bunun üçün müştəri bazası vasitəsi ilə istehlakçılar daima diqqət mərkəzində saxlanılmaldır. Onların sadiqliyini və etimadını artırmaq şirkət üçün yeni müştərilərin gəlməsi mənasını verir.

***İkincisi,*** turizm şirkəti yeni qurulmuşdur və bunun əsasında fikir yaratmağa çalışılır. Bu halda da məqsəd CRM və Sərrast marketinq vəhdətinin əhəmiyyətini göstərməkdir. Belə ki, bir şirkət ki, yeni açılmışdır onun heç bir müştəri bazası yoxdur və o hələ yeni müştərilər qazanmağa çalışır. Belə olduqda büdcə ilə bağlı iki meyar ortaya çıxır: yüksək büdcə və aşağı büdcə. Bazara yeni daxil olan şirkətlər ən azı 6 ay ərzində öz ayaqları üzərində durmağa bacarmalıdır və bəzən onlar bu müddət ərzində maya dəyərinə və ya ziyana işləyə bilər. Belə olduqda əgər şirkət yüksək büdcəyə malikdirsə CRM sistemini ilk gündən yaratması məqsədə uyğundur, əks halda isə Excel səhifəsi üzərində yaratmaq ən son variantdır. Çünki keçən müddət ərzində itirilən CRM bazası şirkətin uzunmüddətli hədəfləri üçün çox ciddi bir itki yarada bilər. Yaxşı bir büdcəyə sahib şirkət, CRM sistemi qurur, təbii ki bu sistem zamanla öz təsirini göstərməyə başlayır. Düşünsək ki, bir-iki aydan sonra bazada 1000-ə yaxın müştəri məlumatı toplanmışdır, bu məlumatlar əsasında Sərrast marketinq vasitəsi ilə müştəri fərdiləşdirməsi və optimallaşdırma işləri görülür. Belə olduqda bazada olan müştərilərin hər birinə uyğun bir təklif hazırlamaqla satışın baş tutması ehtimalı 60-70% artır. Bu baza sistemi təkcə məlumatları toplamır həmdə onları analiz edərək, ən yaxşı variantı təqdim edir. Beləliklə Sərrast marketinq prinsipləri əsasında qurulan marketinq-menecment fəaliyyəti yeni bazara daxil olmuş şirkətin gücünü və qazancını illərdi bu sektorda olan, lakin bu sistemlərdən istifadə etməyən şirkətdən daha yüksəldir. Burada həm zamana qənaət etmiş olan şirkət, həmçinin uzunmüddətli qazanc sərmayesini də yaratmış olur.

Yuxarıdakı iki hal üzərində CRM-Sərrast marketinq vəhdətinin izahı və onların turizm sektorunda olan əhəmiyyəti göstərildi. Son zamanlar meydana çıxan E-CRM də gələcək planları innovasiya ilə vəhdət qurmaq istəyən iş adamları üçün çox təsirli bir alətdir. Turizm sektorunda elektron ticarət qurub, biletlərin və ya otellərin otaq sifarişini təşkil edə və burada müştəri bazasını yaratmaq mümkündür. Son iyirmi ildə səyahət və turizm sənayesi, iş proseslərində internetin istifadəsinin artması səbəbindən təşkilati strukturunda əlamətdar dəyişikliklər yaşadı [2]. Bundan əlavə CRM bazası şirkətin

iş yükünü və canlı qüvvəsini azaltmaq üçün çox təsirli bir vasitədir. Əlavə xərcləri azaltmaqla, gəlirlərin artırılması üçün əvəzsiz olan bu sistemlər digər sektorlarda artıq istifadəyə verilmişdir. Ölkəmizdə az sayda olsa da, dünya ölkələrində bu sistemlər olduqca faydalıdır və onsuz şirkətlərin gələcəyi haqqında düşünmək çox çətindir. Çünki bu sistemlər uzunmüddətli planlar üçün nəzərdə tutulmuşdur.

**NƏTİCƏ**

Ümumilikdə qeyd etmək lazımdır ki, turizm sektorunda CRM-Sərrast marketinq vəhdəti çox uğurlu nəticələrə gətirib çıxara bilər. Beləki onlardan istifadə qənaətlilik yaratmaqla yanaşı, həmçinin şirkətlərin uzun müddətli hədəflərinə çatması üçün çox önəmlidir. Son dövrlər istifadəsi daha da artan CRM sistemlər, müştərilərin idarə olunması problemlərini aradan qaldırdığı kimi, həmçinin şirkətdə vahid bir baza yaratmış olur. Belə olduqda şirkətlər qəbul etdikləri müştəri nə vaxt, haradan, necə, nə üçün gəldiklərini asanlıqla siyahılaşdıra bilir. Məsələn, iş görüşməsi üçün xaricdən gələn qonaqları, növbəti ildə ölkəmizə gələ biləcək potensial bir müştəriyə çevirə bilər. Bundan əlavə siz müştəri haqqında ətraflı məlumata sahib olduğunuz üçün onu uyğun bir otelə yerləşdirmək mümkündür. Müştəri haqqında ətraflı məlumata sahib olduqdan sonra onu sevdiyi mətbəxlər olan restoranlara aparmaq da mümkündür. Burada həm maddi imkanlar həm də mənəvi və etimoloji dəyərlər önəmlidir. Bütün bu göstəricələri bir məcrada toplayan sistemlər iş yükünü birə-beş azaldacaqdır. Bununla da daha səmərəli və gəlirli bir iş sistemi qurmaq mümkündür. Ölkəmizdə CRM sistemləri az istifadə olunsada, son zamanlar istifadəsinə meyl xeyli artmışdır. Pandemiya ilə əlaqədar hal-hazırda turizm sektoru tənəzzül etdiyindən, burada iş prosesi dayanmışdır. Ona görə qeyd edilən araşdırmalar və təkliflər normal bir şəraitdə fəaliyyət göstərən turizm şirkətləri üçün faydalı olacaqdır. Bununla yanaşı tətbiq olunan Sərrast marketinq fəaliyyətləridə şirkətin sektorda olan bazar payını və optimallaşdırma gücünü artıracaqdır. Fərdiləşdirmə yanaşması ilə şirkət hər bir müştəriyə fərqli cür yanaşma yarada bilər. Bununla da qarşılıqlı fəaliyyət kanallarını inteqrasiya edə biləcəkdir. Hansı müştəri ilə harada və necə əlaqə saxlanmasını müəyyən etmək çox önəmli məsələdir.

Yekun olaraq qeyd etmək istərdik ki, postpandemiya dövründə ölkəmizdə fəaliyyət göstərən turizm şirkətlərinin müştəri idarəetmə sistemi və Sərrast marketinq prinsiplərinə xüsusi diqqət yetirmələri çox faydalı ola bilər.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Cap Gemini Ernst&Young-https://www.capgemini.com/wp-content/uploads/2017/07/20131015_crm_ng_pov_v19_final_0.pdf
**2.** Chen və Popoviçin 2003, s.672
**3.** M.Porter- Competitive Marketing Strategy Book s.29
**4.** Müasir İnformasiya Sistemlərinin İdarə Edilməsi- Əlizadə Mətləb, Musayev İsa, Əliyev Elman/Bakı 2016-Monoqrafiya, s 95-130
**5.** Peter Sondergaard, Senior Vice President, Gartner
**6.** Swift (2001 )

**С.Г.Джафарзаде**
*магистрант, Бакинский Евразийский Университет*
**Э.М.Юсифов**
*д.ф.э., доцент, Азербайджанский Архитектурно-строительный Университет*

## Роль современного маркетинга в разработке «клиентоориентированных» систем в туристических компаниях

### Резюме

*С развитием информационных технологий в наше время возникли новые рыночные условия. Рынок, ориентированный на клиентов, требует их точного определения и удовлетворения всех их потребностей. Компании, использующие технологии, всегда на шаг впереди. В туристическом секторе очень важным инструментом является система управления взаимоотношениями с клиентами или CRM. Кроме того, для местного рынка важно персонализировать клиентов и оптимизировать операции с использованием точных принципов маркетинга. Актуальность проблемы связана с необходимостью проведения исследований, чтобы гарантировать, что туристические компании столкнутся с конкуренцией в постпандемический период. Система управления взаимоотношениями с клиентами, основанная на текущих принципах маркетинга, может продвинуть компании на шаг вперед.*

***Ключевые слова:*** *текущий маркетинг, управление-маркетинг, CRM, система ориентированная на клиента, индустрия туризма*

**S.H.Cafarzada**
*master student, Baku Euroasian University*
**E.M.Yusifov**
*Ph.d., Associate Professor, Azerbaijan University of Architecture and Construction*

## The role of current marketing in the development of "customer-oriented" systems in tourism companies

### Abstract

*With the development of information technology in modern times, new market conditions have emerged. The customer-based market requires their precise definition and meeting all their needs. Companies that use technology are always one step ahead. In the tourism sector, the customer relationship management system or CRM, is a very important tool. In addition, it is important for the local market to personalize customers and optimize operations using accurate marketing principles. The urgency of the issue from the need for research to ensure that tourism companies face competition in the post-pandemic period. A customer relationship management system based on current marketing principles can take companies one step further.*

***Keywords:*** *Current Marketing, marketing-management, CRM, Customeroriented system, tourism industry*

**İ.Hüseynli**
***i.e.n., dosent, Azərbaycan Dövlət İqtisad Universteti (UNEC)***
**ihuseinli65@gmail.com**

# AQRAR-SƏNAYE KOMPLEKSİ MÜƏSSİSƏLƏRİNİN İNVESTİSİYA - İNNOVASİYA FƏALİYYƏTİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**Xülasə**

*Müasir dövrdə milli iqtisadiyyatın qarşısında duran əsas məsələlərdən biri, ilk növbədə, ölkə əhalisinin artan tələbatını ödəmək üçün daxili bazarı keyfiyyətli əmtəə və xidmətlərlə təmin etmək, eləcə də, rəqabətqabiliyyətli məhsul istehsalı ilə ixrac potensialını gücləndirməkdən ibarətdir. Milli təhlükəsizlik konsepsiyasının əsasında duran ən mühüm məsələlərdən birinin əhalinin ərzaq təminatı olduğunu nəzərə alsaq, demək hər bir dövlət aqrar-sənaye komplekslərinin (ASK) inkişafını xüsusi olaraq diqqət mərkəzində saxlamalıdır. Məqalədə ölkədə ASK-ların investisiya-innovasiya fəaliyyətinin bəzi aspektləri şərh edilir.*

***Açar sözlər:*** *milli iqtisadiyyat, investisiya, innovasiya,aqro-sənaye kompleksi, kənd təsərrüfatı, müəssisə, iqtisadi səmərəllik, statistik göstərici*

## GİRİŞ

Müasir bazar iqtisadiyyatının qarşısında duran mühüm və təxirəsalınmaz məsələlərdən biri insanların, ölkə əhalisinin keyfiyyətli qida məhsulları ilə təminatının davamlı və dayanıqlı şəkildə təmin olunmasıdır. Bu məqsədlə iqtisadiyyatın mühüm istiqaməti hesab olunan aqrar sektorun inkişafı ilə paralel olaraq aqrar-sənaye komplekslərinin(ASK) də sürətli və daha məhsuldar inkişafına nail olunması əsas vəzifələrdən hesab olunur.

Aqrar-sənaye kompleksi milli iqtisadiyyatda kənd təsərrüfatı məhsullarının istehsal olunması, emalı və istehlakçıya çatdırılması ilə məşğul olan bütün sahələrini özündə birləşdirir. Buraya kənd təsərrüfatı məhsullarının emalı, saxlanılması və satışının həyata keçirilməsi, ASK üçün istehsal vasitələri istehsal edən sahələr daxildir. Aqro-sənaye kompleksinin müstəsna əhəmiyyəti ölkə əhalisini,xüsusilə, daxili bazarı ərzaq və digər zəruri istehlak malları ilə təmin etməkdir. ASK-ların praktikada ən çox yayılmış və özünü təsdiq etmiş modeli,bir qayda olaraq, üç əsas sahəni əhatə edir.[1]

Bunlardan birincisi, kənd təsərrüfatı üçün istehsal vasitələri istehsal edən və kənd təsərrüfatı xammalı emal edən sənaye sahələrini əhatə edir: bura, əsasən,traktor və kənd təsərrüfatı üçün zəruri maşınqayırma sahəsi, heyvandarlıq üçün avadanlıq istehsalı, yeyinti və yüngül sənaye, mineral gübrələrin istehsalı, yem və mikrobioloji sənayelər və kənd təsərrüfatı təyinatlı tikinti sahəsi. I sfera əsasən kənd təsərrüfatında istehsalın sənayeləşdinİməsi və intensivləşdirilməsi, həmçinin, ASK-nın digər sahələrini əhatə edir.

İkinci sahə istiqaməti olaraq, kənd təsərrüfatının spesfik sahələri olan, əkinçilik və heyvandarlıq, üçüncü sahəyə isə, kənd təsərrüfatı xammalı və qidanın sənaye üsulu ilə emalı və marketinqi sahələri sistemi aid edilir ki, bura da yeyinti sənayesi (tamlı məhsullar sənayesi, süd və ət sənayesi), yüngül sənaye(tekstil, dəri və ayaqqabı), kombikorm sənayesi (müxtəlif yemlərin qarışığından alınan yem), satınalma və tədarük sistemi,habelə, ASK müəssisələrinin istehsal məhsullarının nəqli, saxlanması və satışı şəbəkəsini aid etmək olar [4].

Aqrar - sənaye kompleksinin dinamik inkişafının əsas şərtlərindən biri onun bu üç sferasının son məhsuluna qiymət qoyuluşuna görə mühakimə edilməsidir. Son məhsul - ümumi məhsulun dəyərinin

bir hissəsidir (mal və xidmət). ASK-nın son məhsuluna bütün sferalarda yaradılmış istehsal məhsulları və son istehlakda istifadə olunan eyni zamanda ixrac məhsullan aiddir. İnkişaf etmiş ölkələrdə son məhsulun dəyəri III sferada yaradılır. Burada kənd təsərrüfatı xammalının tullantısız və ətraf mühit üçün zərərsiz olan kompleks emalı təmin edilir və məhsulun saxlanılması, çəkilib qablaşdırılması aparılır. Bu sferada pərakəndə satışın təqribi hesablamalara görə 55- 80%-i yaranır. [2]

Aqro-sənaye kompleksinin birinci və üçüncü həlqələrinin yeri əsasən kənd təsərrüfatı istehsalı üzrə ixtisaslaşmış müəssisə və təşkilatları tərəfindən müəyyən edilir. Kənd təsərrüfatı məhsullarının emalı, anbarlara daşınması və saxlanması isə,əsasən istehlakçı yönümlüdür. Məhz, bu baxımdan, ASK-ların üzərlərinə düşən mühüm vəzifələrin səmərəli həyata kecirilməsini təmin etmək üçün əsaslandırılmış investisiya-innovasiya fəailiyyət planına malik olmaları vacibdir.

***ASK –ların investisiya-innovasiya fəaliyyətinin bəzi istiqamətləri***

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı dünya iqtisadiyyatının bitki və heyvan ehtiyatlarının istehsalı (toplanması, əldə edilməsi) ilə əlaqəli bir sahələr kompleksi (tormaqşünaslıq, heyvandarlıq, balıqçılıq, meşə təsərrüfatı və s.) olan ən vacib sahəsidir. Kənd təsərrüfatı, təbii sərvətlərin istismarı ilə birbaşa əlaqəli təsərrüfatlarla birlikdə bu sahənin inkişafı üçün istehsal vasitələri (maşınlar, gübrələr və s.) istehsal edən və kənd təsərrüfatı xammalını son istehlakçı halına gətirən istehsal sahələrini də əhatə edən aqrar-sənaye kompleksinin(ASK) ən vacib komponentidir.

Müasir dövrdə aqrar-sənaye kompleksinin inkişafında, müəssisə və təşkilatların innovasiya-investisiya fəaliyyətinin tənzimlənməsi və proqnozlaşdırılmasının mütərəqqi metod və texnologiyalarına böyük əhəmiyyət verilir. Bu təbii və qanunauyğun proses aqrar-sənaye kompleksində idarəetmə qərarlarının verilməsinin səmərəliliyinin artırılması və istehsal ehtiyatlarının optimallaşdırılması məqsədi ilə əsaslandırılır.

Bərəkətli torpaqlar və digər kənd təsərrüfatı istehsalı üçün lazım olan ehtiyyatlarla zəngin bir ölkənin aqrar-sənaye kompleksinin yenilikçi və investisiya potensialının mövcud vəziyyətinin ilkin baxışı ASK müəssisələrin işini tənzimləyən effektiv mexanizmlərin və onların investisiya-innovasiya fəaliyyətlərini proqnozlaşdırma metodlarının yetərli səviyyədə olmadığını göstərir.

Tədqiqatlar onu da göstərir ki,, aqrar-sənaye kompleks müəssisələrinin maşın və traktor parkının yenilənməsi və daha müasir texnoloji avadanlıqlarla təchiz edimiş yeniləri ilə əvəz edilməsi, heyvandarlıq obyektlərinin texniki cəhətdən yenidənqurulması, kənd təsərrüfatı torpaqlarının keyfiyyətinin yaxşılaşdırılması və məhsuldarlıq səviyyəsinin artırılması, habelə, kəndlərin sosial və mühəndis infrastrukturunun yaxşılaşdırılması üçün ciddi bir islahata və əhəmiyyətli investisiyaların cəlb edilməsinə ehtiyac var.

Belə şəraitdə, iştirakçıların investisiya-innovasiya fəaliyyətinin tənzimlənməsi və proqnozlaşdırılması metodlarının səmərəliliyinin artırılması üçün həyata keçiriləcək tədbirlər xüsusi aktuallıq kəsb edir. Bu baxımdan, ölkə iqtisadiyyatının inkişafının əsas istiqamətlərindən biri aqrar-sənaye məhsulları istehsalçılarının investisiya- innovasiya fəaliyyətinin tənzimlənməsi və proqnozlaşdırılması üçün bir sıra müasir və effektli metodların tətbiqi yolu ilə milli aqrar siyasətinin səmərəliliyinin artırılması, habelə ASK–lərdə innovasiya və investisiya proseslərinin inkişafının resurs təminatı üçün bir iqtisadi modelin, alqoritmin formalaşdırılmasıdır və indiki şəraitdə bu məsələlərin öyrənilməsi xüsusi aktuallığa malikdir.

Əlbəttə ki, müasir aqrar-sənaye kompleksi müəssisələrinin yenilikçi və investisiya fəaliyyətinin tənzimlənməsi və proqnozlaşdırılması metodlarının təhlilini, ilk növbədə,bu kompleksin formalaşmasının vacib hesab edilən prinsiplərini müəyyənləşdirməklə etmək daha məqsədəuyğun hesab edilir.

Bu prinsiplərdən dogru-düzgün istifadə olunması aqrar-sənaye müəssisələrinin çətin investisiya vəziyyətini yaxşılaşdırmağa və rəqabət qabiliyyətliliyi, investisiya-innovasiya fəaliyyətinin şərtlərini tənzimləyən vahid məlumat və hüquqi müstəvi yaratmaqla onların biznes maraqlarına hesablanmış bazar münasibətlərini gücləndirməyə imkan verir.

Bu cür yanaşma, yalnız,aqrar-sənaye müəssisələrinin yenilikçi və investisiya fəaliyyətinin inkişafı üçün mövcud prioritetləri tənzimləməyə deyil,həmçinin, gələcəkdə aqrar-sənaye kompleksinin inkişaf proseslərinin mümkün ehtiyatlarla təmin edilməsi üçün səmərəli modelinin qurulmasına imkan verəcəkdir.

ASK-da investisiya-innovasiya fəaliyyətlərinin tənzimlənməsi və proqnozlaşdırılması prinsiplərinin öyrənilməsi, onun inkişaf problemlərinə və müasir iqtisadiyyatda oynadığı roluna yenidən baxmağa imkan verir. Xüsusilə,nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında digər sahələrə nisbətdə müşahidə edilən aşağı gəlirlilik səbəbi ilə istehsal-texniki və investisiya-innovasiya potensialında azalmalar qeydə alınır.

Ölkədə iqtisadi inkişafın mühüm amili olaraq milli iqtisadiyyata innovasiyaların tətbiqi iqtisadi resurslardan səmərəli istifadəni müəyyən edir. Rəqabətin yüksək səviyyəsi və rəqabətqabiliyyətli bazar subyektlərinin mövcudluğu ilə xarakterizə olunan inkişaf etmiş ölkələrdə rəqabət innovasiya fəaliyyətinin əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. Belə ki, rəqabət nəticəsində qiymətlərin aşağı düşmə tempi və nəticədə mənfəətin azalması baş verir ki, bu da müəssisələri, o cümlədən, ASK-ları öz rəqiblərindən fərqli məhsul və xidmətlər yaradaraq bazara çıxarmağa məcbur edir. Yəni, müəssisələr innovasiyaların tətbiqi fəaliyyəti ilə istehsalın səmərəliliyini yüksəltmək məqsədilə fəaliyyət göstərirlər[3].

Ölkəmizin milli iqtisadiyyatının indiki inkişaf mərhələsində müəssisələrin investisiya-innovasiya fəallığının artırılması, proqnazlaşdırılmış istehsal nəticələrini əldə etmək üçün lazım olan səviyyədə investisiyaların cəlb edilməsi və bu investisiyaların daha çöx innovasiya təyinatlı olması, həm müəssisələr, həm də, bütövlükdə dövlətin qarşısında duran təxirəsalınmaz vəzifələrdən sayılmalıdır. İndiki mərhələdə, daha çox,innovasiya ağırlıqlı investisiyalarıncəlb edilməsinə daha çox önəm verilməlidir ki, bu da daxili bazarı keyfiyyətli qida məhsulları ilə təmin etməli olan emal sənayesinə, ASK-lara yönəldilməlidir.

Emal sənayesində,xüsusilə, texnoloji innovasiyalara çevik adaptasiya olunma, nəticədə istehsalda müşahidə olunan yüksək inkişaf tempi, miqyasdan qənaət və qlobal dəyər zəncirinə qısa zaman kəsiyində qoşulma imkanı bu sahənin milli iqtisadiyyatda rolunu, xüsusilə,artırır. İndiki mərhələdə ASK-ların inkişafı onların mexanikləşdirmə və texnoloji səviyyəsinin yüksəldilməsi ilə birbaşa əlaqəlidir və bu da gəlirlərin artımı hesabına sənaye məhsullarına olan tələbin artımı, həmçinin, kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəlməsinə əhəmiyyətli təsir göstərir. Aqrar sektorda əmək məhsuldarlığının artması ,nəticə etibarilə, əmək resurslarının kənd təsərrüfatından emal sənayesinə, daha sonra isə xidmət sferasına miqrasiyası ilə nəticələnmişdir. Milli iqtisadiyyatda kənd təsərrüfatından sənayeyə transformasiya, sənayedən isə xidmətlər sferasına transformasiya iqtisadi inkişafın mühüm və labüd mərhələ ardıcıllığı hesab edilir.

Bu məqsədlə, zəruri addım olaraq, ölkə əhalisinin artan istehlak təlabatını təmin etmək məqsədilə, son dövrlərdə, emal sənayesini daha da, inkişaf etdirmək üçün bu sahəyə yönəldilmiş kapital qoyuluşu, cəlb edilmiş investisiyalar, istehsal edilmiş məhsulun səviyyəsi, fəaliyyət növləri,innovasiyaların tipləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, habelə, bu müəssisələrdə investisiya-innovasiya fəaliyyətinə mane olan bəzi amillərin dəyərləndirilməsi vacibdir.

Beləliklə, ilk olaraq, son 5 ildə sənayedə əsas kapitala yönəldilmiş investisiyalara diqqət edək. Cədvəl 1-dən göründüyü kimi son 5 ildə sənayeyə yönəldilən investisiyaların ümumi məbləği 46, 8

milyard manat təşkil etmişdir və bunun da 61%-i xarici investisiyaların,39%-i isə daxili investisiyaların payına düşmüşdür.

**Cədvəl 1**

**Sənayedə əsas kapitala yönəldilən investisiyalar, milyon manat**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **8499.9** | **9949.8** | **10610.1** | **8497.2** | **9258.0** | **46815.0** |
| xarici investisiyalar | 5741.9 | 7350.9 | 6989.5 | 3993.1 | **4411.3** | **28486.7** |
| daxili investisiyalar | 2758.0 | 2598.9 | 3620.6 | 4504.1 | **4846.7** | **18328.3** |
| **Xam neft və təbii qaz hasilatı** | **7120.9** | **8559.7** | **8400.1** | **5672.5** | **5640.1** | **35393.3** |
| xarici investisiyalar | 5514.3 | 6805.0 | 6288.9 | 3498.7 | 3443.8 | **25550.7** |
| daxili investisiyalar | 1606.6 | 1754.7 | 2111.2 | 2173.8 | 2196.3 | **9842.6** |
| **Emal sənayesi** | **482.9** | **424.3** | **652.6** | **1431.9** | **2466.4** | **5458.1** |
| **xarici investisiyalar** | **16.1** | **-** | **32.0** | **25.6** | **798.0** | **871.7** |
| **daxili investisiyalar** | **466.8** | **424.3** | **620.6** | **1406.3** | **1668.4** | **4586.4** |
| Qida məhsullarının istehsalı | 87.9 | 63.6 | 125.5 | 196.6 | 140.4 | **614.0** |
| İçki istehsalı | 23.7 | 4.1 | 26.9 | 39.3 | 21.3 | 115.3 |
| Tütün məmulatlarının istehsalı | - | 0.8 | 0.4 | 60.7 | 35.1 | 97.0 |
| Toxuculuq sənayesi | 10.2 | - | 5.9 | 42.9 | 88.3 | 147.3 |
| Geyim istehsalı | 10.4 | 10.5 | 15.3 | 23.7 | 20.0 | 79.9 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 8.8 | 0.0 | 0.1 | 1.9 | 0.7 | 11.5 |
| Neft məhsullarının istehsalı | 16.3 | 88.4 | 83.9 | 322.6 | 208.7 | 719.9 |
| Kimya sənayesi | 6.8 | 18.5 | 87.4 | 230.6 | 172.3 | 515.6 |
| Rezin və plastik kütlə məmulatların istehsalı | 22.2 | 17.1 | 30.7 | 36.9 | 1430.1 | 1537.0 |

Sənayeyə ayrılan investisiyaların əhəmiyyətli hissəsinin yenə də xam neft və təbii qazın istehsalına sərf olunduğunu görürük. Bu məqsədlə 35,4 milyard manat, yəni sənaye üzrə ümumi investisiyanın təqribən 76 % -lik həcminə bərabər hissəsi yönəldilmişdir. Nəzərə alsaq ki, 2.8 milyard manat vəsait də bu sahəylə bilavasitə bağlı olan neft məhsullarının istehsalı, kimya sənayesi və rezin - plastik kütlə məmulatların istehsalına yönəldilib, onda bu məbləğ 38,2 milyard, yəni ümumi investisiyaların 82 %-ni təşkil etmiş olur.

Bildiyimiz kimi, ölkə əhalisinin əsas yerli istehsal olan qida və yüngül sənaye məhsulları ilə təmin olunması, daha çox, emal sənayesinin üzərinə düşür. Odur ki, sənayeyə ayrılan investisiyaların bu istiqamət üzrə həcmi və xüsusi çəkisi mühüm əhəmiyyət daşıyır. Cədvəl 1-in məlumatlarından görünür ki, 2015-2019-cu illər ərzində sənayeyə ayrılmış investisiyaların cəmi 5,5 milyard manatı, təqribən 12 % hissəsi emal sektoruna ayrılmışdır. Cədvəl məlumatlarından,həmçinin, o da görünür ki, 5 il ərzində emal sənayesi üçün ayrılmış bu məbləğin yalnız 0,61 milyard manatı qida sektoruna ayrılmışdır. Bu isə emal sənayesinə yönəldilmiş investisiyanın təqribən 11%-i, cəmi investisiyaların isə 1,3 %-ni təşkil etmiş olur. Ümumilikdə götürüldikdə isə, ASK-lərin əsas fəaliyyət sfersını təşkil edən və ölkə əhalisinin birbaşa istehlakı ilə bağlı olan emal sənayesi sahələrinə (qida məhsulları, içki və tütün məmulatları istehsalı, toxuculuq, geyim,dəri məmulatları və ayaqqabı istehsal sənayesi ) ayrılmış investisiyaların

həcmi 1,07 milyard təşkil edir ki, bu da emal sənayesinə yönəldilmiş investisiyaların 19,5 %-ni, sənayeyə ayrılmış investisiyaların isə 2,3 %-ni təşkil etmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, emal sənayesi üzrə ayrılmış investisiyaların 2,8 milyard manatı neft sənayesi ilə bilavasitə bağlı olan sahələrə yönəldilmişdir ki, bu da emal sənayesi üzrə ayrılmış investisiyaların əhəmiyyətli hissəsini-51 %-ni təşkil edir.

Onu da qeyd etmək zəruridir ki, sənayeyə yönəlmiş investisiyaların tipinə görə də ciddi fərqlər müşahidə olunur. Belə ki, xam neft və təbii qaz hasilatına yönəldilən investisiyaların 72 %-ni (25,5 mlrd.manat) xarici investisiyalar təşkil etdiyi halda, emal sənayesinə ayrılmış investisiyalarda xarici investisiyaların faizlə ifadə olunmuş payı 15,6 % (0,87 mlrd.manat) olmuşdur. Əlbəttə ki, bu məqam, iqtisadiyyatın şaxələnməsini, qeyri-neft sektorunun inkişafını prioritet hesab edən şərtlər baxımdan məqbul sayıla bilməz.

İqtisadiyatın inkişafında qeyri neft sektorunun iştirak payının üstün çəkiyə malik olunması üçün emal sənayesi, o cümlədən ASK-ların iştirak payı daha yüksək olmalıdır. Bu səbəbdən ölkədə ASK-ların investisiya cəlbediciliyi daha da artırılmalı və xarici investorların yalnız neft sənayesi, xüsusilə, xam neft istehsalına deyil, ASK-ların, eləcə də, digər qeyri- neft sektoru sahələrinə marağı stimullaşdırılmalıdır. Aşağıdakı şəkildə sənayedə əsas fəaliyyət istiqamətləri üzrə ayrılan investisiyaların son 5 il üzrə müqayisəli inkişaf dinamikası təqdim edilir.




**Şəklil 1. Əsas fəaliyyət sahələri üzrə ayrılmış investisiyaların müqayisəli inkişaf dinamikası,mln.manat**

Diaqramda emal sənayesinə yönəldilmiş ivestisiya xərclərinin xam neft və təbii qaz hasilatı ilə emal sənayesi arasındakı kəskin fərq olduqca qabarıq hiss olunur. Ölkədə daxili bazarı keyfiyyətli ərzaq və sənaye malları ilə təmin etmək, həmçinin, ixrac yönümlü məhsul istehsal etmək, bir sözlə, qeyri-neft sektorunu inkişaf etdirmək üçün emal sənayesinə yönəlik investisiyaların həcmi daha yüksək olmalıdır. Diaqramda isə bunun əksi müşahidə olunur.

Müasir iqtisadiyatda müəssisələrin, o cümlədən, ASK-ların rəqabət qabiliyyətliliyini təmin etmək, bazara daha keyfiyyətli və tələb yaradan məhsullar çıxarmaq üçün innovasiya yönlü fəaliyyətlərə daha çox önəm verilməli, cəlb edilən investisiyaların innovasiya yönümlülüyü artırılmalıdır. Son dövrlər emal sənayesində, xüsusilə, aqrar-sənaye kompleks müəssisələrində texnoloji yeniliklərin həyata keçirilməsi, bilik iqtisadiyyatının tələblərinə uyğunlaşması üçün edilən yeniliklər bu sahənin milli iqtisadiyyatda çəkisinin artması və bu sahəyə innovasiya ağrlıqlı investisiyaların yönəldilməsi müşayət

olunsa da,ümumi proses bir o qədər yetətli deyil. Təqdim olunan cədvəldə 2015-2019-cu illər üzrə fəaliyyət növləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclərin siyahısı verilmişdir[5].

**Cədvəl 2**

**Fəaliyyət növləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | CƏMİ |
|---|---|---|---|---|---|---|
| **Emal sənayesi** | **32492.5** | **27744.4** | **16104.0** | **32967.6** | **47658.5** | **156967.0** |
| müəssisələrin öz vəsaiti hesabına | 32092.6 | 14101.9 | 16044.3 | 32892.0 | 46999.5 | 142130.3 |
| dövlət büdcəsi | - | - | - | 3.6 | - | 3.6 |
| büdcədən kənar fondlar | - | - | - | - | - | 0.0 |
| xarici investisiyalar | - | 11808.2 | 36.0 | 72.0 | - | 11916.2 |
| sair | 399.9 | 1834.3 | 23.7 | - | - | 2257.9 |
| qida məhsullarının istehsalı | - | - | 81.5 | 338.0 | 208.7 | 628.2 |
| müəssisələrin öz vəsaiti hesabına | - | - | 81.5 | 338.0 | 208.7 | 628.2 |
| içki istehsalı | 12792.0 | 1911.0 | 151.0 | - | 642.0 | 15496.0 |
| tütün məmulatlarının istehsalı | - | - | - | - | 26994.1 | 26994.1 |
| maşın və avadanlıqların istehsalı | 15871.2 | 8227.7 | 12525.1 | 17215.6 | 15500.0 | 69339.6 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 3229.9 | 2766.2 | 167.7 | 9984.2 | 17.0 | 16165.0 |
| müəssisələrin öz vəsaiti hesabına | 3229.9 | 2766.2 | 167.7 | 9984.2 | - | 16148.0 |

Cədvəl 2-nin məlumatlarından görünür ki, 2015-2019-cu illər ərzində emal sənayesinə cəmi 157 milyon manat həcmində texnoloji innovasiyalar üçün vəsait xərclənmmişdir. Bu isə emal sənayesində əsas kapitala yönəldilmiş investisiyaların cəmi 2,9 %-nə bərabərdir. Nəzərə alsaq ki, ASK-ların əsas fəaliyyət sahələrindən biri qida sektorudur. Bu sahəyə ayrılmış innovasiyaların həcmi cəmi 0,63 milyon manat olmuşdur ki, bu da emal sənayesinə yönəldilmiş innovasiyaların 0,4 %- ni təşkil etmişdir. Bu isə, daxili bazarı keyfiyyətli ərzaq və digər istehlak malları ilə təmin etmək istəyən milli iqtisadiyyat üçün heç də adekvat deyil.

Aşağıdakı cədvəldə emal sənayesinə maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclərin müqayisəli diaqramı verilmişdir.




Diaqramdan görünür ki, emal sənayesində texnoloji innovasiyalara çəkilən xərclərin 91,8 %-i müəssisələrin, o cümlədən, ASK-ların oz daxili vəsitləri hesabına ödənilmişdir. Dövlət büdcəsi və büdcədənkənar fondlar tərəfindən isə bu istiqamət üzrə, demək olar ki, heç bir vəsait ayrılmamış, xarici investisiyaların isə ümumi həcmdəki çəkisi cəmi 8 % təşkil etmişdir. Beynəlxalq praktika onu göstərir ki, ölkə əhalisinin istehlakı üçün ASK-ların fəaliyyətinə həm dövlət tərəfindən, həm də xarici investorlar tərəfindən ciddi investisiya-innovasiya fəaliyyəti həyata keçirilməli, emal sənayesi stimullaşdırılmalıdır.

**NƏTİCƏ**

**1.** Ölkədə iqtisadi inkişafın mühüm amili kimi innovasiyaların tətbiqi iqtisadi resurslardan səmərəli istifadəni müəyyən eedən amillərdəndir.

**2.** Azad və rəqabətli biznes mühüti ASK-ların innovasiya fəaliyyətinin əsas hərəkətverici qüvvəsi kimi çıxış edir.

**3.** Milli iqtisadiyyatda kənd təsərrüfatından sənayeyə transformasiya, sənayedən isə xidmətlər sferasına transformasiya iqtisadi inkişafın mühüm və labüd mərhələ ardıcıllığı hesab edilir.

**4.** 2015-2019-cu illər ərzində sənayeyə ayrılan investisiyaların 82 %-nin xam neft və təbii qazın,o cümlədən, neft məhsullarının istehsalına yönəldiyi halda, cəmi 12 % hissəsi emal sektoruna ayrılmışdır ki, bu da qeyri-neft sektorunun və ASK-ların inkişafı baxımdan adekvat sayıla bilməz.

**5.** Son 5 ildə emal sənayesinə cəmi 157 milyon manat həcmində texnoloji innovasiyalar üçün vəsait xərclənmmişdir ki, bunun da,yalnız 0,63 milyon manatlıq hissəsi(0.4 %) qida sənayesinə yönəldilmişdir ki, bu da daxili bazarı keyfiyyətli ərzaq və digər istehlak malları ilə təmin etmək istəyən milli iqtisadiyyat üçün məqbul deyil.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Qasımov F. H., Nəcəfov Z. M., İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı: «Elm», 2009

**2.** Quliyev E., Aqrar iqtisadiyyat, dərslik, Bakı-2015

**3.** Паршуков Д.В., «Инновационный потенциал как фактор экономического развития сельскохозяйственных предприятий”, https://cyberleninka.ru

**4.** https://www.grandars.ru/shkola/geografiya/agropromyshlennyy-kompleks.html

**5.** https://www.stat.gov.az/

**И.Гусейнли**
*к.э.н., доцент, Азербайджанский Государственный Экономический Университет (UNEC)*

**Некоторые вопросы инвестиционно-инновационной деятельности агропромышленного комплекса**

**Резюме**

*Одной из основных задач, стоящих перед народным хозяйством в настоящее время, является, прежде всего, обеспечение внутреннего рынка качественными товарами и услугами для удовлетворения растущих потребностей населения, а также укрепление экспортного потенциала за счет производства конкурентоспособной продукции. Учитывая, что одним из важнейших вопросов, лежащих в основе концепции национальной безопасности, является продовольственная безопасность населения, необходимо отметить, что каждое государство должно уделять особое внимание развитию агропромышленных комплексов (АПК). В статье исследуются некоторые аспекты инвестиционной и инновационной деятельности агропромышленного комплекса страны.*

***Ключевые слова:*** *национальная экономика, инвестиции, инновации, агропромышленный комплекс, сельское хозяйство, предприятия, статистический показатель*

**I.Huseynli**
*Associate Professor, Azerbaijan State University of Economics (UNEC)*

**Some issues of investment and innovation activities of enterprises of the agro-industrial complex**

**Abstract**

*One of the main tasks facing the national economy at the present time is, first of all, to provide the domestic market with quality goods and services to meet the growing needs of the population, as well as to strengthen the export potential through the production of competitive products. Given that one of the most important issues underlying the concept of national security is the food security of the population, it should be noted that each state should pay special attention to the development of agro-industrial complexes (AIC). The article examines some aspects of investment and innovation activities of the country's agro-industrial complex.*

***Keywords:*** *national economy, investments, innovations, agro-industrial complex, agriculture, enterprises, statistical indicator*

**E.İ.Əjdərli**
***doktorant, Azərbaycan Texniki Universiteti***
**az.elvinazhdarli@gmail.com**

# TİKİNTİ SEKTORUNDA İNVESTİSİYA QOYULUŞLARININ MƏŞĞULLUĞUN TƏNZİMLƏNMƏSİNİNDƏ ROLUNUN TƏDQİQİ

**Xülasə**

*Bilindiyi kimi, hər hansı bir istehsal və sosial sahələrin formalaşdırılması, yenidən formalaşdırılması, genişləndirilməsi və bununla da məşğulluğun təmin edilməsi müvafiq investisiya qoyuluşları və ondan səmərəli şəkildə istifadə edilməsini tələb edir. Bunun üçün respublika lazımi maliyyə, material və əmək resurslarına malik olmalıdır. Xüsusən də tikinti sektorunun material tutumlu olduğunu düşünsək tikinti materiallarının xammal kimi bu mənada önəmini qeyd etməliyik. Ölkəmizin tikinti materialları ilə zəngin olmasına baxmayaraq tikinti məhsulları istehsalının intensivləşdirilməsinə ehtiyac vardır. Əks halda milli xalq təsərrüfatının formalaşdırılmasını və inkişafını təmin etmək məqsədi ilə ölkəyə xarici investorların cəlb edilməsi zərurəti yaranır. Məhz buna görə də, yeni bazar iqtisadiyyatı şəraitində respublikamızda xarici ölkələrin marağına və Azərbaycan milli iqtisadiyyatının inkişafına tam uyğun olaraq, ölkəmizdə qarşılıqlı investisiya qoyuluşlarının həyata keçirilməsi imkanı yaradılır.*

***Açar sözlər:*** *tikinti, məşğulluq, investisiya, iqtisadiyyat*

## GİRİŞ

Ölkənin əsas iqtisadi yüksəliş tempini müəyyənləşdirən və ona təsir edən əsas maddi istehsal biri də tikintidir. Sosial və iqtisadi məsələlərin kompleks şəkildə həll edilməsi zərurətinin yarandığı bir zamanda tikinti sektorunun rolu durmadan artmaqdadır.

Son illər əsaslı tikintiyə qoyulan investisiyaların həcmindəki kəskin artım, tikinti bazarının inkişafı və son illər ərzində bu sahəyə xarici investisiyaların axınının sürətlənməsi investisiya qoyuluşlarının dövlət tərəfindən tənzimlənməsi və məşğulluğun təmini problemini aktuallaşdırmışdır

## TƏHLİL

Tikintidə investisiya qoyuluşlarının tənzimlənməsində digər əsas məsələ bu sahədə qiymətqoyma siyasətinin düzgün həyata keçirilməsidir. Hal-hazırda respublikada investisiya fəaliyyəti prosesində məhsulların dəyəri sərbəst qiymət və tariflərlə, həmçinin tender nəticələrinə əsasən, qanunla müəyyən edilmiş hallarda isə dövlət tərəfindən tənzimlənən qiymət və tariflərlə müəyyənləşdirilir. Tikintidə müqavilə qiymətləri tövsiyə edilən dövlət smeta normalarından və qiymətlərindən istifadə etməklə də müəyyənləşdirilə bilər.

İnvestisiya fəaliyyəti üçün yerli büdcədən istifadə etmək, sosial infrastrukur obyektləri tikdirmək, tikinti məqsədi ilə torpaq sahəsi ayırmaq, torpaqdan istifadə şərtlərinin, sosial sahə və təbiəti mühafizə təyinatlı obyektlərin tikintisi həcminin və müddətlərinin, habelə tikinti norma və qaydalarının pozulduğu 10 halda tikintinin dayandırılması haqqında səlahiyyətli dövlət orqanları qarşısında məsələ qaldırmaq yerli dövlət hakimiyyət və idarəetmə orqanlarının müstəsna səlahiyyətinə aiddir. Habelə, investisiya fəaliyyətinin dövlət tənzimləməsinə dövlət investisiyaların idarə edilməsi, həmçinin investisiya fəaliyyəti şərtlərinin tənzimlənməsi və bu şərtlərə bütün investisiya fəaliyyəti subyektlərinin əməl edilməsinə nəzarət edilməsi daxildir.(2,101)

Tikintidə investisiya qoyuluşunun son hesabda iqtisadi səmərəliliyinin müəyyən edilməsi məqədi ilə pul axınlarının qurtarmasına (layihənin həyat tsiklinə) qədər müvəqqəti intervalı əhatə edir.

Hesablama dövrünün əvvəli layihə - axtarış işlərinə vəsaitlərin qoyuluşunun başlanğıc tarixi və ya layihələndirilən obyektin (əsas fondların) yaradılmasına vəsaitlərin qoyuluşu tarixi ola bilər.

Tikinti kompleksinin modernləşməsi istiqamətində daim investisiya 25 qoyuluşlarına xüsusi həssaslıqla yanaşılmışdır. 90-cı illərdən başlayaraq bu ölkələrdə əsas fondların modernləşməsinə 60%, yenidən qurulmasına 40% investisiya qoyuluşları cəlb olunmuşdur [23] . Bu illər ərzində qeyri-istehsal təyinatlı sahələrdə tikintinin inkişafı ilə müşayiət olundu. Əsasən də mənzil tikintisi və sosial obyektlərin (təhsil və səhiyyə sahələrində) tikintisinə üstünlük verilmişdir. Bu da həmin ölkələrdə sosial sferanın inkişafının göstəricisidir. 2019- cu ildə ÜDM-də tikintinin payı Amerikada 30%, Almaniyada 21%, Yaponiyada isə 10% təşkil etmişdir .

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, bu dövlətlərlə yanaşı digər aparıcı dövlətlərdə də 2015-2020 -ci illərdə tikinti sektorunda daha kiçik həcmli tikinti firmaları (20-40-100 nəfərlik) fəaliyyət göstərmişdir . Hal-hazırda sadaladığımız bu dövlətlər və digər inkişaf etmiş dövlətlərdə yerinə yetirilən tikinti işlərinin 60%-65%-i bu cür tikinti təşkilatları tərəfindən həyata keçirilmişdir

Baxdığımız bu dövlətlərdə yerinə yetirilən tikinti işlərinin 70%-75% özəl tikinti şirkətləri və yaxud xüsusi təyinatlı tikinti təşkilatları tərəfindən həyata keçirilir. Dövlət ancaq sifarişçi rolunda çıxış edir. Sosial infrastukturun rekonstruksiyası (təhsil və səhiyyə sahələrinin), körpü salınması, aeroport tikintilərinin, yolların salınması və s. dövlət əhəmiyyətli layihələrin həyata keçirilməsində dövlət sifarişçi rolunda çıxış edir. 2015-ci ildə dövlət sifarişi ilə yerinə yetirilən tikintilər ABŞda 23%-24%, Yaponiyada isə 30% olmuşdur.

Dövlət, tikinti komplekslərinə və tikinti təşkilatlarına dolayı yollarla təsir göstərir. Bu təsir mexanizmi kimi vergi və güzəştli kreditləri göstərmək olar. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə mənzil tikintisi fəaliyyəti ilə məşğul olan tikinti komplekslərinin inkişafı qeyri stabillik ilə müşayiət olunur. Belə ki, mənzil tikintisi inkişafı əhalinin artım səviyyəsi ilə düz mütənasibdir. Son dövrlərdə Avropa ölkələrində demoqrafiq artımın aşağı düşdüyünü nəzərə alsaq bu labüd haldır. (4,89)

Dünya təcrübəsi göstərir ki, inkişaf etməkdə olan ölkələrdə tikinti sektorunun inkişaf etdirilməsində təkcə tikinti işlərinin həcmi deyil, eyni zamanda keyfiyyət və göstərilən xidmətlərin səviyyəsinə bir nömrəli məsələ kimi baxılır. Əks halda biz öz istehsal bazamızdan məhrum olarıq və nəticədə həyat səviyyəsinə görə inkişaf etmiş ölkələrdən çox geri qalarıq.

Müasir şəraitdə tikinti ilə yanaşı Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün istehsal sahələrində keyfiyyət təminatı şöbəsi və ya qrupunun yaradılması məqsədəuyğun olardı. Keyfiyyət təminatı şöbəsinin işi əldə olunmuş nailiyyətlər haqqında hesabatlar hazırlamalı, firmanın fəaliyyətini qiymətləndirməlidir. Bu fəaliyyətin əsas məqsədi hər bir firmanın işini nizama salmaq, sistemə və planlara uyğun olaraq qiymətləndirməni aparmaqdan ibarət olmalıdır. Sonra isə alınan nəticələrə əsasən rəhbərliyə və müvafiq bölmələrə aşkar edilən problemlər üzrə düzəliş aparmaq məqsədi ilə hazırlanmış hesabat təqdim edilmlidir. Bölmələr, hesabatda düzəliş aparmaq üçün cavabdeh olanlar planların dəqiq işlənilməsi üçün məsuliyyət daşımalıdırlar.

Müasir bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyatın bütün sahələri kimi tikinti sektoru da müstəqildir. Paytaxt Bakıda tikinti bazarı və xidmət sahələri güclü şəkildə seqmentləşdirilib. Digər bazar seqmentləri ilə müqayisədə tikinti bazarı öz spesifik xüsusiyyətinə görə fərqlənir. Belə ki, inzibati idarəçilik sistemindən fərqli olaraq müasir bazar iqtisadiyyatı şəraitində istifadəçinin tələblərinin formalaşması əraziyə uyğun olaraq həyata keçirilir. Bu da ölkə daxilində fəaliyyət göstərən tikinti komplekslərinin müstəqilliyindən xəbər verir. Son dövrlərdə respublikamızda tikinti komplekslərinin müasir vəziyyəti aşağıdakı formadadır.

**Cədvəl 1**

**Azərbaycan Respublikasında tikinti komplekslərinin müasir vəziyyəti**

| İllər üzrə | Tikinti kompleksində işçilərin orta illik siyahı sayı, min nəfər | Tikinti kompleksində nominal əmək haqqı, manatla |
|---|---|---|
| 2009 | 63,6 | 71 |
| 2010 | 61,2 | 82,3 |
| 2011 | 56,6 | 89,4 |
| 2012 | 54,1 | 107 |
| 2013 | 59,5 | 156,4 |
| 2014 | 58,7 | 213,1 |
| 2015 | 57,8 | 235,6 |
| 2016 | 61 | 297,7 |
| 2017 | 65,1 | 380,4 |
| 2018 | 72,9 | 401,1 |
| 2019 | 97,6 | 452,1 |

***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi***

Cədvəldən də göründüyü kimi Azərbaycan Respublikasında aparılan uğurlu sosial-iqtisadi islahatlar nəticəsində, ölkəmizdə son dövrlərdə tikinti kompleksində işçilərin sayı və əmək haqqı yüksək templə artmışdır.

Azərbaycan Respublikasında tikinti sektorunun inkişafında tikinti materialları sənayesinin rolu əvəzsizdir. Hal-hazırda bu sahənin inkişafında dövlət tərəfindən müəyyən islahatlar həyata keçirilir. Artıq xarici ölkələrdən bəzi tikinti materialları Azərbaycana gətirilmir. Onu da qeyd edim ki, tikinti materialları bazarında vəziyyət bilavasitə daşınmaz əmlak bazarının digər seqmentlərindən asılıdır. Hal-hazırda respublikamızda tikinti materiallar sənayesi ölkəmizin tikinti sektorunun tələbatlarını lazımi səviyyədə ödəmə qabiliyyətinə malikdir. Buna misal olaraq, müasir tələblərə cavab verən Polad əritmə zavodunu, Qaradağda istehsal olunan sement və mişar daşını, Gilan holdinqin istehsal etdiyi alçıpan və s. göstərmək olar. Qeyd edək ki, ölkəmizdə istehsal olunan armatur, sement, mişar daşı və alçıpan xaricdə istehsal olunan məhsullardan heç də geri qalmır və bəzi hallarda hətta onları üstələyir. İstehsal olunan bu məhsullar rəqabətqabiliyyətlidir və beynəlxalq standartlara uyğundur.

Hal-hazırda Azərbaycan Respublikasında tikintiyə qoyulan investisiyalar pul vəsaiti və Bank depozit qoyuluşları formasında həyata keçirilir. Bildiyimiz kimi, tikinti kompleksi istehsal prosesləri ilə birbaşa bağlıdır. Buna görə də tikintidə iqtisadi səmərəliliyin artırılması istiqamətində yeni texnikaların istifadəsinə xüsusi diqqət yetirilir. Mütəxəssislərin fikrinə görə, tikinti kompleksinin əsas funksiyalarından biri elmi-texniki tərəqqinin sürətlə inkişafı və onun nəticələrinin istehsalda daha tez tətbiq edilməsi, yeni texnologiya yaradılması və onun mənimsənilməsidir. Bəzən hər hansı xırda subpodrat təşkilatlarında elə ideya və texnologiya yaradılır ki, sonradan bəzi sənaye sahələrinin inkişafı üçün baza ola bilər. Tikinti kompleksinin sərbəst inkişafı üçün tələbatı ödəmək üçün yeni bazar yaradılmalıdır. (4,98)

Tikinti kompleksinin inkişaf etdirilməsinin əsas məqsədi Azərbaycanda tikinti kompleksinin təşəkkülü və milli iqtisadiyyatın sahə strukturunda özünəməxsus yer tutması, tikintidə sahibkarlığın inkişafı, inşaat bazasının formalaşdırılması, tikililərin möhkəmliyinin, etibarlılığını və təhlükəsizliyi təmin etmək məqsədilə dövlət siyasətinin istiqamətlərinin və tənzimləmə vasitələrinin müəyyənləşdirilməsidir. Qeyd etmək lazımdır ki, tikinti kompleksinin inkişafı istiqamətində investisiya

qoyuluşarının artırılmasında dövlət qanunlarının rolu əvəzsizdir. Dövlət tərəfindən bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilmişdir. Lakin, ən vacib məsələ isə dövlət tərəfindən T.K.-ə uzunmüddətli kreditlərin ayrılmasıdır. Bu kreditlər ayrılandan sonra dövlətin müvafiq orqanları tərəfindən, kreditin təyinatı üzrə istifadəsinə nəzarət olunmalıdır.

Bakıda gedən yaşayış binalarının tikintisindən aydın olur ki, tikinti kompleksləri investisiyanı daha çox mənzil tikintisi sahəsinə yönəldir. Bu da ölkədə alıcılıq qabiliyyətinin yüksək səviyyədə olmasının bariz nümunəsidir. Qeyd etmək lazımdır ki, regionlarda bu hal heç də qənaətbəxş deyil. Əlbəttə, bu cür investisiya axınını Bakıdan kənara, istiqamətləndirmək məqsədəuyğun olardı. Bu da birbaşa dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsidir.

Eyni zamanda qeyd etməliyik ki, istər dövlət, istərsə də özəl investisiyalar sahəsində tənzimləmə siyasətinin əsas istiqamətləri müəyyən olunmalıdır. Xüsusən bu mənada investisiya qoyuluşlarının stimullaşdırılmasının önəmini qeyd etməliyik. Bir qayda olaraq investisiya qoyuluşlarının tənzimlənməsi vasitəsi kimi investisiyaların stimullaşdırılması səmərəli investisiya mühitinin yaradılması ilə mümkün olur. Bu baxımdan neft sektoru ilə yanaşı qeyri-neft sektoruna və eyni zamanda regionların inkişafına həm xarici, həm də daxili investisiyaların yönəldilməsini stimullaşdırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar:

- regionların coğrafi şəraitinə uyğun olaraq onlar arasında investisiyaların bölüşdürülməsinin təmin edilməsi (regionlar arasında investisiyaların bölüşdürülməsinin optimallaşdırılması);
- ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin genişləndirilməsi, insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyinin artırılmasına nail olunması;
- kənd təsərrüfatı istehsalşıları üçün vergi tətillərinin davam etdirilməsi, kənd təsərrüfatı istehsalının strukturunun təkmilləşdirilməsinə investisiya proqramının köməyi ilə yardım edilməsi;
- xarici ticarət rejimində təkmilləşdirmələr aparmaqla özəlləşdirilmiş müəssisələrin texnoloji cəhətdən yenidən qurulması üçün müasir texnologiyanın ölkəyə gətirilməsinə əlverişli vergi mühitinin yaradılması;
- birbaşa xarici investisiyaların istehsala yönəldilməsinin vergi mexanizmləri vasitəsi ilə stimullaşdırılması;
- daxili investisiyalarla yanaşı birbaşa xarici investisiyaların ixracyönümlüvə əlavə dəyərin xüsusi çəkisi yüksək olan sahələrə yönəldilməsi;
- restruktizasiya prosesinin davam etdirilməsi yolu ilə yerli müəssisələrin investisiya cəlbediciliyinin artırılması;
- investisiyaların vergi tənzimlənməsi istiqamətində qanunvericilik bazasının daha da təkmilləşdirilməsi.

## NƏTİCƏ

Qeyd etməliyik ki, investisiyanın ölkəyə daxil olma forması da çox əhəmiyyətlidir. Bu baxımdan yeni investisiyalar ilə xarici şirkətin əsasən özəlləşdirmə yolu ilə yerli şirkəti satın alması halları bir-birindən fərqləndirilməlidir. Buna görə də bir çox ölkələrin təcrübələrindən yararlanmaq zəruridir. Çünki bizim güzəşt kimi təklif etdiklərimiz digər ölkələrin təkliflərinin yanında xarici investorlar üçün əlavə bir altenativ yarada bilər. Ona görə də təkliflərimiz daha cəlbedici olmalıdır.

### *İstifadə edilmiş ədəbiyyat:*

**1.** Eyniyev T., Qeybullayev Q., Məmmədov M. Tikintinin iqtisadiyyatı və idarəedilməsi. Bakı. Nurlan, 2001, 682 s.

**2.** Q.Əliyev, R.Rzayev İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı, 2008

**3.** E.S.Nuriyev, Z.M.Allahverdiyev, M.Suleymanov. Azərbaycanın inkişafında tikinti kompleksinin rolu. Bakı. Şərq-Qərb, 2011

**4.** İ.Mehdiyev, V.Şirəliyev. Tikintinin iqtisadiyyatı (ali məktəblər üçün dərslik). Bakı, Çaşıoğlu, 2005

**5.** V.Z.Zeynalov. Azərbaycanda investisiya siyasəti. Bakı, Azərnəşr. 2012

**6.** Ковалев В.В. Инвестиции. Москва, 2005

**7.** Кузнецов В. Г. Инвестиции. Москва, 2010

**Э.И.Аждарлы**
*докторант, Азербайджанский Технический Университет*

**Исследование роли регулирования занятости в инвестициях в строительном секторе**

**Резюме**

*Как известно, формирование, реорганизация, расширение любой производственной и социальной сферы и, следовательно, обеспечение занятости требует соответствующих инвестиций и их эффективное использование. Для этого республика должна иметь необходимые финансовые, материальные и трудовые ресурсы. Учитывая, что строительный сектор имеет материальный потенциал, мы должны подчеркнуть важность в этом смысле строительных материалов как сырья. Несмотря на то, что наша страна богата строительными материалами, существует необходимость в интенсификации производства строительной продукции. В противном случае возникает необходимость в привлечении в страну иностранных инвесторов, чтобы обеспечить формирование и развитие национальной экономики. Поэтому в условиях новой рыночной экономики в нашей стране в полном соответствии с интересами зарубежных стран и развитием национальной экономики Азербайджана, есть возможность делать взаимные инвестиции.*

***Ключевые слова:*** *строительство, занятость, инвестиции, экономика*

**E.İ.Ajdarli**
*doctoral student, Azerbaijan Technical University*

**Investigation of the role of employment regulation in investment in the construction sector**

**Abstract**

*As is well known, the formation, reorganization, expansion of any production and social sphere, and thus the provision of employment, requires appropriate investment and its efficient use. For this, the republic must have the necessary financial, material and labor resources. Especially considering that the construction sector has a material capacity, we must emphasize the importance of construction materials as raw materials in this sense. Despite the fact that our country is rich in construction materials, there is a need to intensify the production of construction products. Otherwise, there is a need to attract foreign investors to the country in order to ensure the formation and development of the national economy. That is why, in the new market economy, in our country, in full accordance with the interests of foreign countries and the development of the national economy of Azerbaijan, there is an opportunity to make mutual investments in our country.*

***Keywords:*** *construction, employment, investment, economy*

**T.T.Aslanova**
***i.e.n., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
**turan.aslanova@mail.ru**
**N.R.Fətahova**
***müəllim, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
**nargiz.fataxova@mail.ru**

# MÜASIR ŞƏRAİTDƏ MALİYYƏ-İNVESTİSİYA POTENSIALININ REALLAŞMASINA ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSIZLİYİNƏ TƏSİRİ

**Xülasə**

*Məqalədə maliyyə -investisiya potensialının ölkənin iqtisadi təhlükəsizliyinin təsiri xüsusiyyətləri araşdırılmışdır.Bazar iqtisadiyyatı şəraitində maliyyə-investisiya potensialında səmərəli istifadə edilməsi iqtisadi və milli təhlükəsizliyə əsaslı surətdə təsir göstərir . Müəyyən olunmuşdur ki, maliyyə-investisiya sahəsində investisiyanın cəlb edilməsi üçün əlverişli mühitin yaradılması mühüm yer tutur. Bunlardan ən mühümü vergi və gömrük ödənişləri sisteminin tətbiqi ilə əlaqədardır.Bununla əlaqədar olaraq investisiya mühiti dedikdə sosial-iqtisadi,siyasi amillərin ,eləcədə investisiyaların ödəyən maliyyə amillərində məcmusu başa düşülür.Burada həmçinin regionun maliyyə potensialının tədqiq edilmişdir ki, müəyyən olunmuşdur ki,region malioyyəsinin əsas tərkib hissəsi regional büdcələrdir və onların formalşdırılmasıdır.*

*Müəyyən olunmuşdur ki,iqtisadi təhlükəsizliyində təmin edilməsi mövcud potensialından və bu potensialdan düzgün istifadə olunması səviyyəsindən çox aslıdır.*

***Açar sözlər**: investisiya, maliyyə,region,risk,büdcə, vergi*

Müstəqil inkişaf yoluna qədəm qoymuş hər bir ölkə qarşısına özünün milli iqtisadiyyatını formalaşdırmaq kimi çətin və məsuliyyətli bir vəzifə qoyur. Belə bir vəzifəni yerinə yetirməzdən əvvəl, təbii ki, milli iqtisadiyyatın ictimai təşkili forması, onun xarakteri və qarşısında duran əsas məqsədlərin müəyyən edilməsi daha məqsədəuyğundur.

Müasir dünya sistemi qloballaşma və inteqrasiya proseslərinin təsiri ilə formalaşır. Hazırkı dövrdə "qapalı iqtisadiyyat"a əsaslanmaqla uzun müddət iqtisadiyyatı səmərəli şəkildə təşkil və idarə etmək qeyri-mümkündür. Bu baxımdan da, müasir dünya dövlətləri "açıq iqtisadiyyat"a daha çox üstünlük verirlər. Ona görə də dünyaya sürətlə inteqrasiya etmək məqsədilə bütün ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında da "açıq bazar iqtisadiyyatı" qurmaq qarşıda duran strateji vəzifələrdən biridir. Bu isə, öz növbəsində, olduqca məsuliyyətli bir istiqamətdir. Belə ki, açıq bazar iqtisadiyyatına istiqamət götürmək milli iqtisadiyyatların dünya iqtisadiyyatına qovuşmasını və mövcud ölkənin vahid dünya təsərrüfatının bir subyekti kimi fəaliyyət göstərməsini nəzərdə tutur. Bütün bunlara nail olmaq isə bir çox istiqamətlərdə kompleks tədbirlər sisteminin həyata keçirilməsini nəzərdə tutur. Əlbəttə, iqtisadiyyatın bütün istiqamətlərinin inkişaf etdirilməsi zəruridir və ayrı-ayrı sahələri əhəmiyyətlilik dərəcəsinə görə biri-birindən fərqləndirmək qeyri-mümkündür. Amma, bir reallıq da mövcuddur ki, istənilən sahədə irəliləyişə nail olmaq və beləliklə də ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün lazımi maliyyə təminatı olmalıdır. Məhz bu baxımdan da, hər bir ölkənin istər beynalxalq aləmə səmərəli inteqrasiya etməsində, istərsə də müvafiq milli iqtisadiyyat formalaşmasında maliyyə-investisiya potensialı və bu potensialdan səmərəli istifadəyə imkan verən maliyyə-investisiya siyasəti xüsusi əhəmiyyət kəsb edir.

Maliyyə-investisiya sahəsində investisiyaların cəlb edilməsi üçün xüsusi əlverişli mühitin yaradılması mühüm yer tutur. Qeyd etmək lazımdır ki, ölkəmizdə əlverişli investisiya mühitinin yaranmasına bir çox amillər təsir edir ki, bunlardan da ən mühümü güzəştli vergi və gömrük ödənişləri sisteminin tətbiqi ilə bağlıdır. Bu, həm daxildə inkişafı sürətləndirər, həm də müasir texnika və texnologiya idxalını stimullaşdırar. Belə ki, güzəştli vergi-gömrük siyasəti nəticəsində, istehsal avadanlıqları idxalı gömrük rüsumundan və idxal vergisindən azad olunur. Təbii ki, bütün bunlar müasir texnika və texnologiyanın tətbiqini stimullaşdırır ki, bu da nəticədə kəmiyyət və keyfiyyət irəliləyişlərinə imkan verir. Bütün bunlar isə səmərəli investisiya siyasətinin həyata keçirilməsini tələb edir. Ona görə ki, məlum olduğu kimi, investisiya maddi və intellektual formada qoyula bilər. Digər tərəfdən isə, istər yerli, istərsə də xarici investisiyaların cəlb edilməsi və səmərəli yerləşdirilməsində investisiya mühiti xüsusi rola malikdir. Bu mühit həmçinin məqsədyönlü investisiya fəaliyyətinin dövlət tənzimlənməsi üzrə tədbirlər kompleksinin təsiri altında təşəkkül tapır. İnvestisiya mühiti dedikdə sosial-iqtisadi, siyasi amillərin, eləcə də investisiyanı ödəyən maliyyə amillərinin məcmusu başa düşülür.

Xarici investisiyaların cəlb edilməsinin mümkün həcmi investisiya mühitinin ən başlıca amili olan investisiya iqliminin vəziyyətindən asılıdır. Ölkənin investısiya iqliminə aşağıdakı amillər təsir edir və aşağıdakı göstəricilər əsasında formalaşır:

- İnvestisiya potensialı – müşahidə və təcrübə göstərir ki, ölkənin investisiya potensialının bir neçə əsas tərkib hissələri vardır ki, bu potensial da onların təsiri ilə formalaşır. Bu tərkibə istehsal və istehlakın səviyyəsi, kadr və xammal-resurs ehtiyatları, istehlak, infrastruktur təminat, institutsional baza, təhsil səviyyəsi, innovativ fəaliyyət, iqtisadi-coğrafi vəziyyət, kommunikasiya vasitələrinin vəziyyəti və s. Beləliklə, qeyd edilən parametrlər üzrə ölkənin investisiya potensialını təhlil edərkən aydın olur ki, əksər parametrlər investisiya cəlbediciliyi baxımından müasir tələblərə tam cavab verir. Bununla yanaşı, bu sahədə də müəyyən problemlər hələ də qalmaqdadır. Bu sırada, investisiyalara hər hansı zəmanətin olmaması, xüsusilə sığorta sisteminin inkişaf etməməsi və ya lazımi səviyyədə inkişaf etməməsi müəyyən problemlər yaradır. Ona görə də, sığorta sisteminin sürətli inkişaf etdirilməsi, sığorta bazarının daha da genişləndirilməsi qarşıda duran başlıca vəzifələrdən biri kimi qəbul edilməlidir.
- İnvestisiya riski - adətən iqtisadi-siyasi sabitlik; geosiyasi və geoiqtisadi vəziyyət; gömrük-vergi dərəcələri və onların tənzimlənməsi və bu sistemin səmərəliliyi; yerli bazarın xarakteristikası; ticarət siyasəti; bazara daxil olma şərtləri və xüsusıyyətləri; kapitalın risklilik dərəcəsi; qoyulmuş investisiyaiarın öz xərcini ödəmə dərəcəsi; daxili sosial durum və əhalinin rifah halı; iqtisadi cinayətkarlığın səviyyəsi və ölkənin reytinqi; dövlətİn investisiya riskiərindən sığorta təminatı kimi məhtudiyyətlər nəzərə almaqla qiymətləndirilir. Son dövrlər hazırda Azərbaycan Respublikasında istər ölkə, istərsə də regional səviyyədə həyata keçirilən tədbirlər artıq risklilik “qorxusunu” tamamilə aradan qaldırmış, eləcə də sabit və dinamik inkişaf edən bir region kimi ölkəmizin investisiya cəlbediciliyini yüksəltmişdir;
- İnvestsiya qanunveirciliyi – bu, investisiya fəaliyyətini tənzimləyən dövlət, eləcə də subyekt səviyyəli xüsusi normativ aktlarla əlaqədardır ki, bunun da ölkədə müəyyən bazasının yaradılmasına baxmayaraq, bəzi qanunların və digər normativ sənədlərin normal fəaliyyəti hələ də təmin olunmamışdır. Bu isə, öz növbəsində, investisiya iqliminə mənfi təsir göstərir. Ümumilikdə, investisiya mühitinə mənfi təsir edən amilləri Azərbaycan Respublikası timsalında aşağıdakı kimi təsnifləşdirmək olar:

1. Siyasi və sosial sabitliyin, iqtisadi artım dinamikliyinin, xarici iqtisadi sferanın liberallaşma dərəcəsinin, inkişaf etmiş sənaye infrastrukturunun, bank və telekommunikasiya sisteminin, nisbətən

ucuz ixtisaslı işçi qüvvəsi bazarlarının olması və s. kimi kriteriyalardan istifadə edərək beynəlxalq standartlar üzrə ümumilikdə Azərbaycanın investisiya iqlimini qiymətləndirərək təsdiq etmək olar ki, bütün istiqamətlərdə müəyyən inkişaf tendensiyalaraı əldə edilsə də, Azərbaycanın bu parametrlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə ayaqlaşa bilməsi üçün davamlı tədbirlərin həyata keçirilməsi çox vacibdir. Bunlara da aşağıdakılar aiddir:

- ölkəyə investisiya qoyuluşlarının ümumi həcmində sahə üzrə investisiyaların xüsusi çəkisi;
- istehsalın ümumi həcmində yeni qoyulmuş investisiyaların iştirakı ilə yaradılan müəssisələrdə buraxılan məhsulların həcmi və payı;
- cəmi iqtisadi fəal insanların ümumi sayında yeni yaradılan müəssisələrdə məşğul olanların miqdarı və payı;
- investisiya qoyuluşlarının təsiri ilə yaradılan yeni müəssisələrdə əmək məhsuldarlığı;
- ölkənin ümumi ixrac və idxalında xarici investisiyalı müəssisələrdə istehsüal edilən məhsulların payı;
- yeni yaradılan müəssisələrdə istehsal edilən məhsulların ÜDM-də xüsusi çəkisi.

Qeyd olunduğu kimi, cəlb edilən investisiyaların həcmi ilə yanaşı, vəsaitlərin əmərəli yerləşdirilməsi və düzgün bölüşdürülməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan da, Azərbaycan respublikasının, o cümlədən müvafiq dövlət qurumlarının qarşısında duran vacib problemlərdən biri də investisiyaların səmərəli coğrafi bölgüsünü təmin etməkdir.

Ölkəyə cəlb edilən investisiyaların, xüsusilə xarici kapitalın 90%-ə qədəri Abşeronda cəmləşmişdir. Təbii ki, Bakı və ya Abşeron heç də bütün Azərbaycan deyildir. Azərbaycanın əmək ehtiyatlarının çoxu və hələ istismara cəlb olunmamış təbii-iqtisairi resurs potensialı, yeraltı və yerüstü böyük faydalı qazıntı ehtiyatları məhz regionlardadır. Buna görə də gələcəkdə investisiyaların əsas hissəsinin regionların inkişafına yönəldilməsi daha zəruridir. Bunun üçün isə regionlarda daxili və xarici investisiyaların cəlb edilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi çox vacibdir.

Eyni zamanda, əlverişli investisiya iqlimi yaradılması məqsədilə regional layihələrdən (qədim "İpək yolu"nun bərpası, BTC və s.) maksimum istifadə olunmalıdır. Məsələn, "İpək yolu"nun bərpası, təbii ki, respublika ərazisindən daşımaların həcminin artması ilə nəticələnəcəkdir. Bununla əlaqədar olaraq bütün yol-nəqliyyat komplekslərinin yenidən qurulmasına, genişləndirilməsinə və müasir nəqliyyat sisteminin yaradılmasına ciddi ehtiyac vardır ki, bu da yüksək həcmdə investisiya qoyuluşları tələb edir. Aydındır ki, bu qlobal problemi həll etmək üçün xarici investorların da cəlb olunmasını təmin etmək, bunun üçün də, xarici investorlara əlverişli şərait yaratmaq çox vacibdir.

Yuxarıda qeyd olunan strateji vəzifələrin müvəffəqiyyətlə həll olunması dövlət idarəçiliyi sisteminin səmərəliliyindən xeyli asılıdır. Əvvəllər xarici investisiyaların Azərbaycana cəlb olunması, vəsaitlərin istiqamətləndirilməsi və digər təşkilati məsələlərlə bir neçə mərkəzi icra orqanları məşğul olurdu. Bu isə potensial xarici investorlar üçün müəyyən bürokratik əngəllər yaradırdı. Lakin yüksək statusa malik olan və şəffaf fəaliyyət göstərən vahid mərkəzi orqan – İqtisadiyyat və Sənaye Nazirliyinin yaradılması, xarici investisiyaların cəlb edilməsi ilə bağlı müvafiq normativ-hüquqi bazanın formalaşdırılması, xüsusilə investorların hüquqlarının qorunması istiqamətində müəyyən addımlar atılması bu sahədə olan çətinliklərin aradan götürülməsində çox mühüm rol oynadı.

İnvestisiya qoyuluşlarının digər sahələri də əhatə etməsi daha əlverişlidir.

Xarici investorların ölkəyə cəlb olunmasında proqresiv forma olan lizinqdən istifadənin böyük potensial imkanları vardır. Azərbaycanın kontrakt münasibətlərə əsaslanaraq xarici investorları cəlb etməyi müsbət istiqamətdə atılmış addımdır. Kontrakt münasibətlərdən istifadə etməklə respublikamız qabaqcıl texnologiya əldə edə bilər və qısa müddətdə iqtisadiyyatın effektivliyini qaldıra bilər. Kontrakt formalarından istifadənin xarici investorlar üçün də bir sıra üstünlükləri vardır. Bu zaman onlar ölkə

daxilində tətbiq edilən güzəştli sistemdən yararlana bilirlər, obyektə nəzarət edirlər və risk səviyyəsini aşağı salırlar.

Bütün hallarda, regionun maliyyə potensialının müəyyənləşdirilməsi məqsədəuyğun olardı. Bu həm regionun özünün maliyyə imkanlarını, həm də zəruri olan investisiya ehtiyaclarını müəyyən etməyə imkan verir. Region maliyyəsinin əsas tərkib hissəsi regional büdcələrdir. Hal-hazırda regional hakimiyyət orqanları regionların kompleks inkişafını, onların tabeliyində olan ərazilərdə istehsal və qeyri-istehsal sahələrinin proporsional inkişafını təmin etmək kimi mühüm vəzifələri yerinə yetirməlidir. Regionun maliyyə potensialının əsas tərkib hissələrindən biri də təsərrüfat subyektlərinin vəsaitləridir ki, bu da daha çox iki mənbənin hesabına - əsasən kommunal müəssisələri əhatə edən bələdiyyə mülkiyyətində olan müəssisələrin maliyyə resursları və müəssisə və təşkilatların, sosial-mədəni və mənzil-kommunal obyektlərinin maliyyələşdirilməsinə yönəldilən maliyyə resursları formalaşır. Eyni zamanda, regionların maliyyə potensialının formalaşmasında mühüm rol oynayan digər bir vacib istiqamət regional büdcədənkənar fondlardır ki, bunlar da region əhalisinin və müəssisələrin könüllü ayırmaları, payları, xüsusi yığımlar və s. kimi mənbələr hesabına formalaşır və bir çox hallarda məqsədli xarakter daşıyır. Regionun maliyyə potensialını əks etdirən başqa bir göstərici - ümumi daxili məhsulun region üzrə analoqu olan ümumi regional məhsuldur.

Hər hansı regionun maliyyə potensialının qiymətləndirilməsi üçün ən münasib göstərici regionun ümumi vergi ödəyən ehtiyatlarıdır. Regionun maliyyə potensialı meyarı kimi çıxış edən bu göstərici, həm də ümumi regional məhsul ilə sıx bağlı olur. Ümumi vergi ehtiyatları (ÜVE) adlanan bu göstəricidən bir çox ölkələrdə istifadə edilir. Beynəlxalq təcrübəyə görə də bu göstəricidən istifadə daha məqsədəuyğundur.

Regionun ümumi məhsulunu $Ü_m$, regiondan ödənilən dövlət vergilərinin həcmini $V_d$, dövlət büdcəsindən cəmi transfertləri $T_b$ ilə işarə etsək, regionun maliyyə potensialı meyarını aşağıdakı kimi hesablaya bilərik:

$$\mathbf{Ü_v = (Ü_m - V_d) + T_b}$$

Göründüyü kimi, regionların vergi bazalarının həcmini əks etdirən kəmiyyətləri müəyyənləşdirərək və həmin dəyişən kəmiyyətlərə dair bütün regionlar üçün məlumat toplayaraq, eləcə də regionlarda faktiki yığılan ödənişlər haqqında informasiya əldə edərək regionların maliyyə potensialını müəyyənləşdirmək olar.

Region büdcəsinə yerli mənbələr hesabına daxil olan və konkret düsturla hesablanan və ya proqnozlaşdıran vəsaitlərin həcmi, həmin regionun orta vergi səyləri ilə yığa biləcəyi ödəniş həcmini əks etdirəcəkdir.

Azərbaycanın iqtisadiyyatının müasir şəraitdə tarazlı inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün maliyyə və vergi potensialının formalaşma problemlərinin, onların qarşılıqlı əlaqələrinin tədqiqi aktual məsələ kimi qarşıda durur. Bu zaman region büdcəsinin gəlirinin əsasını təşkil edən vergi potensialına xüsusi diqqət yetirilməsi zəruridir. Ölkənin regionlarında vergi resurslarının səfərbərlik miqyası və şərtləri, onların real büdcə tələbatlarına uyğunluğu pul və kredit emissiyasına, puldövriyyəsinin həcminə və sürətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Beləliklə, maliyyə-investisiya potensialının iqtisadi təhlükəsizlik baxımından araşdırılmasından bu nəticəyə gəlirik ki, təhlükəsizliyin təmin edilməsi mövcud potensialdan və bu potensialdan istifadə səviyyəsindən çox asılıdır. Ona görə də mövcud potensialın əvvəlcədən dəqiqliklə qiymətləndirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar, həm də region və ya sahə üzrə investisiya ehtiyaclarını da üzə çıxarmağa imkan verir ki, nəticədə perspektiv investisiya layihələrini daha dəqiq planlaşdırmaq mümkün olur. Bu da, öz növbəsində uzunmüddətli dayanıqlı iqtisadi inkişafa dəstək verir və iqtisadi təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb edir.

**İstifadə edilmiş ədəbiyyat:**

**1.** *Heydər Əliyev yolu - Azərbaycan inkişafın yeni mərhələsində. "Azərbaycan"nəşriyyatı, 2007*

**2.** *Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" Qanunu,29.07.2004,"Xalq qzaeti",30.07.2004*

**3.** *Abbasov A. F. "İqtisadi təhlükəsizliyin elmi əsasları". Bakı, 2011*

**4.** *Abbasov A.H. "Dövlətin iqtisadi təhlükəsizliyinin təmin olunmasında maliyyə siyasətinin rolu". Bakı, 2012*

**5.** *Əhmədov M.A., Qloballaşma və milli iqtisadiyyatın formalaşması, Bakı, "Azərnəşr", 2003, s. 520*

**6.** *l siyasət və idarəetmə". Bakı, "Elm", 2004, 348 s.*

**7.** *Piriyev A. "Siyasi strategiya və milli təhlükəsizlik problemi". Bakı, Adiloğlu, 2002, 427səh.;*

**8.** *Atakişiyev M.C."Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda". Bakı, Təfəkkür,2005,262s.*

**9.** *Ələkbərov Ə.Ə. "Azərbaycan dövlətinin sosial –iqtisadi inkişafında vahid büdcə sisteminin rolu". Bakı, Elm,2005,252 səh.*

**10.** "Heydar Aliyev Way - Azerbaijan at a new stage of development. "Azerbaijan" publishing house, 2007

**11.** Law of the Republic of Azerbaijan "On National Security", 29.07.2004, "People's Newspaper", 30.07.2004

**12.** *Abbasov A.F. "Scientific bases of economic security". Baku, 2011*

**13.** *Abbasov A.H. "The role of fiscal policy in ensuring the economic security of the state." Baku, 2012*

**14.** *Ahmadov M.A. Globalization and the formation of the national economy, Baku, "Azerneshr", 2003, p. 520*

**15.** *«l policy and management». Baku, "Science", 2004, 348 p.*

**16.** Piriyev A. "Political strategy and the problem of national security." Baku, Adil-oglu, 2002, 427 pages

**17.** Atakishiyev MC "Azerbaijan on the path of socio-economic progress". Baku, Tafakkur, 2005, 262 p.

**18.** Alakbarov AA "The role of the single budget system in the socio-economic development of the Azerbaijani state." Baku, Science, 2005, 252 pages

**Т.Т.Асланова**
*к.э.н., доцент, Азербайджанский Архитектурно-Строительный Университет*
**Н.Р.Фатахова**
*преподаватель, Азербайджанский Архитектурно-Строительный Университет*

## Влияние экономической безопасности страны на реализацию финансового и инвестиционного потенциала в современных условиях

### Резюме

*В статье исследуется влияние финансового и инвестиционного потенциала на экономическую безопасность страны. Эффективное использование финансового и инвестиционного потенциала в рыночной экономике оказывает существенное влияние на*

*экономическую и национальную безопасность. Было определено, что создание благоприятной среды для привлечения инвестиций в сфере финансов и инвестиций имеет большое значение. Наиболее значимое из них связано с введением системы налогов и таможенных пошлин. В этой связи инвестиционный климат представляет собой совокупность социально-экономических, политических факторов, а также финансовых факторов, которые окупаются. Это неотъемлемая часть региональных бюджетов и их формирования.*

*Установлено, что обеспечение экономической безопасности зависит от имеющегося потенциала и уровня правильного использования этого потенциала.*

***Ключевые слова:*** *инвестиции, финансы, регион, риск, бюджет, налог*

**T.T.Aslanova**
*Candidate of Economic Sciences, Associate Professor, Azerbaijan University of Architecture and Construction*
**N.R. Fatahova**
*Lecturer, Azerbaijan University of Architecture and Construction*

## Impact of the country's economıc securıty on the realızatıon of fınancıal and ınvestment potentıal ın modern condıtıons

### Abstract

*The article examines the impact of financial and investment potential on the economic security of the country. The effective use of financial and investment potential in a market economy has a significant impact on economic and national security. It was determined that the creation of a favorable environment for attracting investment in the field of finance and investment is important. The most important of these is related to the introduction of a system of taxes and customs duties. In this regard, the investment climate is a set of socio-economic, political factors, as well as financial factors that pay for investments. It is an integral part of regional budgets and their formation.*

*It has been determined that ensuring economic security depends on the existing potential and the level of proper use of this potential.*

***Keywords****: Investment, finance, region, risk, budget, tax*

**M.N.Qurbanova**
***magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti***
**qurbanova.maxish@gmail.com**

# AZƏRBAYCANDA RƏQƏMSAL SIĞORTA BAZARININ FORMALAŞMASI VƏ İNKİŞAFI

**Xülasə**

*Məqalədə sığorta sektorunu yenidən formalaşdıran mövcud rəqəmsal əsaslı inkişaf xüsusiyyətləri, eləcə də sığorta şirkətlərinin onlardan necə faydalana biləcəyi və gələcəyin rəqəmsal sığortaçısı olma yolunda hansı amillərin vacib olduğu göstərilir. Həmçinin Azərbaycanda iqtisadiyyatın rəqəmsallaşması prosesinin sığorta şirkətlərinə təsiri araşdırılmışdır. Covid-19 böhranı zamanı sığortaçıların yeni metodlardan istifadəsi şərh edilmişdir. Bundan başqa müvafiq nəticə və təkliflər qeyd edilmişdir.*

***Açar sözlər:*** *rəqəmsal ekosistem, rəqabət, "InsurTech", risk, sığorta bazarı*

## GİRİŞ

Bazar iqtisadiyyatında sığortanın rolu risk, ondan qorunma xidməti və bu xidmətin dəyəri kimi əsas anlayışlarla xarakterizə olunur. Texnologiya və yeni informasiya mənbələri iqtisadiyyatımızı və cəmiyyətimizi əsaslı şəkildə dəyişdirir və sığorta sektoruna da təsir edir. Rəqəmsallaşma sığortanın rolunu riskdən qorunmaqdan risklərin proqnozlaşdırılmasına və qarşısını almağa qədər dəyişir. Getdikcə rəqəmsallaşan ölkə iqtisadiyyatında bəzi risklər daha da azalır, digərləri, məsələn kiber risk kimiləri əhəmiyyət qazanır.

Rəqəmsallaşma ənənəvi sığorta şirkətlərinə yüksək təzyiq göstərir: müştərilər sığorta bazarındakı vəziyyət haqqında daha yaxşı məlumatlandırılır və bu səbəbdən fərdiləşdirilmiş məhsul və xidmətlərin, habelə ən son texnologiyalarla birləşdirilmiş özünəxidmət variantlarının alınması üçün gözləntilər artır. Bundan əlavə, startuplar və məlumat nəhəngi şirkətləri kimi yeni oyunçular ənənəvi sığorta bazarına daxil olur və bütün oyunçulara rəqabət təzyiqini gücləndirirlər. Sığorta şirkətləri, rəqəmsal məkanda müştəri təcrübəsinə və dəyər təklifinə daha yaxşı yanaşan şirkətlərə qarşı mübarizədə mövqelərini itirməmək üçün yalnız sürətli deyil, həm də məqsədyönlü hərəkət etməlidirlər.

Hal-hazırda ənənəvi sığorta şirkətləri, möhkəm təməllərinə və irslərinə əsaslanan, lakin daha çevik, tərəfdaş yönümlü və çevik bir quruma çevrilmiş bütöv bir islahat yanaşmasını tələb edirlər.

### Rəqəmsallaşmanın sığorta bazarının yenidən formalaşmasında rolu

Müasir informasiya texnologiyaları vasitəsi ilə yenilik etmək maliyyə sektorundakı dəyişikliklərin əsas amilidir və bu dəyişikliklər əvvəlcə qeyri-müəyyənlik və şübhə ilə müşayiət olunsa da, nəticədə səmərəliliyin əldə olunmasına gətirib çıxarır. Son illərdə belə bir innovativlik yeni texnoloji inkişafın davamı olaraq baş vermiş və bu fenomen daha çox "FinTech" olaraq xarakterizə edilmişdir. "FinTech" əsasən maliyyə, texnologiya menecmenti və innovasiya idarəetməsini özündə birləşdirən sahələrarası fenomen olaraq qeyd edilə bilər [4, s. 74]. Maliyyə, o cümlədən sığorta xidmətləri sahəsində əməliyyat xərclərini azaltmaq və xidmətlərin çatdırılmasını sürətləndirmək, texnoloji yeniliklərdən istifadənin intensivləşdirilməsi məqsədlərinə uyğundur. Sığorta sektoru da istisna deyil, texnologiyada baş verən inkişaflar, yeni xidmət göstərmə üsullarının mümkünlüyünə və daha yaxşı risklərin müəyyənləşdirilməsi və azaldılması tədbirlərinə səbəb ola biləcək məlumat toplama imkanlarına gətirib çıxarır və bunlara "InsurTech" deyilir. "InsurTech" ilə əlaqəli risklərin idarə edilməsinə gəldikdə, mövcud risk tənzimləmə çərçivələrinin müəyyən bir tənzimləməyə ehtiyac ola biləcəyi aydındır [3, s.

3]. “FinTech” ilə müqayisədə “InsurTech” daha çox fərdi şəxslərə xidmətlərin təkmilləşdirilməsi ilə əlaqədardır.

Rəqəmsallaşma ilə bağlı baş verən dəyişikliklərin biri, dəyər zənciri boyunca bütün proseslərin rəqəmsallaşdırılması ilə əlaqədardır və bu da sığortalama proseslərinin (məsələn, müqavilələrin avtomatik işlənməsi, iddialar haqqında avtomatik hesabatların hazırlanması) və qərarların (məsələn, avtomatlaşdırılmış anderraytinq, iddia ödənişi, məhsul təklifləri) avtomatlaşdırılmasına gətirib çıxarır. “Big data”dan istifadə sığorta bazarında daha çevik avtomatlaşmaya gətirib çıxaracaqdır. “Big data”nın istifadəsində ən azı iki problem yaranır. Birincisi, sığorta şirkətləri telematik cihazlar, sosial şəbəkələr və ya digər internet mənbələri (məsələn, müştərilərin rəyləri, şəkillər, videolar) tərəfindən yaradılan böyük, çox vaxt strukturlaşdırılmamış məlumat dəstlərini təhlil etmək üçün işçi qüvvəsinə və vasitələrə ehtiyac duyurlar. İkincisi, böyük məlumatların istifadəsi hüquqi və etik suallar doğurur. Üçüncü aşkar təsir, rəqəmsallaşmanın mövcud sığorta məhsulları dəyişdirməsi və yeni məhsul təkliflərinə (kiber risk sığortası) imkan verməsidir [5, s. 158].

Sığorta sektoru müxtəlif çətinliklərlə, maliyyə bazarlarındakı qeyri-sabitliklə, aşağı faiz dərəcələri ilə yanaşı tənzimləyici tələblərin dəyişməsi və artması ilə qarşılaşır. Bununla birlikdə, əksər sığorta şirkətləri fəaliyyətlərini tənzimləyici dəyişikliklərə uyğunlaşdırmaq üçün səy göstərdikləri müasir dövrdə sığortaçının iş modeli və müştəri məmnuniyyətinə təsir edən ən çətin problem rəqəmsallaşdırmadır.

Digər sahələrlə müqayisədə gec olsa da, sığorta bazarı rəqəmsal problemi qəbul etməyə başlamış və həlli istiqamətində addımlar atmışdır. Bəzi sığorta şirkətləri rəqəmsallaşmanın potensialını qəbul etməklə bundan öz xeyirlərinə istifadə etməyə başlayıblar. Bu şirkətlər müştəri bazasını artırmaq və seqmentləşdirməni optimal müəyyənləşdirmək, eləcə də risklərin səmərəli idarə edilməsini, həmçinin xərclərin ixtisarı ilə effektivliyi artırmaq üçün rəqəmsallaşdırmadan istifadə edirlər [7, s. 9].

Rəqəmsallaşma, sığorta mühitini kökündən dəyişdirən güclü bir hərəkətverici qüvvədir. Müştərilər, sığorta şirkətlərinin veb və mobil tətbiqetmələri bütün müştəri səyahətləri boyunca davamlı əlaqələri üçün kanal kimi istifadə etmələrini gözləyirlər. Bundan əlavə, müştərilər daha çox özünə xidmət imkanı tələb edirlər. Buna fərdiləşdirilmiş məhsullar, xidmətlər və bütün satış və rabitə kanallarında yüksək xidmət səviyyəsinə əsaslanan ardıcıl bir yanaşma aid edilə bilər.

Artıq rəqəmsal texnologiya sığorta bazarında köklü dəyişikliklərə səbəb ola biləcək əsas aparıcı qüvvə kimi qəbul edilir. Yeni texnologiyalar sığorta məhsulları istehlakçıları ilə sığortaçılar arasında olan qarşılıqlı əlaqənin formalarını dəyişdirir. Rəqəmsallaşma ilə sığorta şirkətləri istehlakçı ilə əlaqə yaratmaq üçün saytlar, mobil tətbiqlər, elektron poçt, sosial şəbəkə, ənənəvi mobil mesajlar kimi digər çoxsaylı müxtəlif vasitə və informasiya alətlərindən istifadə imkanı qazanırlar.

Aydındır ki, rəqəmsallaşmanın geniş yayılması biznesin təşkili fəlsəfəsini ümumilikdə dəyişmişdir. “Mckinsey” şirkətinin mütəxəssisləri rəqəmsallaşma şəraitində sığorta fəaliyyətinin yenidən qurulması prosesində üç əsas istiqaməti nəzərdən keçirməyi təklif edirlər. Bunlar risklərin yeni formaları, anderraytinqə və faydalılığa yeni yanaşmalardır [6, s. 20].

Sığorta şirkətlərinin rəqəmsal kanallar vasitəsilə əməliyyatlar aparması və sığorta siyasətinin həyata keçirilməsinin innovativ texnologiyalardan əhəmiyyətli dərəcədə asılı olması rəqəmsal sığorta kimi qəbul edilməlidir. İşin daha səmərəli olması üçün sığorta şirkətləri rəqəmsal sığorta platformalarından istifadə edirlər. Ənənəvi sığorta ilə müqayisə etsək, aşağıdakı fərqləri görə bilərik:

- istehlakçıya ilk olaraq biznes yanaşmanı təklif edir;
- sığorta məhsullarının potensial istehlakçısına yuxarıda sadalanan müxtəlif əlaqə vasitələrdən ən uyğunu ilə axtarış, müqayisə və sığorta məhsullarının onlayn qaydada əldə edilməsi təklif edilir. Üstəlik bütün bunlar vasitəçi və agentlər olmadan da mümkündür;

- sadələşdirilmiş seçim imkanlarının təklifi;
- iddialar, risk dəyərləndirilməsi və qiymətləndirmənin müasir əməliyyat sistemləri ilə, yeni xüsusi sığorta texnologiyaları vasitəsilə həll edilməsi.

Qeyd etmək lazımdır ki, rəqəmsal sığorta, rəqəmsal texnologiyalar vasitəsi ilə ənənəvi və ya spesifik (rəqəmsallaşdırma nəticəsində yaranan) ehtiyacın ödənilməsi yoludur.

Sığorta bazarında rəqəmsallaşma, sığortaçının fəaliyyət proseslərində rəqəmsal texnologiyalardan istifadəsi deməkdir. Bu konsepsiya ilə yanaşı "iş proseslərinin rəqəmsallaşdırılması" termini də istifadə edilə bilər. Çox vaxt yeni istehsal texnologiyaları və simsiz rabitə texnologiyaları rəqəmsallaşdırma prosesində istifadə edilə bilər. Bu anda sığorta şirkətlərində mühasibat xidməti və hesabatların hazırlanması, sığortalıların risk qiymətləndirməsi, sığorta xidmətlərinin satışı və hesablaşma kimi sığortalama prosesinin tərkib hissələri rəqəmsallaşdırmaya daxil olur.

Sığorta şirkətlərinin sığortalama prosesinin rəqəmsallaşması bir çox cəhətdən blokçeyn texnologiyalarının inkişaf dərəcəsi və onun sığorta işinin müxtəlif mərhələlərində istifadə imkanları ilə müəyyənləşdiriləcəkdir.

Ümumiyyətlə sığorta bazarında mövcud olan istehlakçılar müasir dövrdə şirkətlərdən rəqəmsal fəaliyyətlərin aktivləşdirilməsini gözləməklə, onların qiymətləndirilməsini də aparırlar. Sığorta şirkətləri də öz növbəsində mövcud olan rəqəmsal imkanların mövcudluğunu inkar edə bilməz. Lakin bu məqamda onların rəqəmsal transformasiyaya necə yanaşmaları da mühüm əhəmiyyət daşıyır.

Qeyd etməliyik ki, rəqəmsal sığorta bazarının inkişafı tək yeni mobil qurğuların və ya tətbiqlərin meydana gəlməsi ilə bağlı deyil. Bu müvafiq texnologiyanı innovativ yollarla istifadə etməklə, real istehlakçı kütləsinə fokuslanmaqla mümkündür. Sığorta şirkətləri öz daxili əməliyyat sistemlərini təkmilləşdirməklə və yeni texnologiyaları tətbiq etməklə rəqəmsal istehlakçıları qazanmalıdır.

Mövcud sığorta şirkətləri sığorta texnologiyalarından tutmuş rəqəmsal əməliyyatlara qədər bütün fəaliyyət prosesində istehlakçıların etibarını rəqəmsal transformasiya zamanı düzgün alətlərin seçilməsi, uyğun tərəfdaşların tapılması və faydalı ideyaların dəstəklənməsi ilə qazana bilər.

Sığorta münasibətləri bazar iqtisadiyyatı şəraitində ölkənin sürətli iqtisadi inkişafında mühüm rol oynayır. Sığorta şirkətləri tərəfindən risklərin xüsusiyyətləri nəzərə alınmaqla onlara uyğun sığorta məhsullarının işlənib hazırlanması fiziki və hüquqi şəxslər üçün, o cümlədən cəmiyyət və dövlət üçün çoxcəhətli faydalılıq yaradır. Maliyyə bazarında baş verən mütəmadi texniki yeniliklər biznesin təşkili forma və xüsusiyyətlərinə də təsir edir. Belə ki, müxtəlif platformaların, "Big data" texnologiyalarının istifadəçiləri, süni intellekt və başqa amillər imkan verir ki, daha rentabelli sığorta məhsulları təqdim edilsin. Operativ yaddaşın gücləndirilməsi və məlumatların saxlanılması xərclərinin əhəmiyyətli dərəcədə ixtisar edilməsi sığortaçılara fəaliyyətini yenidən təşkil etməyə imkan verir.

Sığorta şirkətlərinin əsas məqsədi sığorta məhsullarının istehlakçılarının rəqəmsal iqtisadi mühitdə tələblərinin tam qarşılanması olmalıdır. İstehlakçılara sadəcə bir toxunuşla sığorta məhsulunu almaq, günün istənilən vaxtında əlçatanlıq və sürətli çatdırılmadır. Həmçinin müvafiq sahə məhsulu haqqında dəqiq və ətraflı məlumat, rəqəmsal texnologiya vasitəsilə innovasiyaya əsaslanan fərdi xidmətlər almaq da tələblərin əhəmiyyətlisindəndir.

**Azərbaycanda rəqəmsal sığorta bazarının inkişaf xüsusiyyətləri**

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2016-cı il 6 dekabr tarixində təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə rəqəmsal ödənişlərin genişləndirilməsi ilə əlaqədar müxtəlif tədbirlər icra etmək nəzərdə tutulmuşdur [1]. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə dövlət proqramı"nda rəqəmsal ödənişlərin institutional

Construction economycs and menecment
2020, № 4 (13), pp. 111-116
M.N.Qurbanova

mühitinin münbitləşdirilməsi, rəqəmsal ekosistem yaradılması və ümumilikdə rəqəmsal ödənişlər haqqında hərtərəfli informasiyaların ötürülməsi, eləcə də bu istiqamətdə təbliğat işinin genişləndirilməsi əsas məqsəd kimi qəbul edilmişdir [2]. Bütün bu kimi həyata keçirilən islahat xarakterli tədbirlər sığorta bazarında elektron xidmətlərin göstərilməsi, eləcə də çoxcəhətli nağdsız ödənişlərin aparılması məqsədilə onlayn ödəniş infrastrukturunu qane edəcək dərəcəyə çatdırmaqla, ödənişlərin iştirakçısı olan iqtisadi subyektlərin müxtəlif ödəniş sistemlərinin infrastrukturuna inteqrasiyası, həmçinin ümumilikdə rəqəmsal iqtisadiyyatın yekun göstəricilərini artıracaqdır. Qeyd edək ki, Azərbaycanda sığorta bazarında 2019-cu ildə 22 şirkət olsa da, 2020-ci ildə isə 21 şirkət fəaliyyət göstərir [8].

Sığorta şirkəti üçün keyfiyyətli bir sığorta xidməti aşağıdakıları təmin etməlidir:

**1)** şirkətin maliyyə sabitliyini təmin etmək;

**2)** mülkiyyət maraqlarının qorunmasını təmin edən sığorta şərtləri;

**3)** sığorta olunanın sığorta ediləcək risklərinin qiyməti barədə təsəvvürünə uyğun səviyyədə sığorta dərəcəsi;

**4)** sığortaçının zəmanətli ödənişlər və şirkətin həqiqi maliyyə imkanları barədə fikirlərinin uzlaşması.

Sosial dəyərlər, hadisələrə münasibət, həyat tərzindəki dəyişikliklər və gözləntilərə cavab verən yeni məhsullar buraxaraq yeni tələblərə sürətli cavab verən şirkətlər iqtisadi fayda əldə edirlər.

Xüsusilə, Covid-19 böhranı, həyat, sağlamlıq və digər sığorta sahələrində sığorta anderraytinqini reallaşdırmaq məqsədilə innovasiyanın önəmini artırıb. Əvvəl sığorta anderraytinqi ənənəvi qaydada, yəni müştəri ilə üz-üzə həyata keçirilirdisə, indiki vəziyyətdə sığorta məhsullarının potensial istehlakçılarının riskini dəyərləndirmək üçün daha tez və etibarlı, eləcə də operativ qaydada teleqiymətləndirmədən istifadəyə başlamışdır. Təbii ki, müvafiq metodun səmərəliliyi təsdiq ediləcəksə, uzunmüddətli dövrdə onun istifadəsi adi hal kimi qəbul ediləcək. Bütün sığorta şirkətlərinin sığortalıları qane edə biləcək və gəlirlərini artıracaq mühüm addımlardan biridir.

Sığorta şirkətlərinin Hökümət Ödəniş Portalına inteqrasiya edilməsi də sığorta xidmətlərinin dövlət dəstəyi ilə rəqəmsal mühitdə inkişafını təmin edən amillərdəndir. Lakin müəyyən həlli vacib olan çatışmazlıqlar da var. Onlar işin gedişində dövlət və özəl sektor qarşılıqlı əlaqəsi zamanı aradan qaldırılacaqdır.

Rəqəmsallaşmanın əsas problemləri bunlardır:

- Sığortalama prosesinin İT dəstəyinin yenidən təchiz edilməsi xərclərini ödəmək zərurəti ilə əlaqədar olaraq rəqəmsal texnologiyalardan istifadənin miqyaslılığı ilə bağlı məhdudiyyətlər və çətinliklər;
- şirkət işçilərinin ənənəvi fəaliyyətə vərdişi və yenidən hazırlanması üçün vaxtın tələb olunması;
- şəxsi məlumatlara daxil olmaqla bağlı informasiya təhlükəsizliyi məsələsi;
- rəqəmsal kanalların sığorta şirkətlərinin digər xidmət kanalları ilə rəqabəti;
- sığorta şirkətinin daxili iş proseslərinin yenidən qurulması zərurəti;
- kifayət qədər ixtisaslı mütəxəssis olmaması.

## NƏTİCƏ

Azərbaycanda İKT üzrə hüquqi və tənzimləyici mühit və İKT infrastrukturu və xidmətlərinin mövcudluğu, keyfiyyəti dövrün tələbinə uyğun olaraq mütəmadi olaraq təkmilləşir. Rəqəmsal xidmətlər təklif edən şirkətlər ölkənin elektron hazırlığını anlamaqla iqtisadiyyatın müxtəlif sektorlarında rəqəmsal müdaxilələrin uğurla absorbsiyası məqsədilə mövcud potensialı dəqiq qiymətləndirməlidir.

Azərbaycanda sığorta bazarının inkişafı getdikcə rəqəmsal iqtisadiyyatın sığorta texnologiyalarına təsir göstərən, lakin iqtisadi mahiyyətini dəyişdirməyən yeni texnologiyaların tətbiqindən asılıdır. Sığorta fəaliyyətində rəqəmsal texnologiyaların istifadəsi nəticəsində:

Construction economycs and menecment
2020, № 4 (13), pp. 111-116
M.N.Qurbanova

- sığorta fəaliyyətinin səmərəliliyi və gəlirliliyi artacaq;
- qarşılıqlı və kommersiya sığortasının yaxınlaşması baş verəcək;
- sığorta münasibətlərinin ictimailəşməsi baş verəcək;
- yeni sığorta xidmətləri və məhsulları ortaya çıxacaq;
- sığorta bazarında əməyə olan tələb dəyişəcək. Belə ki, avtomatlaşdırılmış idarəetmə sistemləri və sığorta agentlərinin, aşağı və orta səviyyəli mütəxəssislərin bir hissəsinin süni intellekt və robotlar ilə əvəz edilməsi olacaq.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi", Bakı, 6 dekabr 2016-cı il

**2.** "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə dövlət proqramı", Bakı, 26 sentyabr 2018-ci il

**3.** D. Bruce an others, Improving the success of InsurTech opportunities, British Actual Journal 23, January 2018, p 1-34. https://www.researchgate.net/ publication/ 331536892_ Improving _the_success_of_InsurTech_opportunities

**4.** Kelvin Leong and Anna Sung, FinTech (Financial Technology): What is It and How to Use Technologies to Create Business Value in Fintech Way?, International Journal of Innovation, Management and Technology, Vol. 9, No. 2, April 2018, p 74-78

**5.** Martin Lehmann, The Impact of Digitalization on the Insurance Value Chain and the Insurability of Risks, Geneva Papers on Risk and Insurance - Issues and Practice 43(3):359-396

**6.** McKinsey & Company, Digital insurance in 2018: December 2018 Driving real impact with digital and analytics, Decembr 2018, p 72. https://www.mckinsey.com/~/ media/McKinsey/ Industries/Financial%20Services/Our%20Insights/Digital%20insurance%20in%202018%20Driving%20real%20impact%20with%20digital%20and%20analytics/Digital-insurance-in-2018.ashx

**7.** Otto and Company, Insurance Companies: Staying Competitive in the Digital Age, January 2016, p 10. https://www.the-digital-insurer.com/wp-content/uploads/2016/05/692-20160115_ ArticleDigitalInsurance.pdf

**8.** https://www.cbar.az/page-189/insurance - Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı

**М.Н.Гурбанова**
*магистрант, Азербайджанский Государственный Экономический Университет, Международный Центр магистратуры и докторантуры*

**Формирование и развитие рынка цифрового страхования в Азербайджане**

**Резюме**

*В статье показаны особенности существующих цифровых разработок, которые меняют сектор страхования, а также анализируется, как страховые компании могут извлечь из них выгоду и какие факторы важны для того, чтобы стать цифровой страховой компанией будущего. Также изучено влияние процесса цифровизации экономики в Азербайджане на страховые компании. Прокомментировано использование страховщиками новых методов во*

*время кризиса Covid-19. Кроме того были отмечены соответствующие результаты и даны рекомендации.*

***Ключоые слова:*** *цифровая экосистема, конкуренция, "InsurTech", риск, страховой рынок*

**M.N.Gurbanova**
*мaster student, Azerbaijan State University of Economics*
*International Master's and Doctoral Center*

## Formatıon and development of dıgıtal ınsurance market ın Azerbaıjan

**Abstract**

*This article shows the features of existing digital-based development that are reshaping the insurance sector, as well as how insurance companies can benefit from them and what factors are important in becoming the digital insurer of the future. The impact of the process of digitalization of the economy in Azerbaijan on insurance companies was also studied. The use of new methods by insurers during the Covid-19 crisis has been commented on. In addition, relevant results and recommendations were noted*

***Keywords:*** *digital ecosystem, competition, "InsurTech", risk, insurance market*

**UOT: 336**

**Z.İ.Hacıyev**
***doktorant, AMEA İqtisadiyyat İnstitutu***

# DÖVLƏT XƏRCLƏRİNİN ÖZƏL İNVESTİSİYALARA TƏSİRİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ METODLARI

**Xülasə**

*Məqalənin məqsədi dövlət xərclərinin determinantlarına dair ədəbiyyatı təqdim etmək və qiymətləndirməkdir. Özgünlüyü metodoloji baxımdan qəbul edilməsindədir. Ekonometriklər iqtisadçılara dövlət xərclərinin universal sabitlərini kəşf etməyə imkan verirmi və ya bu dövlət maliyyəsi tarixini yazmağın başqa bir üsuludur?*

*Dövlət xərclərinin növü, infrastruktur xərcləri, istehlak və digər ümumi dövlət xərcləri olaraq təsnif edilir. 30 ölkədən alınan məlumatların panel təhlili göstərir ki, bəzi hallarda dövlət kapital xərcləri investisiyaya təkan verir, bəzilərində isə yatırır.*

***Açar sözlər:*** *dövlət xərcləri, investisiyalar, vergilər, panel təhlili*

## GİRİŞ

İqtisadi elmi tarixində dövlət xərclərinin iqtisadi mahiyyətinə yanaşmalar həmişə fərqli olub. Bu fərqlilik hazırda da davam edir. Dövlət xərcləri hər çeydən əvvəl iqtisadiyyata dövlətin müdaxiləsidir. Dövlət müxtəlif məqsədlərə müəyyən xərclər edərək, birbaşa və ya dolayısı ilə iqtisadiyyata müdaxilə edir. Belə xərclər əhalinin müəyyən təbəqəsinə sosial yardımlardan tutmuş hərbi qüvvələrin saxlanmasına qədər müxtəlif məqsədlərlə ola bilər. Dövlət səhiyyənin, təhsilin, mədəniyyətin və sair sahələrin inkişafına və ya hər hansı sektorda gəlir gətirə bilən sahibkarlıq subyektinin inkişafına investisiyalar yönəldirsə, bu da dolayısı ilə iqtisadiyyata müdaxilədir.

**Dövlət xərclərinin iqtisadi mahiyyəti**

Dövlətin öz xərclərini ödəmək məqsədilə vergilər müəyyən etməsi də dövlətin iqtisadiyyata müdaxiləsidir. Dövlət xərcləri formasında iqtisadiyyata müdaxilə daha çox sosial xarakterlidirsə və ölkə əhalisinin rifahı naminə edilirsə, ikinici formada müdaxilə daha çox biznes strukturlarına istiqamətlənib və biznes mühitinə təsir edir. Vergilərin azaldılması biznes mühitinin əlverişliliyini artırır, artırılması isə əksinə biznes mühitini əlverişliliyini məhdudlaşdırır. Dövlət xərclərinin azaldılması vergilərin də azaldılması deməkdir. Həmçinin dövlət xərclərinin artırılması vergilərin artırılmasını zəruri edir.

Beləliklə, dövlət xərcləri dövlətin iqtisadiyyata müdaxiləsi kimi iki qütblü xarakterə malikdir. Bir qütbdə ölkə əhalisinin rifah halının inkişafı, digər qütbdə isə biznes mühitinin əlverişliliyinin inkişafı dayanır. Nəzəri olaraq, dövlət öz xərclərini artıraraq, iqtisadiyyata daha çox müdaxilə edə bilər. O nəinki hərbi və daxili polis qüvvələrini artırmaqla hakimiyyətin zor gücünü mühkəmlədirməyə maraqlı ola bilər. Digər tərəfdən, əhali arasında öz nüfuzunu artırmaq üçün infrastruktur layihələrini genişləndirməyə, sosial təminat xərclərini artırmağa cəhd edə bilər. Lakin bu xərclərin ödənilməsi mənbəy kimi əksər ölkələrdə əsasən vergilərdir. Xərclərin artması vergiləri də artırdığından, praktiki olaraq, onu “istənilən qədər” artırmaq mümkün deyil. Çünki vergilərin artırılması ölkədə dəyər yaradan əsas qüvvəni-biznesi sıradan çıxara bilər. Ona görə də xərclər ilə gəlirlər arasında, daha doğrusu, vergilərin həcmi arasında müəyyən balansın tapılması və yaradılması mühüm elmi və praktiki əhəmiyyət daşıyan məsələdir.

Lakin dövlət xərclərinin mahiyyətində həm də milli gəlirin bölüşdürülməsi dayanır. Dövlər vergilər vasitəsilə və ya digər mənbələrdən, məsələn, dövlət sahibkarlığından əldə edilən mənfəət vasitəsilə

toplanan gəlirləri "ictimai məhsulların" istehsalı üçün, sosial və hərbi məqsədlər və sair məqsədlər üçün xərcləyərək, reallıqda milli gəlirin mühüm hissəsinin "hamı" arasında paylanmasına nail olur. Milli gəlirin dövlət xərcləri vasitəsilə bölüşdürülməsi fiskal siyasətin mühüm funksiyalarındandır.

Qlobal iqtisadi böhranlar və bir ölkənin digər ölkələrə nisbətə iqtisadi inkişaf səviyyəsindəki fərqlər bir daha təsdiq edir ki, dövlət xərclərinin mahiyyətini sadəcə gəlirlərin bölüşdürülməsi və ya hər hansı sosial proqramların həyata keçirilməsi ilə məhdudlaşdırmaq düzgün deyil. Dövlət xərclərinin idarə edilməsi ilə, başqa sözlə desək, dövlət xərcləri ilə iqtisadiyyata bu və ya digər dərəcədə müdaxilə etməklə, hakimiyyət iqtisadi inkişafa lazım olan sürəti verə bilər və ya onu məhdudlaşdırar. İqtisadiyyatın rəqabətliliyi, iqtisadiyyatın ayrı-ayrı sektorlarının inkişafı və bütövlükdə iqtisadiyyatın inkişafı fiskal siyasətlə xeyli bağlıdır. Lakin əksər hallarda dövlət xərcləri iqtisadi inkişafın "drayveri" kimi deyil, əksinə, yalnız onun inkişafından asılı olar amil kimi çıxış edir. Dövlət büdcəsinin "aktiv" rolu əksər hallarda "passiv" rolla əvəz olunur. Dövlət büdcəsi ölkənin sosial-qitisadi səviyyəsinə, dövlətin inzibati-ərazi quruluşuna, konkret iqtisadi və sosial situasiyaya uyğun olaraq tərtib edilir. İnkişaf etmiş ölkələrdə məqsədli büdcə təsnifatından istifadə edilir. Bu təsnifata uyğun olaraq, büdcənin bütün xərcləri bir neşə qrupa ayrılır: 1) iqtisadi; 2) sosial-mədəni tədbirlərin maliyyələşdirilməsi; 3)elmin maliyyələşdirilməsi; 4) dövlət hakimiyyəti orqanlarının və hüquq-mühafizə orqanlarının saxlanılması; 5) müdafiə xərclərinin ödənilməsi; 6) xarici iqtisadi fəaliyyət üzrə xərclərin ödənilməsi; 7) dövlət borcları üzrə zəruri xərclərin ödənilməsi; ehtiyat fondunun yaradılması. Bu xərclərin hər biri dövlətin həyata keçirdiyi funksiyaların maliyyələşdirilməsi ilə bağlı olsa da dolayısı ilə iqtisadiyyata müdaxilə xarakteri daşıyır və iqtisadi inkişafa təsir göstərir. Dövlət bu xərclərin həcmini tənzimləməklə, iqtisadiyyata müdaxilə səviyyəsini tənzimləmiş olur. Müdaxilənin elə optimal səviyyəsi müəyyən edilməlidir ki, belə xərclərin həcmi iqtisadi inkişafa müsbət təsir etmiş olsun. Bu zaman dövlət xərclərinin iqtisadi inkişafa təsir kanalları 1) məcmu tələbi dəyişmək yolu ilə; 2) biznes mühitinin əlverişlilik səviyyəsini idarə etməklə reallaşa bilər.

**Dövlət xərclərinin iqtisadi artıma təsirləri (ədəbiyyata baxış)**

Dövlət xərclərinin iqtisadi artıma təsirləri müxtəlif tədqiqatçılar tərəfindən öyrənilib. Iniguez-Montiel (2010) [1] Meksikanın timsalında 1950-1999-cu illəri əhatə edən dövr üçün dövlət xərcləri ilə milli gəlir arasındakı əlaqəni tədqiq etmişlər. Tədqiqatda metod olaraq, kointeqrasiya, error-korreksiya və Granger səbəbiyyət testindən istifadə edilib. Tədqiqat Meksika üçün Vaqner qanununu təsdiq edib. Magazzino (2012) [2] isə zaman sırası metodundan istifadə edərək, İtaliya üçün 1960-2008-ci illəri əhatə edən dövrdə dövlət xərcləri ilə milli gəlir arasındakı əlaqəni tədqiq edib. Bu tədqiqatda isə dövlət xərcləri ilə milli gəlir arasındakı əlaqənin xarakteri Vaqner qanunundan (milli gəlirin artması dövlət xərclərinin artmasına səbəb olur) daha çox Keyns yanaşmasına (dövlət xərclərinin artması milli gəlirin artmasına səbəb olur) uyğundur. Bu problem Nigeriya timsalında Chude və Chude (2013) [3] tərəfindən də tədqiq edilib. Onlar 1977-2012-ci illərarası dövrdə təhsil sektoruna dövlət xərclərinin iqtisadi artıma təsirini öyrəniblər. Bu tədqiqatda ECM-dən istifadə edilib. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, uzunmüddətli dövr üçün təhsil sektoruna dövlət xərclərinin artması iqtisadi artıma pozitiv təsir göstərir. Türkiyənin, Bolqariyanın və Rumuniyanın timsalında isə Altunç və Aydın (2013) [4] isbat edirlər ki, bu ölkələr üçün dövlət xərcləri ilə iqtisadi artım arasında optimal hədd var. Onlar ARDL modelindən istifadə edərək göstərirlər ki, Türkiyə üçün bu hədd 25%, Bolqariya üçün 22%, Rumuniya üçün isə 20% ətrafındadır. Dövlət xərcləri ilə iqtisadi artım arasındakı səbəb-nəticə əlaqələri 20 Asiya ölkələrinin timsalında Mahmoodi və Mahmoodi (2014) [5] tərəfindən tədqiq edilib. Onlar kointeqrasiya texnikasından istifadə ediblər. Tədqiqat 1970-2010-cu illərin məlumatlarını əhatə edib. Asimakopoulos və Karavias (2016) a 1980-2009-cu illəri və 129 ölkəni əhatə edən məlumatlar əsasında dövlət xərclərinin iqtisadi artıma təsirlərini panel analizi vasitəsilə öyrəniblər. D'Agostino və digərləri (2016)

isə GMM (generalized method of moments) metodundan istifadə edərək, tamamilə yeni bir problem-dövlət xərclərinin və korrupsiyanın iqtisadi artıma təsirlərini öyrəniblər. Onların tədqiqatı 1996-2010-cu illərə aid məlumatları əhatə edir. Bu tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, dövlətin investisiya xərcləri iqtisadi artıma pozitiv, hərbi xərclər isə neqativ təsir göstərir. Digər tərəfdən, korrupsiya halları da iqtisadi artıma mənfi təsir edir.

**Dövlət xərcləri üzrə ölkələrin sıralanması**

Dövlət xərclərinin iqtisadi artıma təsirləri ilə bağlı iqtisadi ədəbiyyatda universal nəticənin olmamasına baxmayaraq, dövlətin öz funksiyalarını yerinə yetirmək üçün xərclərinin müəyyən həddə olması vacibdir. Əks halda mühüm məsələlərin, müdafiə xərclərinin, təhsil və səhiyyə xərclərinin, ehtiyacı olan əhali qrupunun sosial müdafiə xərclərinin ödənilməsini təmin etmək mümkün olmaz. Bu sahələrdəki xərclər müəyyən qrup əhalinin tələbini artırmaqla yanaşı, həm də insan kapitalının inkişafını təmin edir. Təhsil və səhiyyə xərcləri insan kapitalının inkişafında əsas amillərdir. Əksər ölkələrdə, xüsusilə, inkişaf etmiş ölkələrdə təhsil, səhiyyə və sosial təminat infrastrukturları daha yüksək liberallıq səviyyəsinə malik olduğundan bu sektorların inkişafında dövlət maliyyəsi ilə yanaşı, həm də özəl maliyyə iştirak edir. Ona görə də dövlət xərclərinin çox və ya az olması heç də bu və ya digər ölkədə inkişaf səviyyəsini xarakterizə etmir. Başqa sözlə desək, dövlət xərclərinin həcminin çoxluğu və ya azlığı deyil, nə dərəcədə optimal səviyyəyə uyğun olması inkişafa təsir göstərir. Bunu 1-ci cədvəldən də görmək olar. Cədvəldə 2016-ci il üzrə adambaşına dövlət xərcləri ən yüksək olan ölkələr verilmişdir. Qeyd edək ki, 1.5.1-ci cədvəldəki rəqəmlər Dünya Bankının "*təhsilə dövlət xərclərinin ümumi dövlət xərclərində %-lə payı*" [6] və "*təhsil xərclərinin ÜDM-də %-lə payı*"[6], "*cari qiymətlərlə ÜDM* [7] "*əhalinin sayı*" [8] göstəriciləri əsasında hesablanmışdır. Əksər ölkələr üçün 2017 və 2018-ci illər üzrə məlumatlar olmadığından biz 2016-ci illərin məlumatlarından istifadə etmişik. Hətta bu sıralamada da bəzi ölkələr üzrə məlumatlar olmadığından cədvələ daxil edilməmişdir. Bu məlumatların verilməsində əsas məqsəd ondan ibarətdir ki, kəmiyyətcə bir daha isbat edilsin ki, a.b. dövlət xərclərinin mütləq qiymətinin çoxluğu ölkənin iqtisadi inkişafı ilə bağlıdır. Ölkənin milli gəlirləri yüksək olduqca, dövlət xərcləri də çoxalıq. Bu iqtisadi ədəbiyyatdan məlum olan Vaqner qanunu ilə də səsləşir. Bu qanuna əsasən, ölkənin milli gəlirinin artması ilə müqayisədə dövlət xərclərinin artma tempi daha yüksək olur (*Балацкий, 2010*) [9]. Lakin elə bu qanunun mahiyyətindən irəli gəlir ki, ölkənin milli gəliri nə qədər yüksək olarsa, bu ölkədə dövlət xərcləri də çox olur. Ölkənin adambaşına ÜDM həcminin artması adambaşına dövlət xərclərini də artırır. 1-ci cədvəldən də görünür ki, a.b.ÜDM üzrə göstəriciləri yüksək olan ölkələrin demək olar ki, hamısında a.b. dövlət xərcləri də yüksəkdir.

**Cədvəl 1**

**A.b.dövlət xərcləri üzrə ölkələrin sıralanması (2016)**

| | ***Ölkələr*** | ***Dövlət xərcləri*** | | | ***Ölkələr*** | ***Dövlət xərcləri*** | | | ***Ölkələr*** | ***Dövlət xərcləri*** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1** | Monaco | 35315.12 | | **11** | Germany | 18499.44 | | **21** | Slovenia | 8841.98 |
| **2** | Norway | 35187.47 | | **12** | Ireland | 17528.31 | | **22** | Hong Kong | 7944.06 |
| **3** | Iceland | 27358.82 | | **13** | Macao SAR | 16888.39 | | **23** | Aruba | 7311.92 |
| **4** | Switzerland | 26426.77 | | **14** | UK | 16290.65 | | **24** | Czech | 7289.82 |
| **5** | Sweden | 25338.97 | | **15** | New Zealand | 15331.87 | | **25** | Estonia | 7197.30 |
| **6** | Finland | 24478.73 | | **16** | Italy | 15170.83 | | **26** | Slovak | 6841.90 |
| **7** | Austria | 22717.09 | | **17** | Japan | 14750.24 | | **27** | Cyprus | 6728.70 |
| **8** | Belgium | 22304.25 | | **18** | Israel | 14125.45 | | **28** | Andorra | 6305.24 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **9** | Netherlands | 19685.12 | | **19** | Spain | 11186.33 | | **29** | Barbados | 6136.84 |
| **10** | Australia | 19129.18 | | **20** | Brunei | 10503.85 | | **30** | Hungary | 6079.14 |

***Qeyd: World Bank (2020) məlumatları əsasında müəllif tərəfindən hesablanaraq tərtib edilib***

**İqtisadi inkiaf səviyyəsinə görə ölkələrin dövlət xərcləri üzrə fərqlənməsi**

Gəlirlərinə görə ölkələr qrupunun 2016-2018-ci illər üzrə dövlət xərclərinin müqayisəsi də göstərir ki, yüksək gəlirli ölkələr qrupunda dövlət xərcləri digər qruplardan kəskin fərqlənir (Şəkil 1). Aşağı gəlirli ölkələrdə adambaşına dövlət xərcləri yüksək gəlirli ölkələrdən bəzi illərdə hətta on dəfə azdır. Şübhəsiz ki, belə fərqlərin olduğu halda az gəlirli ölkələrdə hökumət öz funksiyasını yüksək səviyyədə həyata keçirmək imkanına malik olmayacaq. Belə ölkələrdə təhsilə və səhiyyəyə ayrılan vəsait kifayət etmədiyindən insan kapitalının inkişafı da arzuedilən səviyyədə ola bilməz. Belə ölkələrdə təhsil və səhiyyənin normal fəaliyyəti üçün zəruri olan infrastrukturun yaradılmasını da gözləmək mümkün deyil. Dövlət xərclərinin iqtisadiyyata stimullaşdırıcı təsirini də nəzərə alsaq, aşağı, aşağı orta və orta gəlirli ölkələrdə dövlət xərclərinin stumullaşdırıcı təsiri də nəzərə şarpmayacaq dərəcədə az ola bilər.




**Şəkil 1. 2016-2018-ci illərdə dövlət xərclərinin gəlirlər üzrə dinamikası**

"*Adambaşına dövlət xərcləri*" göstəricisinin "*adambaşına illik iqtisadi artım*" göstəricisinə təsirlərini müəyyən etmək üçün biz balanslı panel analizindən istifadə edə bilərik. Balanslı panel analizinə 51 ölkə üzrə 2016, 2017 və 2018-ci illəri əhatə edən dövr üçün hər iki göstəricisi daxil ediləcək. Birinci halda "*Adambaşına dövlət xərcləri*" (PEXPPC) göstəricisinin "*adambaşına ÜDM həcmi" (GDPPC)* ilə əlaqəsi, ikinci halda isə "*adambaşına dövlət xərclərinin illik artımı ilə* " (PEXPGPC) göstəricisi ilə "*adambaşına illik iqtisadi artım" (GDPGPC)* göstəricisi arasındakı əlaqənin panel analizi aparılacaq. Birinci halda panel analiz 153 müşahidə əsasında, ikinci halda isə 102 müşahidə əsasında aparılacaq.

Həm "panel ən kişik kvadrat" (panel least squares) metodu, həm də "güclü ən kiçik kvardatlar" (robust least squares) metodu ilə hesablamalar göstərir ki, "adambaşına dövlət xərcləri" ilə "adambaşına ÜDM" arasında güclü reqresiya əlaqəsi var (cədvəl 2).

**Cədvəl 2**

**Bəzi ölkələr üzrə "*adambaşına dövlət xərcləri ilə* " (PEXPPC) göstəricisi ilə "*adambaşına ÜDM" (GDPPC)* göstəricisi arasındakı əlaqənin panel analizi**

| | Ölkələrin sayı | Müşahidələrin sayı | $R^2$ | Dəyişənlər | Əmsal | SE | t-(z) statistika | Probability |
|---|---|---|---|---|---|---|---|---|
| PLS (panel least squares) | 51 | 153 | 0.9547 | PEXPPC | 5.280557 | 0.093594 | 56.41978 | 0.0000 |
| | | | | C | -986.9888 | 175.3073 | -5.630050 | 0.0000 |
| RLS (robust least squares) | 51 | 153 | | PEXPPC | 3.269456 | 0.017608 | 185.6850 | 0.0000 |
| | | | | C | 253.7972 | 32.97998 | 7.695495 | 0.0000 |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır***

Anoloji hesablamaları 51 ölkə üçün "a*dambaşına dövlət xərclərinin illik artımı ilə* " (PEXPGPC) göstəricisi və "*adambaşına illik iqtisadi artım" (GDPGPC)* göstəricisi arasındakı əlaqə üçün apars, 3-cü cədvəldəki nəticəni alarıq. Cədvəldə bu iki göstərici arasındakı əlaqənin panel analizi verilib. Panel analizin nəticələrinə əsasən bu iki göstərici arasında əlaqə yoxdur. Yəni adambaşına dövlət xərclərinin illik artımı heç də adambaşına illik iqtisadi artımla xətti reqresiya əlaqəsində deyil.

**Cədvəl 3**

**Bəzi ölkələr üzrə "a*dambaşına dövlət xərclərinin illik artımı ilə* " (PEXPGPC) göstəricisi ilə "*adambaşına illik iqtisadi artım" (GDPGPC)* göstəricisi arasındakı əlaqənin panel analizi**

| | Ölkə-lərin sayı | Müşahidələr in sayı | $R^2$ | Dəyişən-lər | Əmsal | SE | T (z)-statisti-ka | Probabili-ty |
|---|---|---|---|---|---|---|---|---|
| PLS (panel least squares) | 51 | 102 | 0.034772 | PEXPGPC | 0.011649 | 0.006137 | 1.898018 | 0,0606 |
| | | | | C | 0.033684 | 0.018679 | 1.803357 | 0.0743 |
| RLS (robust least squares) | 51 | 102 | 0.004574 | PEXPGPC | 0.004508 | 0.005534 | 0.814532 | 0.415.3 |
| | | | | C | 0.045297 | 0.016844 | 2.689259 | 0.0072 |

***Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb***

Dövlət xərclərinin iqtisadi mahiyyəti ilə bağlı yuxarıda qeyd etdiyimiz "ikiqütblülük" xüsusiyyətini nəzərə alaraq, hər bir dövlət onun həcmini elə nizamlamağa çalışır ki, optimal həddə yaxın olsun. Lakin dövlət xərclərinin optimal həddini onun mütləq qiyməti ilə ifadə etmək bir qədər çətindir. Çünki 1.2.2-ci cədvəldən göründüyü kimi, ÜDM artdıqca dövlət xərcləri də artır. Ona görə də biz gələcəkdə digər bir göstəricinin - "dövlət xərclərinin ÜDM həcminə nisbəti" göstəricisindən istifadə edəcəyik. Çünki Vaqner qanununa uyğun olaraq, bu göstərici üçün optimal həddi ÜDM-in artımının davamlı olaraq, müsbət qiymətləri alması şərti əsasında hesablamaq olar. Dövlət xərcləri üçün optimal hədd həm də özəl investisiyalara müsbət təsir göstərən hədd olmalıdır.

Dövlət xərclərinin özəl investisiyalara təsiri məsələsi də iqtisadi ədəbiyyatda diskussiya predmeti olaraq qalır. Bəzi tədqiqatçılar dövlət xərclərinin artması ilə faiz dərəcələrinin də artırdığında özəl investisiyaları sıxışdırdığı qənaətinə gəlirlər. "Sıxışıdırıb çıxarma" effekti yaradır və iqtisadi artımı zəiflədir. Bu yanaşmanın əksinə çıxıanlar iddia edirlər ki, dövlət xərclərinin artması nəticəsində özəl yığım da artır və ona görə də dövlət xərclərinin artması özəl sektorun xərclərinə təsir göstərmir, yəni "Rikardo ekvivalentliyi" yaranır. İqtisadi ədəbiyyatda daha çox "Rikardo-Barro ekvivalentliyi" kimi tanınan bu hipotezə görə iqtisadi agentlər (bizim misalda, "özəl sektor") öz fəaliyyətində, xüsusilə, istehlakında dövlətin gələcək dövr üçün xərclərini nəzərə alır. İqtisadi agentin bu davranışına görə dövlət xərcləri məcmu təklifə təsir göstərmir. İqtisadi nəzəriyyədə dövlət xərclərinin xüsusi sektorda yığıma və xərclərə təsirinin belə ziddiyyətli yanaşma empirik tədqiqatlarda da öz əksini tapıb. Məsələn, Wang (2003) Kanada timsalında 1961-2000-ci illərarası dövrdə dövlət xərclərinin xüsusi sektorda investisiyalara təsirini empiric olaraq tədqiq edərək belə nəticəyə gəlir ki, dövlət xərcləri bütün hallarda özəl sektorda investisiyalara sıxışdırıcı təsir göstərmir. Əsas məsələ belə xərclərin iqtisadiyyatın hansı sektora yönəlməsindən daha çox asılıdır. Məsələn, əgər dövlət xərcləri təhsil, səhiyyə sektoruna xərclənirsə,onda onun özəl sektorda investisiyalara pozitiv təsiri olur. Bu halda dövlət xərcləri özəl

investisyaları təşfiq edir. Əgər belə xərclər infrastruktur layihələrinə, və ya borcların ödənilməsinə xərclənərsə, onda təsirlər mənfi olur. Bu halda sıxışdırıb çıxarma effekti baş verir. Wang(2003) tərəfindən yerinə yetirilən empirik tədqiqat göstərir ki, dövlət xərclərinin bəzi istiqamətlərə, məsələn, sosial xidmətlər sahəsinə yönəldilməsinin özəl sektorda investisiyaların həcminə elə ciddi təsiri müşahidə edilmir. Wang(2003) öz tədqiqatında xətaların korreksiyası modelindən (ECM) və kointeqrasiya modelindən istifadə edib.

İspaniya timsalında bu problem Pereira və Roca-Sagales (2001) tərəfindən empiric olaraq tədqiq edilib. Bu tədqiqatda dövlət xərclərinin məcmu iqtisadiyyata və onun ayrı-ayrı sektorlarında özəl investisiyalara təsiri tədqiq edilib. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, dövlət xərclərinin artması məcmu səviyyədə özəl sektorda kapital yığımını sürətləndirir və xüsusi sektorda istehsalı stimullaşdırır. Ayrı-ayrı konkret sektorlarda üzrə də dövlət xərcləri xüsusi sektorda kapital yığımını stimullaşdırır. Bu tədqiqat iddia edir ki, dövlət xərclərinin artması istehsal sahəsini daha çox əmək tutumlu, xidmət sektorunu isə daha çox kapitaltutumlu edir.

*Kim və Quoc ( 2018*) dövlət-özəl xərclərinin korporativ investisiyaya səbəb-nəticə mahiyyətli təsirini öyrənərək belə nəticə əldə ediblər ki, federal xərclərin artması özəl firmalarda investisiyaları, "tədqiqat və inkişaf" (R&D) xərclərini azaldır, məşğulluğa da mənfi təsir göstərir.

Çinin timsalında Dingyu Wu and Zhijue Zhang , (2009) dövlət xərclərinin özəl investisiyalara təsirini tədqiq ediblər. Tədqiqat 1978-2004-cü illəri əhatə edir. Onlarda əsas tədqiqat metodu kimi xətaların korreksiyası metodundan və kointeqrasiya metodundan istifadə ediblər. Tədqiqatın əsas nəticəsi bundan ibarətdir ki, qısamüddətli dövrdə dövlət xərcləri özəl sektorda investisiyalara "sıxışdırıb çıxarma" effekti ilə təsir göstərir. Lakin uzun müddətli dövr üçün bu təsirlər əksinə, stimullaşdırıcı xarakter daşıyır. İstehlak və transfer xarakterili dövlət xərclərinin də özəl investisiyalara təsiri "sıxışdırıb çıxarma" effekti yaradır. Lakin bu təsirlər zəifdir.

**Özəl investisiyaların İqtisadi inkişaf səviyyəsindən asılı olaraq dəyişməsi dinamikası**

Özəl investisiyalar şübhəsiz ki, hər şeydən əvvəl ölkənin iqtisadi inkişaf səviyyəsindən, ölkədəki biznes mühitinin əlverişliliyindən asılıdır. Özəl sektorun investisiyası deyəndə biz bu sektorda əsas fondların toplanması zamanı özəl sektorun bütün xərclərinin ödənilməsini nəzərdə tutacağıq. Dünya Bankının məlumatlar bazasında (World Bank, 2020) [7] bu göstərici "*gross fixed capital formation*" kimi ifadə edilib. Biz tədqiqatımızda həm bu göstəricidən, həm də onun illik artımını xarakterizə edən "*investisiya həcminin ÜDM-də payı*" (İSHGDP) və "*investisiya həcminin artımı*" (İG) göstəricisindən istifadə edəcəyik. Qeyd edək ki, "*investisiya həcminin ÜDM-də payı"* göstəricisi inkişaf etmiş ölkələr üçün inkişaf etməkdə olan ölkələrlə müqayisədə xeyli kiçikdir. Çünki bu ölkələrdə ÜDM həcmi çox yüksək olduğundan bu göstəricilərin nisbəti də kiçik olur. "*İnvestisiya həcminin ÜDM-də payı"* göstəricisində xüsusi investisiyaların həcmi ilə ÜDM arasında qarşılıqlı əlaqə olduğundan bu göstəricinin böyük və ya kiçik olması bizə ölkə iqtisadiyyatında özəl sektorun rolu haqqında ciddi məlumat vermir. Məsələn, Mavrutaniyada özəl investisiyanın həcminin ÜDM-də 38.42% Honk Konqda isə 16.76% olması o demək deyil ki, birincidə özəl sektorun fəaliyyəti daha yüksək səviyyədə təşkil edilib və ya biznes mühiti orada daha əlverişlidir.

**Cədvəl 4**

**A.b.özəl investisiya həcmi üzrə ölkələrin sıralanması (2018)**

| | **Ölkələr** | **Özəl investisiya ($)** | | | **Ölkələr** | **Özəl investisiya ($)** | | | **Ölkələr** | **Özəl investisiya ($)** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1** | Mauritania | 38.42 | | **11** | Philippines | 22.97 | | **21** | Guam | 20.10 |
| **2** | Bhutan | 35.68 | | **12** | Dominican | 22.94 | | **22** | Gabon | 19.90 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **3** | Guyana | 34.96 | **13** | Ethiopia | 22.18 | **23** | Mexico | 19.00 |
| **4** | Nepal | 26.08 | **14** | Uganda | 21.35 | **24** | Cameroon | 18.83 |
| **5** | Bahrain | 25.56 | **15** | Uzbekistan | 21.26 | **25** | Romania | 18.58 |
| **6** | Korea, Rep. | 25.49 | **16** | Haiti | 20.85 | **26** | Togo | 18.57 |
| **7** | Congo | 25.09 | **17** | Australia | 20.62 | **27** | N. Mariana | 18.52 |
| **8** | Niger | 24.24 | **18** | Honduras | 20.47 | **28** | Sudan | 17.83 |
| **9** | Bangladesh | 23.26 | **19** | Jamaica | 20.42 | **29** | Lebanon | 17.60 |
| **10** | Botswana | 23.11 | **20** | Benin | 20.28 | **30** | Guam | 20.10 |

***Qeyd: World Bank (2020) məlumatları əsasında müəllif tərəfindən hesablanaraq tərtib edilib***

Ona görə də özəl sektorun adambaşına investisiya həcminin müxtəlif gəlirli özlkələr qrupu arasında müqayisəsini aparanda əmin olmaq olar ki, inkişaf etmiş ölkələrdə özəl sektorun investisiya həcmi daha yüksəkdir.

### *İstifadə edilmiş ədəbiyyat:*


**1.** Alberto Iniguez-Montiel, (2010). Government expenditure and national income in Mexico: Keynes versus Wagner. *Applied Economics Letters,* 2010, vol. 17, issue 9, 887-893

**2.** Magazzino, C. (2012), "Wagner Versus Keynes: Public Spending and National Income in Italy", Journal of Policy Modeling, (34), 890-905.

**3.** Chude, N.P. & D.I. Chude (2013), "Impact of Government Expenditure on Economic Growth in Nigeria", International Journal of Business and Management Review, 1(4), 64-71.

**4.** Altunc, O.F. & C. Aydın (2013), "The Relationship between Optimal Size of Government and Economic Growth: Empirical Evidence from Turkey, Romania and Bulgaria", Procedia - Social and Behavioral Sciences, (92), 66-75

**5.** Mahmoodi, M. & E. Mahmoodi (2014), "Government Expenditure-GDP Nexus: Panel Causality Evidence", International Journal of Economy, Management and Social Sciences, 3(1), 37-42

**6.** https://data.worldbank.org/indicator/SE.XPD.TOTL.GB.ZS

**7.** https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.CD

**8.** https://data.worldbank.org/indicator/SP.POP.TOTL

**9.** Балацкий Е., (2010). Закон Вагнера, кривая Арми–Рана и парадокс богатства. *Общество и экономика*, № 9, стр.80-97



**З.И. Гаджиев**

*докторант, Институт Экономики НАНА*


## Влияние государственных расходов на частные инвестиции и методы оценки

**Резюме**


*Цель данной статьи - представить и оценить литературу по определяющим факторам государственных расходов. Его оригинальность заключается в принятии методологической точки зрения. Позволяет ли эконометрика экономистам открывать универсальные константы государственных расходов или это просто еще один способ описать историю государственных финансов?*

*Тип государственных расходов подразделяется на расходы на инфраструктуру, потребление и другие общие государственные расходы. Панельный анализ данных из 30 стран показывает, что в одних случаях государственные капитальные расходы стимулируют инвестиции, а в других - подавляют.*

***Ключевые слова:*** *государственные расходы, инвестиции, налоги, панельный анализ*

**Z.I.Hajiyev**
*PhD Student, Institute of Economics of ANAS*

**Impact of government spendıng on prıvate ınvestment and valuatıon methods**

**Abstract**

*The purpose of this article is to present and evaluate the literature on the determinants of government spending. Its originality lies in its acceptance of a methodological point of view. Does econometrics enable economists to discover universal constants of government spending, or is it just another way of writing the history of government finance?*

*The type of government spending is categorized into infrastructure spending, consumption and other general government spending. A panel analysis of data from 30 countries shows that in some cases public capital spending stimulates investment, while in others it suppresses it.*

***Keywords:*** *government spending, investments, taxes, panel analysis*

**UOT: 338; 339**

**S.O.Hacıyev**
***doktorant, "Azərbaycan" Universiteti***

# ŞAQULİ İNTEQRASİYA OLUNMUŞ ŞİRKƏTİN ƏSAS FƏRQLƏNDİRİCİ CƏHƏTLƏRİ: AZƏRSUN HOLDİNQİN TİMSALINDA

**Xülasə**

*Şaquli inteqrasiya nəzəriyyələri bazar əməliyyatları xərclərinə təsirli bir cavab olaraq möhkəm sərhədlər ortaya qoyur. Bu nəzəriyyələr əməliyyatların əsas xüsusiyyətləri ilə müşahidə olunan inteqrasiya qərarları arasındakı əlaqəni proqnozlaşdırır. Bu proqnozların yoxlanılmasında bir az irəliləyiş var, lakin əhəmiyyətinin kəmiyyətcə müəyyənləşdirilməsində daha az irəliləyiş var. Bir çətinlik ondan ibarətdir ki, empirik tətbiqetmələr tez-tez sənayenin quruluşu ilə yanaşı firmanın strukturunu da nəzərə almalıdır.*

***Açar sözlər:*** *şaquli inteqrasiya, aqrar sənaye, "Azersun" Holdinq*

## GİRİŞ

Hər bir müəssisə rəqabətli bazarda davam gətirmək və uğur qazanmaq üçün hər şeydən əvvəl xərclərini azaltmağa və istehsal etdiyi məhsulun keyfiyyətini yüksəltməyə yollar axtarır. Müəssisə özünün müqayisəli üstünlüyünü əldə etmək və ya saxlamaq üçün istehsal prosesinin müxtəlif mərhələlərini inteqrasiya etməyə çalışır. Çünki məhsul istehsalı üçün zəruri olan xammalın və ya aralıq məhsulların təchizatı digər firmalar tərəfindən təmin edilirsə onda müəssisənin xammal və ya aralıq məhsul təchizatçılarından müəyyən asılılığı yaranır. Digər tərəfdən, istehsal edilən hazır məhsulun bazara çıxarılması və satışı, bəzi hallarda isə satışdan sonra xidmət göstərilməsi kimi mərhələlər də mövcud ola bilər. Hətta ən rəqabətli bazarda belə mərhələlər arasındakı qarşılıqlı asılılığı tam şəkildə aradan qaldırmaq olmur. Ona görə də bu mərhələlərdə olan hər bir firma digər mərhələdə olan müəssisələri özünə inteqrasiya etməyə və bu mərhələdən asılılığını azaldaraq müqayisəli üstünlüyünü artırmağa çalışır. Belə inteqrasiya şaquli inteqrasiyadır.

***Şaquli inteqrasiya və onun mahiyyəti, üstünlükləri və çatışmazlıqları***

Müəssisələrin şaqulu inteqrasiya da müxtəlif istiqamətli ola bilər. Məsələn, istehsal fəaliyyətini yerinə yetirən müəssisə onu xammal və ya aralıq məhsullarla təchiz edən müəssisələrlə inteqrasiya edə bilər. Belə inteqrasiya istehsal mərhələsinə nəzərən "əks istiqamətli inteqrasiya" və ya "geriyə inteqrasiya" adlanır. Əgər istehsal mərhələsini yerinə yetirən müəssisə hazır məhsulların satışını və ya satışdan sonrakı xidmət mərhələləri ilə inteqrasiya olunarsa, onda belə inteqrasiya "düz istiqamətli inteqrasiya" və ya "irəliyə inteqrasiya" adlanır. Üçüncü variant da mümkündür. Yəni istehsal mərhələsində olan müəssisə həm özündən əvvəlki mərhələni, həm də özündən sonrakı mərhələni yerinə yetirən müəssisə ilə inteqrasiya edərsə, belə inteqrasiya balanslaşmış inteqrasiya adlanır. Şaquli inteqrasiyanın mahiyyətindən asılı olaraq belə fərqləndirilməsi əlbəttə nisbidir. Belə ki, eyni mərhələlərin inteqrasiyası istehsal mərhələsi ətrafında deyil, məsələn, aralıq məhsul təchizatçısı ətrafında olarsa, onda xammal təchizatçısının ona inteqrasiyası "geriyə inteqrasiya", istehsal mərhələsi isə "irəliyə inteqrasiya" hesab olunacaq. Ona görə də belə inteqrasiyada əsas məsələ hansı mərhələnin ətrafında inteqrasiyadan asılı oluir. Lakin praktikada vertikal inteqrasiya əsasən istehsal prosesi ətrafında baş verir.

Şirkətlərin vertikal inteqrasiyası belə inteqrasiya olunmayan şirkətlərə nisbətən əlavə müqayisəli üstünlüklər yaradır:

**1)** vertical inteqrasiya olunmuş şirkətlərə xammal və aralıq məhsullarla təchizatda problemlər olmur. Qeyd etdiyimiz kimi, istehsal mərhələsini yerinə yetirən müəssisə "geriyə inteqrasiya" edərək xammal və ya aralıq məhsullar istehsal edən müəssisəni özünə birləşdirmiş olur;

**2)** xammal və ya aralıq məhsulların təchizatşısı olan şirkəti bazar gücündən məhrum etməklə inteqrasiya edən istehsalçı şirkət ona xammala görə qiymət təzyiqindən azad olur. Beləliklə, o öz xərclərinin azaldılmasına nail olur;

**3)** bazarda xammal təchizatşı şirkətlərin qiymət təzyiqindən azad olan istehsalçı şirkət xərclərini azaldaraq istehsal həcmini əlavə olaraq artımaq imkanı qazanır. Bu isə "miqyas effeki" yaradaraq, əlavə gəlir gətirir. Digər tərəfdən, inteqrasiya olunan şirkətin və inteqrasiya edən şirkətlərin idarəedilməsi konsolidasiyası nəticəsində cəmi transaksiya xərcləri və cəmi idarəetmə xərcləri azalır. "miqyas effekti" xərclərin azalması nəticəsində daha çox məhsul istehsal edilməsini nəzərdə tutur. Qiymətlər azaldığından və istehsal həcmi artdığından məhsulun bir vahidinin qiyməti də azalmış olur. Bu, inteqrasiya olunmuş müəssisənin bazarda rəqabət qabiliyyətinin artmasına şərait yaradır;

**4)** vertical inteqrasiya şirkətlərə imkan verir ki, onlar bazardakı rəqibləri haqqında geniş məlumata malik olsunlar. Belə ki, pərakəndə satışla məşğul olan şirkətlər bazardakı məlumatları daha yaxşı bilirlər. Hansı növ məhsula daha çox tələb olduğunu onlar daha yaxşı bilirlər. Əgər şirkət vertical inteqrasiya olunaraq pərakəndə satış mağazalar şəbəkəsinə malik olarsa, onda onun bazardakı vəziyyətlə bağlı məlumatı geniş olacaq.

**5)** vertical inteqrasiya olunan şirkətlərin qiymət strategiyası daha çevik olur. İnteqrasiya nəticəsində istehsal olunan məhsulun maya dəyərinin azalması qiymətlərin zəruri olan hallarda aşağı salınmasına imkan verir. Bu hal da şirkətin bazarda rəqabətliliyini yüksəldir.

Lakin nəzərə almaq vacibdir ki, vertical inteqrasiya prosesində şirkətlər müəyyən risklərlə üzləşirlər. Məsələn,

**1)** Vertical inteqrasiya zamanı investisiya xərcləri artır. Belə ki, şirkət istehsal prosesini genişləndirmək üçün yeni-yeni avadanlıqlar almalı və yeni texnologiyadan istifadə etməli olur. Belə avadanlıqları işlək vəziyyətdə saxlamaq və səmərəli istifadə etmək üçün də davamlı olaraq xərc çəkmək lazım gəlir;

**2)** Vertikal inteqrasiya zamanı şirkətin çevikliyi bir qədər azalmış olur. Belə ki, vertical inteqrasiya edən şirkət ona inteqrasiya olunmuş seqmentlərin də bazarda rəqabətliliyini təmin etmək üçün çevik olmalıdır. Bu isə həmişə əlavə xərc tələb edir. Məsələn, əgər şirkətin əsas fəaliyyəti ərzaq mallarının topdansatışıdırsa, lakin o, makaron istehsal edən zavodu özünə inteqrasiya edibsə, bazarda rəqabətliliyini saxlamaq üçün, ən azı, digər makaron zavodlarının tətbiq etdiyi texnologiyadan istifadə etməlidir. Bu halda o, öz əsas fəaliyyətindən dərhal kənarlaşa və belə investisiya qoymağa çətinlik çəkə bilər. Həmçinin bütün seqmentlər üzrə rəqabətliliyi təmin etmək ciddi problemdir.

**3)** Vertikal inteqrasiya zamanı bütün seqmentlər üzrə yüksək bilik və bacarıqlı kadrların yerləşdirilməsi və yüksək səmərəli menecment yaratmaq çətin olur. Məsələn, istehsal üzrə səmərəli idarəetmənin yaradılması pərakəndə satış seqmentində işləməyə bilər. Bu zaman bir seqment üzrə keyfiyyətli idarəçi digər seqment üzrə yararlı olmaya da bilər. Bu halda inteqrasiya olunmuş şirkət bazarda bu seqmentə fokuslaşmış digər şirkətə uduza bilər. Ona görə də vertical inteqrasiya zamanı əsas şirkətə diqqətin azalması və əlavə seqmentlərə fokuslaşma yarana bilər. Bu isə inteqrasiya olunmuş şirkətin ümumi səmərəliliyini azalda bilər.

**4)** Vertikal inteqrasiya zamanı bazarda rəqiblərin azalması səbəbindən məhsulun keyfiyyətinə diqqət də azala bilər.

**5)** Vertikal interrasiya zamanı idarəetmədə bürokratiya halları arta bilər;

**6)** Vertikal inteqrasiya zamanı şirkətin monopolistə çevrilməsi təhlükəsi mövcuddur. Bu isə bəzi ölkələrin qanunlarına görə əlavə problemlər yarada bilər;

**7)** Vertical inteqrasiya olunmuş şirkətdə yeni ixtisaslaşmalar əvvəlki ixtisaslaşmalarla konflikt yarada bilər. Bu isə ümumi səmərəliliyə mənfi təsir edə bilər

Şirkətlərin birləşməsi və ya kiçik hissələrə bölünməsi və ya hər hansı bazarda eyni fəaliyyət istiqaməti olan və ya bir-biri üçün zəruri məhsul istehsal edən firmaların mövcudluğu rəqabətli bazar iqtisadiyyatına xas olan məsələlərdir. Lakin bazar iqtisadiyyatında bəzi məsələlər müəssisələrarası rəqabətdə müəyyən risklər yaradır. Məsələn, istehsal üçün zəruri olan xammalın və ya hər hansı aralıq məhsulun qiymətinin dəyişməsi hazır məhsul istehsal edən şirkətlərin fəaliyyətinə problemlər yarada bilər. Belə olan halda müəssisənin istehsal həcminin dəyişməsi onun xərclərinə ciddi təsir etdiyindən və ya

Şaquli inteqrasiyanın mahiyyəti və iqtisadi inkişafda rolu ilə bağlı iqtisadi ədəbiyyatda birmənalı yanaşma yoxdur. Hətta belə inteqrasiya prosesində inteqrasiya olunan cism, proses və ya hadisənin mahiyyəti ilə bağlı da yanaşmalar müxtəlifdir. Belə ki, "nə üzrə" inteqrasiya olunma sualına müxtəlif cavablar var. Məsələn, istehsal olunan mallar üzrə inteqrasiya, sahəvi inteqrasiya, institusional inteqrasiya, şəbəkə inteqrasiyası, təşkilati inteqrasiya və sair formalı inteqrasiyadan söhbət gedə bilər. İlk dəfə inteqrasiya problemlərini öyrənən Nobel mühafatı laureatı O.Uilyamson şaquli inteqrasiya deyəndə şirkətlərdə istehsal prosesinin bütün tsikllərinin,o cümlədən, xammalın əldə edilməsindən tutmuş hazır məhsulun istehsal edilməsinə qədər bütün tsikllərin birləşdirilməsini nəzərdə tuturdu [1].

Azərbaycanda vertikal inteqrasiya olunmuş şirkətlərdən biri Azərsun Holdinqdir. Lakin qeyd edək ki, bu şirkət xammal, aralıq mallar, istehsal, satış kimi mərhələləri həyata keçirən ayrı-ayrı şirkətlərin sonradan inteqrasiyası kimi formalaşmayıb. Bu şirkət istehsal və pərakəndə satış proseslərini əhatə edən şirkətlərin mərhələlərlə yaradılması nəticəsində formalaşıb. Azərsun Holdinq 1) müəyyən məhsulların emalı üçün xammalla təmin edən; 2) bu xammal əsasında emal prosesinə malik olan; 3) topdan satışı reallaşdıran; 4) pərakəndə satış üçün geniş mağazalar şəbəkəsinə malik olan vertikal inteqrasiya əsasında fəaliyyət göstərən şirkətdir. Qeyd edək ki, Azərsun Holdinq iki bir-birindən fərqli sahələr üzrə vertikal inteqrasiya olunmuş şirkət hesab edilə bilər. Birinci sahə ərzaq məhsulları istehsalı və satışı, ikinci sahə isə qeyri-ərzaq məhsullarının istehsalı və satışıdır. Birinci sahə üzrə şirkətin fəaliyyət sxemini sadə formada şəkil 1-dəki kimi təsvir edə bilərik.




**Şəkil 1. Azərsun Holdinqin ərzaq məhsulları üzrə inteqrasiya sxemi (müəllif tərəfindən tərtib edilib)**

Azərsun şirkəti Azərbaycanda qida məhsulları istehsal edən, ölkədaxilində satan və ixrac edən ən böyük şirkətdir və 1991-ci ildən Azərbaycanda fəaliyyət göstərir. Fəaliyyətdə olduğu dövr ərzində Azərbaycanda aqrar sənayenin inkişafına mühüm töhfələr vermişdir. Şirkətlər Qrupu tərəfindən istehsal edilən yüksək keyfiyyətli çay, yağ, şəkər, duz, konserv, süd, sous və şokolad məhsulları ölkədaxili tələbatı qarşılamaqla bərabər xarici bazarlarda da yüksək qiymətləndirilir. "Azərsun Holdinq" fəaliyyəti dövründə onlarla istehsal müəssisəsinin istismara verilməsini və minlərlə insanın məşğulluğunun təmin edilməsini həyata keçirir. Şirkətlər Qrupu "Azerçay", "Bizim Tarla", "Final", "Bizim Süfrə", "Zeytun bağları" və digər yüksək keyfiyyətli markalar yaradaraq yerli məhsulların dünya bazarlarında da rəqabətə davamlı olmasını təmin edir. İstehsal fəlsəfəsi "tarladan süfrəyə" olan "Azərsun" məhsullarının keyfiyyətinə nəzarət bütün mərhələlərdə ən yüksək səviyyədə təmin edilir. "Azərsun Holdinq" - ildən ilə fəaliyyət sahələrini artıraraq, qida istehsalı, kənd təsərrüfatı, qablaşdırma və kağız sahələrinə aid 30-dən artıq müəssisəni istifadəyə verərək, qida sənayesi sektorunda ölkənin aparıcı şirkətlərini birləşdirən böyük bir şirkətlər qrupudur.

Açıq sahələrdə inkişaf etdirilən ənənəvi kənd təsərrüfatı kompleksindən başqa, şirkətlər qrupunun tərkibində ən son texnologiyalar əsasında qurulmuş istixana kompleksi də fəaliyyət göstərir. 300 min m$^2$ ərazidə inşa olunan istixanada, əsasən pomidor olmaqla, badımcan, bibər və digər tərəvəzlər yetişdirilir. İstehsal prosesi toxumatmadan başlayaraq son mərhələ - istehlakçıya çatdırılmaya qədər tam gigiyenik şəraitdə, avtomatlaşdırılmış şəkildə, təbii şərtlərə uyğun olaraq həyata keçirilir. Əminliklə demək olar ki, burada tətbiq olunan bioloji mübarizə üsulları təbii yolla – arılar vasitəsilə həyata keçirilən tozlanma nəticəsində yetişdirilən məhsullar tam təbii və sağlamdır. Müəssisənin illik istehsal potensialı 12 min ton təşkil edir.

1991-ci ildə Sovet İttifaqının süqutu və Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra ölkə iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında formalaşmağa başladı.

İqtisadiyyatın mərkəzdən planlandığı sistemdən miras qalan köhnə texnologiyalar, fabrik və zavodlar sərbəst bazar iqtisadiyyatının şərtləri ilə ayaqlaşa bilmədi. Meydana çıxan problemlərdən sonra onlardan bir çoxu fəaliyyətini dayandırdı, geri qalanı isə istehsal gücünü azaldaraq işləməyə davam etdi. İş yerlərinin bağlanması nəticəsində isə işsizlərdən ibarət böyük bir ordu yarandı. Artıq 1993-cü ildə Azərbaycanda qida sənayesi sahəsində fəaliyyət göstərən müəssisə qalmamışdı. Ölkə rəhbərliyi bu dövrlərdə çıxardığı qərarlarla müəssisələrin özəlləşdirilməsi üçün işlər görməyə başladı. 1991-92-ci illərdən başlayaraq Azərbaycana gələn xarici iş adamları bu prosesdə aktiv rol almağa başladılar. Belə iş adamları arasında "Azərsun Holdinq" şirkətlər qrupunun qurucusu Abdolbari Gözəl da vardı. O, gəlişi ilə İntersun Şirkətlər Qrupunun Azərbaycandakı təmsilçiliyini yaratdı. İlkin mərhələdə ölkəni əsas qida məhsulları ilə təmin edərək bazardakı ərzaq çatışmazlığını aradan qaldırdı.

"Azərsun Holdinq" 1994-cü ildə, ilk dəfə olaraq, birbaşa xarici sərmayə ilə Bakıda fəaliyyətini dayandırmış çay fabriki və yağ zavodunu özəlləşdirdi, müasir avadanlıqlarla təchiz etdi, bununla da müstəqil Azərbaycanın ilk istehsal müəssisələrini istifadəyə verdi. Növbəti illərdə Azərbaycanın müxtəlif bölgələrində (Xaçmaz, Biləsuvar, Lənkəran, Qazax) 4 konserv zavodunu istismara verməklə minlərlə fermerin öz məhsulunu sataraq gəlir əldə etməsinə şərait yaratdı. 2006-cı ildə 110 hektar ərazini əhatə edən və regionun ən böyük İmişli Şəkər Zavodu istismara verildi ki, bu müəssisənin fəaliyyəti İmişli rayonu ilə bərabər Azərbaycanın digər bölgələrinin də inkişafına müsbət təsir göstərdi. Həmin il "Azərsun Holdinq" tərəfindən Biləsuvar rayonunda 4500 hektarlıq əkinə yararsız şoran ərazidə rekultivasiya işləri aparılmış, drenaj kanalları çəkilmiş, müasir kənd təsərrüfatı avadanlıqları, suvarma sistemi və aqrotexniki avadanlıqlarla təchiz olundu.

2010-cu ildə "Azərsun Holdinq" tərəfindən UNICEF və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin duzun yodlaşdırılması yolu ilə yod çatışmazlığı xəstəliklərinin ləğv olunmasına dair

proqramına uyğun olaraq Masazır Duz Zavodunu istismara verdi. Qısa müddət ərzində bu müəssisənin fəaliyyəti nəticəsində ölkəmiz duz idxal edən ölkədən ixracatçıya çevrildi. 2010-cu ildə holdinq tərəfindən Azərbaycanın ilk müasir alış-veriş mərkəzi olan, 48.000 m2 sahəni əhatə edən Park Bulvar ticarət mərkəzi istifadəyə verildi. Növbəti il isə şirkətlər qrupu Azərbaycanın pərakəndə satış bazarına yeni nəfəs gətirən və gündəlik 50 mindən artıq insana xidmət göstərən "Bazarstore" super marketlər şəbəkəsini yaratdı. İqtisadiyyatın müxtəlif sahələrinə sərmayə edərək minlərlə insanın işlə təmin olunmasına müvəffəq olan "Azərsun" 2013-cü ildə Kürdəmir Süd Emalı Zavodunu istismara verdi.

Ətraf mühitin mühafizəsinə də prioritet kimi yanaşan "Azərsun Holdinq" 2014-cü ildə Sumqayıt şəhəri yaxınlığında yerləşən Azərsun Sənaye Parkının inşasını yekunlaşdırdı. Bu kompleksdə Sumqayıt Yağ Fabriki və Azərbaycan Kağız və Karton İstehsalat Kombinatı nəzdində Kağızın Təkrar Emalı müəssisəsi fəaliyyətə başladı. İstehsal fəlsəfəsi "tarladan süfrəyə" olan "Azərsun" məhsullarının qablaşdırmalarının hazırlanması da şirkətlər qrupunun Xırdalan Karton Fabriki və Metal Qablaşdırma müəssisələri tərəfindən həyata keçirilir. "Azərsun Holdinq" ildən ilə fəaliyyət sahələrini artıraraq qida istehsalı, kənd təsərrüfatı, qablaşdırma və kağız sahələrinə aid 30-dan artıq müəssisəni istifadəyə verib, bu gün qida sənayesi sektorunda ölkənin aparıcı şirkətlərini birləşdirən böyük bir holdinqə çevrildi. Şirkətlər qrupunun müəssisələri tərəfindən istehsal olunan məhsullar Azərbaycanın qida və ərzaq təhlükəsizliyini tam təmin etməklə bərabər xarici bazarlarda da satışa çıxarılır ki, bunun da nəticəsi olaraq ölkəmizin ixrac potensialına mühüm töhfə verilmiş olur.

Azərsun şirkətinin məqsədi müəyyən etdiyi çərçivələr daxilində insan sağlamlığını və ümumilikdə, keyfiyyət idarəçiliyini əsas götürərək fəaliyyət göstərməkdir. Şirkətin missiyası fərqli fikirlərə dəyər verməsi ilə tanınan, ədalətli iş yeri olmaqla bərabər, müştərilərin gözləntilərinin üstündə yüksək səviyyədə məhsul istehsal etmək və xidmət göstərməkdir.

Azərsun şirkətinin Azərbaycanda pərakəndə satışla məşğul olan digər şirkətlərdən əsas fərqi və üstünlüyü onun şaquli inteqrasiyadan yararlanmasıdır. Belə ki, pərakəndə satışa daxil olan malların mühüm hissəsi, xüsusilə, emal olunan mallar yerli xammaldan istifadə əsasında istehsal olunur. Ərzaq mallarının istehsalı üçün xammal rolunu oynayan təsərrüfat qurulub. Qida istehsalında tarladan süfrəyədək bütün prosesi əhatə edən "Azərsun Holdinq" iri kənd təsərrüfatı kompleksinə sahibdir. Şirkət tərəfindən 10 min hektardan çox ərazidə əkinlər həyata keçirilməkdədir. Şirkətin iri layihələrindən biri də Biləsuvar rayonunda həyata keçirilmişdir. Burada 3400 ha əkinə yararsız ərazidə rekultivasiya işləri aparılmış, drenaj kanalları çəkilmiş, müasir damcılama və yağmurlama üsullu suvarma sistemləri tətbiq olunmuşdur. Burada Global GAP sertifikatı əsasında soya, pomidor, arpa, buğda, yaşıl noxud, qarğıdalı, günəbaxan, xiyar, badımcan, bibər, patisson və digər tərəvəzlərin əkini həyata keçirilir. Tarlalarda tərəvəz və bostan bitkilərinin əkini də həyata keçirilir. Ərazidə 400 mindən artıq nar ağacı əkilmişdir. Burada qurulmuş orqanik gübrə istehsal müəssisəsi torpaqların münbitliyinin artırılmasına xüsusi töhfə verməkdədir. Becərilən meyvə və tərəvəzlər kompleksin ərazisində yerləşən konserv zavodunda emal olunur. Həmçinin kənd təsərrüfatı kompleksi nəzdində Zaqatalada yerləşən illik emal gücü 5 min ton olan fındıq zavodu da fəaliyyət göstərir.

İdxal olunan bəzi ərzaq malları isə "aralıq məhsul" kimi Azərsun şirkətində ya qablaşdırılır, ya da müəyyən emal prosesini keçir. Bu halda da şirkət 2-3 seqmenti – məsələn, idxal fəaliyyətini, qablaşdırma və ya emal fəaliyyətini, pərakəndə satış mərhələlərini şaquli istiqamətdə birləşdirmiş olur. Belə mallara yağ qrupu üzrə, çay qrupu üzrə mallar daxildir. Azərsun şirkətinin müxtəlif mal qrupları üzrə yaratdığı şaquli inteqrasiya sxemini təxmini olaraq 2 şəkildəki kimi təsvir etmək olar.




**Şəkil 2. Azərsun Holdinqin idxal fəaliyyəti, istehsal müəssisələri və satış şəbəkəsi üzrə şaquli inteqrasiyası**

"Azərsun Holdinq"in Azərbaycandakı ikinci investisiya layihəsi olan və 1996-cı ildən fəaliyyətə başlayan Bakı və Sumqayıt yağ fabrikləri böyük istehsal potensialına malik olan müəssisələrdir. Müasir deodorizə və ventirizə sistemləri ilə təchiz olunmuş fabriklər ətraf mühitə tam zərərsiz şəkildə çalışaraq, "əl dəyməyən" texnologiya ilə fəaliyyət göstərir.

Müəssisələrdə yüksək keyfiyyətli günəbaxan və qarğıdalı duru yağları, paketləşdirilmiş bitki yağı, əridilmiş GHEE yağları, eyni zamanda qənnadı, şirniyyat fabrikləri üçün sənaye yağları istehsal olunur. İllik istehsal gücü 270 000 ton olan müəssisələr Azərbaycanın tam tələbatını qarşılayır və böyük ixrac imkanına malikdir. "Azərsun Holdinq" eyni zamanda dünyaca məşhur fast-food şəbəkəsinin yağ tərəfdaşı və tədarükçüsüdür.

2002-ci ildən Zeytun emalı müəssisəsini yaradan şirkətlər qrupu Abşeron yarımadasının ənənəvi bitkisi olan zeytundan yüksək keyfiyyətli açıq yaşıl və qızılı rəngli, zərif və xoş ətirli yağ istehsalına başlamışdır. Bununla da Abşeron yarımadasında zeytunçuluq ilə məşğul olan təsərrüfatların inkişafına şərait yaratmışdır. Müəssisənin illik istehsal gücü 3 000 tondur.Şirkətlər qrupu, eyni zamanda Azərbaycanın təbii sərvəti olan Azərbaycan zeytununun qoruyucusuna, himayəçisinə çevrilərək davamlı olaraq, Bakı və Abşeron yarımadasında zeytun ağacları əkir, bu işi təbliğ və təşviq edir.

Şirkətlər qrupunun nəzdində fəaliyyət göstərən yağ fabrikində, eyni zamanda müxtəlif markalar ilə kərə yağı da istehsal edilir. Yeni Zelandiyadan gətirilmiş yüksək keyfiyyətli kərə yağları zavodda müxtəlif qramajlarda paketlənərək istehsal olunur. Kərə yağı istehlakçılara, xörək bişirmədə əvəzsiz olan əridilmiş şəkildə də təqdim olunur. Bundan başqa, son zamanlarda Azərbaycan istehlakçısının kərə və bitki yağlarının qarışığı olan spred yağlarına artan tələbatını nəzərə alaraq yağ zavodunda müxtəlif çeşidli spred yağları da istehsal olunur.

"Azərsun Holdinq"in Azərbaycandakı ilk investisiya layihəsi olaraq 1994-cü ildə Bakıda fəaliyyətə başlamış "Sun Tea" çay fabriki bu gün məşhur çay markalarının istehsalçısıdır. Müəssisə illik ortalama 15 000 ton istehsal gücünə malik, qara çay, yaşıl çay, meyvəli çayların istehsalı ilə məşğuldur. Şirkətlər qrupunun Azərbaycanın cənubunda Lənkəran və Astarada paketləmə müəssisələri də fəaliyyət göstərir. Azərbaycanın ən seçilmiş keyfiyyətli çay yarpaqlarını emal edərək "Azerçay" markası ilə

dünya bazarına təqdim edən müəssisə Azərbaycan çayının şöhrətini bütün dünyaya yayır. Şirkətlər qrupunun Şri-Lankadakı "İnter Tea" müəssisəsi broker olaraq birjalarda ən keyfiyyətli Seylon çaylarını tədarük edir. "Azərsun Holdinq" eyni zamanda dünyaca məşhur Hindistan, Vyetnam və Keniya çaylarını birbaşa çay istehsalçılarından satın alaraq, emal müəssisələrinin xammal ehtiyacını təmin edir.

"Azərsun Holdinq" Azərbaycanın müxtəlif bölgələrdə ümumilikdə illik istehsal gücü 300 mln şərti banka vahidi olan 4 konserv emal zavoduna sahibdir. Şirkətlər qrupunun ilk konserv zavodu – Qafqaz Konserv Zavodu Azərbaycanın şimal hissəsində Xaçmaz şəhərində 2003-cü ildən fəaliyyətə başlamışdır. Zavodun illik istehsal gücü 30 000 tondur. Burada ət və müxtəlif hazır yemək konservləri, mürəbbə, cem və pürelər, kompot, turşu və tomat pastası istehsal edilir.

Azərsun Kənd Təsərrüfatı kompleksinin ərazisində ətrafı əkin tarlaları ilə əhatə olunan Biləsuvar Konserv Zavodu 2010-cu ildə fəaliyyətə başlamışdır. Burada becərilən müxtəlif kənd təsərrüfatı məhsulları toplanaraq, heç bir yol qət etmədən və zaman itirmədən təzə-tər şəkildə birbaşa emala göndərilir. Zavodda yaşıl noxud, patisson, kornişon, pomidor konservləri, ketçup, eyni zamanda nar şirəsi və narşərab istehsal olunur. Müəssisənin illik istehsal gücü 50 000 tondur. Zavodun xammalı 100% şirkətlər qrupunun tərkibində fəaliyyət göstərən kənd təsərrüfatı kompleksi tərəfindən təmin olunur.

Azərbaycanın cənub bölgəsində yerləşən, subtropik iqlimi və zəngin bitkiçilik-meyvəçilik çeşidləri ilə tanınan Lənkəran şəhərində fəaliyyət göstərən Lənkəran Konserv Zavodu, bölgə fermerlərindən tədarük edilən meyvə və tərəvəzlərin emalı, xüsusilə közlənmiş tərəvəz konservləri, kompot və turşu istehsalı üzrə ixtisaslaşıb. Zavodun illik istehsal gücü 12 000 tondur.

2012-ci ildən fəaliyyətə başlayan Qazax Konserv Zavodu isə qənnadı-şirniyyat sektorunda geniş istifadə edilən, qış mövsümündə də təzəliyini və vitaminlərini qoruyub saxlayan dondurulmuş meyvə və giləmeyvə istehsalı ilə məşğul olur. Zavodda, eyni zamanda fast food şəbəkələri üçün kartof yarımməmulatı da istehsal olunur. Müəssisənin illik istehsal gücü 8 000 ton təşkil edir. Konserv zavodlarının xammalı şirkətlər qrupunun kənd təsərrüfatı kompleksindən və regiondakı 3000-dən artıq fermerdən məhsul qəbulu hesabına təmin olunur.

Abşeron yarımadasında yerləşən Masazır Duz Zavodu 2010-ci ildə istifadəyə verilmişdir. Xammalı Masazır və ətraf göllərdən təmin olunan zavod, ən son texnoloji avadanlıqlarla təchiz olunmaqla, ölkə və regionu yodlaşdırılmış duz ilə tam təmin etmək imkanına malikdir. Müəssisənin illik istehsal gücü 90 000 tondur. Masazır Duz Zavodu yüksək keyfiyyətli yodlaşdırılmış süfrə və xörək duzları ilə yanaşı, tutma və marinadlarda istifadə olunması üçün turşu duzu, heyvandarlıqda istifadə olunması üçün yalama duzları, sənayedə istifadə olunması üçün tablet duz, filtr sistemləri üçün duzlar istehsal edir.

2006-cı ildə yaradılmış Azərbaycan Şəkər İstehsalat Birliyinin fəaliyyəti ilə yaranan Azərşəkər markamız ölkədə hamının sevə sevə istehlak etdiyi şəkər tozu məhsullarımızı öz alıcılarına tanıtdırdı. 2011-ci ildən etibarən isə İmişli Kəllə Qənd Zavodunda istehsal olunan "Azərşəkər" qənd məhsulları daxili tələbatı ödəməklə yanaşı, həm də Rusiya, Gürcüstan, Yaxın Şərq və Orta Asiya ölkələrinə də ixrac olunmağa başladı. Ümumiyyətlə şəkər tozunun keyfiyyəti kristalların quruluşuna, xarici görünüşünə, rənginə, dadına, iyinə, həll olmasına və kənar əlavələrin olub-olmamasına görə müəyyən edilir. "Azərşəkər" məhsulları mükəmməl dadı, unudulmaz şirinliyi, bəyaz rəngi, xoş görünüşü və forması ilə qənd sevən insanların tələbatını yüksək səviyyədə ödəməyə qadirdir.

Sözü gedən Fabrikdə istehsal prosesi müasir, gigiyenik və sanitar şərtlərə riayət edilərək tam avtomatlaşdırılmış şəkildə aparılır. Hazırda Fabrikdə iki növ qənd: Kəllə və Parça qənd istehsal olunur. Yüksək keyfiyyətli şəkər tozu Kəllə Qənd Fabrikinin müvafiq əritmə qazanlarında əridilərək xüsusi filtirlərdən keçirilir, arıtlanır və bundan sonra əmələ gələn şəkər şərbəti Vakuum bişirim aparatına daxil

edilərək 75-85 C0 temperaturda tam qapalı sistemdə bişirilir. Daha sonra bişmiş və qatılaşdırılmış şərbət qəliblərə doldurulur və burada bərkimə prosesi həyata keçirilir. Növbəti mərhələdə bu qəliblər dəqiqədə 550-600 dəfə fırlanma sürəti ilə fırlanan sentrafuqalara yerləşdirilir və bu fırlanma nəticəsində Azərşəkər Kəllə Qəndin bəyazlığı maksimum səviyyədə təmin olunur (bu proses mərkəzdən qaçma qüvvəsinə əsaslanır). Daha sonra bütöv (konusvari) şəkildə istehsal edilmiş kəllə qənd məhsulu qurutmaya verilərək doğrama qurğuları vasitəsilə doğranılır və qablaşdırılır. Bütöv bu proses boyunca heç bir kimyəvi qatqılardan istifadə edilmir və bütün proseslər qapalı formada tam avtomatlaşdırılmış rejimdə aparılır.

Parça qəndin istehsalı nisbətən daha sadə yolla həyata keçirilir, belə ki, qəndin xammalını təşkil edən bəyaz şəkər tozu xüsusi qəlibli press maşınına ötürülür. Bu qarışıma müəyyən miqdarda su əlavə edildikdən sonra qəliblərə tökülür. Yüksək pressləmə texnologiyası ilə sıxılan və standart formaya salınan qənd məhsulu qurutma sobalarına qoyulur. Sobada qurudulmuş qənd soyutma sistemlərinə ötürülür. Son mərhələdə qənd qutulara yığılır.

Hər iki məhsulunun yığılma prosesində qutular kodlanır, üzərinə istehsal tarixi və saatı, saxlama şəraiti və müddəti qeyd olunur. Azərşəkər qənd məhsullarının çesidlərində istehlakçılar üçün rahat istifadəli və qidaya uyğun qablaşdırmalar xüsusi olaraq nəzərə alınmışdır. Bundan əlavə, Azərşəkər öz istehlakçılarının rahatlığına və sağlamlığına dəyər verərək yeni Stick Şəkər məhsullarını münasib formada qablaşdırıb onlara təqdim edir. Bu yeni məhsullarda şəkər tozu bərabər çəkilərdə və xüsusi şəkildə qablaşdırılmış və istehlakçıların istifadəsi üçün tam hazır vəziyyətə gətirilmişdir.

Həmçinin bu kateqoriyada yeni bir məhsul – Qəhvəyi Şəkər Tozu məhsulu da istehlakçılara təqdim olunur. Özünəməxsus gözəl qoxusu, tamı və xüsusi təbii şəkər ləzzətini özündə əks etdirən Azərşəkər qəhvəyi stick şəkər tozu çay və qəhvə ilə birgə istifadə edilməsi üçün mükəmməldir.

Azərşəkər Stick Şəkər məhsullarını istifadə etməklə istehlakçılar həm rahatlığa qovuşacaq, həm də sağlamlıq baxımından istifadə etdikləri şəkərin miqdarına daha yaxşı nəzarət edə biləcəklər.

İstehsala başladığı gündən etibarən Azərşəkər istehlakçıların məmnuniyyətini, yenilikləri və keyfiyyət siyasətini ön planda tutur. Məhz bu səbəbdən, “Azərşəkər” kəllə qənd məhsulları öz keyfiyyəti və dadı ilə rəqiblərindən seçilir.

Zavodda pasterizə olunmuş günlük süd, UHT-tetrapak süd, ayran, kəsmik, qatıq, meyvəli yoqurt, qatılaşdırılmış süd, pendir çeşidləri istehsal olunur. Kürdəmirdə fəaliyyət göstərən süd kompleksi gündə 120 ton süd emal gücünə malik GEA və UHT texnologiyaları ilə təchiz olunmuşdur. Süd kompleksi Almaniya və Fransadan gətirilmiş yüksək məhsuldarlıqlı cins mal-qara bəslənilən heyvandarlıq fermasından və mal-qaranın yem tələbatını təmin edən (Kürdəmirdə 1300 ha, Ağsuda 5000 ha) əkin ərazilərindən ibarətdir. Zavodda pasterizə olunmuş günlük süd, UHT-tetrapak süd, ayran, kəsmik, qatıq, meyvəli yoqurt, qatılaşdırılmış süd, pendir çeşidləri istehsal olunur. Zavodun xammal tələbatı, eyni zamanda əhalidən toplanan süd hesabına qarşılanır. Əkin ərazilərində ekoloji təmiz qaydalarla orqanik yonca və digər yem bitkiləri becərilir.

Müxtəlif salatların, ət yeməklərinin və qarnirlərin əvəzsiz komponenti olan, uşaq və böyüklərin sevimli sousları olan ketçup və mayonez “doypack” və digər müxtəlif qablaşdırmalarda şirkətlər qrupunun müəssisələrində istehsal olunur. Azərbaycanın təməl qida istehsalçısı olan “Azərsun Holdinq” 2009-cu ildən etibarən sous bazarına daxil oldu. Müxtəlif salatların, ət yeməklərinin və qarnirlərin əvəzsiz komponenti olan, uşaq və böyüklərin sevimli sousları olan ketçup və mayonez “doypack” və digər müxtəlif qablaşdırmalarda şirkətlər qrupunun müəssisələrində istehsal olunur. Mayonezin əsas xammal mənbəyi şirkətlər qrupunun istehsalı olan yağlardır. Ketçup məhsulunda isə tarlalarımızda təbii yetişdirilən pomidorlardır. Azərbaycanın günəşli iqlimi burada yetişdirilən pomidor məhsulunun tərkib göstəricilərinə mühüm təsir göstərir. Belə ki, ən mühüm likopen qaynağı pomidor və pomidor

məhsullarıdır. 100% təbii Azərbaycan pomidorlarından əldə olunan ketçupların dadı və keyfiyyəti də məhz bu baxımdan fərqlidir.

Şokolad sahəsinə, şirkətlər qrupu ilk olaraq şokoladlı fındıqlı krem ilə daxil olub. Səhər yeməyi, eyni zamanda tort və digər şirniyyatların bişirilməsi üçün istifadə olunan şokoladlı fındıqlı krem, uşaq orqanizmi üçün çox xeyirli, sümüklərin böyüməsinə, inkişaf etməsinə şərait yaradan, sümük quruluşunu gücləndirən, protein və kalsium mənbəyidir. Növbəti addım olaraq "Azərsun Holdinq" şokolad fabriki inşa etməklə sənaye şokoladı istehsalına start verdi. Əsas məqsəd isə Azərbaycanda fəaliyyət göstərən və yerli şokolad istehsal edən şirkətləri yüksək keyfiyyətli xammal ilə təmin etməkdir. Bununla bərabər, zavodda günəbaxan halvası, müxtəlif lokum, marmelad və digər məhsullar istehsal olunur.

Mamam Bakery adı altında müxtəlif çeşiddə milli ,Avropa və Şərq şirniyyat/qənnadı məhsulları, şirniyyat sahəsində təlim keçmiş və sertifikatlandırılmış personal tərəfindən hazırlanır. Mamam Bakery çoxsaylı satış məntəqələrində xidmət göstərməklə ən böyük şirniyyat/qənnadı brendi olmağı hədəfləyir. Brendin əsas prinsipi mövcud sanitarik və keyfiyyət normalarını gözləməklə hər gün nəfis və təzə məhsullarını müştərilərinə təqdim etməkdir.

"Azərsun Holdinq"in qida istehsalı və kənd təsərrüfatı ilə yanaşı, təmsil olunduğu əsas sahələrdən biri də kağız, karton və tənəkə qutu istehsal sənayesidir.

"Azərsun Holdinq"in qida istehsalı və kənd təsərrüfatı ilə yanaşı, təmsil olunduğu əsas sahələrdən biri də kağız, karton və tənəkə qutu istehsal sənayesidir. İlk olaraq 1997-ci ildə illik istehsal gücü 2 mln qutu olan kağız istehsalı müəssisəsi, hazırda hər növ kağız dəsmalı, tualet kağızı, qutu və mətbəx dəsmalları, nəm salfetlər istehsal edir. Son dərəcə müasir texniki avadanlıqlarla təchiz olunmuş bu müəssisə postsovet məkanının lideridir. Müəssisənin istehsal etdiyi məhsullar bütün seqmentləri əhatə edir və ən yüksək standartlara cavab verir.

***"Azərsun" Holdinqin "şaqulu" inteqrasiya olunmuş şirkət kimi əsas göstəriciləri***

Əvvəlki qəbul etdiyimiz fərzlər əsasında bəzi məhsullar üzrə dünya bazarında Azərbaycanı təmsil edən AzərSun şirkətlərinin ixrac prosesində qarşılaşa biləcəyi mümkün risklərin starateji idarəedilməsi modellərini qurmağa çalışacağıq. Əvvəlcə bu şirkət və onun ixrac etdiyi mallarının çeşidi haqqında bəzi məlumatlarla tanış olaq.

***Azərbaycanın məcmu ixrac əməliyyatları***




**Şək. 1. Azərbaycanın ixrac dinamikası (mln.ABŞ dolları)**




**Şək. 2 Qeyri-neft ixracının cəmi ixracda payının dinamikası (%)**

***Qeyri-neft ixracın mal strukturu***

**Cədvəl 1**

**Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə qeyri-neft ixracının quruluşu və ixracda xüsusi çəkiləri**

| **Məhsul bölmələri** | Yeyinti məhsulları və diri heyvanlar | İçkilər və tütün | Qeyri-ərzaq xammalı (yanacaqdan başqa) | Heyvan və bitki mənşəli yağlar, piylər | Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar | Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları | Maşınlar və nəqliyyat avadanlıqları | Müxtəlif sənaye məmulatları | Digər kateqoriyalara daxil edilməyən mallar |
|---|---|---|---|---|---|---|---|---|---|
| **1996** | 2.0 | 2.3 | 9.0 | 0.1 | 6.8 | 4.4 | 7.6 | 1.4 | 0.0 |
| **1997** | 2.9 | 3.3 | 16.4 | 0.8 | 4.4 | 4.2 | 5.4 | 1.2 | 0.0 |
| **1998** | 3.4 | 3.9 | 9.4 | 0.4 | 3.0 | 3.7 | 5.1 | 2.2 | 0.0 |
| **1999** | 3.0 | 2.9 | 4.9 | 0.4 | 2.5 | 2.4 | 3.8 | 1.5 | 0.0 |
| **2000** | 1.9 | 1.0 | 4.8 | 0.2 | 2.0 | 1.0 | 3.6 | 0.4 | 0.0 |
| **2001** | 1.0 | 1.2 | 1.7 | 0.1 | 1.1 | 0.7 | 1.8 | 1.1 | 0.0 |
| **2002** | 1.8 | 1.0 | 2.1 | 0.2 | 1.9 | 1.2 | 1.6 | 1.3 | 0.0 |
| **2003** | 3.0 | 0.5 | 2.8 | 1.3 | 2.0 | 2.5 | 1.4 | 0.5 | 0.0 |
| **2004** | 2.7 | 0.5 | 2.6 | 1.1 | 2.5 | 3.1 | 4.5 | 0.8 | 0.0 |
| **2005** | 5.5 | 0.8 | 3.4 | 1.2 | 2.3 | 2.9 | 6.8 | 0.3 | 0.0 |
| **2006** | 3.6 | 0.6 | 3.2 | 0.8 | 2.1 | 2.8 | 1.9 | 0.4 | 0.0 |
| **2007** | 6.7 | 0.5 | 1.8 | 1.1 | 1.6 | 3.6 | 2.4 | 0.9 | 0.0 |
| **2008** | 0.9 | 0.0 | 0.2 | 0.2 | 0.4 | 0.9 | 0.3 | 0.0 | 0.0 |
| **2009** | 2.7 | 0.1 | 0.2 | 0.7 | 0.6 | 1.2 | 1.4 | 0.2 | 0.1 |
| **2010** | 1.9 | 0.1 | 0.1 | 0.7 | 0.6 | 0.8 | 1.0 | 0.3 | 0.4 |
| **2011** | 2.1 | 0.1 | 0.1 | 0.5 | 0.9 | 1.1 | 0.2 | 0.2 | 0.4 |
| **2012** | 2.6 | 0.1 | 0.3 | 0.8 | 1.0 | 1.2 | 0.4 | 0.2 | 0.3 |
| **2013** | 2.7 | 0.2 | 0.2 | 0.8 | 0.7 | 1.1 | 0.7 | 0.6 | 0.3 |
| **2014** | 3.0 | 0.2 | 0.2 | 0.6 | 1.1 | 0.9 | 0.4 | 0.9 | 0.3 |
| **2015** | 4.9 | 0.3 | 0.2 | 0.8 | 1.5 | 1.4 | 1.6 | 0.7 | 0.7 |
| **2016** | 3.6 | 0.2 | 0.3 | 0.1 | 1.1 | 2.0 | 0.8 | 0.1 | 0.6 |
| **2017** | 3.9 | 0.2 | 0.5 | 0.1 | 1.2 | 2.1 | 0.4 | 0.1 | 1.0 |
| **2018** | 3.3 | 0.2 | 0.6 | 0.1 | 1.0 | 1.7 | 0.4 | 0.2 | 0.6 |

***Mənbə: ARDSK [1]***

**Cədvəl 2**

**Azərsun şirkətinin ixrac mal qrupları üzrə Azərbaycanın cəmi ixracı (min ABŞ dolları)**

| | | *2015* | *2016* | *2017* | *2018* | *2019* |
|---|---|---|---|---|---|---|
| 1 | Çay qrupu | 19,502 | 6,179 | 10,233 | 9,374 | 9,510 |
| 2 | Şəkər qrupu | 212,207 | 62,275 | 40,244 | 25,474 | 27,956 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3 | Duz qrupu | 366 | 1,007 | 929 | 1,452 | 2,206 |
| 4 | Yağ qrupu | 153,335 | 17,114 | 17,047 | 16,862 | 18,451 |
| 5 | Konserv qrupu | | | | | |

***Mənbə: Trademap[2]***

## NƏTİCƏ

Azərbaycanın daha çox "şaquli" inteqrasiyalaşmış şirkətlərindən biri olan Azərsun şirkətinin ixrac fəaliyyəti zamanı qarşılaşa biləcəyi mümkün risklərin idaəedilməsi modelini yaratmazdan əvvəl Azərbaycanın məcmu ixrac fəaliyyətinə, ixracın mal strukturuna və ölkələr üzrə ixracın strukturuna nəzər yetirək.


***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Уильямсон О.И. Вертикальная интеграция производства: соображения по поводу неудач рынка // Вехи экономической мысли. Теория фирмы / Под ред. В.М. Гальперина. - СПб, 1999. - С.33–50

**2.** https://www.stat.gov.az/source/trade/

**3.** https://www.trademap.org/



**С.О.Гаджиев**

*диссертант, Университет "Азербайджан»*


### Основные отличия вертикально интегрированной компании: на примере Azersun Holding


**Резюме**

*Теории вертикальной интеграции выводят границы фирм как эффективный ответ на рыночные транзакционные издержки. Эти теории предсказывают взаимосвязь между основными характеристиками транзакций и наблюдаемыми интеграционными решениями. Был достигнут некоторый прогресс в проверке этих прогнозов, но меньший прогресс в количественной оценке их важности. Одна из трудностей заключается в том, что эмпирические приложения часто должны учитывать структуру фирмы вместе со структурой отрасли.*



***Ключевые слова**: вертикальная интеграция, аграрная промышленность, "Азерсун" Холдинг*



**S.O.Hajiyev**

*candidate for PhD degree, "Azerbaijan" University*


### Main differences of vertically integrated company: in the example of Azersun Holding


**Abstract**

*Vertical integration theories infer firm boundaries as an efficient response to market transaction costs. These theories predict the relationship between the underlying characteristics of transactions and observed integration decisions. There has been some progress in testing these projections, but less progress in quantifying their importance. One difficulty is that empirical applications often need to take into account the structure of the firm along with the structure of the industry.*



***Keywords**: vertical integration, agrarian industry, "Azersun" Holding*

**S.Ə.Həsənova**
***ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci***
**sevda.hesenova.73@mail.ru**

# COVİD-19 PANDEMİYASININ MƏŞĞULLUQ SİSTEMİNƏ TƏSİRİ VƏ DÖVLƏTİN QARŞILAYICI SOSİAL DƏSTƏK TƏDBİRLƏRİ

**Xülasə**

*Məqalədə COVİD-19 pandemiyasının məşğulluq sisteminə gətirdiyi iqtisadi böhranın təsirinin təhlili aparılmışdır. Ölkənin əmək bazarında məşğulluğun azaldılmasında mənfi tendensiyaların mövcudluğu araşdırılmışdır. Mövcud vəziyyətin dünya üzrə əmək gəlirlərinin azalmasına əsaslı təsiri öz əksini tapmışdır. Pandemiya və post pandemiya dövründə səmərəli məşğulluğun təmin edilməsi istiqamətində təkliflər verilmişdir.*

***Açar sözlər:*** *Pandemiya böhranı, pandemiyada məşğulluq, rəqəmsal məşğulluq, maliyyə sabitiyi, makroiqtisadi sabitlik, işsizlik səviyyəsi, özünüməşğulluq proqramı, qeyri-formal məşğulluq*

## GİRİŞ

Müasir dövrümüzdə əmək dünyası qlobal virus pandemiyasından ciddi şəkildə təsirlənmişdir. COVİD-19 pandemiyası ictimai sağlamlığa, milyonlarla insanın rifahına təhlükə yaratmaqla yanaşı, iqtisadi və sosial aləmdə də uzunmüddətli təlatümlərin mövcudluğuna səbəb olmuşdur.

COVİD-19 pandemiyası məşğulluq sahəsini demək olar ki iflic etmişdir. Aydındır ki, məşğulluq imkanlarının məhdudlaşdırılması gəlir əldə etmə imkanlarının məhdudlaşması deməkdir. Pandmiyaya səbəb olan virusun təsirlərini azaltmaq üçün görülən qabaqlayıcı tədbirlər cəmiyyətə və iqtisadiyyata əhəmiyyətli dərəcədə dolayı təsir göstərmişdir. O, bütün dünyada iş yerlərinə, əməkçilərin və onların ailə üzvlərinin yaşayışına, rifahına, xüsusilə kiçik və orta müəssisələrə böyük təsir göstərdi. Milyonlarla işçi dolanışıq vasitələrini itirdi. Bəzi sektorlar və sənayelər məşğulluq sahəsində əsaslı yeniliklərə yol açan onlayn rejimdə müvəffəqiyyətlə fəaliyyətə başladılar. [1, s.4]

Pandemiya böhranı 2020-ci ilin birinci rübündə dünya iqtisadiyyatına ciddi təsir göstərmişdir, Dövlətlər, işçilər və işəgötürənlər fiziki şəxslərin təhlükəsizliyini, müəssisələrin və iş yerlərinin sabitliyini təmin etməklə bu epidemiyaya qarşı mübarizədə həlledici rol oynamışdır. Virus əmək dünyasına müxtəlif istiqamətlərdə təsir göstərmişdir:

**1)** İş yerlərinin sayı (həm işsizlik, həm də natamam məşğulluq);

**2)** işin keyfiyyəti (əmək haqqı və sosial müdafiəyə çıxış);

**3)** əmək bazarında mənfi nəticələrə daha həssas olan konkret qruplara təsiri. [2, s.3]

Sosial müdafiənin zəif və ya çatışmayan sistemləri mövcud olan ölkələrdə milyonlarla insan gəlirsiz qalmışdır. Beynəlxalq Əmək Təşkilatının qiymətləndirmələrinə görə, bir çox ölkələrdə və regionlarda işsizlik sürətli templərlə artmışdır. BƏT-in məlumatları əsasında bütün dünyada COVİD-19 pandemiyasının əmək bazarına təsirini təhlil edərək deyə bilərik ki, qeyri-rəsmi iqtisadiyyat və yüz milyonlarla müəssisə üçün pandemiya dağıdıcı nəticələrə imkan yaratmışdır. Pandemiyanın yaratdığı iqtisadi böhran nəticəsində qeyri-formal iqtisadiyyatda demək olar ki, əmək bazarında əhalinin ən zəif təbəqələrini təmsil edən 1,6 milyard işçisi, dünyada iki milyard insan və işçi qüvvəsinin 3,3 milyard nəfərinin qazanc əldə etmək qabiliyyətinə böyük ziyan vurulmuşdur. [4]

COVİD-19 böhranı bir çox cəhətdən işləyən qadınlara qeyri-mütənasib təsir göstərdiyindən, son onilliklərdə əldə edilmiş bəzi nailiyyətlərin itirilməsi və əmək bazarında qender bərabərsizliyinin

ağırlaşması riskini də artırmışdır. Əvvəlki böhranlardan fərqli olaraq, pandemiya dövründə xidmət sektorunda azalmanın nəticələrinə görə qadınların məşğulluğu kişilərin məşğulluğundan daha çox riskə məruz qalmışdı. Bundan başqa, böhranın doğurduğu ödənilməyən qulluğun artması kişilərə nisbətən qadınlara daha çox təsir göstərmişdir.

Beynəlxalq Əmək Təşkilatının proqnozları əsasında deyə bilərik ki, 2020-ci ilin ikinci yarısında əmək bazarının bərpası qeyri-müəyyən və natamam olmuşdur. Cari ilin dördüncü rübündə iş vaxtının itirilməsi təxminən, 4,9 faiz təşkil etmişdir. Bu göstərici tam məşğulluq şəraitində 140 milyon iş yerinə bərabərdir. Lakin 2020-ci ilin ikinci yarısında pandemiyanın ikinci dalğası zamanı son rübdə iş vaxtının itirilməsi 11,9 faiz təşkil etmişdir ki, bu da 340 milyon iş yerinə bərabərdir. İqtisadiyyatın sürətlə bərpasını nəzərdə tutan nikbin praqnozlara əsaslansaq belə, çətin ki, məşğulluğun səviyyəsi 2020-ci ilin sonuna qədər böhrandan əvvəlki səviyyəyə qayıda bilsin.

Bu gün əksər ölkələr maliyyə, pul-kredit, sosial müdafiə və digər strategiyaların köməyi ilə iqtisadiyyatın və məşğulluğun stimullaşdırılmasına misli görünməmiş miqyasda resurslar yönəldirlər.

Zəngin iş yerlərinin bərpasına keçidi təmin etmək üçün bir sıra əsas problemlərin həlli vacib şərtlərdəndir:

- düzgün siyasi balansın tapılması;
- lazımi miqyasda müdaxilə tədbirlərinin dəstəklənməsi;
- zərər çəkmiş əhali qruplarının dəstəklənməsi və daha ədalətli işçi qüvvəsinin yaradılması
- beynəlxalq həmrəylik və dəstəyin təmin edilməsi;
- əmək sahəsində sosial dialoqun və hüquqlara hörmətin gücləndirilməsi. [3, s.1]

**TƏHLİL**

2019-cu ilin dekabr ayında dünyanı bürümüş COVİD-19 pandemiyası dünya iqtisadiyyatının 90%-nin müxtəlif formalarda bloklanmasına səbəb olmuşdur. Pandemiyanın qarşısının alınması məqsədilə izolyasiya rejiminin tətbiqi və digər məhdudlaşdırıcı tədbirlərin görülməsi əmək bazarlarında istehsala və istehlaka dağıdıcı təsir göstərmişdir. Nəticədə tədarük zənciri pozularaq milyonlarla insan işsiz qalmışdır. Qlobal miqyaslı saglamlıqla bağlı pandemiya insanların, mal və əmtəələrin hərəkətlərinə qoyulan məhdudiyyətlər, biznes və istehlakçı inamının düşməsi qlobal əmtəə bazarının və istehsalın çökməsi ilə müşahidə olunmuşdur. Bu proses iqtisadiyyatın uzun müddətli təhlükə ilə üz-üzə qalmasına səbəb olmuşdur. İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının proqnozuna əsasən 2019-cu ildə 2,9 faizə bərabər olan ümumdaxili məhsul artımı 2020-ci ildə 2,4 faizə enəcəyi söylənilmişdir. Beynəlxalq Valyuta Fondunun məlumatına əsasən inkişaf etmiş iqtisadiyyatlarda belə pandemiyanın məşğulluğa mənfi təsiri özünü kəskin surətdə biruzə vermişdir. Belə ki, fondun açıqladığı məlumatlara görə ABŞ-da işsizlik nisbəti 10,4 faizə çatmışdır. Digər inkişaf etmiş ölkələr üzrə bu göstərici aşağıdakı kimi olmuşdur:

| Pandemiya dövründə işsizlik səviyyəsində artım **(%-lə)** | |
|---|---|
| Yaponiya | 3% (+0,6%) |
| Almaniya | 3,9% (+0,7%) |
| İngiltərə | 4,8% (+1%) |
| Kanada | 7% (+1,3%) |

| | |
|---|---|
| Fransa | 10,4% (+1,9%) |
| İtalya | 12,7% (+2,7%) |

***Mənbə: Beynəlxalq Valyuta Fondu***

Pandemiya dövründə tətbiq edilən məhdudiyyətlər nəticəsində Yaponiyada 2020-ci ildə 2019-cu illə müqayisədə işsizlik səviyyəsi 0,6% artaraq 3%-ə çatmışdır. Almaniyada bu göstərici 2019-cu illə müqaisədə 0,7% artaraq 3,9%, İngiltərədə 1% artaraq 4,8%, Kanadada 1.3% artaraq 7%, Fransada 1.9% artaraq 10,4%, İtalyada isə 2,7% artaraq 12,7% olmuşdur. Beynəlxalq Valyuta Fondu 2020-ci il üçün dünya iqtisadiyyatında 3% kiçilmə müəyyənləşdirmişdir. Bu kiçilmə 1929-1939-cu illərdə böyük depresiya dövründən bəri ən yüksək kiçilmə kimi qiymətləndirmişdir.

Beynəlxalq Əmək Təşkilatı pandemiyanın 2020-ci ilin sonuna qədər davam edəcəyi halda dünya üzrə 25 milyon insanın işsiz qalması təhlükəsinin reallaşacağını bəyan etmişdir. Bu göstərici 2008-2009-cu illərin qlobal maliyyə böhranının nəticəsi ilə müqaisə oluna bilər. Belə ki, qlobal maliyyə böhranı dünyada 22 milyon insanın işsiz qalmasına səbəb olmuşdur. Statistik araşdırılmalara əsasən dünya əhalisinin əmək gəlirləri 2020-ci ilin üçüncü rübündə 10,7 faiz azalmışdır. Ümumilikdə bu ilin ikinci rübündə itirilmiş iş saatlarının sayı təqribən yarım milyard iş yerinin itirilməsi deməkdir [5]. Dünya İqtisadi Forumunun açıqlamasına əsasən pandemiyanın təsiri nəticəsində dünya üzrə 4 milyarddan artıq insan sosial təcrid olunmuşdur. Nəticədə xidmət və logistika sektorunda durğunluq yaranmışdır.

Dünya bazarında Azərbaycan neftinin qiymətin 3 dəfədən çox aşağı düşərək, 15 dollara qədər enmə müşahidə olunmuşdu. Pandemiya şəraiti ilə əlaqədar ölkəmizdə tətbiq olunan karantin rejini insanların sosial-iqtisadi həyatına, sahibkarlıq subyektlərinə də mənfi təsir göstərmişdi. Ölkəmizdə ən çox mənfi təsirə məruz qalan 12 fəaliyyət sahəsi müəyyənləşmişdir. Ticarət, ictimai iaşə, turizm, otelçilik, əyləncə, nəqliyyat, və s. fəaliyyət sahələri pandemiyanın əsas təsir göstərdiyi sahələr hesab olunmuşdur. Mövcud vəziyyətlə bağlı Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamı əsasında 4 aprel 2020-ci il tarixində Nazirlər Kabineti tərəfindən Tədbirlər Planı təsdiq edilmişdi. Tədbirlər Planı iqtisadi artıma və sahibkarlığa dəstək, məşğulluq və sosial rifaha dəstək, makroiqtisadi və maliyyə sabitliyi daxil olmaqla üç mühüm istiqaməti əhatə etmişdir [6]. Göründüyü kimi "COVİD-19" pandemiyasının iqtisadiyyata, məşğulluğa, sosial rifaha mənfi təsirlərinin azaldılması istiqamətində Azərbaycan dövlətinin uğurlu təcrübəsi beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilmişdir. Pandemiya dövründə insanların iş və təhsil həyatını onlayın davam etdirmələri rəqəmsal texnologiyaların təqdim etdikləri texnoloji məhsulların bazar qiymətinin artmasına səbəb oldu. 2020-ci ildə 910 min nəfər dövlət sektorunda, 664 min nəfər qeyri dövlət sektorunda çalışan vətəndaşlara sosial rifahının qorunması istiqamətində dövlət qabaqlayıcı tədbirlər həyata keçirmişdi. İnsanlara onlayn iş üslubundan istifadə etməklə fəaliyyətlərini davam etdirmək üçün şərait yaradıldı və ya əmək haqqı saxlanılmaqla məzuniyyətə göndərildi. Həm dövlət, həm də qeyri-dövlət sektoruhda vətəndaşların iş yerlərinin və əməkhaqqı gəlirlərinin qorunması məqsədilə məqsədyönlü siyasət həyata keçirildi. Azərbaycanda ümumilikdə 1 629 000 işçinin, dövlət sektoru üzrə 910 000, özəl sektorda isə 719 000 işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilmişdir. Dövlətin siyasətinin əsas istiqaməti vətəndaşların məşğulluğunun qorunması ilə ixtisarlara yol verilməməsi olmuşdu. İşsiz vətəndaşların məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində 2020-ci il aprel-may ayları ərzində 50 min insan haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. Xüsusi karantin rejiminnin tətbiq edildiyi müddət ərzində işsiz və işini itirən, qeyri-formal işləyən, Dövlət Məşğulluq Xidmətlərində qeydiyyatda olan 600 min aztəminatlı vətəndaşlar yaşayış minimumu həsmində, 190 manat birdəfəlik ödəmələrlə təmin edilmişdir. Bu ödəmələr 200 min nəfəri əhatə etmişdir [8]. İşsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi və öznüməşğulluq proqramlarının genişləndirilməsi istiqamətində də tədbirlər həyata keçirilmişdir. Özünüməşğulluq proqramı çərçivəsində 2020-ci idə minimum 12 min ailə üçün kiçik təsərrüfatların qurulması

istiqamətində Dünya Bankı ilə birgə layihəyə imza atılmışdır. Bu layihə üzrə hər il 5 min ailənin özünüməşğulluq fəaliyyəti ilə təmin edilməsi nəzərdə tutulmuşdur. Heydər Əliyev Fondu BMT-nin İnkişaf Proqramı ilə birgə işsiz və əlilliyi olan vətəndaşların biznes fəaliyyətinin dəstəklənməsi üzrə də tədbirlər planı həyata keçirilmişdir [7].

Beynəlxalq Valyuta Fondu pandemiyanın mənfi tərəfləri ilə yanaşı müsbət tərəflərinin də olduğunu bəyan etmişdir. Belə ki, pandemiyanın təsirinin azalması nəticəsində növbəti ildə 5,8% qlobal iqtisadi artıma nail olmaq mümkündür. Bu artımın Hindistan və Çin kimi ölkələrin iqtisadi artımı hesabına baş verəcəyi praqnozlaşdırılmışdır. Xidmət sektorunun iqtisadiyyatda böyük əhəmiyyət kəsb etdiyi İtalya və İngiltərə kimi böyük ölkələrdə iqtisadi yüksəlişin daha zəif olacağı ehtimal edilmişdir. Məşğulluq sahələri ilə bağlı təhlillərdə ən çox sənaye və xidmət sektoruna mənfi təsir göstərməsi müəyyən edilmişdir. Tələbin kəskin azalması və qlobal tədarük zəncirindəki əhəmiyyətli fasilələr səbəbindən sənaye sektoru bu böhrandan ciddi şəkildə zərbə ilə qarşılaşmışdı. Xidmət sektoru ilə bağlı iş yerləri karantin rejiminin tətbiqi ilə bağlı fəaliyyətini tamamilə və ya qismən dayandırdı ki, bu da sektorda ciddi böhrana səbəb oldu. Ölkəmizdə və dünyada bu proseslərdən təsirlənməyən sektorlar arasında ən birincisi kənd təsərrüfatı sektoru oldu. Pandemiyanın yaratdığı şəraitin ilk aylarından davam etdiyi müddət ərzində bu sektor üzrə nə tələbdə nə də tədarük zəncirində heç bir problemlə üzləşməməsi sektorun maneəsiz inkişafına səbəb olmuşdu. Fikrimizcə postpandemiya dövründə də bu sektor ən etibarlı məşğulluq sahəsi olacaqdır. Pandemiya dövründə digər inkişaf edən sahə elektron ticarət olmuşdur. Pandemiyadan sonrakı dövrlərdə də elektron alış-veriş, xüsusilə də qida məhsullarının ticarətini həyata keçirən şirkətlərin fəaliyyətində irəliləyiş praqnozlaşdırılmışdır. Pandemiyanın uzunmüddətli davam etməsi istehlakçı vərdişlərində dəyişikliklərin yaranmasına səbəb olmuşdur. Tələbin ödənilməsində onlayn platformalara üstünlük verilməsi və çatdırılnma xidmətlərinin genişləndirilməsi postpandemiya dövründə də elektron ticarətin artım dinamikasının davam etdirilməsinə yol açmışdır. Ölkə iqtisadiyyatında pandemiyanın digər müsbət təsirləri də müşahidə olunmuşdur. Şəffaflığın təmin olunması ilə yanaşı, fiskal gəlirlərə də təsir göstərmişdir. Aparılan gizli iqtisadiyyat yönümlü tədbirlər nəticəsində 2019-cu ildə 170 min yeni əmək müqaviləsi bağlanmışdır. Bir milyard manatdan çox vəsait müqavilələrin bağlanması nəticəsində dövlət büdcəsinə daxil olmuşdur. Pandemiya müddətində ümumilikdə 2020-ci il ərzində 100 mindən çox əmək müqaviləsi bağlanmışdır [9]. Bu proses gizli iqtisadiyyatın miqyasının azaldılmasına şərait yaratmışdır. Nəticə etibarilə rəsmi məşğulluğun inkişafına və qeyri rəsmi məşğulluğun əhatəsinin məhdudlaşdırılmasına səbəb olmuş, büdcə daxilolmalarına müsbət təsir göstərmişdir. Fikrimizcə bu proses postpandemiya dövründə Azərbaycanda yeni dayanıqlı iqtisadi modelin yaradılması və tətbiqi üçün əsas vermişdi.

**NƏTİCƏ**

Bütün dünya pandemiyadan böyük əziyyət çəkmişdir və ciddi narahatlıq yaratmışdır. Xüsusilə müəssisələrin mülkiyyətçiləri və işçiləri qeyri-müəyyən bir gələcəklə üz-üzə qalmışdır. Bununla yanaşı, əgər bütün səviyyələrdə ağıllı və vaxtında tədbirlər görülsə, layiqli və məhsuldar məşğulluğun təmin olunmasına diqqət yetirilsə, onda dünya bu böhrandan daha güclü, daha keyfiyyətli iş yerləri, daha bərabər və ekoloji cəhətdən təmiz gələcəklə birlikdə çıxa bilər. Bu böhranın işçi və müəssisələrə, hökumətlərə, tərəfdaşlara və beynəlxalq təşkilatlara təsirini minimuma endirmək üçün bir sıra qəti tədbirlər görülmüşdür. Məsələn, 170-dən çox ölkə ümumilikdə 9 trilyon ABŞ dolları ayırmışdır. ABŞ maliyyə stimullaşdırma planlarının həyata keçirilməsini nəzərdə tutmuşdur.

Ölkəmizdə Prezident İlham Əliyevin siyasətinin əsas istiqaməti məhz əhalinin sağlamlığının qorunması və məşğulluğun, sosial rifahın dəstəklənməsi, iqtisadiyyatın stimullaşdırılmasıdır. Dövlət başçısının göstərişi ilə pandemiyanın ölkə iqtisadiyyatına, məşğulluq sahəsinə, sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı ölkəmizdə qabaqlayıcı tədbirlər sistemi həyata

keçirilmişdir. Eyni zamanda iş yerlərinin qorunması məqsədilə stimullaşdırıcı effektli layihələr hazırlanmış, tikinti, məşğulluq və digər istiqamətlərdə təkanverici tədbirlər görülmüşdür.

Bu addımlara söykənərək və daha inkluziv, dayanıqlı və həyat sürməkdə olan dünyaya keçidin sürətləndirilməsi məqsədilə növbəti üç sahədə genişmiqyaslı və qabaqlayıcı siyasi tədbirlər görmək lazımdır:

1. risk qruplarına daxil olan işçilərə, müəssisələrə, iş yerlərinə və gəlirlərə təxirəsalınmaz dəstək göstərilməsi;
2. işə qayıtmağa kompleks yanaşmanın təmin edilməsi;
3. ekoloji, hərtərəfli və davamlı bərpanı təmin etmək üçün layiqli və məhsuldar iş yerlərinin yaradılması [1, s.5].

Ölkədə həyata keçirilən sosial dəstək tədbirləri cəmiyyətə pandemiya dövründən keçməyə köməklik etməlidir. Hazırkı böhran kommunikasiyalar üçün innovasiyaları tətbiq etmək və uyğunlaşdırmaq zərurətini ortaya qoymuşdur. Pandemiya dövründə əmək bazarının bir çox sahələrində rəqəmsallaşmanın sürətlənməsi zərurəti meydana çıxmışdır. Rəqəmsal baxımdan inkişaf etmiş ölkələr pandemiyanın zərərlərinin öhdəsindən daha asan gələ bilər. Mövcud vəziyyətlə əlaqədar virusun yayılmasının qarşısının alınması məqsədilə iş yerlərinin müvəqqəti bağlanaraq məsafədən işləmə sisteminə keçilməsi nəticəsində insanlar məsafədən işləməyə başlamışdır. Rəqəmsal məşğulluğun verdiyi səmərəni nəzərən alaraq deyə bilərik ki, post pandemiya dövründə də şirkətlərin bu fəaliyyər formasından istifadə etmələri iqtisadi cəhətdən daha səmərəli hesab oluna bilər. Rəqəmsal fəaliyyət zamanı vaxta və resurslara ediləcək qənaət şirkətlərdə bu fikirin formalaşmasını stimullaşdırır.

### *İstifadə eidlmiş ədəbiyyat:*

1. Аналитическая записка: сфера труда и COVID-19, ИЮНЬ 2020 года, 39 s.
2. İnternational Labour Orqanization “COVID-19 and the world of work: Impact and policy responses”, March 2020, 18 s.
3. ILO Monitor: COVID-19 and the world of work. Fifth edition Updated estimates and analysis, 30 June 2020, 22 s.
4. https://www.ilo.org
5. https://www.xalqqazeti.com
6. https://www.president.az
7. https://www.sosial.gov.az
8. https://www.vergiler.az
9. https://m.modern.az

**С.А.Гасанова**
*Азербайджанский Государственный Педагогический Колледж при АзГПУ*

## Влияние пандемии covıd-19 на систему занятости и меры социальной поддержки государства

### Резюме

*В статье анализируется влияние экономического кризиса, вызванного пандемией COVID-19, на систему занятости. Исследовано наличие тенденции к отрицательному снижению занятости на рынке труда страны. Текущая ситуация оказывает существенное влияние на*

*снижение мировой заработной платы. Во время пандемии и после пандемии были внесены предложения по обеспечению эффективной занятости.*

***Ключевые слова:*** *кризис пандемии, занятость в пандемии, цифровая занятость, финансовая стабильность, макроэкономическая стабильность, уровень безработицы, программа самозанятости, неформальная занятость*

**S.A.Hasanova**
*Azerbaijan State Pedagogical College under the AzSPU*

**İmpact of the covid-19 pandemic on the employment system and social support measures of the state**

**Abstract**

*The article analyzes the impact of the economic crisis, caused by the COVID-19 pandemic, on the employment system. İt was investigated the presence of a trend towards a negative decrease in employment in the labor market of the country. The current situation has a significant impact on the decline in global wages. During the pandemic and after the pandemic, were made proposals to ensure effective employment.*

***Keywords:*** *pandemic crisis, employment in a pandemic, digital employment, financial stability, macroeconomic stability, unemployment rate, self-employment program, informal employment*

**V.R.Əliyev**
***magistrant, Azərbaycan Dövlət Pedaqoji Universiteti***
**ali.babayev.1968@mail.ru**

# TARİX TƏDRİSİNDƏ ƏYANİLİK PROBLEMİ

**Xülasə**

*Tarixin tədrisi yalnız zəngin məlumat verməklə kifayətlənmir, həm də tələbələrin tarixi düşüncəsini inkişaf etdirir, eyni zamanda şagirdlərə digər mövzulara öyrədilməsini, kitab və qəzet oxumağı, kinoteatrı, teatrı ziyarət etməsini və s. təkmilləşdirir. İstifadə etdikləri məlumatları sistemləşdirir və genişləndirir, şagirdlərin hazırlanmasına və eləcə də biliyin möhkəmlənməsinə kömək edir. Cəmiyyətin yüksək sosial-iqtisadi informasiyaya qanuni bir hərəkəti olan tarixi proses haqqında konsepsiyaların formalaşmasına, ayrı-ayrı faktları, hər hansı bir ölkənin ayrı-ayrı tarixi dövrlərini öyrənməklə deyil, qədim dövrlərdən günümüzə qədər tarixin bütün yollarını öyrənməklə nail olmaq olar.*

***Açar sözlər:*** *tarix, antik dövr, tarixi proses, tarixi dövrlər*

Orta məktəb üçün daha yaxşı təlim keçmiş tarix müəllimlərinə tələbat var. Məktəb rəhbərliyinin tədris kurslarını şöbələşdirməyə meyl etməsi mütəxəssislərə daha çox tələbat yaradır, eləcə də təlim tələblərinin ümumi tərəqqisi baş verir. Bu tələbə əlavə olaraq, orta məktəb şagirdlərinin bir qisminin ali məktəblərə daxil olmaması müəllimlərin vəzifəsini daha da vacib edir. Tarix tədrisinin düzgün qurulması ilə orta məktəb məzununun sosial, siyasi və iqtisadi problemlər haqqında düzgün, məntiqli və ağlabatan düşünə bilməsinə şərait yaradı.

Müasir dövrdə tarix fənnində müəllimlər üçün əsas iki problem mövcuddur. Birincisi, tədrisdə mənbələrin və köməkçi materialların istifadəsinə aiddir. İkinci və ən vacib problem tədris metodları problemidir. "Necə öyrətmək lazımdır" və "Nə öyrətmək lazımdır" kimi suallar müəllimlik karyerası başlandığı gündən hər bir müəllimi düşündürür. Müasir dərslikdə bəşəriyyətin keçmişinin yalnız seçilmiş bir hissəsi var. Bir çox dəlil keçmişdə üstüörtülü qalıb və heç vaxt aşkar edilə bilməyəcək. Eyni şəkildə bir çox tarixi faktlar məlumdur, lakin şagirdlər üçün əhəmiyyətsiz olduğuna görə dərsliklərdə əks olunmur.

Tarixin tədrisində kortəbii etimad ən zərərli meyllərdən biridir. Tarix müəllimi bir neçə mətn və mənbəni müqayisə edərək tənqidi fikir hazırlamalı və qərarlarını formalaşdırmalıdır. Mətni nəzərdən keçirərkən hələ də şübhə varsa, o birbaşa mənbələrə istinad etməlidir. Xatırladım ki, mətn müəllifləri əksər hallarda ilkin mənbələrdə tapdıqları faktlara öz şərhlərini verirlər. Bu səbəbdən də bu mətnlər müəlliflərin şərh səhvlərinə də meyllidir. Lord Actonun dediyi kimi "tarix yayınma və mübahisədən üstün olmalıdır, fikirlərə yox, sənədlərə əsaslanmalıdır". Tarix həmişə özünü mənbə ilə əlaqələndirməlidir. Mənbələr şagirdə tarixi hadisələrin mənşəyini izləmək imkanı təklif edir. Bir tərəfdən tarix mənbələrindən istifadə edən şagird tarixçini və dərsliklərini üstün tutur, müəlliminin rəhbərliyi altında mənbə materialından öz nəticələrini çıxarır. [5]

Müasir dünyamızda proseslər çox sürətli şəkildə dəyişir. Tələb olunan məlumat miqdarı daha da artır və hər dəqiqə məlumatlar yenilənir. Bu baxımdan belə bir sual ortaya çıxır- necə etmək lazımdır ki, şagirdlər böyük informasiyaları unutmasın. Bu vəziyyətdə məktəbin ən vacib missiyası mövcud və

inkişaf etməkdə olan metodların geniş istifadəsi ilə müəyyən fənlərin şagirdlərin maraqlarına uyğun şəkildə tədris olunmasıdır.

Tarix dərslərində olan əyani vəsaitlərdən istifadə problemi daimi problemlərə aid edilir. Tarixi öyrənən şagirdlər keçmişi orijinal formada təsəvvür etməkdə çətinlik törədən obyektlərlə daim qarşı-qarşıya qalırlar. Tarix müəllimləri köməkçi vasitələrdən istifadə etməyə məcbur olur (tarixi rəsmlər, atlasdakı xəritələr, dərsliklərdə illüstrasiyalar, lövhədə təbaşir diaqramları və s.). Gənc perspektivli müəllimlər üçün çətinliklər yaransa da müasir texnikalardan istifadə etmək imkanı var.

Tarix dərslərində müxtəlif əyani mənbələrdən istifadə (şəkil çəkmək, fotoşəkil, afişa, karikatura) vizual görüntünün yaradılmasına yönəlmişdir. Öyrənmə prosesində, hər hansı bir vizual resurs yeni bir daşıyıcı rolunu oynayır, tarixi məlumatları, bilikləri yeniləmə funksiyalarını da yerinə yetirir, nəzəri materialı təsvir edir. Biliyi möhkəmləndirmək və yoxlamaq, təhsil prosesinin emosional hissəsini təşkil edir.

Əyani vəsaitlərin hər biri tarixi hadisələrin qavranılması üçün xüsusi mövqeyə malikdir. Əyani tədris vasitələri keçmişin dərk edilməsinə yalnız hisslər dairəsini deyil, eləcə də təfəkkür sahəsini əhatələyir və bir çox başqa funksiyaları yerinə yetirir. Əyani vasitələr ilə ilk öncə şagirdlərin təsəvvüründə tarixi keçmişin əyani və mötəbər obrazları formalaşır. Əyani tədris vasitələri tarixi faktları konkretləşdirir və keçmişin müasirləşməsinə imkan yaratmır.

Əyanilik əsas tarixi anlayışları və qanunauyğunluqları formalaşdırmağa kömək edir, tarixi hadisələrin mahiyyətini vurğulayır və hadisələrin hər bir şagird tərəfindən dərindən öyrənilməsini təmin edir.

Əyani tədris vasitələri şagirdlərin nitq qabiliyyətini, təsəvvürünün inkişafını və müşahidə edəbilmə qabiliyyətini inkişaf etdirir, tarixi keçmişlə bağlı marağı müntəzəm sürətdə dəstəkləyir. Əyani tədris vasitələri tarixçi metodistlərin tədqiqat nəticələrinə əsaslanaraq üç əsas qrupa bölünüb: təsviri, predmet əyaniliyi və şərti-qrafik vasitələr. Lakin hər bir şagirddə təsəvvür formalaşması fərdi şəkildə baş verir, onun bacarıqlarından, dünyagörüşündən, istedadından, həyat təcrübəsindən asılı olaraq dəyişir. Şagirdlərin təsəvvüründə canlandırdığı keçmişin fraqmentlərini müasir elementlər ilə cəmləşdirdikdə, bir çox hallarda qeyri-dəqiqliklər baş verir. Tədris prosesi zamanı predmet, şərti-qrafik və təsviri əyanilik vasitələrindən istifadə olunması bir sıra çatışmazlıqların olmamasına zəmin yaratmış olurlar.[4]

**1.** Predmet əyaniliyi - keçmişdən bugünə real maddi abidələrinin saxlanılması və onun maddi izlərinin müəyyən şəkildə qavranılmasını nəzərdə tutur. Qız qalası, Oğlanqala, Əlincə qalası, H.Z.Tağıyevin qız məktəbi, Xudafarin körpüsü Çıraqqala, Ü.Hacıbəyovun Şuşada ev muzeyi bu sıraya daxildir. Keçmiş və nisbətən yaxın keçmişin tarixi maddi abidələrinə geyim növləri, əmək alətləri, zinət əşyaları, məişət əşyaları, nəqliyyat vasitələri, silahlar və başqa əşyalar aid edilir. Bu cür əşyaların tədris prosesində istifadə olunma imkanları genişdir, bu əşyalar mərkəzi muzeylərdə, yerli muzeylərdə eləcə də məktəb muzeylərində nümayiş olunurlar.

**2.** Təsviri əyanilik - memarlıq abidələrinin, məişət və əmək əşyalarının, bədii kompozisiyanın elmi yöndən əsaslandırılmış rekonstruksiyalarının istifadə edilməsini nəzərdə tutur. Sənədli əyani vasitələrə sənədli fotoşəkillər aiddir. Kompozisiyalı təsvirə isə tədrisdə istifadə edilən sənədli filmlər, şəkillər, reproduksiyalar və s. vasitələr aid edilir. Tarixin əyani tədrisi prosesində istifadə edilən təsviri vasitələr əsas yer tutur. Bu növ vasitələrin hazırlanması zamanı müxtəlif yaşda şagirdlər də prosesdə iştirak edə bilərlər.

**3.** Şərti-qrafik əyanilik - şərti işarələrlə ilə tarixi hadisələrin qarşılıqlı əlaqəsini, mahiyyətini və dinamikasını özündə əks etdirir. Əyaniliyin bu növünə isə xəritələr, sxemlər, qrafiklər, diaqrammalar aid edilir.

Əvvəlki əyani tədris vasitələri ilə yanaşı, təqdimatlardan, multimedia proqramlarından, internet platformalarından istifadə təhsildə geniş tətbiq edilir. Müasir kompyuter texnologiyaları sayəsində müəllimlər əyani materialları tədris prosesinə fəal şəkildə daxil edirlər. Beləliklə, müasir təhsil sisteminin inkişafı fonunda əyani tədris vasitələrindən istifadənin aktuallığı daha da artdı.

Əyani tədris vasitələri müəllimə yüksək nəticələr əldə etməyə kömək edir. Əyani vasitələrdən istifadə etmədən tarixi düzgün səviyyədə öyrətmək mümkün deyil. Onlar sayəsində tarixi material hər kəsə daha aydın olur. Əyanilik yaddaşın, diqqətin və təfəkkürün inkişafına səbəb olur. Psixoloqlar tədqiqatların nəticəsi olaraq insanların gördüklərinin 50%-i və eşitdiklərinin yalnız 20%-i xatırladıqlarını sübut edib. Bu mövzunun əhəmiyyəti yeni bir təhsil standartının tətbiqi kontekstində vizualizasiyanın tədrisdə səmərəliliyini izah etməkdən ibarətdir.

Tarix dərslərində əyani tədris prinsipinin tətbiqi ilə bağlı məsələlər yeni növ vizual tədris metodlarının yaranması ilə əlaqədar olaraq elmi psixoloji və pedaqoji ədəbiyyatda getdikcə geniş yayılmaqdadır. Tədqiqatın məqsədi əyani vasitələrdən istifadə etməklə tarix dərslərində tədris prosesini təşkil etməkdən ibarətdir. Bu məqsəd aşağıdakı vəzifələrin həllini əhatə edir:

- aydınlıq üçün didaktik əsasları nəzərdən keçirmək;
- tarix dərslərində vizual istifadənin aşkarlanması;
- vəsaitlərin əyanilik qabiliyyətinin mövcud təsnifatlarını təhlil etmək;
- tarix dərslərində əyani vəsaitlərlə işləmə üsulunu araşdırmaq;
- tarix dərslərini öyrənmə prosesində əyani vəsaitlərin tədris fəaliyyətinə təsirini öyrənmək;
- vizualizasiyadan istifadə edərək tarix dərsini inkişaf etdirmək;
- əyaniliyin tədris prosesinin yaxşılaşdırılmasına, məlumatların keyfiyyətinin artırılmasına təsirinə dair nəticələr çıxarmaq.[2]

Təhsil texnologiyalarının sürətli inkişafına baxmayaraq, ölkəmizdə tarixin tədrisi hekayə prinsipi və sual-cavab metodu əsasında davam edir. Tarix müəllimlərinin əksəriyyəti pedaqoji təhsil aldığı zaman coğrafiya ilə əlaqəli kurslar keçirmədiklərini bildirir. Bu səbəbdən xəritə bilik və bacarıqlarının yetərli olmadığını, eləcə də məktəblərindəki xəritə avadanlıqlarının kifayət etmədiyi vurğulanır. Tarix dərslərində coğrafiya müəllimləri ilə əməkdaşlığın məhsuldar ola biləcəyi istinad edilmir. Tarixi mövzuları konkretləşdirmək və hadisələrin baş verdiyi yerləri tarixi xəritələrdən istifadə etməklə şagirdə çatdırmaq qavrama cəhətdən şagirdlər üçün böyük əhəmiyyət kəsb edir. Tarix dərslərində problemlərin aradan qaldırılması üçün vizual ünsiyyət vasitələrindən istifadə edilməli, kompyuter texnologiyalarının imkanlarından üstünlük verilməlidir. Tədris müddətində şagirdlərin muzeylərə və tarixi yerlərə səyahətləri təşkil edilməli və yeni layihələr hazırlamağa təşviq edilməlidir.

### ***İstifadə edilmiş ədəbiyyat:***

**1.**“ Sources in Schools,” Proceedings of the New England History Teachers Association.

**2.** The Problems of Sources and Methods in History Teaching

**3.** The role of ICT in the teaching and learning of history in the 21 st century. Educ. Res. Rev., 8(21): 2155-2159. Adesote, S.A. & Fatoki, O.R. (2013)

**4.**Tam Orta Məktəbdə Tarixin Fəal/İnteraktiv Təlimi Metodikası. Mübariz Əmirov Bakı 2011

**5.** Короткова М.В. Личностно-ориентированный подход в использовании наглядных средств на урокахх истории // Преподавание истории в школе. – 2008. - №1. – с. 3-8

**В.Р.Алиев**
*магистрант, Азербайджанский Государственный Педагогический Университет*

**Проблема видимости в преподавании истории**

**Резюме**

*Преподавание истории - это не просто предоставление богатой информации, оно развивает историческое мышление учащихся, одновременно помогает изучению других тем, чтению книг и газет, походам в кино, театр и т. д., систематизирует и расширяет информацию, которую они используют, помогает студентам подготовиться и выразить свои взгляды и отношения. Формирование представлений об историческом процессе, представляющем собой закономерное движение общества к высокой социально-экономической формации, может быть достигнуто не путем изучения отдельных фактов, отдельных исторических периодов какой-либо страны, а путем изучения всего хода истории с древнейших времен до наших дней.*

***Ключевые слова:*** *история, древность, исторический процесс, исторические периоды*

**V.R.Aliyev**
*master student, Azerbaijan State Pedagogical University*

**The problem of vısıbılıty ın hıstory teachıng**

**Abstract**

*History teaching is not just about providing rich information, it develops students' historical thinking, as well as teaching students other topics, reading books and newspapers, going to the cinema, theater, etc. systematizes and expands the information they use, helps students prepare and express their views and attitudes. The formation of concepts about the historical process, which is a legitimate movement of society to a high socio-economic formation, can be achieved not by studying individual facts, individual historical periods of any country, but by studying the whole course of history from ancient times to the present day .*

***Keywords:*** *history, ancient ,historical process, historical period*

**UOT - 33.339.9**

**L.A.Hacıyeva**
***Iqtisad üzrə fəlsəfə doktoru, dosent***
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
**hajiyeval@mail.ru**

# AZƏRBAYCANIN TURİZM SEKTORU PANDEMİYA DÖVRÜNDƏ: MÖVCUD PROBLEMLƏR VƏ GƏLƏCƏK PERSPEKTİVLƏR

**Xülasə**

*Məqalədə koronavirus pandemiyasının dünya iqtisadiyyatına neqativ təsiri, xüsusilə də, turizm sektoruna vurduğu ziyan araşdırılır. Beynəlxalq təşkilatların məlumatları əsasında beynəlxalq turizm gəlmələrinin regionlar üzrə təhlilləri aparılır, sahəyə dəyən iqtisadi ziyan tədqiq edilir. Məqalədə Azərbaycana COVİD-19 pandemiyasının təsiri dinamikası araşdırılır. Azərbaycanın turizm sektoru təhlil olunur, 2020-ci ildə müşahidə olunan mənfi dinamika aylar və kvartallar üzrə araşdırılır. Məqalənin nəticələr hissəsində post pandemiya dövründə turizmin inkişafı üçün bir sıra təkliflər irəli sürülür.*

***Açar sözlər**: koronavirus pandemiyası, turizm sektoru, beynəlxalq turizm gəlmələri, post pandemiya dövrü*

## GİRİŞ

2020-ci ilin əvvəlindən başlayan koronavirus pandemiyası demək olar ki, dünya təsərrüfatının bütün sahələrinə təsirini göstərmişdir, bunun nəticəsində dünya üzrə ÜDM 3% azalmışdır, bir çox sahələr böhran vəziyyətilə üzləşmişdir. Ən çox zərbə dəyən sahələrdən biri də turizmdir, hətta demək olar ki, İkinci Dünya Müharibəsindən sonrakı zamanda turizm sektorunda belə böhran olmamışdır.

Baş verən hadisələr turizm sektorunda bir sıra dəyişikliklərə səbəb oldu (sektorda rəqəmsallaşma proseslərinin intensivləşməsi, müasir texnologiyaların fəal tətbiqi, müştərilərə fərdi yanaşma, kütləvi turizmdən fərdi və ya azsaylı turist qruplarına keçid, turizm marşrutlarının coğrafiyasının genişləndirilməsi, turistlər üçün yeni qaydaların tətbiq olunması, turizm məhsulunun ekoloji aspektinin güclənməsi və s.), hələlik sektorun nə vaxt bərpa olunmasını proqnozlaşdırmaq çətindir, lakin mütəxəssislər belə hesab edirlər ki, 2019-cu ilin göstəricilərini əldə etmək ən tez 2023-cü ildə baş verə bilər, təbii ki, bizi yeni fors-majorlar gözləmirsə. Onu da qeyd etmək olar ki, post pandemiya dövründə ümumilikdə istehlak psixologiyası və dünyagörüşü dəyişəcək, bu da turizmin təşkilinə öz təsirini göstərəcək.

Azərbaycanda son illər turizmin inkişafı üçün yeni dönəm yaranmışdır, lakin 2020-ci ilin koronavirus pandemiyası milli turizm bazarına öz neqativ təsirini göstərdi. Məqalədə Azərbaycanın turizm bazarında baş verən dəyişikliklər təhlil olunur və sektorun gələcək inkişafı üçün bir sıra tövsiyyələr verilir.

### Pandemiyanın dünya turizm bazarına təsiri

Turizm bir sıra sahələrlə bilavasitə əlaqəlidir, o cümlədən, nəqliyyat, tikinti, yaşayış, ictimai iaşə, əyləncə, səhiyyə, əlaqə və ticarət sahələri ilə, bu səbəbdən turizm sektoru böyük iqtisadi və sosial mahiyyətə malikdir. Turizm sektoru iş yerlərinin yaradılması və məşğulluğun təmin olunmasında da müstəsna rol oynayır, o, dövlət büdcəsinin əsas mənbələrindən biri kimi çıxış edir. Müasir turizm özündə bir sıra ixtisaslaşmış müəssisə və təşkilatları ehtiva edir, o cümlədən:

- turagent və turoperatorlar;

- turistlərin yerləşdirilməsilə məşğul olan müəssisələr;
- ictimai iaşə müəssisələri;
- nəqliyyat sahəsinin şirkətləri;
- əyləncə sektorunun müəssisələri;
- reklam agentlikləri və informasiya mərkəzləri;
- ticarət müəssisələri.

Deməli, turizmdə baş verən dəyişikliklər bütün sadalanan sahələrə öz təsirini göstərəcək, çünki onlar turizm məhsulunun yaradılması prosesində birgə iştirak edirlər. Bu səbəbdən, turizmə təsir edən amilləri tədqiq və təhlil etmək zəruridir.

Ümumiyyətlə, turizmə təsir edən amilləri iki böyük qrupa ayıra bilərik: dinamik və statik amillər. Dinamiki amillər kimi aşağıdakıları qeyd edə bilərik:

**1.** Demoqrafik amillər (əhalinin ümumi artımı; əhalinin yaş strukturundakı dəyişikliklər, o cümlədən, bir sıra ölkələrdə müşahidə olunan əhalinin yaşlanması; urbanizasiya, əhalinin miqrasiyası və s.).

**2.** İqtisadi amillər, o cümlədən, gəlirlərinin artması, gəlirlərin və xərclərin strukturu, inflyasiya, valyutanın stabilliyi və s.

**3.** Sosial amillər, yəni əhalinin rifah halı, turizm imkanlarının dərk olunmasının artması və s.

**4.** Elmi-texniki tərəqqi, o cümlədən, informasiya kommunikasiyalarının və İnternetin inkişafı;

**5.** Mədəni amillər, o cümlədən, milli adət ənənələr, dəyərlər sistemi, mentalitet və s.

**6.** Beynəlxalq amillər, o cümlədən, ayrı-ayrı ölkələr arasında münasibətlər, qloballaşma prosesi və s.

Dinamik amilləri izləmək, onları tədqiq və təhlil etmək, onların inkişafı əsasında proqnozlar vermək mümkündürsə, statik amilləri nəzarət etmək və əvvəlcədən onların təsirini proqnozlaşdırmaq mümkün deyil ki, bu da adı çəkilən amillərin təsiri ilə bağlı çoxsaylı problemlər yarada bilər. Bu amillərə coğrafi, mədəni-tarixi və təbii-iqlim amilləri aiddir. Turizm sektorunun xüsusilə təbii fəlakətlərdən və müxtəlif fors major xarakterli hadisələrdən asılılığı dərəcəsi kifayət qədər yüksəkdir.

Belə amillərdən biri də 2019-cu ilin sonundan Çindən yayılmağa başlayan yeni virus oldu. Çinin uhan şəhərində ilk dəfə qeydə alınan və COVİD-19 adlandırılan virus hazırda dünyanın 221 ölkəsində mövcuddur, yoluxanların sayı isə artıq 90 milyon nəfəri keçib. Virusdan ölənlərin sayı 2 milyona yaxındır, sağalanların sayı isə 65 milyona yaxın. Yoluxanların sayına görə ilk 10 ölkələrin siyahısına daxildir: ABŞ, Hindistan, Braziliya, Rusiya, Böyük Britaniya, Fransa, Türkiyə, İtaliya, İspaniya və Almaniya [14].

Virus yüksək yoluxma sürəti ilə fərqlənir, bu səbəbdən, onun yayılmasının qarşısını almaq üçün bir çox ölkələr özünü təcrid siyasətini seçdilər və öz hava məkanlarlarını müvəqqəti bağladılar. Covid-19 yalnız insanların səhhətinə deyil, həm də dünya iqtisadiyyatına böyük zərbə vurdu.

Asiya İnkişaf Bankının (AİB) 2020-ci ilin may ayında verdiyi proqnoza görə SARS-CoV-2 koronavirus pandemiyasından qlobal iqtisadi itkilər 8,8 trilyon dollar və ya qlobal ÜDM-in 10%-ni təşkil edə bilər. ABŞ ekspertlərinin oktyabr ayında təqdim etdikləri hesabata görə, uzunmüddətli təsiri nəzərə alaraq, Amerika iqtisadiyyatı koronavirus pandemiyası səbəbiylə 16 trilyon dollardan çox itirəcək. Avropa iqtisadiyyatı da pandemiyadan ən çox zərər çəkən ölkələr siyahısındadır. Bloomberg-in ekspertlərinin fikrinə görə, ən azı 2022-ci ilə qədər qlobal ÜDM böhrandan əvvəlki səviyyəsinə çatmayacaq.

Pandemiyadan zərər çəkən əsas sahələrə turizm, mehmanxana biznesi, qeyri-ərzaq məhsullarının satışı, reklam biznesi, aviaşirkətlər aiddir. Əsas zərbə turizm sektoruna dəydi, çünki bir çox ölkələr hava sərhədlərini ya tam, ya da qismən bağladılar və çox ciddi məhdudiyyətlər tətbiq etdilər. Beynəlxalq

turizm bəlkə də ən çətin dövrünü yaşayır. Bir çox şirkətlər böhrana tab gətirə bilmirlər və öz fəaliyyətlərini məhdudlaşdırırlar. Məsələn, yaşayış yerlərinin kirayəsi xidmətini göstərən Airbnb şirkəti pandemiya səbəbilə bir neçə yüz milyon dollar itirdi və itkilərini qismən azaltmaq məqsədilə tamamilə marketinq xərclərindən imtina etdi. Bu isə, təbii ki, şirkətin gələcək fəaliyyətinə öz təsirini göstərəcək. Bir çox şirkətlər işçilərin ixtisarı qərarını verir, nəticədə dünya üzrə milyonlarla iş yerləri bağlanır, işsizliyin sayı günbəgün artır ki, bu da pandemiyanın yaratdığı qlobal problemlərdən biridir [11].

Ümumdünya Turizm Təşkilatı olan UNWTO-nun dərc etdiyi Barometrə görə [12] 2020-ci ilin yanvar-oktyabr ayları üzrə beynəlxalq turizm gəlmələri 2019-cu ilin uyğun müddəti ilə müqayisədə 72% aşağı düşmüşdü. Əsas səbəbi isə təşkilat virusun yüksək yoluxuculuğunu, səyahət edənlərin sağlamlıqlarına görə narahatçılığını, ölkələr arası səyahət məhdudiyyətlərinin olması ilə izah edir. Ilin ilk 10 ayı üzrə beynəlxalq turizm gəlmələrinin sayı 900 milyon nəfər azalmışdı (2019-cu ilin müvafiq müddəti ilə müqayisədə) və beynəlxalq turizmin itkiləri 935 milyard ABŞ dolları təşkil etmişdi, bu isə 2009-cu ilin maliyyə böhranı zamanı olan itkilərdən 10 dəfə çoxdur.

Regionlar üzrə beynəlxalq turizm gəlmələrinin sayı cədvəl 1-də verilib.

Cədvəldən göründüyü kimi, 2020-ci ilin oktyabr ayına qədər olan məlumatlara görə, 2019-cu illə müqayisədə, dünya üzrə beynəlxalq turizm gəlmələrinin sayındakı azalma - 71.9% təşkil edirdi, o cümlədən, inkişaf etmiş iqtisadiyyatlar üzrə bu göstərici -71.6% təşkil edirdisə, turizm sektorundan daha çox asılı olan inkişafda olan iqtisadiyyatlar üzrə azalma faizi daha yüksək olmuşdu -72.2%. Regionlar üzrə təhlillər aparaq, cədvəldən gördüyümüz kimi ən yüksək geriləmə Asiya və Sakit okean regionu üzrə müşahidə olunub – 82.3%, ikinci yerdə Orta Şərq – 73.4%, sonra Afrika - 68.6, Avropa - 68.5, sonuncu isə Amerika regionudur – 67.7%.

**Cədvəl 1**

**Regionlar üzrə beynəlxalq turizm gəlmələrinin sayı** [12]

| | Milyon Nəfər | %-lə | 2020-ci il, %-lə 2019-cu ilin müvafiq müddəti ilə fərq | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2019 | 2019 | Hazır adək | Q1 | Q2 | Q3 | İyun | İyul | Avqust | Sentyabr | Oktyabr |
| Dünya | 1459 | 100 | -71.9 | -28.5 | -94.6 | -78.6 | -91.2 | -79.6 | -76.7 | -79.6 | --83.4 |
| İnkişaf etmiş iqtisadiyyat | 776 | 53.2 | -71.6 | -29.9 | -94.4 | -74.4 | -89.9 | -75.4 | -71.7 | -76.6 | --81.9 |
| İnkişafda olan iqtisadiyyat | 683 | 46.8 | -72.2 | -27.2 | -94.8 | -84.1 | -93.0 | -85.3 | -83.4 | -83.6 | --85.1 |
| Avropa | 744.2 | 51.0 | -68.5 | -20.8 | -93.4 | -69.6 | -88.1 | -71.0 | -66.8 | -71.5 | --76.1 |
| Asiya və Sakit okean | 360.7 | 24.7 | -82.3 | -48.9 | -98.1 | -96.3 | -98.0 | -95.9 | -95.6 | -97.5 | --97.2 |
| Amerika | 219.2 | 15.0 | -67.7 | -16.7 | -92.7 | -86.3 | -91.7 | -88.2 | -87.3 | -82.6 | --80.9 |
| Afrika | 69.9 | 4.8 | -68.6 | -14.1 | -90.4 | -88.0 | -91.1 | -89.5 | -86.5 | -87.9 | --87.4 |
| Orta Şərq | 65.1 | 4.5 | -73.4 | -21.6 | -99.1 | -93.0 | -98.8 | -93.8 | -93.3 | -91.5 | --92.4 |

2020-ci ilin üç kvartalı üzrə təhlillər aparsaq, ən az geriləmə pandemiyanın yeni başlaması səbəbindən I kvartalda (Q1) müşahidə olunur- dünya üzrə - 28.5%, inkişaf etmiş iqtisadiyyatlar üzrə bu göstərici – 29.9 % , inkişafda olan iqtisadiyyatlar üzrə isə - 27.2% təşkil etmişdi, yəni inkişaf edən iqtisadiyyatlara ilk kvartalda pandemiyanın təsiri daha yüksək olmuşdu. Regionlar üzrə müqayisə

göstərir ki, Asiya və Sakit okean regionunda (xüsusilə, koronavirusun təsirinə ilk məruz qalmış Çində) azalma -48.9% təşkil etmişdir ki, bu da 2020-ci ilin ilk kvartalının ən yüksək geriləmə nəticəsidir.

Kvartallar üzrə ən yüksək geriləmə ikinci kvartala (Q2) düşmüşdü ki, bu kvartalı təhlil olunan il üzrə ən böhranlı müddət adlandıra bilərik, dünya üzrə azalma - 94.4% təşkil etmişdir və ümumiyyətlə,bütün regionlarda azalma faizi doxsan faizdən yuxarı olmuşdur.

Üçüncü kvartalda (Q3) beynəlxalq turizm gəlmələrində geriləmə faizi dünya üzrə -78.6% təşkil etmişdir, o cümlədən, inkişaf etmiş iqtisadiyyatlar üzrə bu göstərici – 74.4 %, inkişafda olan iqtisadiyyatlar üzrə isə - 84.1% olmuşdur. Göstəricilərin aylar üzrə təhlil göstərir ki, ən böhranlı aylar iyun (-91.2%) və oktyabr (-83.4%) ayları olmuşdur.

**Azərbaycanda turizm sektorunun inkişafı**

Turizm – biri-birilə qarşılıqlı əlaqədə olan elementlərdən ibarət mürəkkəb sosial –iqtisadi sistemdir. Bu sistemin əsas elementlərinə müəyyən müddət ərzində səyahət edən vətəndaşlar (turistlər); turoperator və turagent fəaliyyəti ilə məşğul olan təşkilatçı-vasitəçilər; səyahət zamanı yaranan münasibətlərin məcmusu; turizmin infrastrukturu və s. aiddir:

Turizmin ölkə iqtisadiyyatına təsirinə nəzər yetirək. Bir çox tədqiqatçılar [5,6,7] öz araşdırmalarında turizmin iqtisadiyyata təsirinin əsas göstəricisi kimi əcnəbi turistlərin xərclərinin həcmini qeyd edirlər. Müəlliflər turizmin ölkə iqtisadiyyatına təsiri dərəcəsini müəyyən etmək üçün "iqtisadi effekt" anlayışından istifadə edirlər. Əldə olunan əsas iqtisadi faydalar kimi valyuta daxilolmaları; gəlirlərin formalaşması; məşğulluğun artması; iqtisadi strukturların təkmilləşdirilməsi və sahibkarlığın stimullaşdırılması qeyd olunur.

Turizmin ölkə iqtisadiyyatına müsbət təsiri Hjalager Anne-Mette, İ.İlicin, A.Nikolicin [9,10] əsərlərində öz əksini tapmışdır. N.Pirojenkonun [7] fikrinə görə, "bir çox ölkələrdə turizm ÜDM-in formalaşmasında, əlavə iş yerlərinin yaradılmasında və məşğulluğun təmin olunmasında, xarici-ticarət balansının aktivləşdirilməsində müstəsna rol oynayır". Son illərdə turizm dinamik inkişaf etməklə yanaşı həm də innovativ sahə kimi xarakterizə olunur [9].

Müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi turizmin coğrafiyasını genişləndirmiş və onun inkişafına yeni təkan vermişdir [10]. Kabirov İ. və Kvartalnov V. qeyd edirlər ki, "turizm regionun (ölkənin) iqtisadiyyatına güclü təsir göstərir, turizm xidmətləri sektoru yeni iş yerləri yaradır, milli iqtisadiyyatın inkişafının katalizatoru kimi çıxış edir; milli gəlirin artımının, məşğulluğun və infrastrukturun inkişafının, yerli əhalinin həyat səviyyəsinin yüksəldilməsinin multiplikatoru kimi çıxış edir" [5,6].

Azərbaycanda turizmin inkişafı üçün güclü potensial mövcuddur. Zəngin təbii resursları, əlverişli coğrafi mövqeyi, mülayim iqlimi, qədim tarixi məbədləri və abidələri, əsrlərdən gələn mədəni irsi və qonaqpərvərliyi, dadlı və zəngin mətbəxi – turizmin inkişafına təkan verən amillərə aid etmək olar [3,4]. Lakin uzun illər ərzində ölkəmizdə turizm prioritet sahə sayılmamışdır, zəngin neft resurslarının mövcudluğu Azərbaycanı ümumdünya məkanında neft ixracatçısı olan ölkə kimi mövqeləşdirmişdi.

Turizmin müasir inkişafı Azərbaycanın dövlət müstəqilliyi əldə etdiyindən sonra (1991-ci ildən) başlamışdır. Müstəqilliyin ilk illərində ölkəmiz çoxsaylı problemlərlə üzləşmiş və demək olar ki, iqtisadiyyatın bütün sahələri üzrə göstəricilər aşağı düşmüşdür. Vəziyyəti daha da çətinləşdirən və turizmin inkişafına da bilavasitə təsir göstərən amillərdən biri də Azərbaycanın hərbi təcavüzə uğraması və müharibə şəraitində olması idi.

Iqtisadiyyatda dönüş nöqtəsi 1994-cü ildən bir neçə xarici ölkələrin şirkətlərinin iştirakı ilə "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin bağlanması ilə başladı. İlk olaraq neft sahəsinin inkişafı və ixracatını nəzərdə tutan müqavilə, neft sahəsindən əldə olunan gəlirlərlə qeyri-neft sektorlarının (o cümlədən, turizmin) inkişafını da nəzərdə tuturdu [8].

Ölkəmizdə və regionlarda turizmin inkişafı üçün zəruri şəraitin yaradılması məqsədilə turizm sahəsinin tənzimlənməsinin normativ-qanunverici aktlarına "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununu (1999-cu il), "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafı" (2002-ci il), "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər)", "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair" Dövlət Proqramlarını, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası (2012-ci il), "İxtisaslaşmış turizmin inkişafı üzrə strateji yol xəritəsi"ni (2016-cı il) aid etmək olar [1].

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2019-cu ildə ölkəyə 3 milyon 170,4 min nəfər turist səyahət etmişdir ki, bu da 2018-ci ilin göstəricisindən 11,3% çox idi. Turistlərin sayını əks edən statistik məlumatlar 2 cədvəldə əks olunub.

**Cədvəl 2**

**Azərbaycana gələn və ölkədən gedən turistlərin sayı, min nəfər** [2]

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycana gələn əcnəbilərin sayı | 1962.9 | 2239.2 | 2484.1 | 2508.9 | 2297.8 | 2006.2 | 2248,8 | 2696.7 | 2849.6 | 3170.4 |
| O cümlədən, səfərin məqsədinə görə | | | | | | | | | | |
| Turizm, O cümlədən | 1279.8 | 1561.9 | 1985.9 | 2129.5 | 2159.7 | 1921,9 | 2044,7 | 2454.0 | 2605.3 | 2863,5 |
| istirahət, əyləncə turizmi | 661.7 | 519.8 | 687.8 | 705.2 | 709.9 | 668,8 | 697.1 | 839.3 | 1042.4 | 1164,0 |
| işgüzar turizm | 547.6 | 591.9 | 595.3 | 648.9 | 670.5 | 632,3 | 691.7 | 834.4 | 787.4 | 850,5 |
| müalicə turizmi | 14.1 | 33.3 | 43.0 | 46.2 | 46.3 | 36,5 | 41.5 | 49.1 | 63.1 | 63,9 |
| dini turizm | 10.2 | 10.5 | 13.2 | 13.7 | 13.7 | 11,5 | 12.6 | 14.7 | 15.3 | 16,6 |
| qohumların ziyarəti | ... | 374.7 | 607.8 | 673.7 | 677.1 | 542,0 | 562.0 | 674.9 | 651.6 | 719,9 |
| digər turizm məqsədilə | 46.2 | 31.7 | 38.8 | 41.8 | 42.2 | 30,8 | 39.8 | 41.6 | 45.5 | 48,6 |
| digər məqsədlə | 683.1 | 677.3 | 498.2 | 379.4 | 138.1 | 84,3 | 204.1 | 242.7 | 244.3 | 306,9 |
| Ölkəni tərk edən Azərb. vətəndaşları | 3,175.6 | 3550.2 | 3874.4 | 4284.7 | 4244.3 | 4095.8 | 4281,8 | 4108.9 | 4908.1 | 5567.7 |

Azərbaycana 2019-cu ildə turizm məqsədilə gələnlərin sayı 2863500 nəfər olmuşdur ki, bu da 2018-ci ilin müvafiq göstəricisindən 1.1 dəfə çox idi, turistlərin əksər hissəsi (40.6%) istirahət və əyləncə məqsədilə, 29.7% işgüzar məqsədlərlə, 25.1% qohumların və dostların ziyarəti, 2.2%- müalicə məqsədilə, 0.6%- dini məqsədlə, 10.7%- digər məqsədlərlə səfər etmişlər.

Ölkəni tərk edən Azərbaycan vətəndaşlarının 2019-cu ildə sayı 5567700 nəfər olmuşdur ki, bu da 2018-ci ilin göstəricisindən 13.4% artıqdır, o cümlədən, gedənlərin 27.5% istirahət və əyləncə

məqsədilə, 22% işgüzar məqsədlərlə, 20.6% qohumların və dostların ziyarəti, 7%- müalicə məqsədilə, 6%- dini məqsədlə, 16.9%- digər məqsədlərlə səfər etmişlər.

**Azərbaycanın turizm sektoruna pandemiyanın təsiri**

Bütün dünyada olduğu kimi, Azərbaycanın da turizm sektoruna pandemiyanın böyük ziyanı dəydi. Ölkədə ilk yoluxma halı 2020-ci ilin fevral ayında qeydə alınmışdı. İlk yoluxanlar İrandan gələn ölkə vətəndaşları idi, yoluxma halları təsdiqlənəndən sonra ölkənin İranla olan sərhədinin iki həftə müddətinə bağlanmasına qərar verildi. Təbii ki, o vaxtlar COVİD-19 nə qədər təhlükəli və yoluxucu virus olduğu hələ aydın deyildi, və bu vəziyyətin nə qədər davam edəcəyini heç kim proqnozlaşdıra bilməmişdi. Martın əvvəllərində ölkəyə daxil olan İran məhsullarına qadağa qoyuldu, həmin vaxtlarda əhalinin təhlükəsizliyini qorumaq və virusun yayılmasının qarşısını almaq üçün ölkədə yerləşən bütün təhsil müəssisələrində bir həftəlik tətil elan olundu, sonradan müddət martın 27 qədər uzadıldı. Ölkəmizdə yeni koronavirusdan ilk ölüm halı martın 12 öz təsdiqini tapıb, martın 14 isə ölkəmizdə sosial təcrid tədbirləri həyata keçirilməyə başladı, kütləvi tədbirlərə qadağa qoyuldu, insanlara "Evdə qal" şüarı ilə müraciətlər oldu, ölkənin quru və hava sərhədləri müvəqqəti bağlandı. Ölkəmizdə COVİD-19 virusuna yoluxanların sayı cədvəl 3 əks olunub.

**Cədvəl 3**

**Azərbaycanda COVİD-19 yoluxanların gündəlik Dinamikası** [14]

| **Tarix** | 30.03 | 30.04 | 31.05 | 30.06 | 31.07 | 31.08 | 30.09 | 31.10 | 30.11 | 31.12 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Say** | 64 | 38 | 248 | 556 | 318 | 126 | 110 | 1022 | 2981 | 1052 |

Cədvəldən göründüyü kimi, yoluxanların sayı oktyabr ayından artmağa başlamış və dekabr ayında öz pik nöqtəsinə çatmışdır (9 dekabrda indiyə qədər ən yüksək gündəlik yoluxma sayı qeyd olunmuşdu – 4403 nəfər). Hazırda 224827 nəfər yoluxma sayı ilə Azərbaycan 221 ölkə arasında 45 – ci yerdədir (ölənlərin sayı 2926, sağalanların sayı 209522, aktiv halların sayı isə 12379 nəfərdi).

Pandemiyanın ölkə turizminə təsirini təhlil edək. Təhlillərin aparılması üçün Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin 2020-ci il üçün ilk 6 aya görə təqdim etdiyi məlumatlara nəzər salaq (Şəkil 1). 2020-ci ilin yanvar ayı turizm üçün uğurlu olmuşdur, 2019-cu ilin müvafiq göstəricisi ilə müqayisədə Azərbaycana gələn turistlərin sayı 18.1% artaraq 226200 nəfər təşkil etmişdir, ölkəmizə ən çox səyahət edənlər isə Rusiya (+20.5%), Gürcüstan (+14.6%), Yaxın Şərq ölkələri (+20.8%), Türkiyə (+12.1%) və İran (+26.5%) idi.

Turizm gəlmələrinin saylarındakı artım fevral ayında da davam edirdi, ümumiyyətlə, səyahətlər üçün çox da uyğun olmayan fevral ayında ölkəyə gələn turistlərin sayı 15.8% artmışdır, ən çox turist Gürcüstandan -59000 nəfər (+11.4%) və Rusiyadan -55000 nəfər (+23.3%) gəlmişdir. Türkiyədən gələnlərin sayı 23600 nəfər (+5.9%), Yaxın Şərqdən gələnlərin sayı 16900 nəfər (+11.2%), İrandan gələnlərin sayı isə 13400 nəfər (+22.9%) olmuşdur. Ən yüksək artım Rusiyadan və İrandan gələn turistlərin sayında müşahidə olunur.

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin məlumatlarına görə, turizmin göstəricilərində kəskin azalma mart ayından başlayır, qeyd edək ki, mart ayı Azərbaycanda turizm üçün ən əlverişli zaman sayılır və bir çox turistlər Novruz Bayramı şənliklərini izləmək üçün ölkəmizə gəlir. Mart ayında Azərbaycana 93000 nəfər səyahət edib ki, bu da 2019-cu ilin müvafiq göstəricisindən 153000 nəfər və ya 62.2% azdır. Rusiyadan 35000 nəfər (-47%), Gürcüstandan 24600 nəfər (-60%), Türkiyədən 13200 nəfər (-47%), İrandan 4100 nəfər (-88.5%) turist ölkəmizə gəlib.

Aprel ayında da turizmdəki böhran davam edib və daha da dərinləşib, çünki bu ayda ölkəmizə cəmi 20000 turist gəlib ki, bu da 2019-cu illə müqayisədə 218000 və ya 91.7% azdır, Rusiyadan gələn

turistlərin sayı 90.3%, Türkiyədən gələnlərin sayı -79%, Gürcüstandan – 94.6%, İrandan – 78.5% azalmışdır.




**Şəkil 1. 2019-cu və 2020-ci illərin I yarımilində Azərbaycana gələn turistlərin sayı, min nəfərlə [13]**

May ayında da turizmdəki neqativ təmayüllər davam etmişdir, ölkəmizə 25000 əcnəbi turist gəlmişdir ki, bu da ötən ilin göstəricilərindən 89.9% azdır. Gələn turistlər Türkiyədən (-69%), Rusiyadan (-91,9%), İrandan (-70.7%) və Gürcüstandan (-93.7%) olmuşdur.

İyun ayında ölkəmizə 26000 turist səfər etmişdi ki, bu da 2019-cu illə müqayisədə 91.7% azdır, Türkiyədən gələnlərin sayında 59.9%, Rusiyadan – 94.8%, İrandan – 82.7%, Gürcüstandan -93.7% azalma müşahidə olunur.

## NƏTİCƏ

Apardığımız tədqiqatlar göstərir ki, koronavirus pandemiyası Azərbaycanda turizm sektoruna böyük ziyan vurmuşdu və bu proses hələ ki davam etməkdədi. Turizm və qonaqpərvərlik sektorunun post pandemiya dövründə inkişafı üçün sektorda yeni yanaşmalar, yeni strategiyalar tətbiq olunmalıdır. Fikrimizcə, pandemiyanın bitməsi və ölkələr arasında sərhədlərin açılması məqamına qədər turizm sənayesində xeyli tələb yaranacaq ki, bu tələb ilk olaraq daxili turizmin bərpası ilə ödəniləcək. Böhran nəticəsində əhalinin alıcılıq qabiliyyətinin azalmasını, buna görə də büdcə turlarına tələbin artmasını proqnozlaşdırmaq olar. Deməli turizm şirkətləri yeni təkliflər hazırlamaları, səylərini daxili səyahət seqmentində cəmləşdirməlidilər. Digər təmayüllər kütləvi turizmdən imtina, azsaylı qruplar və fərdi turların təşkili, səyahət zamanı təhlükəsizlik məsələlərinə ciddi əməl olunması, yeni qaydaların (o cümlədən, peyvəndlə bağlı) tətbiq olunmasını, ekoloji turizmə tələbatın artmasını göstərmək olar.

Ümumiyyətlə, post pandemiya dövründə milli turizmin inkişafı üçün aşağıdakı təklifləri irəli sürmək olar:

- Ilk növbədə daxili turizm bazarının inkişafı strategiyasının hazırlanması;
- Azbüdcəli, azsaylı və fərdu turların təşkili üçün yeni təkliflərin hazırlanması;
- Ekoloji turizmin inkişaf etdirilməsi;
- Səyahətlərin təhlükəsizliyinin yüksəldilməsi, yeni qaydaların tətbiqinə ciddi nəzarətin aparılması;
- Təklif olunan xidmətlərin rəqəmsallaşdırılması (QR-kodlardan, mobil proqramlardan, yeni texnologiyalardan istifadə olunması).

### *İstifadə edilmiş ədəbiyyat:*

**1.** “Azərbaycan Respublikasında İxtisaslaşdırılmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi 16 dekabr 2016-cı il

**2.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycanda Turizm, https://www.stat.gov.az/source/tourism, 2020

**3.** Гаджиева Л.А. (2017). Туризм в Азербайджане: статистический анализ и перспективы развития рынка. Журнал Экономика и предпринимательство, №3 (2), Москва, стр.329-332

**4.** Гаджиева Л.А., Гамидова Л.А. (2020). Особенности применения цифровых технологий в туризме. Proceedings of the İnternational Conference on Digital economy: modern challenges and real opportunities, Baku, 13-14 february 2020

**5.** Кабиров И. (2009). Влияние туризма на экономику страны. Актуальные проблемы экономики и права, №2, 64-67

**6.** Квартальнов В.А. (2003). Теория и практика туризма. М. Финансы и статистика, 672 стр.

**7.** Пироженко Н.Т. (2012). Государственное регулирование развития туризма на федеральном и региональном уровне. Электронный ресурс http://www.rusnauka.com /29_ NIOXXI_/Economics/15_116815.doc.htm

**8.** Hajiyeva L.A., Teymurova V. Analysis of the impact of the human capital on tourism development in Azerbaijan. 37th İnternational Scientific Conference on Economic and Social development – “Socio-economic Problems of Sustainable Development”, Location Baku, Azerbaijan, Date: FEB 14-15, 2019, Book series: İnternational Scientific Conference on Economic and Social development Pages 1579-1589, Published:2019

**9.** Hjalager Anne-Mette (2010). A review of innovation research in tourism. Journal of Tourism management, 31, 1-12

**10.** Ilic I., Nikolic A. (2018) Implications of modern technology development for the tourism sector of the republic of Serbia. Journal of Ekonomika, Vol.64, №1, p.37-52

**11.** Retno Andrini, Agni Alam Awirya, Rethinking Strategy in Tourism Sector amidst Covid-19 Pandemic. (2020), https://www.researchgate.net/publication/344167137

**12.** UNWTO World Tourism Barometer, 2020. (https://www.e-unwto.org/doi/epdf/10.18111/wtobarometereng.2020

**13.** https://tourism.gov.az/uploads/documents/statistic/_report

**14.** https://www.worldometers.info/coronavirus

**Л.А.Гаджиева**
*Доктор философии по экономике, доцент*
*Азербайджанский Государственный Экономический Университет*

## Туристический сектор Азербайджана в условиях пандемии: существующие проблемы и будущие перспективы

**Резюме**

*В статье исследуется негативное влияние пандемии коронавируса на мировую экономику, в особенности анализируется ущерб, нанесенный туристическому сектору. На основе данных международных организаций проводится анализ числа международных туристических прибытий по регионам, исследуется экономический ущерб, нанесенный отрасли. В статье также исследуется динамика воздействия пандемии COVİD-19 на Азербайджан. Анализируется туристический сектор страны, изучается отрицательная*

*динамика, наблюдаемая в 2020 году по отдельным месяцам и кварталам. В заключительной части статьи предлагается ряд предложений по развитию туризма в постпандемический период.*

***Ключевые слова**: пандемия коронавируса, туристический сектор, международные туристические прибытия, постпандемический период*

**L.A.Hajiyeva**
*PhD in Economics, Associate Professor,*
*Azerbaijan State University of Economics*

## The tourism sector of Azerbaijan in the pandemic conditions: existing problems and future prospects

**Abstract**

*The article examines the negative impact of the coronavirus pandemic on the global economy, in particular the damage done to the tourism sector. Based on data from international organizations, an analysis of the number of international tourist arrivals by region is carried out, and the economic damage caused to the industry is investigated. The article also examines the dynamics of the impact of the COVID-19 pandemic on Azerbaijan. The tourism sector of the country is analyzed, the negative dynamics observed in 2020 for individual months and quarters is studied. In the final part of the article, a number of proposals are proposed for the development of tourism in the post-pandemic period.*

***Keywords:** coronavirus pandemic, tourism sector, international tourist arrivals, post-pandemic period*

Construction economycs and menecment
2020, № 4 (13), pp. 155-163
N.S.Mammadova

**N.S.Məmmədova**
***magistrant, Roma Sapienza Universiteti***
**nazmamedova@mail.ru**

# AZƏRBAYCANIN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA TÜRKİYƏNİN YERİ VƏ ROLU

**Xülasə**

*Məqalədə Azərbaycan və Türkiyə arasında iqtisadi münasibətlərinin xüsusiyyətləri araşdırılmışdır. İki ölkə arasında idxal-ixrac əməliyyatlarının qarşılıqlı faydalı tərəfləri qeyd edilmiş, ticarət əməliyyatların həcminin illər üzrə dəyişməsi göstərilmişdir.*

*Ənənəvi olaraq enerji sahəsində davam edən sıx əməkdaşlıq müxtəlif istiqamətlər üçün əsas bazis rolunu oynayır. Bundan irəli gələrək digər sahələrdə də irəliləyiş əldə etmək mümkündür. Xüsusilə birgə istehsal müəssisələrinin yaradılmasına ehtiyac var. Buna görə də iki ölkə arasındakı qarşılıqlı əməkdaşlıq gücləndirilməlidir.*

***Açar sözlər:*** *ticarət dövriyyəsi, birgəs istehsal, güzəştli ticarət, enerji sektoru, investisiya*

## GİRİŞ

Qardaşlıq, tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib.

Son illərdə iki ölkə arasında xüsusilə iqtisadi münasibətlər yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın əsas məqsədi ilk növbədə onların malik olduqları təbii, maddi və intellektual potensialdan səmərəli istifadə etmək, hər iki ölkənin iqtisadi müstəqilliyini təmin edə biləcək bütün zəruri istehsal və həyati əhəmiyyət kəsb edən sahələrini genişləndirmək, başqa dövlətlərdən asılı olmayan inkişafını təmin etmək, öz daxili ehtiyatlarını ödəmək və dünya bazarına yüksək keyfiyyətli məhsul çıxarmaqdan ibarətdir. Azərabaycan-Türkiyə iqtisadi əlaqələrinin əsasında, hər iki ölkə üçün faydalı olan dərin iqtisadi inteqrasiyaya qovuşmaq, onların istehsal imkanlarını mühüm sosial-iqtisadi vəzifələrin həllinə yönəltmək məqsədi durur.

Azərbaycanın beynəlxalq iqtisadi əməkdaşlığında Türkiyə həmişə ön sırada olmuşdur. Xarici iqtisadi siyasətdə qardaş ölkə ilə əlaqələrin genişləndirilməsi prioritet istiqamətdir. Türkiyə ilə Azərbaycan arasında imtiyazlı ticarət əlaqələri malların qarşılıqlı çatdırılması ilə bağlı gömrük rüsumlarının endirilməsini nəzərdə tutur. Həmçinin Türkiyənin qida, sənaye, tekstil və elektronika məhsullarının ehtiyat hissələrinin bir qisminin Azərbaycanda istehsal olunması təşviq ediləcək. Hazırda bu istiqamətdə də tərəflər arasında danışıqlar davam etdirilir.

### Tədqiqatın Məqsədi

Tədqiqatin əsas məqsədi Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsini, idxal-ixrac əməliyyatlarını təhlil edərək inkişaf perspektivlərini dəyərləndirməkdir.

### Materiallar və Müzakirə

Müasir mərhələdə Azərbaycanın iqtisadi potensialının güclənməsi, reallaşdırılan diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə

müəssisənin fəaliyyətə başlaması təbii ki, ölkənin xarici iqtisadi əlaqələrində də müsbət meyillərə təkan verib. Belə ki, xarici ticarət əlaqələrin coğrafiyası genişlənib, ticarətin əmtəə strukturu təkmilləşib. Buna baxmayaraq iqtisadiyyatın strukturunda, xüsusilə xarici iqtisadi əlaqələrində onun xammal yönümlü olması qalmaqdadır. Əsasən də xammalların bərpa olunmayan növlərinin ixracı milli iqtisadiyyatın perspektivlərinin daha da artırılması məsələsini aktual edir.

Son dövrlərdə qlobal iqtisaiyyatda baş verən proseslər də onu deməyə əsas verir ki, ölkə iqtisadiyyatının xammal ixracı strukturunda uzun müddət saxlanması təhlükəlidir. Buna görə də dünya bazarına və beynəlxalq əmək bölgüsü sisteminə xammal ölkəsi kimi qoşulan Azərbaycan sonradan mövqeyini sürətli şəkildə dəyişməkdədir. Bu həm də yeni iqtisadi sistemin müasir çağırışlarla müşahidə edilən bazar iqtisadiyyatı münasibətlərinin formalaşması ilə şərtlənir [2, s.175]. İqtisadiyyatın bütövlükdə liberallaşdırılması, özəl sektorun yaranması və inkişafı xarici ticarət fəaliyyətində də öz əksini tapır.

Azərbaycanın xarici ticarət əlaqələrinin intensiv inkişafı xarici ticarət dövriyyəsində öz əksini tapır. Statistik məlumata görə ölkəmizin 233 ölkə ilə ticarət münasibətləri var. Bunlardan bir sıra ölkələr xüsusi ilə seçilir ki, onlardan biri də Türkiyədir (Cədvəl1) [8].

**Cədvəl 1**

**Azərbaycanın xarici ticarət dövriyyəsində əsas tərəfdaşların xüsusi çəkisi və yeri**

| Ölkələr | İllər üzrə xüsusi çəkisi, faizlə | | | | | | İllər üzrə yeri | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| İtaliya | 16,4 | 13,0 | 21,3 | 23,5 | 20,1 | 18,0 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| Türkiyə | 5,8 | 12,1 | 10,8 | 11,1 | 11,0 | 13,5 | 6 | 2 | 2 | 2 | 2 | 2 |
| Rusiya | 6,3 | 8,5 | 9,3 | 8,9 | 8,2 | 9,1 | 4 | 4 | 3 | 3 | 3 | 3 |

***Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı-2020***

Cədvəl 1-dən də göründüyü kimi 2015-ci ildən hal-hazıradək Azərbaycanın ticarət dövriyyəsində İtaliya 1-ci yerdə olmuşdur. Araşdırma göstərir ki, bu göstərici İtaliyaya xam neftin ixracl ilə əlaqədardır. İkinci yerdə Türkiyə, üçüncü yerdə isə Rusiya olmuşdur. Bu üç ölkənin Azərbaycanın xarici ticarət dövriyyəsində xüsusi çəkisi 40,6% təşkil edir. 2019-cu ildə növbəti yerləri isə 21841944,0 min ABŞ dolları ilə Çin (4-ci yer - 6,6%), 1642151,4 min ABŞ dolları ilə Almaniya ( 5-ci yer - 4,9%), 1402367,6 min ABŞ dolları ilə İsveçrə (6-cı yer - 4,2%), 1375302,5 min ABŞ dollar ilə İsveç (7-ci yer - 4,1%) və 1092520,3 min ABŞ dolları ilə (8-ci yer- 3,3%) Britaniya tutur.

Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi artan istiqamətdə inkişaf edir (Diaqram 1).




| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Türkiyə ilə Azərbaycan arasında xarici ticarət dövriyyəsi (min ABŞ dolları) | 1789134,2 | 2648642,1 | 2367241,2 | 2667578,7 | 3402809,7 | 4509496,1 |

**Diaqram 1. 2014-2019-ci illərdə Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsi (min ABŞ dolları)**

***Qeyd: Diaqram 1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2020-ci il hesabatı əsasında müəlliflər tərəfindən tərtib edilmişdir***

Diaqram 1-dən göründüyü kimi 2015-ci ildə Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsi 2014-cü ilə nisbətən 859,508 min ABŞ doları çox olsa da, 2016-cı ildə 2015-ci ilə nisbətən 281400,9 ABŞ doları azalmış, 2017-ci ildə isə yenidən yüksəlməyə başlamışdır. 2019-cu ildə isə 2018-ci illə müqayisədə 1106686,4 min manat artım baş vermişdir.

Cədvəl 2-də idxal göstəricilərinə nəzər yetirdikdə 2019-cu ildə Türkiyədən idxalın 1646801,5 min ABŞ doları ilə 2-ci yerdə olduğunu görürük. Rusiya 2290219,8 min ABŞ doları iləı 1-ci, Çin isə 1432031,4 min ABŞ dolları ilə 3-cü yerdədir [8].

**Cədvəl 2**

**Azərbaycanın idxalında əsas tərəfdaşların xüsusi çəkisi və yeri**

| Ölkələr | İllər üzrə xüsusi çəkisi, faizlə | | | | | | İllər üzrə yeri | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| Rusiya | 14,3 | 15,6 | 19,3 | 17,7 | 16,4 | 16,8 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| Türkiyə | 14,0 | 12,7 | 13,9 | 14,5 | 13,8 | 12,1 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| Çin | 7,7 | 7,5 | 4,6 | 5,1 | 5,8 | 10,5 | 4 | 4 | 6 | 6 | 3 | 3 |

***Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı-2020***

Azərbaycanın digər ölkələrlə müqayisədə Türkiyədən idxalının daha çox olmasının xüsusi əhəmiyyəti var. Çünki, Türkiyə ilə Azərbaycan arasında münasibətlər starteji səviyyədədir.

Cədvəl 3-dən də göründüyü kimi Azərbaycanın ixrac statistikasında 2019-cu ildə 2862694,6 min ABŞ dolları ilə Türkiyənin əsas yerlərdən birində olması (2-ci yer) ikitərəfli münasibətlərin və həyata

keçirilən iqtisadi siyasətin prakitiki göstəricisidir [8]. 1-ci yeri 5638641,8 min ABŞ dolları ilə İtaliya, 2-ci yeri isə 1331616,2 min ABŞ dolları ilə İsrail tutmuşdur.

**Cədvəl 3**

**Azərbaycanın ixracında əsas tərəfdaşların xüsusi çəkisi və yeri**

| Ölkələr | İllər üzrə xüsusi çəkisi, faizlə | | | | | | İllər üzrə yeri | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| İtaliya | 22,0 | 17,7 | 32,2 | 34,9 | 30,2 | 28,7 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| Türkiyə | 2,3 | 11,6 | 8,8 | 9,1 | 9,4 | 14,6 | 14 | 2 | 2 | 2 | 2 | 2 |
| İsrail | 8,1 | 6,3 | 4,9 | 4,2 | 6,7 | 6,8 | 4 | 5 | 4 | 3 | 3 | 3 |

***Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı-2020***

Diaqram 2-də 2014-2019-cu illərdə Türkiyə ilə Azərbaycan arasında mövcud olmuş idxal və ixracın ümumi həcmi (ABŞ min dolları ilə) verilmişdir.



| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Azərbaycanın ümumi idxalı (min ABŞ dolları | 9187697,6 | 9216677,1 | 8489140,4 | 8783301,4 | 11465914,7 | 13667237,8 |
| Türkiyədən idxalın həcmi (min ABŞ dolları) | 1286641,4 | 1171385,4 | 1181578,1 | 1273792,6 | 1576829,5 | 1646801,5 |
| Azərbaycanın ümumi ixracı (min ABŞ dolları) | 21828608,9 | 12729138,5 | 13457592,1 | 15319977,1 | 19489068,2 | 19635580,4 |
| Türkiyəyə ixracın həcmi (min ABŞ dolları) | 502492,8 | 1477256,7 | 1185663,1 | 1393786,1 | 1835980,2 | 2862694,6 |

**Diaqram 2. 2014-2019-cu illərdə Türkiyə ilə Azərbaycan arasında idaxl və ixracın həcmi (min ABŞ dolları)**

***Qeyd: Diaqram 2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2020-ci il hesabatı əsasında müəlliflər tərəfindən tərtib edilmişdir***

Diaqram 2-dən göründüyü kimi 2014-2019-cu illərdə Azərbaycanın ümmumi idaxl və ixracında artıb azalmalar mövcud olsa da Türkiyə ilə idxal-ixracda daima artım müşahidə edilir.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın əsas məqsədi ilk növbədə onların malik olduqları təbii, maddi və intellektual potensialdan səmərəli istifadə etmək, hər iki ölkənin iqtisadi müstəqilliyini təmin edə biləcək bütün zəruri istehsal və həyati əhəmiyyət kəsb edən sahələrini

genişləndirmək, başqa dövlətlərdən asılı olmayan inkişafını təmin etmək, öz daxili ehtiyatlarını ödəmək və dünya bazarına yüksək keyfiyyətli məhsul çıxarmaqdan ibarətdir. Azərabaycan-Türkiyə iqtisadi əlaqələrinin əsasında, hər iki ölkə üçün faydalı olan dərin iqtisadi inteqrasiyaya qovuşmaq, onların istehsal imkanlarını mühüm sosial-iqtisadi vəzifələrin həllinə yönəltmək məqsədi durur. Azərbaycan Respublikası da qardaş ölkə-Türkiyə ilə iqtisadi əlaqələrin genişlənməsinə çox böyük əhəmiyyət verərək bu istiqamətdə konkret işlər görməyə nail olmuşdur.

Azərbaycanda iqtisadiyyatın Türkiyə üçün müəyyən həlledici amilləri də vardır:

**1.** Azərbaycan Türkiyənin ixracat məhsullarını geosiyasi nöqteyi-nəzərdən Türkiyəni Qafqazda Rusiya və İran təzyiqindən qoruyan ölkədir.

**2.** Azərbaycan türk şirkətlərinin qazanc əldə etməsi üçün ucuz xammal və işçi qüvvəsinin olması baxımından əlverişli iqtisadi məkandır.

**3.** Azərbaycan Türkiyənin Orta Asiya ilə iqtisadi əlaqələrində əsas tranzit ölkədir.

Azərbaycanın beynəlxalq əməkdaşlığında Türkiyə həmişə ön sırada olmuşdur. Xarici iqtisadi siyasətdə qardaş ölkə ilə əlaqənin genişləndirilməsi prioritet istiqamətdir. Bundan başqa, tarixi İpək yolunun bərpası, kosmik rabitə sayəsində yeni telekommunikasiya şəbəkələrinin qurulması, Varnadan Durresə uzanan Şərq-Qərb nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Ceyhan və Transxəzər Şərq-Qərb enerji dəhlizi, Bak-Tbilisi-Kars dəmiryolu kimi layihələr həyata keçirilən nəhəng layihələrdir [3, s.123].

Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında 2010-cu il sentyabrın 15-də İstanbul şəhərində imzalanmış, 21 dekabr 2010-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş Birgə Bəyannamə Bakı-Ankara münasibətlərində yeni keyfiyyət dəyişiklikləri yaratmaqla yanaşı, bütün sahələrdə daha geniş və əhatəli addımların atılması üçün əlavə imkanlar formalaşdırır [4, s.56].

2017-ci ilin oktyabrında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri çərçivəsində imtiyazlı ticarət sazişinin imzalanması ilə bağlı iki ölkə arasında anlaşma memorandumu imzalanmışdır. 2018-ci ilin aprel ayında isə hökumətlərarası güzəştli ticarət haqqında sazişin müzakirəsi barədə anlaşma memorandumu imzalandı. Türkiyə ilə Azərbaycan arasında imtiyazlı ticarət əlaqələri malların qarşılıqlı çatdırılması ilə bağlı gömrük rüsumlarının endirilməsini nəzərdə tutur. Həmçinin Türkiyənin qida, sənaye, tekstil və elektronika məhsullarının ehtiyat hissələrinin bir qisminin Azərbaycanda istehsal olunması təşviq ediləcək. Hazırda bu istiqamətdə də tərəflər arasında danışıqlar davam etdirilir.

Qeyd etməliyik ki, bütün bunlarla yanaşı, Türkiyə Azərbaycanla elmi-tədqiqat sahəsində əməkdaşlığı genişləndirilməlidir. Xüsusilə iki qardaş dövlətin texnoparkları arasında əməkdaşıq da daha aktiv şəkildə həyata keçirilməlidir. Elmi-tədqiqat və texnoparklar arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi əlaqələrin genişlənməsi ilə yanaşı, təcrübə mübadiləsi üçün də önəmlidir. Dövlətlər arasında 2020 və 2022-ci illər çərçivəsində texnoparklar arasında təcrübə mübadiləsinin aparılması üçün qarşılıqlı səfərlər təşkil olunması nəzərdə tutulmuşdur.

Qarşılıqlı iqtisadi və ticari münasibətlərin inkişafı yalnız malların alqı-satqısı üzərinə köklənə bilməz. Bunun üçün isə ilk növbədə istehsal müəssisələrinin yaradılmasına ehtiyac var. Bu mənada iki ölkə arasındakı qarşılıqlı əməkdaşlığın gücləndirilməsi təqdirəlayiq addımdır. Türkiyə zəngin emal sənayesinə və ənənələrinə malik bir ölkədir. Qeyri-neft sektoru məhsullarının istehsalına görə dünyanın aparıcı ölkələrindən biri hesab olunur. Maşınqayırma, elektroenergetika, qida sənayesi böyük inkişaf yolu keçib. Türkiyədə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün geniş imkanlar yaradılıb. Son illər ərzində Azərbaycan da bu istiqamətdə ciddi addımlar atır. Post-neft dövründə qeyri-neft sektorunun inkişafı Azərbaycan üçün həyati əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, qeyri-neft sektorunun inkişafı prioritetlər sırasındadır. Xüsusən də Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini,

inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini gücləndirəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır [5, s.28].

İş adamları hər iki ölkənin qarşılıqlı sənaye təcrübəsinin inkişafını bölüşmək, əməkdaşlığını qiymətləndirmək və dünyada iqtisadi imkanlarla birlikdə hərəkət etmək üçün bilik və təcrübələrini bölüşməlidirlər [9, s.111].

İndi Azərbaycanda emal müəssisələrinin yaradılması və ümumiyyətlə investisiyaların yatırılması təşviq edilir. Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı ilə "investisiya təşviqi sənədi"nin verilməsi qaydaları təsdiqlənib [7].

Məqsəd investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 5.2-ci bəndinə uyğun olaraq investisiyaların təşviqi ilə bağlı mexanizmin təkmilləşdirilməsidir [1], [6].

Bütövlükdə götürdükdə, əməkdaşlıq hər iki tərəf üçün çox faydalı ola bilər. Xüsusilə, Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı istiqamətində Türkiyənin üzərinə ciddi öhdəliklər düşür. Bir qardaş ölkə kimi Türkiyə Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfə verə biləcək ölkədir. Bu sahədə onun imkanları kifayət qədər genişdir. Digər qonşu ölkələrlə müqayisədə, Türkiyə ilə əməkdaşlığın Azərbaycan üçün xüsusi strateji əhəmiyyəti də var. Hesab edirik ki, birgə əməkdaşlığın nəticəsi olaraq Azərbaycanda müvafiq istehsal sahələrinin yaradılması olduqca önəmli bir addımdır. Bir çox Türkiyə mallarının Azərbaycanda istehsal olunmasının müxtəlif iqtisadi üstünlükləri var. Hətta istehsal mühitinin formalaşdırılması üçün potensial da mövcuddur. Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsi kifayət qədər böyük həcmdədir. Azərbaycandan Türkiyəyə əsasən xammal şəklində alüminium kimyəvi maddələr, neft, qaz heyvan dəriləri, xam qurğuşun, pambıq ipliyi ixrac edilir [10 s.42]. Türkiyədən Azərbaycana daha çox elektronika, qida məhsulları və aqrar texnika idxal olunur. Tələb olunan məhsulların müştərək şəkildə Azərbaycanda istehsalı indiki halda, Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Çünki bu həm də türkiyəli investorların və oradakı böyük şirkətlərin Azərbaycana gəlişi deməkdir. İnvestisiya təkcə pul demək deyil. İnvestorlar özləri ilə buraya inkişaf etmiş təcrübələrini və potensiallı kadrlarını gətirəcək. Beləliklə, Azərbaycan həm də dünya təcrübəsini mənimsəyə biləcək. İstehsalın Azərbaycanda qurulması idxaldan asılılığın aradan qaldırılması baxımından da vacibdir. Çünki məhsullar artıq Azərbaycan daxilində istehsal olunacaq. Daxili bazarda istehsal olunduğuna görə, məhsulların qiyməti də münasib olacaq. İstehsalın Azərbaycanda qurulması həm də yeni iş yerlərinin açılması deməkdir. Bu gün hər bir ölkə kənardan özünə investisiya cəlb etməklə istehsalı öz ölkəsində qurmaq istəyir. Türkiyəli iş adamlarının və biznes mühitinin Azərbaycana gəlişi və burada istehsal mühitinin stimullaşdırılması real sektorun inkişafına əhəmiyyətli dərəcədə təsir edəcək. Qeyd etməliyik ki, Türkiyə ilə Azərbaycan birgə əməkdaşlığı təkcə Azərbaycan üçün deyil, Türkiyə üçün də əhəmiyyət kəsb edir. Son 5 il ərzində Azərbaycanda qurulan sənaye məhəllələri və texnologiya parkları kifayət qədər müasir avadanlıqlarla təchiz olunub. Eləcə də, qida sənayesi məhsullarının istehsalı və emal müəssisələri müasir standartlara cavab verir. Türkiyə şirkətlərinin texnoparklarda, yaxud yeni yaradılan müəssisələrdə fəaliyyət göstərəcəyi bəlli deyil. İstənilən halda Azərbaycanın kifayət qədər böyük potensialı var. Kadr çatışmazlığı ilə bağlı da Azərbaycanda demək olar ki problem yoxdur. Ölkələr arasında münasibətlərin inkişafı üçün qanunvericilik bazası da gücləndirilib. Yatırımların Azərbaycana gəlməsi üçün hər hansı ciddi maneə yoxdur.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Türkiyənin enerji sektoruna investisiya yatıran əsas ölkələrdən biridir. Belə ki, iki ölkə yeni qaz kəməri tikintisi təşəbbüsü ilə çıxış edərək, Trans-Anadolu Qaz Kəməri (TANAP) ideyasının əsasını qoymuş və onu reallaşdırmışdır. Bu enerji sahəsində effektiv əməkdaşlıq ənənələrinin olmasından irəli gəlirdi.

Belə ki, 2008-ci ildə SOCAR "Petkim"in səhmlərinin 51 faizini 2 milyard 40 milyon dollara satın alaraq Türkiyədə fəaliyyətə başladı. 15 əsas fabrik və 6 köməkçi təsisi ilə 3,6 milyon ton illik orta istehsal gücü ilə xammal tədarükçüsü olan SOCAR "Petkim" Türkiyənin ilk və tək inteqrasiya neft-kimya müəssisəsidir. 60-a yaxın neft-kimya məhsulu ilə yanaşı, plastik, kimya, qablaşdırma, boru, boya, tikinti, kənd təsərrüfatı, avtomobil, elektrik, elektronika, tekstil, habelə dərman, yuyucu və kosmetika kimi sahələrə də xammal veririr. Bu gün "Petkim" 55 illik keçmişi ilə Türkiyə iqtisadiyyatı və sənayesi üçün strateji əhəmiyyətə sahib, nəhəng bir gücdür.

2008-ci ildən bəri "Petkim" şirkətinə ildə, təxminən, 100 milyon dollar və bu günə qədər toplam 1 milyard dollar civarında əlavə investisya qoyulmuşdur.

Türkiyənin ən böyük xarici yatırımcısı "SOCAR-Türkiyə"nin sərmayələrinin məbləği yaxın zamanda 19,5 milyard dollara çatacaq. "SOCAR-Türkiyə"nin investisiya layihələri bir-birini tamamlayır. Bu anlayışla, daha səmərəli istehsal üçün bütün şirkətləri əhatə edən inteqrasiya prosesinə başlandı. "SOCAR-Türkiyə" Emal və Neft Kimya İş Birliyi, "SOCAR-Türkiyə" Qaz İş Birliyi, "SOCAR-Türkiyə" İnnovasiya və Texnologiya İş Birliyi və "SOCAR-Türkiyə" Logistika İş Birliyi yaradıldı.

Eyni zamanda Türkiyədə Azərbaycanın investisiya yolu ilə yaradılan regional əhəmiyyətli müəssisələri fəaliyyət göstərir. Buna misal olaraq, "Star" Nef Emalı Zavodunun adını çəkmək olar. Adı çəkilən müəssisə Türkiyə üçün çox böyük əhəmiyyətə malikdir.

"Petkim", STAR Neft Emalı Zavodu, SOCAR Depolama və İzmir Əliağadakı SOCAR Dağıtım şirkətləri "SOCAR-Türkiyə Emal və Neft Kimya İş Birliyi" adı altında toplandı. Qeyd edək ki, STAR NEZ bu inteqrasiyanın hər iki ölkə üçün hansı üstünlükləri gətirəcəyinin ən konkret göstəricisidir [11].

STAR NEZ isə Türkiyənin neft məhsullarına olan ehtiyacının 25 faizini tək başına qarşılayacaq bir investisiyadır. STAR NEZ sayəsində Türkiyə neft məhsulları idxalından hər il 1,5 milyard dollara yaxın qənaət əldə edir. Bir sözlə, bu investisiyalar strateji baxımdan da çox böyük uğur deməkdir [12, s. 42].

Araşdırmalar göstərir ki, son dövrlərdə Azərbaycan Türkiyə iqtisadiyyatına investisiya yatırdığı kimi, Türkiyə də müstəqilliyin ik illərindən başlayaraq bu günə kimi Azərbaycana böyük yatırımlar edir.

İki ölkə arasında ticarət əlaqələri və iqtisadi münasibətlər ilbəil daha da inkişaf etdirilir və strateji xarakter daşıyır.

**NƏTİCƏ**

Xarici iqtisadi əlaqələrin yaradılmasında Azərbaycanın əsas potensial partnyorlarından biri kimi qardaş Türkiyə Cümhuriyyəti çıxış edir. İki ölkə arasındakı əlaqələrin araşdırılması zamanı aydın oldu ki, müasir dövrdə Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq iqtisadiyyatın bir çox sahələrində inkişaf edir. Lakin son vaxtlar, Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq xüsusən xarici ticarət və investisiya qoyuluşu istiqamətlərində daha çox inkişaf edir. Beləki, Türkiyə ilə ticarət əlaqələrinin təhlili göstərir ki, bu ölkə Azərbaycanın xarici ticarət dövriyəsində xüsusi çəkiyə malikdir. Burada neft və qazın ixracı əsas yer tutsa da yaxın dövrlərdə qeyri-neft sektoru məhsullarının həcminin artırılması gözlənilir.

Azərbaycanda fəaliyyət göstərən birgə müəssisələrin yaradılması və məhsul istehsalında, eləcə də ixracında da türk ortaqlığı olan müəssisələrə önəm verilməlidir. Tələb olunan məhsulların müştərək

şəkildə Azərbaycanda istehsalı indiki halda, Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Çünki bu həm də türkiyəli investorların və oradakı böyük şirkətlərin Azərbaycana gəlişi deməkdir. İnvestisiya təkcə pul demək deyil. İnvestorlar özləri ilə buraya inkişaf etmiş təcrübələrini və potensiallı kadrlarını gətirəcək. Beləliklə, Azərbaycan həm də dünya təcrübəsini mənimsəyə biləcək. İstehsalın Azərbaycanda qurulması idxaldan asılılığın aradan qaldırılması baxımından da vacibdir. Çünki məhsullar artıq Azərbaycan daxilində istehsal olunacaq. Daxili bazarda istehsal olunduğuna görə, məhsulların qiyməti də münasib olacaq. İstehsalın Azərbaycanda qurulması həm də yeni iş yerlərinin açılması deməkdir. Həmçinin sahibkarların investisiya qoyuluşu və başqa iqtisadi fəaliyyət göstərmələri üçün hərtərəfli hüquqi təminat verilməklə yanaşı sərbəst ticarətin həyata keçirilməsi üçün şərait yaradılmışdır. Belə nəticəyə gəlmək olar ki,bu hüquqi təminatın möhkəmləndirilimısi sahəsində iki ölkənin iqtisadi sahədə hökümətlər səviyyəsində imzaladıqları anlaşmalar böyük əhəmiyətə malikdir.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumu (DEİK) arasında əməkdaşlığa dair 2020-2021-ci illəri əhatə edən Fəaliyyət Planı”

**2.** A. Qəribov, A. Əzizov, S. Əhmədova, “Beynəlxalq Ticarət Əməliyyatlari”, Dərs vəsaiti, Bakı, 2017, 256 səh.

**3.** Ş.Ş.Haciyeva, Türkiyə-Azərbaycan İqtisadi Əlaqələri, Bakı Universitetinin Xəbərləri, №2 Humanitar Elmlər Seriyası 2012, Səh.119-125

**4.** Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar (məqalələr toplusu), Bakı, 2011, 158 səh.

**5.** Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Bakı, 2016

**6.** “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”

**7.** Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli “İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” fərmanı

**8.** https://www.stat.gov.az/source/trade/

**9.** Türkiye ve Azerbaycan ekonomik işbirliğinde yeni ufuklar Sempozyumu, Bakü-Azerbaycan 2018, 137 s.

**10.** Ulviyye Aydın, Türkiye – Azerbaycan ilişkilerinin Son On Yılı (2006-2016): Kardeşlikten stratejik işbirliğine uzanan yol, Avrasya Uluslararası Araştırmalar Dergisi Cilt : 6 Sayı : 13 Sayfa: 38 - 62 Mayıs 2018 Türkiye

**11.** http://www.socar.az/socar/az/economics-and-statistics/economics-and-statistics/socar-reports – SOCAR-ın rəsmi saytı

**12.** Ərəstun Mehdiyev, Enerji Resurslarinin Nəqlində Azərbaycan Türkiyə Əməkdaşlığı: “Nabukko”dan “Cənub Qaz Dəhlizi”nə, AAM Derg., 2018; 34 (1): 97: 241-264

**Н.С.Мамедова**
*магистрант, Римский Университет Ла Сапиенца*

**Место и роль Турции в развитии внешнеэкономических отношений Азербайджана**

**Резюме**

*В статье исследуются особенности экономических отношений между Азербайджаном и Турцией. Отмечена взаимная выгода импортно-экспортных операций между двумя странами.*

*Показано, что объем торговых операций с годами менялся.*

*Традиционно тесное сотрудничество в области энергетики играет ключевую роль в различных сферах. Исходя из этого можно добиться прогресса и в других областях. В частности, есть необходимость в создании совместных предприятий. Поэтому необходимо укреплять взаимное сотрудничество между двумя странами.*

***Ключевые слова:*** *товарооборот, совместное производство, преференциальная торговля, энергетический сектор, инвестиции*

**N.S.Mammadova**
*master student, Sapienza University of Rome*

## The place and role of Turkey ın the development of foreıgn economıc relatıons of Azerbaıjan

### Abstract

*The article considers the specifics of economic relations between Azerbaijan and Turkey. Reciprocal benefits of import-export operations between two countries were noted, and changes in the volume of trade operations for different years.*

*Traditionally, close cooperation in the field of energy plays a key role in different areas. Based on this, both countries can achieve progress in other areas. In particular, there is a need to create joint ventures. Therefore, it is necessary to strengthen mutual cooperation between the two countries.*

***Keywords:*** *trade turnover, joint production, preferential trade, energy sector, investment*

**R.E.Novruzov**
***magistrant, Bakı Avrasiya Universiteti***
**rashadnovruzov9@gmail.com**

# ALMANİYADA KORPORASİYALARIN İDARƏ EDİLMƏSİNDƏ BANKLARIN İŞTİRAKI

**Xülasə**

*Məqalədə Almaniyanın şirkətlərinin idarəetmə quruluşu və həmin korporasiyaların idarə olunmasında bankların əhəmiyyətindən bəhs edilir. Həmçinin şirkətlərdə bankların Müşahidə Şurası kimi müəyyən hissəyə sahib olması şirkətlərin maliyyə risklərinin təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.*

***Açar sözlər:*** *bank, korporasiya, korporativ idarəetmə, Müşahidə Şurası, Direktorlar Şurası*

## GİRİŞ

Korporativ idarəetmə - biznesin təşkilati-hüquqi formasının idarə olunması, təşkilati srukturların optimallaşdırılması, qəbul olunmuş məqsədlərə müvafiq olaraq kompaniyanın firmalar arası və firma daxili münasibətlərinin qurulmasıdır.

Korporativ idarəetmənin başlıca funksiyası - mülkiyyətçilərin, başqa sözlə, korporasiya təşkil edən maliyyə resurslarının maraqları çərçivəsində korporasiyanın işinin təmin olunmasıdır.

Avropa təcrübəsində korporativ idarəetmədə bankların rolu xeyli artmaqdadır. Səsvermə hüququnun müəyyən hissəsinin banklarda cəmləşməsi korporasiyaların fəaliyyətində bankların təsirini gücləndirir. Belə idarəetmə şirkətlərdə maliyyə risklərini azadır və fəaliyyətdə həqiqi gəlirə üstünlük verilir. Buna əsasən bildirmək olar ki, Direktorlar Şurasında bankların payının olması təhlükəsiz fəaliyyətin təmin olunmasında əsas hesab olunur.

### Müşahidə Şurasının fəaliyyəti və idarəetmədə rolu

Müşahidə şurasının bəzi funksiyaları idarəetmə funksiyaları kimi interpretasiya oluna bilər. Müşahidə şurasının başlıca məsələsi şirkətin idarə olunmasının səriştəli menecerlərə etibar edilməsini təmin etməkdir. İcra şurasının üzvlərinin seçilməsi, zəruri halda isə işdən azad olunması müşahidə şuralarının mühüm vəzifələrindən biridir. Müşahidə şurası şura üzvlərini bərpa olunacaq iş müddətinə (hər biri beş ildən çox olmayaraq) təyin edir və korporasiya ilə menecer arasındakı kontraktın (ciddi səbəb üzrə) vaxtından əvvəl kəsilməsi hüququna yalnız müşahidə şurası malikdir. [1, s.54]

Avropa təcrübəsində Alman korporasiyalarının müşahidə şuralarının əksəriyyəti bu mülahizəyə qanuna zidd bir fərziyyə kimi etiraz edirlər. Bunun nəticəsində alman sistemi çərşivəsində müşahidə və nəzarət funksiyaları idarəetmə funksiyalarında asılı olmayaraq gərçəkləşdirilir. Almaniya müşahidə şuraları ali idarəetmə aparatının təyin edilməsindən əlavə, balans hesabatının, korporasiyanın illik hesabatının, iri kapital qoyuşlarının, və dividentlərin səviyyəsinin təsdiq edilmənə cavabdehdir. Buna görə, öz vəzifələrini səmərəli icra edən müşahidə şurası (korporasiyanın normal iş şəraitində) çox zaman hər rübdə bir iclas keçirdir. Bu iclaslar da rəsmi, "növbəli" xarakter daşıyır. Zəruri halda isə müşahidə şurası yetərincə fəal ola bilir və olur. [1, s.55].

Korporativ idarəetmə sistemi elə bir təşkilati modeli əks etdirir ki, onun köməyi ilə korporasiya öz səhmdarlarının maraqlarını təmsil və müdafiə etməlidir. Bu sistem mövcud qanunvericiliyə riayət olunması və beynəlxalq standartların nəzərə alınması əsasında gəlirlərin artırılması məqsədilə Direktorlar Şurası menecerlər və digər maraqlı şəxslərin qarşılıqlı fəaliyyəti və hesabatlılığı sistemidir.

Bu sistemdəki istiqamətlər aşağıdakı şəkildə bölüşdürülmüşdür:

- səhmdarlardan baş direktor və menecmentə kapital daxil olur, baş direktor və menecment səhmdarlara şəffaf maliyyə hesabatı təqdim etməlidirlər;
- səhmdarlardan direktorlar şurasının fəaliyyətinə nəzarət həyata keçirilir, direktorlar şurası isə səhmdarlara məlumatları və individual (şəxsi) hesabatları təqdim edirlər;
- baş direktor və menecment strategiyanın reallaşdırılması gedişində operativ verilənləri və məlumatları direktorlar şurasına təqdim edir, o isə öz növbəsində kompaniya və baş direktorun fəaliyyətinə nəzarəti həyata keçirir. [2, s.12].

**Almaniyada korporativ idarəetmədə bankların fəaliyyəti**

Almaniyada idarəetmədə bankların rolu müzakirələrdə əsas mövzulardan biri olub. Bir çoxunun fikrincə, şirkətin idarə edilməsinə və ona nəzarətdə banklar tərəfindən göstərilən güclü təsir bir sıra çatışmazlıqlarla bağlıdır. Bankın təsiri əsasən korporasiya fəaliyyətinin maliyyə aspektlərinə toxunur və iqtisadiyyatın səhmdar sektorunda bazara deyil, daha çox banklara yönəldilmiş sistemin yaradılmasına çalışır. Daha çox mühümdür ki, korporasiyanın kreditoru olan bank kapital qoyuluşlarının təhlükəsizliyi konsepsiyasının mənfəət konsepsiyasından üstün tutduğu investisiya proqramlarını təklif edə bilər. Başqa sözlə, bank mənfəətli və risk tələb edən imkanların gerçəkləşdirilməsinə mane ola bilər. Bank üçün həmsahiblik faktının açdığı işgüzar imkanlar daha əhəmiyyətlidir, nəinki onların verəcəyi dividentlər. Mahiyyətinə görə, korporasiyanın səhmdar kapitalında bankın iştirakı problemi yalnız dərinləşdirir: bank ümumi kapitaldakı öz payının qorunması üçün gəlirlərə deyil, "xırda, lakin həqiqi" pullara üstünlük verə bilər. [1, s.55].

Avropa təcrübəsi kimi, son zamanlar aparılan mübahisələrin əksəriyyəti Almaniyanın üç ən güclü bankının əlində hökmranlığın cəmləşməsi və iri şirkətlərin nümayəndələrinin bir-birinin müşahidə şuralarında mühüm dərəcədə "qarşılıqlı iştirak" probleminə aiddir.

Korporasiyanın idarəetmə sistemində bankların iştirakı, elə orada qulluqçuların fəal iştirakı kimi bu sistemni sırf "alman" atributudur. 1988-ci ilin göstəricilərinə görə, 9 iri bankın nümayəndələri yüz iri şirkətdən 96-nın müşahidə şurasında iştirak edib. Döyçe Bank, Drezdener Bank və Kommersbank universal bankların "böyük üçlüyü" bu şirkətlərdə bütün banklara məxsus olan yerlərin 61%-ni tuturdu və yerlərin 37%-dən çoxu yalnız Döyçe Bankın idarə heyətinin üzvlərinə verilmilşdir. [1, s.57].

Açıq tipli korporasiyaların ümumi səhmdar kapitalının 5%-dən çox olmayan hissəsi banklara məxsusdur və buna görə də bankların şuralarda belə fəal iştirakı onların səhmdar olması ilə o qədər də bağlı deyildir (baxmayaraq ki, ayrı-ayrı şirkətlərdə bu rəqəm 25%-dən də artıqdır). Bu iştirak daha çox bankların korporasiyalara münasibətdə kombinasiyalı mövqeyini əks etdirir: banklar həm səhmlərin sahibidir və həm də digər səhmdarların etimadlı şəxsləridir. Birlikdə bankların hamısı səhmdarların ümumi iclaslarında səslərin beşdə dördündən çoxunu təmsil edirlər (bu zaman səhmlərin fərdi sahiblərinin yalnıza 3%-i banklara səsvermə üzrə tapşırıq verilməsi hüquqlarından istifadə edir). Ayrıca götürülmüş bir qrup kimi banklar müşahidə şurasının tərkibinin (qulluqçuların nümayəndəliyi istisna olmaqla) müəyyənləşdirilməsi, alman şirkətlərinin əksəriyyətinin (xüsusilə də, səhmdar kapitalın daha çox xırdalandığı və səhmlərin iri sahiblərinin mövcud olmadığı şirkətlərdə) nizamnamə və təlimatlarında ediləcək dəyişikliklərin qarşısının alınması imkanına tam malikdir. [1, s.57].

Səsvermə zamanı bankların mövcud imkanları onların kənar maliyyə mənbəyi qismində oynadıqları rolun sayəsində artır. Əsas fondların alınması üçün bank ssudalarının istifadəsi üzrə göstəricilərin ciddi rejimdə variasiya (12%-dən "faktiki zəruri olan"a qədər) olunmasına baxmayaraq şübhəsiz ki, alman bankları kənar maliyyələşdirmə mənbələri axtaran şirkətlər üçün borc kapitalın çox mühüm təchizatçısıdır. Bundan əlavə, banklar digər maliyyələşdirmə kanallarının mühüm halqası olublar: məhz banklar yenidən buraxılan qiymətli kağızların yerləşdirilməsi ilə məşğul olur, korporasiyalar tərəfindən qeyri-bank, xarici və hökümət borcları alınan zaman onlara broker və

məsləhət xidmətləri göstərirlər. Əslinə alman bankları maliyyə "enerji"sinin əsas mənbəyi və "retranslyator"udur və bunu özləri də etiraf edirlər. Döyçe Bankın sabiq prezidenti Alferd Herrhauzen söyləmişdir: "Əlbəttə ki, hökmranlıq bizim əlimizdədir. Lakin məsələ onda deyil, həmin iqtidardan bizim necə istifadə etməyimizdədir". [1, s.58].

**NƏTİCƏ**

Bir qayda olaraq, alman şirkətləri arxalarında güclü kiminsə olmağına etiraz etmir, çox zaman özləri direktorlar şurasında banka yer təklif edirlər. Bank səhmdar kapitalın sahibi və korporasiyanın borcunun sahibi kimi öz müştərək rolunda bir çox şeyləri təklif edə bilər.: uzunmüddətli borcları, öz ekspertlərinin dərin təcrübəsini (xüsusən, maliyyə məsələlərində), eləcə də işgüzar əlaqələrin böyük bir şəbəkəsini. Bütün bunlar, müşahidə şurası, yaxud müşahidə şurası ilə icra şurası arasındakı rəsmi əlaqələr vasitəsilə bankların öz hökmranlığını və nüfuzunu gerçəkləşdirməsi demək deyil. Sadəcə, ona görə müşahidə şurasının iqtidarı çox məhdud olduğu üçün həmin nüfuz həmin nüfuz tam qüvvəsilə təzahür edilə bilməz. Bankların korporasiyalara təsiri çox zaman qeyri-formal rejimdə, idarəetmə prosedurlarının rəsmi kanallarından kənarda bank icra şurasının birbaşa təmaslarında baş verir. Korporasiyanın "iştirakçı"ları ola bilsin ki, bu təmaslarda korporasiyanın idarəedilməsi aktını deyil, işgüzar əlaqələrin davamını gördükləri üçün bu "məhrəmanilik" onlarda narahatlıq doğurmur.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** "Korporativ idarəetmə (Seçilmiş məqalələr)", Bakı, 2001
**2.** B.Ə.Orucəliyeva, İ.B.Əmirov "Korporativ idarəetmə", Bakı, 2012

**Р.Е.Новрузов**
*магистрант, Бакинский Евразийский Университет*

**Участие банков в управлении корпорациями в Германии**

**Резюме**

*В статье рассматривается структура управления немецкими компаниями и значение банков в управлении этими корпорациями. Также тот факт, что банки имеют определенную долю в компаниях, таких как Наблюдательный совет, играет важную роль в обеспечении безопасности финансовых рисков компаний.*

***Ключоые слова:*** *банк, корпорация, корпоративное управление, Наблюдательный совет, Совет директоров*

**R.E.Novruzov**
*master student, Baku Eurasian University*

**Partıcıpatıon of banks ın the management of corporatıons ın Germany**

**Abstract**

*The article discusses the management structure of German companies and the importance of banks in the management of these corporations. Also, the fact that banks have a certain share in companies, such as the Supervisory Board, plays an important role in ensuring the security of financial risks of companies.*

***Keywords:*** *bank, corporation, corporative management, Supervisory Board, Board of Director*

*Tikintinin iqtisadiyyatı və menecment*
*2020-ci il. № 4(13) -səh.167-175*
*E.N.Rəhimov*

*Construction economycs and menecment*
*2020, № 4 (13), pp. 167-175*
*E.N.Rahimov*

**UOT: 336**

**E.N.Rəhimov**
***doktorant, AMEA İqtisadiyyat İnstitutu***

# ƏNƏNƏVİ VƏ İSLAM BANKÇILIĞININ İQTİSADİ SƏMƏRƏLİLİYİ
## (Azərbaycan, İran və Türkiyə bank sektorlarının müqayisəli təhlili)

**Xülasə**

*Müsəlman ölkələrindəki bank qaydaları şəriət qanunlarına, yəni İslam cəmiyyətinin iqtisadi idarəetmə, sosial, siyasi və mədəni aspektləri ilə əlaqəli bir sıra qayda və qanunlara əsaslanır. Şəriət qanunları, əxlaqsız əməliyyatları da qadağan edir və risk və mükafatların paylaşılması və sosial investisiyaların qoyulması ilə təmin olunan sosial ədaləti təşviq edir. İqtisadi qloballaşma kontekstində bu fenomen artıq kifayət qədər qabarıqdır və ənənəvi bank sisteminin layiqli rəqibi hesab olunur. İslam bank qurumlarının fəaliyyətinin xüsusiyyətləri ənənəvi bank qurumları ilə müqayisədə üstünlüklərinə çevrilir. Bu səbəbdən İslam bankları, fəaliyyətlərinin xüsusiyyətlərinə və beynəlxalq təcrübəyə uyğunlaşma çətinliklərinə baxmayaraq qlobal maliyyə bazarının aktiv iştirakçılarına çevrildi. Məqalədə Azərbaycan, Türkiyə və İranda informasiya təhlükəsizliyinin inkişafı təcrübəsini nəzərdən keçiririk.*

***Açar sözlər**: İslam bankları, inkişaf, likvidlik, alt indekslər*

## GİRİŞ

Hələ 1911-ci ildə Şumpeter qeyd edirdi ki, iqtisadi artımın stimullaşmasında maliyyə institutlarının inkişafı mühüm əhəmiyyət daşıyır. İqtisadi artım üçün mühüm model olan Kobb-Duqlas funksiyasında kapital və əməklə bərabər TFP (istehsalın texnoloji amili) də diqqəti cəlb edir. Təhsil və səhiyyənin inkişafı, həmçinin maliyyə institutlarının inkişafı da bu amilin tərkib hissəsinə daxildir. Maliyyə institutlarının iqtisadi artıma təsirlərinə həsr edilən tədqiqatlara iqtisadi ədəbiyyatda geniş rast gəlinir.

**Maliyyə İnstitutlarına Giriş göstəricisi ilə iqtisadi artım arasında əlaqə**

Digər iqtisadi fəaliyyət sahələrində olduğu kimi maliyyə və bank sektorunda hər hansı dəyişikliklərin əsasında mövcud problemlər və bu problemlərin həllinin axtarılması məntiqi dayanır. Hər hansı ölkədə ənənəvi bankçılıqdan islam bankçılığına da mümkün keçidir əsasında ənənəvi bankçılığın qarşılaşdığı və ya qarşılaşa biləcəyi problemin həllinin asanlaşdırılması dayana bilər. Belə keçidə stimul verən digər amil dini baxışlarına görə ənənəvi bankçılıqla əməkdaşlıq etmək istəməyən lakin maliyyə imkanları olan insanlara məxsus kapitalın cəlb edilməsi və ya belə şəxslər arasında işgüzar sahibkarların kreditləşdirilməsi istəyi ola bilər. Hər iki motivasiya maliyyə institutları ilə potensial müştərilər arasında inam və etibarın olmasına əsaslanır. Ona görə də Azərbaycanda ənənəvi bankçılıqla yanaşı islam bankçılığının tətbiqi imkanlarının əsaslandırılması və qiymətləndiriməsi üçün biz mövcud bankçılıq fəaliyyətinin iqtisadi artıma təsirlərini müqayisəli öyrənməyə çalışacağıq.

Maliyyə İnstitutlarının inkişafının iqtisadi və sosial-iqtisadi təsirlərinin qiymətləndirilməsi üçün “maliyyə institutlarına giriş”, “maliyyə institutlarının dərinliyi”, “maliyyə institutlarının səmərəliliyi” və “maliyyə institutlarının sabitliyi” göstəricilərinin dəyişmə dinamikasından istifadə edəcəyik. Müxtəlif metodologiyalarda bu göstəricilərin müxtəlif alt-göstəricilərindən istifadə edilir. Biz əvvəlki paraqraflarda bütün alt-göstəriciləri əhatə edən FİAİ, FİDİ, FİEİ və FİSİ kompozit indekslərindən, daha sonra isə bu indeksləri əhatə edən FİI-dən istifadə etməyi təklif etdirk. Bu zaman bütün alt-göstəricilərə

eyni çəki verərək alt-göstəricilərin ala biləcəyi mümkün minimum və mümkün maksimum qiymətlərdən istifadə edilmiş və indeksləşmə aparılmışdır. Lakin iqtisadi ədəbiyyatda bəzi alt-göstəricilərin digərlərinə nisbətən üstünlüyünü nəzərə alaraq, bu alt-göstəriciləri əhatə edən indekslər hazırlanmış və onların əsasında maliyyə institutlarının makroiqtisadi təsirləri öyrənilmişdir.

Maliyyə İnstitutlarına giriş göstəricisinin iqtisadi və sosial-iqtisadi təsirlərini, o cümlədən, iqtisadi artıma, qeyri-bərabərliyə və iqtisadi sabitliyə təsirlərini öyrənmək üçün bəzi tədqiqatçılar, məsələn, Katsiaryna Svirydzenka [1] yalnız iki göstəricidən, yəni “hər 100000 yaşlı adama (15+) düşən bank filiallarının sayı” və “hər 100000 yaşlı (15+) adama düşən ATM-lərin sayı” alt göstəricilərindən, Noelia Cámara [2] isə həm də “banklarda hesabı olanların sayının 15 yaşdan yuxarı vətəndaşların sayında payı”, depozit kartı olanların sayının 15 yaşdan yuxarı vətəndaşların sayında payı” və sair göstəricilərdən istifadə ediblər.

Biz də üç ölkənin -Azərbaycan, Türkiyə və İranın bir-birindən prinsipcə fərqlənən maliyyə sistemlərinin 1) maliyyə institutlarına giriş; 2) maliyyə institutlarının dərinliyi; 3)maliyyə institurlarının səmərəliliyi, 4) maliyyə institutlarının sabitliyi; 5) maliyyə bazarına giriş; 6) maliyyə bazarının dərinliyi; 7) maliyyə bazarının səmərəliliyi və 8) maliyyə bazarının sabitli göstəriciləri əsasında müqayisəli qiymətləndirərək, bu göstəricilərin iqtisadi artımala əlaqəsini öyrənməyə çalışacağıq.

Qeyd edək ki, maliyyə institutlarına giriş göstəricisinin alt göstəricilərindən ikisi üzrə, yəni hər 100000 yaşlı nəfərə düşən ATM-lərin sayının və 2) hər 1000000 yaşlı nəfərə düşən bank filiallarının sayı üzrə bu ölkələrdə son 15 ildə inkişaf dinamikası xeyli fərqli olub ( şək.1 və şək.2). Birinci göstərici üzrə islam bankşılığı qismən tətbiq edən Türkiyə, ikinci göstərici üzrə tamamilə islam bankçılığı üzrə fəaliyyət göstərən İran  orta dünya göstəricisini və Azərbaycanın göstəricisini üstələyib. Türkiyənin ikinci göstərici üzrə nəticələri hətta orta dünya göstəricisindən aşağıdır. Lakin hər üç ölkədə bu göstəricilər üzrə inkişaf trendi müşahidə edilməkdədir. Qeyd edək ki, orta dünya üçün 1-ci göstərici üzrə artım müşahidə edilsə də 2-ci göstərici üzrə müşahidə edilmir.




**Şək. 1. Hər 100000 (15+) nəfərə düşən ATM-lərin sayı**




**Şək.2 Hər 100000 (15+) nəfərə düşən bank filiallarının sayı**

Azərbaycanın, İranın və Türkiyənin FİAİ-nin ÜDM həcminin artım tempinə və a.b. ÜDM həcminə təsirinin qiymətləndirilməsi deməyə əsas verir ki, bu göstəricilər arasında ciddi korrelyasiya əlaqələri mövcud deyil. Burada ÜDM həcminin artım tempi 2006-cı il baza ili kimi qiymətləndirilərək hesablanıb. FİAİ kompozit indeksi ilə bu iki göstərici arasında korrelyativ əlaqənin olmaması gözləniləndir (şək.1-şək.8). Belə ki, FİAİ kompozit indeksinin tərkib hissələrinin inkişafı maliyyə institutları ilə əhalinin, xüsusilə, əmək qabiliyyətli əhalinin əlaqələrinin genişlənməsinə imkanı genişləndirsə də digər determinantlarla, məsələn, xarici investisiyalarla, texnoloji yeniliklərlə, insan

kapitalının inkişafı və sair, müqayisədə iqtisadi artım tempinə ciddi təsir göstərə bilməz. Lakin əhalinin maliyyə institutları ilə əlaqəsinin asanlaşmasına və genişlənməsinə şbhəsiz ki, təsir edir. İslam bankçılığının və ya ənənəvi bankçılığın bu məsələdə ciddi fərqləri olmaya bilər. Çünki maliyyə institutlarına giriş heç bir halda dini baxışlarla və ya inancla məhdudlaşa bilməz.




**Şək.3 Azərbaycanda FİAİ ilə (Y oxu) iqtisadi artım tempi arasında əlaqə (2006-ci il üçün r=100)**




**Şək.4. Azərbaycanda FİAİ ilə (Y oxu) a.b. ÜDM həcmi arasındakı əlaqə**




**Şək.5. İranda FİAİ ilə iqtisadi artım tempi arasındakı əlaqə (2004-cü il üçün r=100)**




**Şək. 6 İranda FİAİ ilə (Y oxu) a.b. ÜDM həcmi arasındakı əlaqə**




**Şək.7. Türkiyədə FİAİ ilə iqtisadi artım tempi arasındakı əlaqə (2004-cü il r=100)**




**Şək.8. türkiyədə FİAİ ilə (Y oxu) a.b. ÜDM həcmi arasındakı əlaqə**

***Maliyyə İnstitutlarının dərinliyi ilə iqtisadi artım arasındakı əlaqə***

Maliyyə institutlarının inkişafının, o cümlədən, dərinliyinin, səmərəliliyinin və sabitliyinin iqtisadi artıma təsirlərini öyrənmək üçün tətbiq edilən metodlardan ən geniş yayılanı OLS metodudur. Bu metod əsasında iqtisadi artım tempi ilə maliyyə institutlarının dərinliyini xarakterizə edən alt-göstəricilər arasındakı reqresiya əlaqəsini

$$Y_t = \alpha_0 + \sum_i^n X_{it} + \varepsilon_t \qquad \textbf{(1)}$$

kimi ifadə etmək olar. Biz bu tədqiqatda $Y_t$ kimi həm iqtisadi artım tempini, həm də adambaşına ÜDM həcmini ifadə edəcəyik. Lakin empirik analiz göstərir ki, xətti əlaqə ilə yanaşı FİDİ kompizit indeksi ilə iqtisadi artım tempi və ya a.b.ÜDM həcmi arasındakı əlaqə daha çox polinomial funksiya kimi ifadə oluna bilər.

Azərbaycanda, İranda və Türkiyədə maliyyə institutlarının dərinliyi ilə iqtisadi artım tempi və adambaşına ÜDM həcmi arasındakı əlaqənin öyrənilməsi bu göstəricilər arasında yuxarıda qeyd etdiyimiz bəzi tədqiqatların nəticələrini təsdiq edir. Belə ki, Hər üç ölkə üçün üçün bu əlaqə bəzi istisnalarla pozitivdir (şək.9- 14). Burada maliyyə institutlarının dərinliyi göstəricisi kimi biz Maliyyə İnstitutlarının Dərinliyi İndeksindən istifadə etmişik. Türkiyədə FİDİ ilə iqtisadi artım tempi və a.b.ÜDM həcmi arasındakı əlaqə daha güclüdür. İqtisadi artım tempi göstəricisi kimi 1993-cü ilə nisbətən artım hesablanıb. Əlaqə daha çox polinomial funksiya kimi ifadə oluna bilər. Bu halda iqtisadi artımın maksimumu FİDİ-nin müəyyən həddinə uyğun gəlir. Başqa sözlə desək, iqtisadi artım ilə FİDİ arasındakı əlaqə müəyyən həddə qədər pozitiv, sonra isə neqativ ola bilər. Azərbaycan, İran və Türkiyə üçün bu nəticələr Samargandi və digərləri [3] tərəfindən aparılan tədqiqatların nəticələrinə yaxındır.




**Şək. 9. Azərbaycanda FİDİ ilə iqtisadi artım tempi arasındakı əlaqə (1993=100%)**




**Şək. 10. Azərbaycanda FİDİ ilə a.b.ÜDM həcmi arasındakı əlaqə**




**Şək. 11. İranda FİDİ ilə iqtisadi artım arasındakı əlaqə**




**Şək. 12. İranda FİDİ ilə a.b.ÜDM həcmi arasındakı əlaqə**




**Şək. 13. Türkiyədə FİDİ ilə iqtisadi artım tempi arasındakı əlaqə (1993=100)**




**Şək. 14. Türkiyədə FİDİ ilə a.b.ÜDM həcmi arasındakı əlaqə**

**Fİ Effektivliyi**

Maliyyə İnstititlarının səmərəliliyi kompizit indeksi (FİEİ) ilə ÜDM artımı tempi və a.b. ÜDM həcmi arasındakı əlaqənin hesablanması zamanı da bu göstəricilər arasındakı əlaqə daha çox polinomial xarakterlidir. FİEİ-nin hesablanmasında 10 alt-göstəricidən 2-si, yəni a) bankın xərclərinin gəlirlərə nisbəti və b) bankın əməliyyat xərclərinin ümumi aktivlərə nisbəti kompozit indesə mənfi işarə ilə daxil olaraq, cəmi göstəricilərdən çıxılır. Qalan göstəricilərin indeksləşmiş qiyməti kompozit indeksə müsbət işarə ilə daxil olur. Bu göstəricilər əsasında hesablanan FİEİ kompozit indeks ilə iqtisadi artım tempi və a.b.ÜDM həcmi arasındakı əlaqə güclü deyil (şək.15-20).




Şək. 15. Azərbaycanda FİEİ ilə iqtisadi artım tempi arasındakı əlaqə (1993=100%)




Şək. 16. Azərbaycanda FİEİ ilə a.b.ÜDM həcmi arasındakı əlaqə




**Şək. 17. İranda FİEİ ilə iqtisadi artım (1993=100) arasındakı əlaqə**




**Şək. 18. İranda FİEİ ilə a.b.ÜDM həcmi arasındakı əlaqə**




**Şək. 19. Türkiyədə FİEİ ilə iqtisadi artım tempi arasındakı əlaqə (1993=100)**




**Şək. 20. Türkiyədə FİEİ ilə a.b.ÜDM həcmi arasındakı əlaqə**

Son 16 ili əhatə edən məlumatlar əsasında İqtisadi artım tempinin Maliyyə institutlarının səmərəliliyi üzrə alt-göstəricilərdən (2.1) asılılığının reqresiya analizi göstərir ki, Azərbaycanda iqtisadi artım tempi əsasən 3 alt-göstəricidən -1) bankın təmiz faiz marjası; 2)bankın qeyri-faiz gəlirlərinin cəmi gəlirlərə nisbəti, 3) dövlət sahibkarlığı subyektlərinə verilən kreditlərin ÜDM həcminə nisbəti göstəricilərindən daha çox asılıdır. Digər 7 göstəricidən asılılıq ciddi deyil. Bu nəticələri nəzərə alaraq ÜDM həcminin artım tempi ilə bu göstəricilər arasındakı reqresiya əlaqəsini

$$Y= 5716.38 - 400.947*X_1 - 37.1788 * X_2 - 123.586 * X_3 \qquad \textbf{(2)}$$

kimi ifadə etmək olar. Burada $X_1$ - bankın təmiz faiz marjası; $X_2$ - bankın qeyri-faiz gəlirlərinin cəmi gəlirlərə nisbəti, $X_3$ - dövlət sahibkarlığı subyektlərinə verilən kreditlərin ÜDM həcminə nisbətidir. (2) tənliyindən göründüyü kimi, iqtisadi artəm tempi ilə Azərbaycanın maliyyə institutlarının təmiz faiz marjası, qeyri-faiz gəlirlərinin cəmi gəlirlərə nisbətə, həmçinin dövlət sahibkarlığı subyektlərinə verilən kreditlərin ÜDM həcminə nisbəti arasında neqativ əlaqə mövcuddur.

İslam Bankçılığını tətbiq edən İranda ÜDM həcminin artım tempinin Maliyyə İnstitutlarının səmərəliliyi alt göstəricilərindən asılılığını

$$Y= 199.5671 - 66.54251*X_3 \qquad \textbf{(3)}$$

kimi ifadə edə bilərik. İran iqtisadiyyatı üçün iqtisadi artım tempinin maliyyə sisteminin dərinliyini xarakterizə edən və yuxarıda qeyd etdiyimiz göstəricilərdən yalnız birindən- dövlət sahibkarlığı subyektlərinə verilən kreditlərin ÜDM həcminə nisbəti ($X_3$) göstəricisindən asılılıq güclüdür və bu asılılıq Azərbaycandakı mövcud vəziyyətdən fərqli olaraq pozitivdir.

Son 21 il üçün Türkiyədə ÜDM həcminin artım tempinin Maliyyə İnstitutlarının səmərəliliyi alt göstəricilərindən asılılığını

$$Y= 1268.923-8.70555 *X_0 - 25.3411 * X_1 - 8.20954 * X_2 - 9.62749 * X_4 \qquad \textbf{(4)}$$

kimi ifadə etmək olar. Burada$X_0 -$ bankın xərclərinin gəlirlərə nisbəti; $X_1$ - bankın təmiz faiz marjası; $X_2$ - bankın qeyri-faiz gəlirlərinin cəmi gəlirlərə nisbəti, $X_4$-bank kapitalının rentabelliyidir. (2.4) tənliyindən göründüyü kimi, Türkiyədə iqtisadi artım tempi maliyyə institutlarının dərinliyini xarakterizə edən 10 göstəricidən yalnız dördündən ciddi şəkildə və neqativ şəkildə asılıdır. Digər altı göstəricidən asılılıq zəifdir.

Maliyyə İnstitutlarının sabitliyi 7 alt-göstərici vasitəsilə FİSİ hesablanan zaman biz bir göstəricini- Bank kreditlərinin bank depozitinə nisbəti göstəricisini kompozit indeksə mənfi işarə ilə daxil edəcəyik. Çünki bu göstəricinin yüksək olması sabitliyə mənfi təsir göstərir. Digər göstəriciləri müsbət işar' ilə FİSİ daxil edərək hesablasaq və bu göstəricinin ÜDM artımı tempinə, həmçinin adambaşına ÜDM həcminə təsirlərini Azərbaycan, İran və Türkiyə üçün müqayisəli analiz etsək məlum olar ki, bu göstəricilər arasındakı əlaqə hər üç ölkə üçün zəifdir (şək.21-26).




**Şək. 21. Azərbaycanda FİSİ ilə iqtisadi artım tempi (Y-oxu) arasındakı əlaqə (illik)**




**Şək. 22. Azərbaycanda FİSİ ilə illik deflyator (Y-oxu) arasındakı əlaqə**




**Şək. 23. İranda FİSİ ilə iqtisadi artım tempi (Y-oxu) arasındakı əlaqə (illik)**




**Şək. 24. İranda FİSİ ilə illik deflyator (Y-oxu) arasındakı əlaqə**




**Şək. 25. Türkiyədə FİSİ ilə iqtisadi artım tempi (Y-oxu) arasındakı əlaqə (illik)**




**Şək. 26. Türkiyədə FİSİ ilə illik deflyator (Y-oxu) arasındakı əlaqə**

İqtisadi artım tempinin maliyyə institutlarının sabitliyi göstəricisindən və bu göstəricinin alt-göstəricilərindən asılılığını Azərbaycan maliyyə institutlarının timsalında 21 illik məlumatlar əsasında analiz etsək müəyyən etmək olar ki, bu göstəricilərdən yalnız ikisi- “bank kreditlərinin bank depozitlərinə nisbəti” və “likvid aktivlərin depozitlərə və qısamüddətli maliyyələşmələrə nisbəti” göstəricisi iqtisadi artım tempi ilə güclü korrelyativ əlaqədədir. Bu əlaqələri nəzərə alaraq, iqtisadi artım tempinin maliyyə institutlarının sabitliyindən asılılıq tənliyini

$$Y= -14.932 + 11.164*X_1 - 10.586 * X_2 \quad \textbf{(5)}$$

kimi ifadə etmək olar. Burada $X_1 -$ bank kreditlərinin bank depozitlərinə nisbəti; $X_2$-“likvid aktivlərin depozitlərə və qısamüddətli maliyyələşmələrə nisbəti” göstəricisidir.

İqtisadi artım tempinin maliyyə institutlarının sabitliyi göstəricisindən və bu göstəricinin alt-göstəricilərindən asılılığını İran maliyyə institutlarının timsalında 24 illik məlumatlar əsasında analiz

etsək müəyyən etmək olar ki, bu göstəricilərdən yalnız biri- "bank kreditlərinin bank depozitlərinə nisbəti" göstəricisi iqtisadi artım tempi ilə güclü korrelyativ əlaqədədir. Bu əlaqələri nəzərə alaraq, iqtisadi artım tempinin maliyyə institutlarının sabitliyindən asılılıq tənliyini

$$Y= - 417.127 - 417.127*X_1 \quad \textbf{(6)}$$

kimi ifadə etmək olar. Burada $X_1$- bank kreditlərinin bank depozitlərinə nisbətidir.

İqtisadi artım tempinin maliyyə institutlarının sabitliyi göstəricisindən və bu göstəricinin alt-göstəricilərindən asılılığını Türkiyə maliyyə institutlarının timsalında 18 illik məlumatlar əsasında analiz etsək müəyyən etmək olar ki, mümkün yeddi göstəricidən beşi- a) "bank kapitalının total aktivlərə nisbəti"; b) "bank kreditlərinin bank depozitlərinə nisbəti"; c) bankın işlək olmayan kreditlərinin cəmi kreditlərə nisbəti"; d) bankın Z-ölçüsü; e) "likvid aktivlərin depozit və qısamüddətli maliyyələşməyə nisbəti" göstəriciləri iqtisadi artım tempi ilə güclü korrelyativ əlaqədədir. Bu əlaqələri nəzərə alaraq, iqtisadi artım tempinin maliyyə institutlarının sabitliyindən asılılıq tənliyini

$$Y= 421.5389 + 16.63862*X_0 + 1.694942 * X_1 - 8.48512 * X_2 - 20.0498 * X_3 - 3.42435 * X_4 \quad \textbf{(7)}$$

kimi ifadə etmək olar. Burada $X_0$ –"bank kapitalının total aktivlərə nisbəti"; $X_1$- bank kreditlərinin bank depozitlərinə nisbəti; $X_2$- bankın işlək olmayan kreditlərinin cəmi kreditlərə nisbəti"; $X_3$ – bankın Z-ölçüsü; $X_4$-"likvid aktivlərin depozit və qısamüddətli maliyyələşməyə nisbəti" göstəricilərini ifadə edir.

**NƏTİCƏ**

Belə ki, Azərbaycanda və Türkiyədə bank kreditlərinin bank depozitlərinə nisbəti ilə iqtisadi artım tempi pozitiv İranda isə neqativ əlaqədədir.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Katsiaryna Svirydzenka. Introducing a New Broad-based Index of Financial Development/ IMF Working Paper Strategy, Policy, and Review Department. 2016

**2.** Noelia Cámara. Measuring financial inclusion: a multidimensional index/ Bank of Morocco – CEMLA – IFC Satellite Seminar at the ISI World Statistics Congress on *"Financial Inclusion"* Marrakech, Morocco, 14 July 2017

**3.** Samargandi, N., Fidrmuc, J., & Ghosh, S. (2015). Is the relationship between financial development and economic growth monotonic? Evidence from a sample of middle-income countries. World Development, 68, 66-81

**Э.Н.Рагимов**
*докторант, Институт Экономики НАНА*

**Экономическая эффективность деятельности традиционного и исламского банковского сектора**
**(сравнительный анализ Азербайджанского, Иранского и Турецкого банковских секторов)**

**Резюме**

*Правила банковского управления в мусульманских странах основаны на законах шариата, то есть на совокупности правил и законов, касающихся управления экономикой, социальных, политических и культурных аспектов исламского общества. Закон шариата также запрещает заключение безнравственных сделок и поддерживает социальную справедливость, которая*

*обеспечивается за счет распределения рисков и прибыли, а также осуществления социальных инвестиций. В условиях экономической глобализации это явление уже достаточно выделяется и считается достойным конкурентом традиционной банковской системы. Особенности деятельности исламских банковских учреждений становятся их преимуществами по сравнению с традиционными банковскими учреждениями. Именно поэтому исламские банки стали активными участниками мирового финансового рынка, несмотря на специфику их деятельности и трудности адаптации к международной практике. В статье мы рассматриваем опыт развития ИБ в Азербайджане, Турции и Ирана.*

***Ключевые слова:*** *Исламские банки, развитие, ликвидность, субиндексы*

**E.N.Rahimov**
*PhD Student, Institute of Economics of ANAS*

***Economic efficiency of traditional and Islamic banking sector (comparative analysis of Azerbaijan, Iranian and Turkish banking sectors)***

**Abstract**

*The rules of banking management in Muslim countries are based on the laws of Sharia, that is, the concurrence of rules and laws that govern the economic, social, political and cultural aspects of Islamic society. Sharia law also prohibits the conclusion of immoral acts and supports social justice, which ensures the distribution of risks and profits, as well as the implementation of social investments. In the context of economic globalization, this phenomenon is already sufficiently distinguished and is considered a worthy competitor of the traditional banking system. The peculiarities of the activity of Islamic banking institutions are their advantages in comparison with traditional banking institutions. That is why Islamic banks have become active participants in the global financial market, regardless of the specifics of their activities and the difficulty of adapting to international practice. In this article we consider the experience of IB development in Azerbaijan, Turkey and Iran.*

***Keywords:*** *Islamic banks, development, liquidity, subindex*

## MÜNDƏRİCAT

**Baş redaktor, prof. M.A.Məmmədov**
**AZƏRBAYCAN BEYNƏLXALQ HESABATLARDA: NALİYYƏTLƏR VƏ UĞURLAR** **7**

**İqtisadiyyatın inkişafının makroiqtisadi və sosial aspektləri**

**M.A.Məmmədov, X.İ.Qəniyev**
Milli iqtisadiyyatın şahələndirilməsi şəraitində infrastruktur təminatının inkişaf istiqamətləri **9**
**E.Ə.Əliyev, V.H.Bəkirova**
Respublikanın rəqabətqabiliyyətli bazarlarında qiymət strategiyasının formalaşdırılması Metodikası **19**
**Y.S.Əlixanlı**
Azərbaycanda xarici ticarət və onun iqtisadi təsirləri **28**
**E.R.Mustafayev**
Azərbaycanda külək enerjisindən istifadənin müasir vəziyyəti **37**
**N.M.İslamova**
İnkişaf etməkdə olan ölkələrdə biznes mühitinin əlverişliliyinin iqtisadi artima təsirlərinin qiymətləndirilməsi (panel analiz) **46**
**F.M.Həsənzadə**
Azərbaycanda aqrar sahənin dövlət tənzimləməsinin səmərəliliyinin qiymətləndirilməsi **57**

**İnvestisiya, innovasiya və sahibkarlıq fəaliyyəti**

**Ş.N.Məmmədov**
Kənd təsərrüfatının inkişafında Saemaul Undong axını **69**
**A.R.Tağıyev**
Aqrobiznes fəaliyyəti ilə məşğul olan müəssisələrdə maliyyə axınlarının idarə edilməsi metodları **73**
**S.E.Novruzov**
Azərbaycanda rəqəmsal bank texnologiyaları **79**
**S.H.Cəfərzadə, E.M.Yusifov**
Turizm şirkətlərində “müştəriyönümlü” sistemlərin işlənib hazırlanmasında sərrast marketinqin rolu **83**
**İ.Hüseynli**
Aqrar-sənaye kompleksi müəssisələrinin investisiya - innovasiya fəaliyyətinin bəzi məsələləri **92**

**Tikinti müəssisələrinin iqtisadiyyatı və menecment**
**E.İ.Əjdərli**
Tikinti sektorunda investisiya qoyuluşlarının məşğulluğun tənzimlənməsinin rolunun tədqiqi **100**

**T.T.Aslanova, N.R.Fətahova**
Müasir şəraitdə maliyyə-investisiya potensıalının reallaşmasına ölkənin iqtisadi təhlükəsizliyinə təsiri **105**
**M.N.Qurbanova**
Azərbaycanda rəqəmsal sığorta bazarının formalaşması və inkişafı **111**
**Z.İ.Hacıyev**
Dövlət xərclərinin özəl investisiyalara təsiri və qiymətləndirilməsi metodları **117**
**S.O.Hacıyev**
Şaquli inteqrasiya olunmuş şirkətin əsas fərqləndirici cəhətləri: Azərsun holdinqin timsalında **125**

**Elmin inkişaf məsələləri**

**S.Ə.Həsənova**
Covid-19 pandemiyasının məşğulluq sisteminə təsiri və dövlətin qarşılayıcı sosial dəstək tədbirləri **136**
**V.R.Əliyev**
Tarix tədrisində əyanilik problemi **142**
**L.A.Hacıyeva**
Azərbaycanın turizm sektoru pandemiya dövründə: mövcud problemlər və gələcək perspektivlər **146**

**Beynəlxalq təcrübə və əməkdaşlıq**

**N.S.Məmmədova**
Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafında Türkiyənin yeri və rolu **155**
**R.E.Novruzov**
Almaniyada korporasiyaların idarə edilməsində bankların iştirakı **164**
**E.N.Rəhimov**
Ənənəvi və islam bankçılığının iqtisadi səmərəliliyi (Azərbaycan, İran və Türkiyə bank sektorlarının müqayisəli təhlili) **167**

## CONTENTS

**Chief editor, prof. M.A.Mammadov**
**AZERBAIJAN IN INTERNATIONAL REPORTS: ACHIEVEMENTS AND GOOD LUCK** **7**

**Macroeconomic and social aspects of economic development**

**M.A.Mammadov, Kh.I.Ganiyev**
Directions of development of infrastructural support of the national economy in the context of its diversification **9**
**E.A.Aliyev, V.H.Bakirova**
Methodology for the formation of a pricing strategy in the competitive markets of the republic **19**
**Y.S.Alihanli**
Foreign trade and its economic investigation in Azerbaijan **28**
**E.R.Mustafayev**
The current state of the use of wind energy in Azerbaijan **37**
**N.M.Islamova**
Evaluatıon of ınfluence busıness on economıc growth ın developıng countrıes (panel analysıs) **46**
**F.M.Hasanzade**
Evaluation of the effectiveness of state regulation of the agricultural sector in Azerbaijan **57**

**Investments, innovation activities and management**

**Sh.N.Mamedov**
Saemaul Undong movement in agricultural development **69**
**A.R.Tagiyev**
Methods of financial flow management in enterprises doing agribusiness **73**
**S.E.Novruzov**
Digital banking technologies in Azerbaijan **79**
**S.H.Cafarzada, E.M.Yusifov**
The role of current marketing in the development of "customer-oriented" systems in tourism companies **83**
**I.Huseynli**
Some issues of investment and innovation activities of enterprises of the agro-industrial complex **92**

**Construction economics, entrepreneurship and management**
**E.İ.Ajdarli**
Investigation of the role of employment regulation in investment in the construction sector **100**

**T.T.Aslanova, N.R. Fatahova**
Impact of the country's economıc securıty on the realızatıon of fınancıal and ınvestment potentıal ın modern condıtıons **105**
**M.N.Gurbanova**
Formation and development of digital insurance market in Azerbaijan **111**
**Z.I.Hajiyev**
Impact of government spendıng on prıvate ınvestment and valuatıon methods **117**
**S.O.Hajiyev**
Main differences of vertically integrated company: in the example of Azersun Holding **125**

**Problems of development of science**

**S.A.Hasanova**
İmpact of the covid-19 pandemic on the employment system and social support measures of the state **136**
**V.R.Aliyev**
The problem of visibility in history teaching **142**
**L.A.Hajiyeva**
The tourism sector of Azerbaijan in the pandemic conditions: existing problems and future prospects **146**

**International experience and cooperation**

**N.S.Mammadova**
The place and role of Turkey ın the development of foreıgn economıc relatıons of Azerbaıjan **155**
**R.E.Novruzov**
Participation of banks in the management of corporations in Germany **164**
**E.N.Rahimov**
Economic efficiency of traditional and Islamic banking sector (comparative analysis of Azerbaijan, Iranian and Turkish banking sectors) **167**

**"Tikintinin iqtisadiyyatı və menecment" jurnalında məqalələrin nəşr edilməsinə qoyulan tələblər:**

Azərbaycan Memarlıq və İnşaat Unversitetinin "Xidmət sahələrinin iqtisadiyyatı və menecment" ( hal-hazırda "Biznesin iqtisadiyyatı və menecment") kafedrasının nəzdində nəşr olunan "Tikintinin iqtisadiyyatı və menecment" jurnalı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin 02 dekabr 2015-ci il tarixində (4024 №-li) mətbu nəşrlərin reyestrinə, 17.10.2016 tarixində Beynəlxalq standart eyniləşdirmə nömrəsi (İSSN 2519-2507) və 04.07.2018-ci il tarixli (protokol №11-R) qərarı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"nın iqtisad elmləri bölməsinə daxil edilmişdir

1. Jurnal öz profilinə uyğun məqalələri dərc edir
2. Jurnal ildə 4 dəfə nəşr edilir
3. Məqalələr azərbaycan, rus, ingilis dillərində qəbul olunur
4. Jurnalda baxılan elm və ya texnologiya sahəsində qabaqcıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına yer verilir
5. Məqalələrin mətnləri Times New Roman-12 şrifti ilə (məsələn, Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası, ingilis dilində ingilis əlifbası ilə) 1 intervalla çap olunmalıdır
6. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin (müəssisələrin) ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı göstərilməlidir
7. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir
8. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla (məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalı) ya da əlifba ardıcıllığı ilə nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir
9. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir
10. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir

    Dərc olunduğu dildən əlavə başqa iki dildə məqalənin xülasəsi verilməlidir. Məqalələnin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qramatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin və ya müəlliflərin tam adı göstərilməlidir
11. Hər bir məqalədə UOT indekslər və ya PAJS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir
12. Məqalənin redaksiyaya daxil olma, təkrar işlənməyə göndərilmə və çapa qəbul olunma tarixləri sonda göstərilməlidir

**13.** Alınan məqalələr iki rəyi olmalıdır (daxili, xarici). Nəşr edilməsininəsas meyarları-mövzunun aktuallığı, informativliyi və elmi yeniliyidir

**14.** Plagiatlıq faktı aşkar edilən məqalələr dərc edilmir və geri qaytarılır

**15.** Jurnala göndəriləcək məqalələr başqa yerdə yayımlanmamış və ya yayım üçün təqdim edilməmiş olmalıdır

**16.** Jurnalda dərc edilən məqalələrdə müəlliflik hüququ qorunur və bu məqalələrin bütün nəşr hüquqları eksklyuziv olaraq "Tikintinin iqtisadiyyatı və menecment"a aiddir

**17.** Məqalələr anonim rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim olunacaq. Məqalənin sonunda onu çapa təqdim edən sahə redaktorunun və ya redaksiya heyəti üzvünün adı (tam şəkildə), onun elmi titulu, elmi dərəcəsi və elmi adı qeyd olunmalıdır. Təqdim olunan məqalənin dərc olunmasından imtina edildiyi halda jurnalın redaksiyası yazılı şəkildə müəllifə əsaslandırılmış imtina cavabı göndərir

**18.** Məqalənin göndəriləcəyi ünvan: alakbarova.lala@azmiu.edu.az

**19.** Jurnalın Veb-səhifəsi: http://azmiu.edu.az/pages/194

**MÜƏLLİF ANKETİ**

| | |
|---|---|
| **Soyadı, adı və atasının adı** | |
| **İş yeri** | |
| **Vəzifəsi** | |
| **Elmi dərəcəsi** | |
| **Elmi adı** | |
| **Məqalənin adı** | |
| **Ünvanı** | |
| **E-mail adresi** | |
| **Əlaqə telefonu** | |

**Требования к публикации статей в журнале «Экономика строительства и менеджмент»**

Научно-практический журнал «Экономика строительстваи менеджмент» учреждённый в 2015-ом году кафедрой «Экономика сфер обслуживания и менеджмент» (в настоящее время «Экономика безнеса и менеджмент») решением Министерства Юстиции Азербайджанской Республики от 02 декабря 2015-го года за № 4024внесён в реестр печатных изданий, 17.10.2016 года получил Международный идентификационный номер (İSSN 2519-2507) и решением Президиума Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики от 04.07.2018-го года (протокол № 11-R) включён в раздел экономических наук «Перечня периодических научных изданий, рекомендуемых для публикации основных результатов диссертаций в Азербайджанской Республике».

**1.** Материал статьи должен соответствовать профилю журнала и излагаться предельно ясно

**2.** Журнал издаётся четыре раза в год

**3.** Статьи принимаются на азербайджанском, русском и английском языках

**4.** В журнале уделяется место статьям авторов ведущих стран мира в сфере науки и технологий

**5.** Текст должен быть набран в формате Microsoft Office Word, шрифтом TimesNewRomanCyr, кеглем 12pt, с междустрочным интервалом 1. Отступы: сверху и снизу

страницы – 2 см, справа – 1 см, слева – 3 см. Название статьи должно быть написано заглавными буквами, жирным шрифтом;

**6.** В статье должно быть указано место и адрес работы автора(ов), а также адрес электронной почты

**7.** В конце научной статьи, в зависимости от характера статьи и отрасли науки, должны быть чётко указаны научный результат, научная новизна работы, практическая ценность и экономическая эффективность работы

**8.** Должны быть даны ссылки на научные источники. Приведённый в конце статьи список литературы должен быть пронумерован по алфавиту или в той последовательности, в которой ссылки находятся в тексте (например, [1] или [1, стр.119]

**9.** Ссылки, приведённые в списке литературы должны быть точными и полными. Библиографическое описание источников ссылок приводятся в зависимости от их вида (монография, учебное пособие, научная статья и т.д.). При ссылке на материалы или тезисы статей, симпозиумов, конференций и прочих влиятельных мероприятий должно быть указано название статьи, доклада или тезиса

**10.** В списке использованной литературы должны отдаваться предпочтение научным статьям, монографиям и другим надёжным источникам последних 5-10-ти лет

**11.** Резюме и ключевые слова должны быть на трёх языках (азербайджанском, русском, английском). Они должны быть одинаковыми и соответствовать содержанию статьи. Вначале должна быть указана фамилия, имя, отчество автора, учёная степень, должность и название статьи. В резюме должно найти отражение краткое содержание, цель, актуальность и научная новизна статьи

**12.** В каждой статье должен быть UOT индекс или PAJSкод

**13.** В конце статьи указывается дата поступления в редакцию, отсылка на доработку и принятия к печати

**14.** Поступившие в редакцию статьи проходят двойное рецензирование (внутренний и внешний отзыв). Основные критерии опубликования – актуальность тематики, информативность, научная новизна

**15.** Статьи, в которых обнаружен факт плагиата не печатаются и возвращаются автору

**16.** Не принимаются статьи, опубликованные ранее полностью или частично в периодической печати или в электронных СМИ, размещённые в сети Интернет

**17.** Авторские права на статьи полностью защищены. Право публикации эксклюзивно принадлежит журналу «Экономика строительства и менеджмент»

**18.** Поступившие в редакцию статьи регистрируются ответственным секретарем редакции.Ответственный секретарь редакции предварительно определяет соответствие рукописи профилю журнала, выполнение требований по её оформлению.Рукописи статей научного характера проходят редакционную научную экспертизу, определяющую их соответствие заявленной проблематике, степень раскрытия темы, научную новизну. Материалы, не соответствующие этим условиям, по согласованию с заместителем главного редактора возвращаются авторам с указанием причин отказа

**19.** Адрес электронный почты: alakbarova.lala@azmiu.edu.az

**20.** Veb-страница журнала: http://azmiu.edu.az/pages/194

**АНКЕТА АВТОРА**

| | |
|---|---|
| **ФИО** | |
| **Место работы** | |
| **Должность** | |
| **Учёная степень** | |
| **Научное звание** | |
| **Название статьи** | |
| **Адрес** | |
| **E-mail address** | |
| **Контактный телефон** | |

**Requirements for the publication of articles in the journal "Construction Economics and Management":**

The scientific and practical journal "Construction Economics and Management" established in 2015 by the Department of Economics of Service Sectors and Management (currently "Business Economics and Management") by the decision of the Ministry of Justice of the Republic of Azerbaijan dated December 02, 2015 No. 4024 was introduced into the register of printed publications, on October 17, 2016, received an International identification number (İSSN 2519-2507) and by the decision of the Presidium of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan dated July 4, 2018 (protocol No. 11-R), it was included in the section of economic sciences scientific publications recommended for publication of the main results of dissertations in the Republic of Azerbaijan ”.

1. The material of the article must comply with the profile of the journal and set out very clearly.
2. The journal is published four times a year.
3. The articles are accepted in Azerbaijani, Russian and English languages.
4. The journal is based on the findings of the authors in the sphere of science and technology.
5. Text should be typed in Microsoft Office Word format, in Times New Roman Cyr font, in 12pt pt, with line spacing 1. Indents: 2 cm at the top and bottom of the page, 1 cm at the right, 3 cm at the left. The article title should be written in capital letters in bold.
6. The article should indicate the place and address of the author (s), as well as the email address.
7. At the end of a scientific article, depending on the nature of the article and the branch of science, the scientific result, scientific new of the work, practical value and economic efficiency of the work must be clearly indicated.
8. References to scientific sources should be given. The list of references cited at the end of the article should be numbered alphabetically or in the sequence in which the references are in the text (for example, [1] or [1, p.119]
9. References given in the list of references should be accurate and complete. Bibliographic descriptions of sources of references are given depending on their type (monograph, textbook, scientific article, etc.). When referring to materials or abstracts of articles, symposia, conferences and other influential events, the name of the article, report or thesis should be indicated.
10. The list of references should give preference to scientific articles, monographs and other reliable sources of the last 5-10 years.
11. Summary and keywords should be in three languages (Azerbaijani, Russian, English). They must be the same and correspond to the content of the article. First, the author's surname, first name, patronymic, academic degree, position and title of the article should be indicated. The summary should reflect the summary, purpose, relevance and scientific new of the article.

12. Each article should have a UOT index or PAJS code.

13. At the end of the article it is indicated the date of recieveing, sending for revision and acceptance for publication.

14. Received articles pass a double review (internal and external review). The main criteria for publication are the relevance of the topic, informative, scientific new.

15. Articles in which the fact of plagiarism is discovered are not printed and returned to the author.

16. Not accepted articles published previously in full or in part in periodicals or in electronic media, posted on the Internet.

17. Copyrights to articles are fully protected. The right to publish exclusively belongs to the journal "Construction Economics and Management".

18. Received articles are registered with the executive secretary of the editorial board. The executive secretary of the editorial board determines in advance the compliance of the manuscript with the profile of the journal, and the fulfillment of the requirements for its design. Manuscripts of articles of a scientific nature are subject to editorial scientific expertise, which determines their compliance with the stated problems, the degree of disclosure of the topic, and scientific novelty. Materials that do not meet these conditions, in agreement with the deputy editor-in-chief, are returned to the authors with the reasons for refusal.

19. E-mail address: alakbarova.lala@azmiu.edu.az

20. Journal web page: http://azmiu.edu.az/pages/194

**AUTHOR´S PROFILE**

| | |
|---|---|
| **Surname, name and patronymic** | |
| **Workplace** | |
| **Position** | |
| **Scientific degree** | |
| **Scientific name** | |
| **Article title** | |
| **Address** | |
| **E-mail address** | |
| **Contact number** | |

Azərbaycan, Bakı şəh., AZ 1073, Ayna Sultanova küçəsi 11,
Azərbaycan Memarlıq və İnşaat Universiteti, tel.: (+99412)538 92 83
daxili – 678
E-mail:cej@azmiu.edu.az
Jurnalın Veb-səhifəsi: http://azmiu.edu.az/pages/194

Статьи направляются по адресу:
Азербайджан, г. Баку, AZ 1073, ул. Айны Султановой 11,
Азербайджанский Архитектурно-строительный Университет,
Тел.: (+99412)5389283; внутренний – 678
E-mail:cej@azmiu.edu.az
Veb-страница журнала: http://azmiu.edu.az/pages/194

The articles should be sending to the following address:
11, Ayna Sultanova Str. Baku, AZ 1073 Azerbaijan
Azerbaijan Architecture and Construction University
Tel: (+99412)538 92 83; Interior - 678
E-mail:cej@azmiu.edu.az
Journal web page: http://azmiu.edu.az/pages/194



**Tərtib edən:** **Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Biznesin iqtisadiyyatı və menecment" kafedrası. Tel: (+99412) 538 92 83**

**AR Ədliyyə Nazirliyinin Mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi № 4024**

**Beynəlxalq standart eyniləşdirmə nömrəsi - İSSN 2519-2507 - 17.10.2016 tarixində verilib**

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"nın iqtisad elmləri bölməsinə daxil edilib (04.07.2018-ci il, protokol №11-R)**

*Kağız formatı 60x84 1/8,*
*Çap vərəqi:13.6*
*Sifariş № 120. Tiraj 100.*

***AzMİU***
***"Nəşriyyat – Poliqrafiya Mərkəzi"***
*тел.: (012) 539 07 17*
***E-mail: azmiu-npm@mail.ru***